ISSN 2410-4108

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR



ELMİ-PRAKTİKİ JURNAL

№ 1 (07) 2017

ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 1 (07)

BAKI - 2017

BAŞ REDAKTOR:
Hüseyn Qaraşov, *sosiologiya üzrə elmlər doktoru, professor*
BAŞ REDAKTORUN MÜAVİNİ:
Mobil Məcidov, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*
MƏSUL KATİB:
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
REDAKSİYA HEYƏTİ:

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin baş elmi işçisi

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

fəl.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

ped.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

tarix ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan tarixi" kafedrasının müəllimi

biol.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris işləri üzrə prorektoru

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dos. Gülnarə Hacıyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri

i.ü.f.d. Şövqi Quliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: 563-01-32; e-mail: jurnal@aesma.edu.az; aesma.elmi-jurnal@mail.ru.
Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının qərarı ilə çap olunur. (protokol № 11, 30.06.2017)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014

MÜNDƏRİCAT

MÜNDƏRİCAT.....3

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

Zeynəddin Şabanov
Sosial tərəfdaşlığın yaranması tarixi və əhəmiyyəti.....5

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

Arzu Hacıyeva
Nəriman Nərimanovun əsərlərində milli ideya məsələsi.....15

İradə Zərqan
Qafqazda türk-müsəlman dirçəlişi.....21

Rauf Məmmədov
Erkən evlilik probleminin sosioloji tədqiqi.....27

Kurt Faruk
Multikulturalizmin modelləri və yeni bir model olaraq Murray Bukçin anlayışı.....39

Ильхам Алиев
Государственно-религиозные отношения и нравственные ценности.....46

Джамиля Сафарова
Подходы изучения этнического самосознания.....50

Rinard Şərifov
Multikulturalizm: sosiomədəni təhlil və Azərbaycan modeli.....57

Шарафеддин Шарифов
Концепция о моделях инвалидности как основа правового регулирования актуальных проблем в сфере труда и социального обеспечения инвалидов……61

Füzuli Qurbanov, Könül Şəkiyeva
Bədii əsərlərdə konflikt və dramatizmin vəhdəti……72

Elbəzək Əsgərova
Müasir elmi idrakın inkişafında coğrafi biliyin rolu……77

Hafizə İmanova
Ağıllı güc: geosiyasi və fəlsəfi aspektləri haqqında……82

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

Tərbiz Əliyev, Hikmət Səlimov
Lənkəran iqtisadi rayonunda emal sənayesi müəssisələrinin mövcud potensiallarından səmərəli istifadə edilməsi yolları……86

Gülnarə Hacıyeva
Azərbaycan Respublikasında turizm sektorunun tənzimlənməsi sahəsində xarici təcrübə……91

Şövqi Quliyev, Raic Həsənov
Azərbaycanın təbii iqtisadi potensialının təhlili……100

Nailə Eyvazova
Aqrar sahədə innovasiyalı sahibkarlığın formalaşması istiqamətləri……107

Arzu Tağıyeva
Sahibkarlıqda müflisləşmənin müəyyən edilməsi……114

Təranə Vəliyeva
Verilənlər bazası informasiya sisteminin tərkib hissəsi kimi……122

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

UOT – 316.33

Zeynəddin Şabanov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, fəl.ü.f.d, dosent

SOSİAL TƏRƏFDAŞLIĞIN YARANMASI TARİXİ VƏ ƏHƏMİYYƏTİ

Məqalədə sosial əmək münasibətlərinin tənzimlənməsində böyük əhəmiyyət daşıyan sosial tərəfdaşlığın yaranması və onun mahiyyətinə diqqət yetirilir, Avropada və Rusiyada fəaliyyət göstərən sosial tərəfdaşlıq qurumlarının fəaliyyəti ətraflı təhlil edilir. Cəmiyyətin inkişafında, sabitliyin saxlanmasında, sosial sülhün qorunmasında, sosial poliloqun reallaşmasında sosial tərəfdaşlığın səmərəsi vurğulanır. Məqalədə sosial tərəfdaşlığın yaranmasında iqtisadi, sosial-siyasi, hüquqi və ideoloji amillərin və obyektiv səbəblərin rolu izah olunur.

Cəmiyyətin müasir inkişafı sosial problemlərin kəskin şəkildə çoxalması və onların həlli yollarının axtarışında geniş ictimaiyyətin rolunun güclənməsi ilə səciyyələnir. Belə vəziyyət yeni modellərin meydana çıxmasına səbəb olur ki, bunlardan biri də XIX əsrin 90-cı illərindən təşəkkül tapmağa başlayan sosial tərəfdaşlıqdır.

Sosial əmək münasibətlərinin tənzimlənməsi bir neçə mərhələdən keçmişdir. Birinci mərhələ monopartist mərhələ adlanır ki, bu mərhələdə sahibkar külli-ixtiyar sahibi olmaqla əmək münasibətlərinin bütün şərtlərini diktə edirdi, işçinin isə heç bir hüququ yox idi, özbaşınalıq hökm sürürdü. Monoloqa uyğun gələn monopartist mərhələ uzun müddət davam etmişdir. İşçilərin mütəşəkkil olması, həmkarlar ittifaqlarının fəaliyyətə başlaması, işçilərin öz hüquqlarının tələb etməsi və şərtlərini irəli sürməsi ilə sosial əmək münasibətlərində yeni – bipartist mərhələ başladı. Bu mərhələdə işəgötürənlərlə işçilər arasında sosial dialoqa əsaslanan yeni mərhələ hər iki tərəfin maraqlarını nəzərə almağa başladı. Hazırda sosial əmək münasibətlərində üçüncü subyektin – dövlətin də iştirakının zəruriliyi önlənməkdədir. Tripartist adlanan mərhələnin iştirakçıları sosial poliloq şəraitində əmək münasibətlərini tənzimləyirlər. Artıq elmdə yeni mərhələnin imkanları geniş müzakirə olunmaqdadır. Belə ki, polipartizm adlanan bu mərhələdə müasir dövrdə ailələrin, müxtəlif ictimai birliklərin, qeyri-kommersiya təşkilatlarının da əmək münasibətlərindəki rolu inkarolunmazdır.

Elmi ədəbiyyatda və təcrübədə sosial tərəfdaşlıq birmənalı xarakterizə edilmir [7, s.247]. Bəziləri bu hadisəni dövlət hakimiyyəti orqanları, işəgötürən və əmək kollektivi arasında sosial-əmək münasibətlərinin konkret tipi kimi nəzərdən keçirir. Başqaları – daha geniş anlamda: peşəkar sosial qruplar, təbəqələr, siniflər, onların ictimai birlikləri, hakimiyyət orqanları və biznes arasında ictimai münasibətlərin spesifik növü kimi nəzərdən keçirirlər. Üçüncülər isə sosial tərəfdaşlığa müxtəlif sosial qrupların, təbəqələr, siniflər, onların ictimai birlikləri, hakimiyyət orqanları və biznesin maraqlarının uzlaşdırılması və müdafiəsinin dünyagörüşünün əsası kimi baxırlar [10, s.375].

Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, sosial tərəfdaşlıq işçilərin, işəgötürənlərin, sahibkarların, müxtəlif sosial qrupların, təbəqələrin, siniflərin, onların ictimai birliklərinin, hakimiyyət, yerli özünüidarəçilik orqanlarının maraqlarının müqavilələr, anlaşmalar, sosial-iqtisadi inkişafın ən mühüm istiqamətləri üzrə konsensusun əldə olunması əsasında uzlaşdırılmasını və müdafiəsini təmin edən sivil ictimai münasibətlər sistemidir.

Sosial tərəfdaşlıqla bərabər həmçinin korporativ, sosial poliloq da geniş yayılmışdır. Bundan başqa, praktikada kommersiya təşkilatları tərəfindən vətəndaşların qeyri-maddi ehtiyaclarının, onların qanuni maraqlarının təmin olunmasında sosial, xeyriyyə, elmi və idarəçilik məqsədlərinə nail

olunması üzrə reallaşdırdıqları belə deyilən qeyri-kommersiya tərəfdaşlığı da yer alır.

Sosial tərəfdaşlığın mahiyyəti ictimai meydanda üç qüvvə – dövlət strukturları, kommersiya müəssisələri və qeyri-kommersiya müəssisələri (bu qüvvələri birinci, ikinci və üçüncü sektor adlandırırlar) arasında konstruktiv qarşılıqlı fəaliyyətin yaradılmasıdır. Sosial tərəfdaşlıq – problem üzrə insan həmrəyliyi və bölüşdürülmüş məsuliyyətə əsaslanan sosial fəaliyyətdir. Ən ümumi şəkildə belə demək olar ki, sosial tərəfdaşlıq o zaman əmələ gəlir ki, üç sektorun nümayəndələri birgə işləməyə başlayırlar, çünki bunun hər bir qrup və bütövlükdə cəmiyyət üçün sərfəli olduğunu dərk edirlər.

Sosial tərəfdaşlıq ictimai həyatın yeni hadisəsi kimi XX yüzilin 50-ci illərindən fəal inkişaf edir və dövlətin tənzimləyici rolu ilə bərqərar olur. Dövlət insanın öz şəxsi rifahını yüksəltməyə can atdığı bir şəraitdə sosial ədalət haqqında fikirlərini formalaşdırır. Xüsusən, ötən əsrin 50-60-cı illərində qarşılıqlı faydalı əməkdaşlığın yeni aləti kimi dövlətin, kapitalın və əməyin sosial tərəfdaşlıq orqanları formalaşmağa başlayır. Bu orqanların vəziyyəti qanunvericiliklə sosial tərəfdaşlıq probleminə cəmiyyətin inkişafının qanunverici və normativ-hüquqi bazası qəbul olunduğu bir dövrdə cəmiyyətin kapitallaşdırılmasına keçid şəraitində müraciət olundu.

Liberal ideyaların öz rəqiblərinə qalib gəldiyi müasir dünyada əmək qüvvəsinin dövlət məcburiyyətinin bu anlayışın ardınca gedən neqativ assosiativ şleyflə əlaqədar potensial məcburetmə institutları resurs çatışmazlığı və sonuncusunun strateji perspektivsizliyi etibarilə faktiki olaraq köhnəlmişdilər. Lakin dövlətin bir makrososial institut kimi cəmiyyətin digər institutları ilə simbiozu təkcə dərk olunmağı deyil, eləcə də vətəndaşlara dövlətlə münasibətin müsbət obrazını xəbər verən anlayış aparatını tələb edir. Məhz "Sosial tərəfdaşlıq" termini bu məqsədə xidmət edən terminlərdən biridir [1, s.29].

Sosial tərəfdaşlığın əsas məqsədi - sosial anlaşmanın əldə olunmasıdır. Dövləti, sahibkarları və xalqı əsas məqsədlərin ətrafında birləşdirən sosial tərəfdaşlığın mexanizmi məhz belədir: cəmiyyətə münasibətdə dövlət sosial qarantiyalar üzrə şüurlu öhdəçilik götürür ki, bunun da əvəzində hakimiyyətin legitimliyini və ictimai dəstək əldə edir; - sahibkarlara münasibətdə dövlət mülkiyyət hüququ qarantiyalarını, əlverişli sahibkarlıq mühitini, biznesin xarici aləmdə dəstəklənməsini təmin edir və qarşılığında milli kapitalın dəstəyinə, dövlət tərəfindən müəyyənləşdirilmiş qaydalara ciddi riayət olunmasına nail olur; - cəmiyyət və kapital arasında balans bu prinsip üzrə qurulur: sahibkarların sosial məsuliyyətli davranışının qarşılığında onun maraqlarına, məqsəd və hərəkətlərinə ictimai dəstək verilir.

Sosial tərəfdaşlığın uğuru bir çox şərtlərlə ölçülür:

1. Dövlət mütləq vətəndaş cəmiyyətinin yaradılması üçün hüquqi və iqtisadi stimullar yaratmalıdır.

2. Könüllü ictimai birliklər, həmkarlar ittifaqları, xeyriyyə və digər təşkilatlar olmalıdır.

Könüllü münasibətlərdə iştirak təkcə özəl maraqlar, istək məsələsi deyil, o eləcə də şəxsiyyət və dövlət münasibətləri məsələsidir; kapitalın sosial tərəfdaşlıq üçbucağındakı müasir iştirakı, yəni sahibkarların sosial problemlərin həllində məsrəflərin iqtisadi məqsədəuyğunluğu vasitəsilə iştirakıdır. İnsan kapitalına, şəhərlərin infrasturkturuna, nəqliyyat kommunikasiya və rabitəyə kapital yatıran sahibkar elə bir gəlir əldə edir ki, o da müvafiq olaraq müxtəlif sosial təbəqələr və əhali qrupları arasında tarazlığı, dialoqu dəstəkləyərək dövlətin sosial siyasətinə, bu fəaliyyətin inkişafına yönəldilməlidir; həmkarlar ittifaqlarının və ictimai birliklərin vəzifəsi bu kapitaldan fəal istifadə etmək, ən əsası isə onu zəruri problemlərin həllinə yönəltmək və dövləti əməkdaşlığın səviyyəsi barədə məlumatlandırmaqdır.

Sosial tərəfdaşlığın uğuru ən azı əhalinin 50%-ni əhatə etməli olan orta sinfin formalaşdırılması dinamikası ilə bərabər gəlirləri yaşayış minimumundan aşağı olan əhalinin payının azalması ilə müəyyən olunur. Orta sinfin formalaşdırılması sosial parçalanmanın öhdəsindən gəlməyə kömək edəcəkdir.

Tarixən sosial tərəfdaşlığın yaranmasında aparıcı rolu Qərbi Avropaya və ABŞ-a aid edirlər. Onun sonrakı inkişafında həmkarlar ittifaqının xüsusi yeri vardır, bütövlükdə bu anlayışı sosial inqilab anlayışının sinonimi kimi götürərək kapital və əmək arasında ziddiyyətlərin həlli üsulu olduğunu qeyd edirlər. Lakin XX əsrin sonunda bu anlayış əhəmiyyətli dərəcədə dəyişilmiş, genişlənmiş və yeni məna ilə dolğunlaşmışdır. Yəni söhbət bir o qədər də həmkarlar ittifaqlarının, işəgötürənlərin və dövlətin qarşılıqlı fəaliyyətindən yox, daha çox bütövlükdə ictimaiyyətin, sahibkarların və hakimiyyətin əməkdaşlığından gedir.

Rusiyada sosial tərəfdaşlığın meydana çıxması ən əvvəldən həmkarlar ittifaqları ilə deyil, ictimai hərəkatlar və yerli özünüidarəçiliklə bağlı olmuşdur. Onun izlərini XIX əsrin sonları XX əsrin əvvəllərindən ictimai əhəmiyyətli problemlərin mesenatlıq edən kapitalın geniş vüsət alması ilə bərabər müxtəlif cərəyanlara mənsub ziyalı istiqamətlərin yaradıcı ittifaqı ilə ilk həlli təcrübəsinin meydana çıxdığı vaxtdan izləmək olar. Təhkimçiliyin ləğvi, məhkəmə və digər islahatlar nəinki iqtisadiyyatı, eləcə də Rusiyada həyat tərzini kökündən dəyişdirdi və yeni miqyaslı sosial problemlər, ilk növbədə yoxsulluq və şəhərə kütləvi miqrasiya doğurdular. İctimai himayəetmə (ictimai qəyyumluq sisteminə) daxil olan azsaylı dövlət idarələri böyüyən yoxsulluğun öhdəsindən gələ bilmirdilər. Tacir xeyriyyəçiliyinin ənənəvi formaları, xüsusən də sədəqə və ianələr çox vaxt laqeydlik və diqqətsizliyə çevrilərək vəziyyəti düzəltmirdi. Elə o vaxt Rusiyada ilk dəfə olaraq sosial məsələlərin həllinə müraciət edən yeni qüvvələr meydana çıxdı - bunlar seçilən yerli özünüidarəçilik, ictimai hərəkatlar (elmi, mədəni cəmiyyətlər, əmək yardımı hərəkatı), sənayeçi və kapitalistlərin xeyriyyəçiliyi idi.

XIX əsrin axırlarında Azərbaycanda müxtəlif adlar altında fəaliyyət göstərən, lakin mahiyyətcə qeyri-hökumət təşkilatlarının funksiyasını yerinə yetirən, başqa sözlə, dövlətin görə bilmədiyi fəaliyyəti həyata keçirən, özündə həmkarlar ittifaqlarının özünəməxsus xüsusiyyətlərini daşıyan xeyriyyə cəmiyyətləri müstəsna rol oynamışlar. İmperiyanın ucqar yerlərindən birində yaranmış bu qurumlar statusuna görə hüquqi qüvvəyə malik olmuş, fəaliyyətlərində xalqımızın qarşılıqlı yardım ənənələrini davam etdirən ictimai təşkilatlar olmuşlar. Azərbaycanda həmin xeyriyyə cəmiyyətləri el köməkliklərindən fərqli olaraq, öz işlərini hüquqi qeydiyyatdan keçmiş, yəni hüquqi sənədlərlə rəsmiləşdirilmiş və dövlət strukturları tərəfindən təsdiq edilmiş nizamnamələr əsasında qururdular. Lakin onlar konkret şəraitdə tədricən xalqın gündəlik iqtisadi problemlərinin həllilə məşğul olmuş, xarakterce geniş sosial təyinatlı qurumlara çevrilərək hüquqi təşkilatlar kimi fəaliyyət göstərmişlər. Məsələn, əsası 1871-ci ildə Bakıda xalqımızın böyük maarifçisi Həsən bəy Zərdabi və görkəmli mesenat Hacı Zeynalabdın Tağıyev tərəfindən qoyulmuş ilk "Bakı müsəlman xeyriyyə cəmiyyəti" nəinki ölkəmizdə xeyriyyəçilik hərəkatının bünövrəsini qoymuş, habelə mövcud ictimai şəraitdə Azərbaycanda vətəndaşlıq şüurunun müəyyən inkişaf mərhələsini əks etdirmişdir. Tarixi sənədlər təsdiq edir ki, məhz həmin cəmiyyətin ardınca Azərbaycanda bu tipli qeyri-hökumət təşkilatları xalqımızın sosial-iqtisadi qayğılarının müəyyən qisminin ödənilməsində önəmli işlər görmüşlər. İlk "Bakı müsəlman xeyriyyə cəmiyyəti"nin olduqca mürəkkəb tarixi şəraitdən irəli gələn məşəqqətlər hesabına yarandığını və fəaliyyətə başladığını özünün "Əkinçi" qəzetilə Azərbaycandakı ictimai-iqtisadi və siyasi həyata yeni mənəvi ab-hava gətirən böyük maarifçi lider Həsən bəy Zərdabinin nəsillərə miras qoyub getdiyi əsərlərindən görmək mümkündür. Qeyd edək ki, ilk qeyri-hökumət tipli təşkilatların yaradılması cəmiyyətdə milli şüurun oyanışı, maarifçi ziyalıların siyasi və mədəni cəhətcə təşkilatlanmaya çağırışları dövrünə təsadüf edirdi. Həsən bəy Zərdabinin fikrincə, belə bir ictimai dialoq cəmiyyətin müxtəlif əqidəli insanlarının milli dirçəliş naminə təşkilatlanmasına yardımçı ola bilər. Bu yolda ilk xeyriyyə cəmiyyətləri mühüm sosial irəliləyiş nümayiş etdirmişlər. Xeyriyyə cəmiyyətlərinin fəaliyyətini əks etdirən sənədlərdən aydın olur ki, xalq arasında nüfuz qazanmış ilk sanballı qeyri-hökumət təşkilatının idarə heyətinin sədri Hacı Zeynalabdın Tağıyev əvəzsiz rol oynamışdır. 1905-ci ilə aid sənəddə göstərilir ki, həmin qurumun fəxri sədrliyinə Bakı qubernatoru knyaz M.H.Nakaşidzenin arvadı Adeliada Lvovna Lokaşidze seçilmişdir. Hacı Zeynalabdın Tağıye-

vin həyat yoldaşı Sofiya Tağıyeva isə idarə heyətinin fəxri üzvü olmuşdur. Cəmiyyət yoxsul müsəlman ailələrinə paltar, ərzaq verilməsilə, yaşayış yerlərində onlara tibbi xidmət göstərilməsilə, yaxud kasıb müsəlman uşaqlarının orta və ali tədris müəssisələrində təhsil almağına maddi yardım göstərməklə cəmiyyətdə böyük nüfuz qazanmışdı [7, s.14].

Sosial tərəfdaşlığın tarixi təşəkkül və inkişaf təcrübəsi ondan xəbər verir ki, ictimai arenada müxtəlif qüvvələrin qarşılıqlı fəaliyyəti islahatların uğurla həyata keçirilməsi deməkdir. Sosial sektorun yenidən qurulması sosial sferanın inhisarsızlaşdırılmasını, qeyri-dövlət sektorunun fəal cəlb edilməsinin əsasında xidmətlərin göstərilməsi formalarının diversifikasiyasını nəzərdə tutur. Sosial həyatın inhisarsızlaşdırılması sosial məsuliyyətin dövlət, işəgötürənlər və qeyri-kommersiya sektorları arasında bölüşdürülməsini tələb edir. Belə bölgü ancaq vətəndaşların konstruktiv sosial təşəbbüslərinə söykəndikdə mümkündür ki, bu da vətəndaşların sosial tərəfdaşlığın inkişaf etdirilməsinin aktuallığını müəyyən edir.

Sosial tərəfdaşlığın meydana çıxmasının ilkin şəraiti XIX əsrdə, həmkarlar və sahibkarlar ittifaqları yarandığı, dövlətin isə hakim rolunu oynadığı vaxt yarandı. Böhranlar, depressiyalar, sinfi mübarizənin kəskinləşməsi, XX əsrin dünya müharibələri sosial-iqtisadi alternativ haqqında məsələni ortaya qoydu. Sosial tərəfdaşlıq ideologiyası cəmiyyətin stabilliyi və onun iqtisadi tərəqqisinin şərti kimi sosial sülhə olan obyektiv zərurətdən doğmuşdu. İki sosial qrupun qarşılıqlı əməkdaşlığı yolu ilə əmək və kapitalın səmərəli qarşılıqlı fəaliyyəti təmin olunurdu.

Ardıcıl inkişaf mərhələləri keçərək, kapitalist dünya sistemi müxtəlif tipli çağırışlarla qarşılamış və bunun nəticəsi də olaraq tarixi vəziyyət göz önünə alaraq öz mahiyyətini dəyişmək məcburiyyətində qalmışdı. Tədricən, XX əsrin sonuna yaxın kapitalizm əvvəlkindən daha fərqli bir davranış xətti işləyib hazırladı. Əgər təşəkkül mərhələsində kapitalizm məcburetmənin hər cür mümkün formalarından istifadə edirdisə, günümüzdə birbaşa məcburetmədən imtina sosial siyasətdə real olaraq həyata keçirilmiş açıq-aşkar bir zərurətə çevrilmişdir.

Özünün yaranma anında kapitalist dünya sistemi elə bir rəqabət aparan sistemlərin çağırışlarını tarazlaya biləcək işlənib hazırlanmış, cazibədar bir ideologiyaya sahib olmayıb. Bu gün kapitalizmlə assosiasiya edilən liberalizm və demokratiya o dövrdə başqa məna çalarına malik idilər. Lakin iki yüz il mövcudluğu ərzində Qərb cəmiyyətində ideoloji, iqtisadi və sosial sferalarının simbiozu baş verdi ki, buna uyğun olaraq da müasir dövrdə dövlət öz vətəndaşlarını məcburetmənin ifrat formalarından uzaqlaşaraq bu funksiyanı iqtisadiyyat sferasına ötürür. Buna görə də o əhalinin müxtəlif təbəqələrini tənzimləməli və özbaşınalıqdan qorumalıdır. Bu konsepsiyaya görə işəgötürənlər öz işçiləri qarşısında sosial məsuliyyət daşıyırlar və sosial və iqtisadi maraqlar arasında müvazinətin əldə olunmasına kömək edirlər [2, s.142]. Belə yanaşma bazar iqtisadiyyatının sosial yönümlü modelinin ideologiyasına uyğun gəlir. Sosial tərəfdaşlıq sistemi bütün səviyyələrdə sosial-əmək münasibətlərininn kollektiv-müqavilə nizamlanmasına əsaslanır.

Sosial tərəfdaşlığın yaradılması həm də iqtisadi, sosial-siyasi, hüquqi və ideoloji amillərlə və obyektiv səbəblərlə izah olunurdu:

- *İqtisadi səbəblər* XVIII-XIX əsrlərin astanasında minlərlə fəhlənin işlədiyi iri sənaye müəssisələrinin yüksəlişi ilə bağlı idi.

- *Sosial-siyasi səbəblər* muzdlu işçilərin nümayəndələri kimi həmkarlar ittifaqlarının yaranması, burjua inqilabları, demokratik üsuli idarəyə malik olan yeni dövlət tiplərinin yaranması, XIX əsrin sonu XX əsrin əvvəllərindəki sinfi mübarizə, sosialist inqilabı ilə bağlı idi.

- *Siyasi-hüquqi səbəblər* dövlətlərin əmək münasibətlərinə fəal müdaxiləsi, BƏT-in yaradılması və beynəlxalq əmək normalarının inkişafı ilə bağlı idi.

- *İdeoloji səbəblər* xalqın mədəni səviyyəsinin yüksəlməsi, geniş kütlələr tərəfindən birlik və qarşılıqlı asılılığın dərki ilə bağlı idi. Sosial tərəfdaşlıq sisteminin formalaşması İkinci dünya müharibəsindən sonra, sənaye cəhətdən inkişaf etmiş kapitalist ölkələrində fəhlə və həmkarlar hərəkatının

real qüvvəyə çevrildiyi vaxtdan başlayır. Bir çox Avropa ölkələrində dövlətin fəal rolu ilə milli-iqtisadi şuralar və sahibkarlar, həmkarlar və dövlət birliklərinin nümayəndəlikləri yaradılmağa başladı. Belə ki, İtaliyada - Milli əmək iqtisadiyyatı şurası, Belçikada -Mərkəzi iqtisadi şura, Fransa və İngiltərədə - İqtisadi və sosial şura yaradıldı. Hazırda ən fəal sosial tərəfdaşlıq - Almaniyada, Avstriyada, İsveçdə, az dərəcədə isə ABŞ, İtaliya, Yunanıstan, Portuqaliyada inkişaf etmişdir. Sosial tərəfdaşlıq ideologiyasının inkişafına çox güclü stimulu həm də elmi-texniki inqilab vermişdir.

Cəmiyyətin inkişafı sosial problemlərin kəskin şəkildə çoxalması və onların həlli yollarının axtarışında geniş ictimaiyyətin rolunun güclənməsi ilə səciyyələnir. Belə vəziyyət XIX əsrin 90-cı illərindən intişar tapan sosial tərəfdaşlıq kimi yeni modellərin, paradiqmaların meydana çıxmasına səbəb olur [10, s.265].

Sosial tərəfdaşlıq bir proses kimi ilkin olaraq müəyyən konflikt situasiyaları nəzərdə tutur və özü də onların həllinə yönəlmişdir. Sosial tərəfdaşlığın inkişafının əsas problemləri hüquqi bazanın qeyri-mükəmməlliyi, siyasi mədəniyyətin aşağı səviyyəsi, işəgötürənlərin təşkilati strukturlarının ləng formalaşması, sosial-əmək münasibətlərinin kollektiv-əmək tənzimlənməsi sisteminin yetəri qədər inkişaf etməməsidir. Nəticədə yüksək məhsuldar əmək motivasiyası aşağı düşür, bağlanan kollektiv müqavilələrə formal yanaşılır. Sosial tərəfdaşlığın ümumi inkişaf strategiyası qarşılıqlı məsuliyyət, yüksək məhsuldar əməyin stimullaşdırılması, tərəflərin davranışında düzlük, həmrəylik kimi aparıcı prinsiplərə əsaslanmalıdır [3, s.194]. Lakin buna baxmayaraq bu müddəalarına özü də fərdiyyətçilik, şəxsi məsuliyyət və hərtərəfli rəqabət nəzərdə tutan kapitalist münasibətlərinin mahiyyətinə ziddir. Sosial tərəfdaşlığın gerçəkləşdirilmə mexanizimi özündə hüquqi baza və işəgötürənlər tərəfindən qarantiyaları, eləcə də məsləhətləşmə tədbirləri çərçivəsində konsensusun əldə olunması üzrə əmək münasibətlərinin subyektlərinin və dövlət və bələdiyyə orqanlarının subyektlərinin qarşılıqlı fəaliyyəti prosedurunu ehtiva etməlidir. Tamamilə aydındır ki, işəgötürənlərin qanunvericiliklə formalaşdırılmış hüquq və öhdəlikləri olmadan işçilərin sosial təminat sisteminin işləməsi prioritet əsaslarla onların şərtsiz maliyyələşdirilməsi qarantiyalarına malik ola bilməz.

Bu məsələdə beynəlxalq təcrübənin öyrənilməsinə müraciət yerinə düşərdi. Dünya təcrübəsində özünün o işəgötürənlər strukturu doğruldub ki, onlar təşkilatın həm sahəvi, həm də ərazi prinsiplərini nəzərdə tutmuşlar. Bu strukturlar hakimiyyət orqanları ilə sosial-əmək tənzimlənməsi istiqamətlərinin geniş spektrini nəzərdə tutan sazişlər bağlayırlar. Göstərilən sazişlər çərçivəsində müəssisələrin sosial proqramları işlənib hazırlanır ki, bu da işçilərin konkret sosial problemlərinin həllinə prinsipial yanaşma mövqeyindən onların bir qədər standartlar əsasında sosial-əmək münasibətlərinin kollektiv-müqavilə tənzimlənməsinin ümumdövlət, regional və yerli sistemləri formalaşdırılır.

Bizim təsvir etdiyimiz sistemin kökündə hansı real sosial resurs dayanır? Birincisi, dövlət öz vətəndaşlarının məişət sferasının qayğısına qalmaq vəzifəsini vətəndaş cəmiyyəti institutlarına verilmişdir. Ona görə də bu sistem çərçivəsində işçilərin əməyi, istirahəti, müəssisələrin sosial infrastrukturunun saxlanılmasının təmin olunması üzrə işəgötürənlərin hüquq və öhdəliklərinin fiksasiyası nəzərdə tutulur. İkincisi, işçilərin ödənilən əməkhaqqı hesabına yaşayış minimumunun təmin olunması üzrə işəgötürənin öhdəlikləridir [4, s.306]. Daha sonra, mükafatlar, həvəsləndirici və kompensiyasiya mükafatları da daxil olmaqla stimullaşdırıcı sosial ödənişləri də unutmaq lazım deyil. Həmçinin bir bələdiyyə təsisatı çərçivəsində müəssisələrin sosial infrastrukturunun qarşılıqlı fəaliyyəti və işəgötürənlə yerli özünüidarəetmə orqanlarının sosial infrastrukturun inkişafı məsələlərinin kompleks həllində müstəsna olaraq müəssisə işçilərinin və ümumilikdə rayonun, şəhərin və s. əhalisinin rifahı naminə həmrəy məsuliyyəti də əhəmiyyətli yer tutur.

Xaricdə sosial tərəfdaşlıq sistemi həmkarlar ittifaqları tərəfindən irəli sürülmüşdür. O zəhmətkeşlərin uzun müddət öz hüquqları uğrunda mübarizəsi nəticəsində təşəkkül tapmışdır. Sosial tərəfdaşlıq sistemi təkcə əmək şəraitinin yaxşılaşdırmağa imkan vermədi, o həm də cəmiyyətdəki münaqişəlilik səviyyəsinin aşağı enməsinə, danışıq proseslərinin konstruktiv məcraya yönəldilməsinə, tə-

til hərəkatının kəskinliyinini azaldılmasına kömək etdi. Korporasiyalarda əməkçilərin istehasalın idarə olunması prosesinə cəlb olunması meyilləri təzahür etməyə başladı ki, muzdlu işçilərin və sahibkarların iqtisadi yüksəlişində, istehsalın rəqabətədavamlılığının artırlmasında qarşılıqlı marağının təmin olunması hesabına baş verdi [5, s.374].

Sovet dövründə bu prosesin ancaq bir hissəsi qorunub saxlanılmışdı: müəssisənin bütöv bir sosial-iqtisadi orqanizm kimi işləməsində idarə olunmasında irsilik. Halbuki ölkənin idarəolunmasının bu dövrü ictimai münasibətlərə kollektviçilik formasını gətirdi. Cəmiyyətin total dövlətləşdirilməsi paternalizmi gücləndirdi. İşçilərin məşğulluğu və istehsalat sahəsində sosial qarantiyalara, iş və istirahətin uzlaşdırılmasında, işçilərin (xüsusilə qadınların və gənclərin, əlillərin) əməyinin şəraiti və mühafizəsinə, işçinin istehsalatda sağlamlığının mühafizəsi və sosial təminat sahəsində, iş vaxtının müddətində, istirahət və məzuniyyət vaxtının müddətində, bədən tərbiyəsi və idmanda sosial təminatlara riayət olunmasında müəssisəyə (adminitrasiyaya və həmkarlar ittifaqlarına) mühüm yer verilirdi [6, s. 94].

Maliyyə imkanları nəzərə alınmaqla müəssisələrin sosial inkişafı praktikasına dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilən əlavə güzəştlərin verilməsi, yəni məzuniyyətlərə, təqaüdlərə pul artımlarının təyin olunması, işçilərin istehsalatda və uşaqların məktəbəqədər müəssisələrdə pulsuz və ya qismən ödənişli qidalanması məsələsi diqqət mərkəzində saxlanırdı.

80-ci illərin əvvəllərində müəssisələrin əmək kollektivlərinin sosial inkişafına yönəldilən resursları ictimai istehlak fondlarına xərclənən maliyyə resurslarının ümumi məbləğinin beşdə birini təşkil edirdi. Bu bir qanunauyğunluq idi ki, ictimai istehlak fondları, o cümlədən onun əmək kollektivinin sosial inkişafı vəsaitləri şəklindəki hissəsi mərkəzdən uzaqlaşmış hissələri əmək üzrə ödəniş fondu və milli gəlirdən daha sürətlə artmalıdırlar [8, s.482]. İctimai istehlak fondlarının qabaqlayıcı artımına istinad işçilərin əmək haqqının aşağı səviyyəsinin qismən kompensasiyası zərurəti və istehlakçı nemətlərinin mərkəzləşdirilmiş dövlət bölüşdürülməsinin nəzarət altında olması ilə izah olunurdu.

Ümumdövlət fondları vasitəsilə maddi nemətlərin təşəkkül tapmış bölüşdürülməsi praktikasının ciddi çatışmazlığı bərabərləşdirilmə, başqası hesabına sosial yaşamaq, işçilərin səfərbərliyi və təşəbbüskarlığının məhdudlaşdırılması meyillərinin yaradan prosesdə dövlətin cəmiyyətin bütün sahələrinə güclü təzyiqindən ibarət idi. Lakin özlərinin bütün sosial xərclərinə baxmayaraq sosial istehlak fondları sosial qarantiyaların, ən mühüm sosial önəmli nemətlərin - məktəbəqədərki tərbiyə və təhsil, səhiyyə, mədəniyyət, əhalinin, xüsusən də uşaqların mütəşəkkil istirahətinin geniş əlçatanlığının iqtisadi təməlinin əsasını qoydular. Bu nemət və xidmətlərin təqdim olunmasının kollektiv, birgə formaları özəl təşkilatla müqayisədə milli gəlirin istifadəsi baxımından daha səmərəli olur [8, s.485].

Beləliklə, yenidən qurulan iqtisadiyyat sosial-əmək münasibətləri problemlərinin bütün səviyyələrdə sosial tərəfdaşlıq çərçivəsində işəgötürənlər birlikləri və həmkarlar ittifaqları ilə sıx əlaqədə adekvat həllini tələb edir. Müəssissələrin bir nömrəli vəzifəsi investisiya layihələrinə və istehsalatın inkişafı proqramlarına qoyulan tamamilə konkret və stabil gəlir mənbəyinə malik sosial proqramların ümumi işlənib hazırlanma və gerçəkləşdirilmə strategiya və taktikasının müəyyən olunmasıdır.

Avropada üçtərəfli sosial tərəfdaşlıq orqanları hələ ötən əsrdən fəaliyyətə başlayıb belə ki, Belçikada-1948-ci il, AFR-da -1952-ci il, Avstriyada -1957-ci il, Fransa -1958-ci illərdə artıq sosial tərəfdaşlıq orqanları formalaşmışdı. Üçtərəfli orqanlar Çexiyada, Slovakiyada, Yunanıstanda, Macarıstanda, İtaliyada, Niderlandda, Bolqarıstanda və Polşada da yaradılmışdır.

Sosial tərəfdaşlığın Rusiya modeli özünün leqal, qanuni formasında işçilər, işəgötürənlər, eləcə də dövlət hakimiyyəti və yerli özünüidarəçilik, onların nümayəndələri ilə sosial-əmək sferasında maraqların uzlaşdırılması üzrə münasibətlər sistemindən ibarətdir. Onlar tərəflərin bərabərhüquqluluğu, müqavilə münasibətlərində maraq iştirakı, onların maraqlarının nəzərə alınması, tərəflərin

əmək qanunvericiliyinin normalarına riayət etməsi, tərəflərin nümayəndələrinin səlahiyyətliliyi, kollektiv anlaşmalar barədə məsələlərin müzakirəsində seçim azadlığı, öhdəliklərin gerçəkliyi, onların qəbul olunmasının könüllülüyü, müqavilələrin yerinə yetirilməsinin məcburiliyi, onların gerçəkləşdirilməsinə sistematik nəzarət üzərində qurulur.

Məlumdur ki, sosial tərəfdaşlığın tərəfləri işçilər və nümayəndələri şəxsində işəgötürənlərdir. Digər bir tərəfi də dövlətdir ki, o da işəgötürən və ictimai maraqların daşıyıcısı kimi çıxış edir. Özünün sonuncu rolunda dövlət tərəfdaşların birgə fəaliyyət koordinasiyası funksiyasını həyata keçirir [9, s.137].

Sosial tərəfdaşlığın tərəflərindən fərqli olaraq onun iştirakçıları müvafiq dövlət hakimiyyəti və yerli idarəetmə orqanlarıdır. O zaman ki, işəgötürən dövlət orqanının özüdür, onda o da tərəfdaşlıq münasibətlərinin bir tərəfi kimi çıxış edir.

Sosial tərəfdaşlıq orqanları razılaşdırma komissiyalarıdır. Bu kollektiv danışıqların aparılması və müqavilələrlein (anlaşmaların) hazırlanması, eləcə də müxtəlif səviyyələrdə onların icrasına nəzarət üçün nəzərdə tutulmuş "arbitraj" orqanıdır. Razılaşdırma komissiyaları (üçtərəfli komissiya) paritet əsaslarla tərəflərin müvafiq səlahiyyətlər verilmiş nümayəndələrinin razılığı ilə yaradılır.

Üçtərəfli komissiyanın əsas məqsədi sosial yönümlü iqtisadi islahatların keçirilməsinə dəstək və demokratik sosial qaydanın əsası kimi vətəndaş anlaşmasının təmin olunmasıdır. O mübahisəli (münaqişəli) məsələləri, işəgötürənlərin nümayəndələri və yaxud işçilər tərəfindən atılmış "səhv addımları" nəzərdən keçirir və konstruktiv əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində tərəflərin maraqlarını barışdıran effektiv anlaşmalar işləyib hazırlayır. Belə bir iş - sosial-əmək münasibətlərindəki problemlərin birgə həllinin sivil yoludur.

Hökumət vasitəçi kimi çıxış edərək münaqişə aparan tərəfləri danışıqlara cəlb edib onlar arasında əlaqəni təmin edir. Ayrıca görüşlərdə o münaqişə tərəflərini yeni təklif və alternativ həlləri diqqətlə qiymətləndirməyə vadar edir. Mediator kimi o sanki başqa bir tərəfi təmsil edir və ictimai rəyi razı salacaq həlli seçir. Bu zaman hökumət ona can atır ki, hər iki tərəf udsun: qarşılıqlı faydalı anlaşmalar kəskinləşmələrdən uzaq olmağa imkan verir [11, s.208]. Zira bir tərəfin qələbəsi yalnız qısamüddətli uğur gətirir.

Üçtərəfli komissiya sosial tərəfdaşlığın subyektləri arasında sosial-əmək münasibətlərinin iştirakçılarının maraqlarının müdafiə olunması ilə münaqişə qarşıdurmasının qarşısının alınması və həlli üzrə konstruktiv dialoqun təsirli alətidir.

Üçtərəfli komissiyanın əsas məqsədi ondan ibarətdir ki, heç bir qanun layihəsi üçtərəfli komissiya ilə öncədən razılaşdırılmadam qəbul edilməsin. Kollektiv danışıqların aparılması və tripartizm çərçivəsində müvafiq sazişlərin hazırlanması, tərəfləri maraqlandıran məsələlər üzrə müntəzəm məsləhətləşmələrin aparılması və informasiya mübadiləsi, birgə qərarların (sənədlərin) qəbulu sosial tərəfdaşlıq subyektlərinin maraqları və mənfəətinin reallaşdırılmasında balansı təmin etməyə yönəldilmişdir. Yetişmiş sosial-iqtisadi və əmək problemlərinin həllinin bazar münasibətlərinə, iqtisadi demokratiyaya və iştirak edən tərəflərin "hüquq və öhdəlikləri" çərçivəsində sivil şəkildə qoşulmağa imkan verən demokratik alətlərin formalaşdırılmasının yolu budur.

Sosial tərəfdaşlıq mexanizminin əsas elementi kollektiv danışıqlardır. İşçilər və işəgötürənlər adından kollektiv danışıqların aparılması hüququ onların nümayəndələrinə verilmişdir. Əgər danışıqların təşəbbüskarı həmkarlar ittifaqıdırsa, onda işəgötürənlər, onların dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanı birlikləri (ittifaqlar, assosiasiyalar) danışıqlar aparmağa borcludur. İşəgötürənin danışıqlar aparmaqdan imtina etməsi və danışıqlardan yayınması kollektiv tətil prosesinin başladılmasından ötrü əsas rolunu oynayır.

Danışıqlar nəticəsində kollektiv müqavilə, anlaşma, fikirayrılıqları protokolu işlənib hazırlanır. Fikirayırılıqları protokolunun imzalanması kollektiv əmək mübahisəsinin başlanğıcı hesab olunur. Sosial tərəfdaşlıq sazişlərinin bağlanması üzrə danışıqlarda müvafiq icra hakimiyyəti orqanları-

nın nümayəndələri iştirakçı ola bilərlər. Onlar danışıqların üçüncü tərəfini təmsil edirlər və öz üzərlərinə müəyyən vəzifələr götürürlər, işçilərə və işəgötürənlərə bu və ya digərlərinin, cəmiyyətin, dövlətin maraqlarına uyğun olaraq anlaşmaya nail olmağa kömək edirlər [16, s.47].

Bizim ölkəmizdə sosial tərəfdaşlıq kollektiv müqavilələr və tərəfdaşlıq sazişləri vasitəsilə həyata keçirilir. Kollektiv müqavilə - bu, təşkilatda sosial-əmək münasibətlərini tənzimləyən hüquqi aktdır. Bir qayda olaraq bu sənəd maliyyə imkanlarından çıxış edərək qanunvericilik və sazişlərlə müəyyən edilmiş qüvvədə olan norma və müddəalarla müqayisədə daha güzəştli əmək, sosial-iqtisadi şərtləri və qarantiyalar müəyyən edir.

Kollektiv müqavilənin iştirakçıları adından nümayəndələrinin çıxış etdiyi əmək kollektivi və nümayəndəsi təşkilatın nizamnaməsinə görə onun rəhbəri olan işəgötürəndir. Əgər təşkilatda bir deyil, iki-üç həmkarlar təşkilatı varsa və onlar vahid müqavilə bağlayırlarsa, onda danışıqların aparılması və kollektiv müqavilənin tərtibi üçün komissiyaya üzvlərinin sayı nəzərə alınmaqla bu həmkarlar ittifaqlarının hər birinin nümayəndəsi ayrılır [16, s.48].

Kollektiv müqavilənin vahid layihəsi əvvəlcə işçilər tərəfindən müəssisənin bölmələrində müzakirə olunur, sonra onların qeydləri nəzərə alınmaqla tamamlanıb təkmilləşdirilir; bu layihə ümumi yığıncaq (konfrans) tərəfindən da təsdiqlənir və nümayəndəli vahid orqanın bütün iştirakçıları tərəfindən imzalanır. Əgər nümayəndəli orqanda fikirayrılıqları meydana çıxırsa, və ya yaxud belə bir orqan yaradılmamışdırsa, onda ümumi yığıncaq (konfrans) kollektiv müqavilənin ən mümkün variantını qəbul edə və onu layihəni işləyib hazırlamış həmkarlar orqanına onun əsasında danışıqlar aparmağı həvalə edə və ümumi yığıncaq tərəfindən təsdiq edildikdən sonra əmək kollektivi adından kollektiv müqavilə bağlaya bilər [15, s.174].

Kollektiv müqavilənin məzmunu tərəflərin hüquq və öhdəliklərini və onlara görə məsuliyyəti müəyyən edən şərtlərdir. Onlar bu təşkilatın vəsaiti hesabına ayrı-ayrı işçilər kateqoriyasına tədqim olunan ayrı-ayrı güzəştlər, imtiyazlar (əlavə məzuniyyət, istirahət günləri, müxtəlif əlavə pullar, əməyin ödənilməsi növləri və sistemləri, tarif vergisi, təqaüdlərə istehsal üstəlik pulları, təşkilat həmkarlar ittifaqı sədrinin əlavə hüquqları), və digər qanunvericilik üstü hüquq və güzəştlər) haqqında əmək hüququnun lokal normalarını təsbit edirlər [12, s.102].

Kollektiv müqavilələr ödəniş, əməyin mühafizəsi, ixtisasartırma haqqında bölmələrə malikdir. Müqavilənin bir hissəsi də bölmələr üzrə əmək şəraitinin və mühafizəsinin yaxşılaşdırılması üzrə tədbirlər, eləcə də əməyin ödənilməsinin mükafat sistemləri, il ərzində əməyin nəticələri üzrə mükafatlar üzrə müxtəlif müddəaları konkretləşdirən əlavələridir. Kollektiv müqavilənin əhəmiyyəti ondan ibarətdir ki, bu hüquqi akt işçilərin əmək və məişət şəraitini işçilərin özlərinin fəal iştirakı ilə tənzimləyir. Deməli, o qanunvericiliyə qarşı bu şəraiti yaxşılaşdırır və istehsal demokratiyasını yaxşılaşdırır [13, s.173]. Hal-hazırda kollektiv müqavilənin tənzimləyici rolu artmış və onun lokal hüquq normaları genişlənir. Eyni zamanda o sosial tərəfdaşlığın ən əhəmiyyətli formasıdır, istehsalın təkmilləşdirilməsinə, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsinə, əməyin təşkili və onun məhsuldarlığının artmasına yönəldilmişdir.

Kollektiv müqavilənin rolu tripartizm prinsipinin gerçək işə salındığı o təqdirdə artır ki, bu zaman işəgötürənə əlavə hüquqlar işəgötürəni işçiyə əlavə preferensiyalar verməyə stimullaşdıran vergi, təşkilati, maliyyə və s. şərtlər yaratmaq iqtidarında olan dövlət "hesabı"na verilir.

Bu həm xərclərin kollektiv müqaviləyə uyğun olaraq məhsulun maya dəyərinə uyğunlaşdırılması (işəgötürənin gəliri hesabına müvafiq tədbirlərin maliyyələşdirilməsi yox), dövlət və bələdiyyə sifarişlərinin kollektiv müqavilə vasitəsilə fəal olaraq gəliri yenidən bölüşdürən işəgötürənlərə təqdim edilməsi, respublika və bölgələr üzrə sosial səmərəlilik tədbirləri vasitəsilə işçilərlə münasibətdə sosial tərəfdaşlıq prinsiplərini gerçəkləşdirən işəgötürənlərə qeyri-maddi xarakterli həvəsləndirmələr və s. də ola bilər [14, s.218].

Sosial əmək münasibətlərinin aşkar üstünlüklərinə baxmayaraq indiyədək həll olunmamış məsələlər də qalmaqdadır. Əsas səbəblər:

- Rəhbərlərin (işəgötürənlərin) iqtisadi çətinlikləri bəhanə gətirərək özlərini əmək kollektivləri qarşısında əlavə öhdəliklərlə yükləmək istəməməsi;
- Müəssisələrin işində iqtisadi qeyri-stabillik və il ərzində sifariş paketlərinin vaxtında formalaşdırılmaması ki, bu da kollektiv müqavilənin öhdəliklərinin gerçəkləşdirilməsi üçün maliyyə vəsaitlərinin həcminin müəyyən edilməsini çətinləşdirməsi;
- Konkret vəzifəli şəxslərin əmək sferasında qanunların pozulmasına görə məsuliyyəti məsələlərinin hüquqi tənzimlənməsi mexanizminin qeyri-səmərəliliyi;
- kollektiv müqavilələrin bağlanması üçün işçilərin digər nümayəndəli təşkilatlarının, alternativ həmkarlar təşkilatlarının yaradılması yolu ilə həmkarlar ittifaqı təşkilatını cəhdi [7, s.127].

Saziş sosial-əmək münasibətləri və onlarla bağlı olan digər münasibətlərin tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edən və respublika, sahələr, ərazilər səviyyəsində bağlanan hüquqi aktdır. Bu anlayış onun tərəflərinə, tənzimlənmə predmetinə və tərəfdaşlıq münasibətlərinin növlərinə işarə edir:

- əmək-sosial münasibətlərinin tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edən respublika səviyyəsində baş saziş, məsələn, AHİK, ASK və AR Hökuməti arasında Baş saziş;
- Azərbaycan Respublikasının regionu səviyyəsində bu region üçün əmək-sosial münasibətlərinin tənzimlənməsinin ümumi prinsiplərini müəyyən edən regional saziş;
- Sahə işçiləri üçün ödəniş normaları və digər əmək şəraiti, sosial qarantiyalar və güzəştlər müəyyən edən sahəvi (sahələrarası) tarif sazişi;
- Şəhərin, rayonun, digər inzibati-ərazi vahidində məskunlaşma xüsusiyyətləri ilə bağlı olan əmək şəraitini, sosial qarantiyalar və güzəştləri tənzimləyən ərazi sazişi [7, s.129].

Sazişlərin bütün bu növləri danışıqlarda iştirak edən tərəflərin razılaşmasına görə ikitərəfli və ya üçtərəfli ola bilər. Hər hansı bir büdcə maliyyələşdirilməsini nəzərdə tutan sazişlər icra hakimiyyətinin dövlət və ya bələdiyyə nümayəndəsinin mütləq iştirakı ilə bağlanır.

Sosial tərəfdaşlıq sazişlərinin əhəmiyyəti ondadır ki, onlar işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına, onun ödənişinin yüksədilməsinə; əməyin mühafizəsinin təmin olunmasına; işçilərə sosial-məişət xidmətinin yaxşılaşdırılmasına; işçilərin əmək hüquqlarının qarantiyalarının qanunvericilik minimumunun qaldırılmasına yönəldiliblər. Bununla bərabər sazişlərdə ifadə olunmuş müddəalar və onların gerçəkləşdirilməsi praktikası arasında fikirayrılığı vardır. Əmək haqqının cəzasız ötüşən ləngidilməsi baş verir, uşaq müəssisələri təminatdan çıxarılır, ştat cədvəllərində tariflər ixtisar edilir, azyaşlı uşaqları olan qadınlar, yaşı çox olan şəxslər işdən çıxarılır.

Nəhayət, qeyd edək ki, sosial tərəfdaşlıq cəmiyyətdə tərəflər arasında konsensusa, vətəndaş sülhünün formalaşmasına, müxtəlif qruplar və təbəqələr arasında qarşılıqlı münasibətlərdə gərginliyin azalmasına, cəmiyyətdə sosial poliloqun təşəkkülü və möhkəmlənməsinə, bütün səviyyələrdə hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının birliyinə doğru yönəlmiş sivil bir ideologiyadır.

Açar sözlər: sosial tərəfdaşlıq, sosial əmək münasibətləri, həmkarlar ittifaqları, işəgötürənlər, sosial-iqtisadi hüquqlar, sosial poliloq, sosial sülh

İstifadə edilmiş ədəbiyyat

1. Абрамов Н.Р. Региональные аспекты социальное партнертво. М.: АТиСО, 2009, 141 с.
2. Актуальные проблемы социального партнерства на территориальном уровне. Научно-исслед. работа. Коллектив авторов. М.: АТиСО, 2011, 293 с.
3. Батин М.Т. Социальное партнерство: новый взгляд. М.: АТиСО, 2007, 214 с.

4. Вальковой А.Ф. Урегулирования трудовых споров в рамках системы социального партнерства. М.: АТиСО, 2002, 340 с.
5. Волгин Н.А. Эффективность социального партнерства. М.: АТиСО, 2009, 470 с.
6. Габидулин Р.С. Проблема социального партнерство в творчестве русских философов XX века. М.:АТиСО, 2013, 182 с.
7. Qaraşov H.T. Həmkarlar ittifaqı hərəkatının əsasları. Bakı, Avropa, 2015, 448 s.
8. Галиев Г.Т. Социальный аудит и социальное партнерство. М.: АТиСО, 2003, 510 с.
9. Домнич А.М. Перспективы развития социального партнерства. М.: АТиСО, 2003, 140 с.
10. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Bakı, Elm və təhsil, 2010, 636 s.
11. Караткевич А.Г. О некоторых особенностях социального партнерства, системе и механизме. М.: АТИСО, 2009
12. Куликов О.В.Опыт развития социальное партнерство. М.: АТиСО, 2007
13. Луконин С.В. Работодатели в системе социальное партнерства. М.: АТиСО, 2000
14. Некрасов С.Г. Социальное партнерство: системно-деятельный подход. М.:АТиСО
15. Социальное партнерство. Словарь-справочник. М.: Экономика, 1999, 237 с.
16. Шулус А.А. Российская модель социального партнерства. М.: 2007, 241 с.

Зейнаддин Шабанов

ИСТОРИЯ СОЗДАНИЯ И ЗНАЧЕНИЯ СОЦИАЛЬНОГО ПАРТНЕРСТВА

Резюме

В статье основное внимание уделяется роли создания и значению социального партнерства в регулировании социально трудовых отношений. Всесторонне изучается деятельность европейских и российских структур социального партнерства. Отмечается эффективность социального партнерства в общественном развитии, сохранении стабильности и социального мира, реализации социального полилога. В статье раскрывается роль экономических, социально-политических, правовых и идеологических факторов и объективных причин в создании социального партнерства.

Ключевые слова: социального партнерства, социально трудовые отношения, профсоюзы, работодатели, социально-экономические права, социальный полилог

Zeynaddin Shabanov

THE HISTORY OF CREATION AND IMPORTANCE OF SOCIAL PARTNERSHIP

Summary

The author pays attention to the role of creation and importance of the social partnership in the regulation of social labour relations. The article analyzes the activity of organizations of social partnership in Europe and Russia. Also, the article explores the effectiveness of social partnership in the development of society, maintaining stability and protection of social peace, realization of social polilog. The article discloses the role of economic, social-political, legal and ideological factors and objective reasons in the creation of social partnership.

Keywords: social partnership, social labour relations, trade unions, employers, social-economic law, social polilog

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

UOT – 1.091

Arzu Hacıyeva
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.e.d.

NƏRİMAN NƏRİMANOVUN ƏSƏRLƏRİNDƏ MİLLİ İDEYA MƏSƏLƏSİ

Məqalədə Nəriman Nərimanov tərəfindən irəli sürülmüş milli ideya məsələsinə baxış keçirilir. Göstərilir ki, özünün publisistik məqalələrindən birində o, milli ideya ilə bəşəriyyətin ümumi ideyaları arasındakı dialektikanı açır. Nərimanova görə, hər bir millətin öz xüsusi ideyası vardır. Ümumi ideala gedən yol isə milli ideyadan keçir. Nərimanovun yaradıcılığını təhlil edən müəllif orada Azərbaycan xalqının milli ideyasının təzahürlərini üzə çıxarır.

Bu gün bir söz, anlayış, problem kimi çox populyar və aktual olan milli ideya nə isə mifoloji əjdahaya bənzər bir xəyal, xam xülya deyil, əksinə gerçəklikdir. Milli ideya hər hansı bir millətin mənəviyyatının substansiyası olmaqla immanent vəhdətə malikdir. Bu, çoxluğun vəhdətidir, çünki o, tək, nəisə ayrıca götürülmüş konkret bir ideyadan ibarət deyil, onda milli ruhdan doğan qeyri-müəyyən, çoxlu sayda ideyalar var. O, özündə xalqın milli ideologiyasını, milli dilə köklənmiş düşüncə tərzini – mentalitetini, dünya və cəmiyyət haqqında tarixən formalaşmış siyasi, hüquqi, sosial, dini, etik, estetik baxışlarında və əqidələrində ifadə olunmuş özünəməxsus dünyagörüşünü ehtiva edir. Milli ideya xalqın uzun müddət öz cismani və mənəvi varlığını öz orijinallığında mühafizə etməyinə kömək edir. Ona etinasızlıq göstərən, onu ümumi ideoloji baxışlar sistemində arxa plana keçirən xalqın hər hansı bir şəkildə tarix səhnəsini tərk etməsi, yer üzündən silinməsi labüddür.

Bu cəhətdən N.Nərimanovun gözəl insani sifətlərini vəsf etdiyi tatar milləti haqqında söylədikləri səciyyəvidir. O, tatarların yüz illərlə "ilminskilərin, pobedonosevlərin" timsalında aparılan ruslaşdırma və xristianlaşdırma siyasətinin "zəhərli oxlarına davam" gətirib, öz milliyyətini mühafizə edə bilmələrini alqışlayır, buna görə məğrur olmalarını tamamilə təbii sayır. Halbuki, o dövrdə tatar millətinin geri qalmasını, tərəqqidən uzaq düşməsini onun nəyin bahasına olursa olsun özünüqoruma cəhdi ilə əlaqələndirənlər də vardı. N.Nərimanov belələrinə etiraz edərək, "bir millətin milliyyətini, hüququnu məhdud etməyin, ata-babasını unutdurmağın", onu buxovlarda saxlamağın tərəqqi yolu olmadığını deyir. Onun fikrincə, "tatar tərəqqidən qaçmayır, fəqət *tatarlıq* məhv olmağından qaçırdı… Tatar yaşamaq istəyirdi, ölmək istəmirdi" [14]. Burada tatarların "*tatarlıq*" kəlməsində ifadə olunmuş öz milli ideyalarına sadiqliyinin milləti məhv olmaqdan qoruduğu vurğulanır.

N.Nərimanov öz xalqının özünəməxsusluğu, identikliyi haqqında fikirlərini əvvəllər millətin ayrı-ayrı dərdləri fonunda açıqlayırdısa, sonralar həmin problemi nəzəri cəhətdən təhlil edib, fəlsəfi mahiyyətini açmağa çalışır. Bu, onun anlayışların mənalarını dəqiqləşdirmək cəhdində də özünü göstərir. "Bahadır və Sona" dramında (1915) XX əsrin əvvəllərində (hətta indinin özündə də bəzən) qarışıq işlənən millət, din, qövm (xalq) məfhumlarına aydınlıq gətirir. Burada o, milləti "bir dində bulunan camaat" kimi izah etməklə, əslində ərəb mənşəli "millət" sözünün daşıdığı "əhali, xalq, camaat" və "dini icma, cəmiyyət" mənalarını bir tərifdə birləşdirir. 1900-cü ildə "Kaspi" qəzetində yazdığı bir məqaləsində Əhməd bəy Ağayev "millət" istilahının birinci növbədə dini birliyi ifadə etməsinə istinad edir və islamın guya "ayrı-ayrı xalqların: ərəb, türk, fars, zənci, tacik və sairələrinin özlərinə məxsus fərdi etiqadlarındakı, adət-ənənələrindəki, hətta dil və geyimlərindəki fərqi aradan qaldırdığını…, sözün tam mənasında fatehlərin assimilyasiyasına məruz qoyduğunu" [6] söyləyib islam dininə etiqad bəsləyən xalqları eyniləşdirməyə cəhd edirdi. N.Nərimanov isə əksinə, fərqləri və onların mühümlüyünü, əhəmiyyətini önə çəkir. O, bədii qəhrəmanı Bahadırın dili ilə dini birlik kimi başa düşülən millət və etnik

birliyi ifadə edən qövm (ərəbcə bir nəsildən olan; tayfa; qohum deməkdir) sözlərini bir mənada işlətməyi düzgün hesab etmir: "Məsələn: xristian milləti dedikdə bir çox qövmün bir dinə qulluq etməyini göstərir: ruslar, fransızlar, almanlar xristian millətidirlər, türklər, ərəblər, farslar bir dinə qulluq etməklərinə səbəb islam milləti adlanırlar. Fəqət bunların hər birisinin özlərinə məxsus adətləri, dilləri vardır. Demək ki, bir çox qövmlərin birləşməyinə din səbəb olarsa da, hər bir qövmə məxsus dil və adət onları bir-birindən ayırır. Din qövmləri bir nöqtədə birləşdirər və qövmiyyət bunları yüz nöqtədə bir-birindən ayırar. Din bir çox qövmə ümumi bir tərəqqi yolu göstərər isə hər qövmə məxsus tərbiyə, adət, dil haman qövmün qeyri bir yol ilə tərəqqiyə yeriş etməyinə səbəb olar" [9, s.143].

Maraqlıdır ki, mütəfəkkir nəinki islam dininə etiqad edən xalqları, hətta Azərbaycan türklərinin osmanlı türklərindən fərqinə də diqqəti cəlb edir. Bu, onun 1899-cu ildə nəşr olunan Azərbaycan dilinin qrammatikasını "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" adlandırmasında, bədii əsərlərinin bəzi epizodlarında, məsələn, hələ 1896-cı ildə yazdığı "Bahadır və Sona" romanında "osmanlı dilinin naxoşluğunun" (ərəb və fars sözlərindən istifadənin dili qəlizləşdirməsi nəzərdə tutulur) "bizə keçməsi" haqqında mülahizəsində özünü göstərir [9, s.176].

"Dərdlərimizin əlacı" (1916) məqaləsində isə millət sözü artıq dini yox, təxminən ondan bir ay əvvəl yazdığı yuxarıda bəhs etdiyimiz "İdilboyu tatarı" məqaləsindəki kimi, etnik birliyi göstərən bir məfhum kimi, başqa sözlərlə, müasir mənasında işlənir. O, hər bir millətin öz tarixi missiyası, öz yolu olması haqqında düşüncələrini yığcam şəkildə belə ifadə edir: "Müsəlmanlar üçün müqəddəs bir məslək həqiqəti-islam nə olmağını bilməkdir. Müdam tərəqqi, müdam gərdişlə mübarizə, haman mübarizənin vasitəsilə gizlin xəzinələri meydana gətirmək, yəni insaniyyətə xidmət – bundan ali və müqəddəs bir məslək, bundan artıq qüvvətli bir nicat yolu olmaz.... Fəqət bir millətə məxsus məslək ümumi ideal üçün bir yoldur. Məsələn, ümumi ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə, xüsusi məsləki dalınca yeriş edə bilməz. Bu yolda yeriş etməz isə, ümum müqəddəs məslək nə olmağını da düşünməz" [12].

Bu fikirlərlə Hegelin "Ruhun fəlsəfəsi" əsərində ümumdünya tarixi, ümumdünya ruhu haqqında söylədiyi mülahizələr arasında bir yaxınlıq duyulur. Sanki N.Nərimanov öz düşüncələrinə Hegelin mücərrəd kateqoriyaları və mürəkkəb konstruksiyaları timsalında fəlsəfi təməl, Hegel N.Nərimanovun millət məsələsinə münasibətdə tək və ümuminin dialektikasının anlaşıqlı şərhində müəyyən mənada öz mücərrəd ideyasını təsdiq edən konkret bir nümunə tapır.

Hegelə görə əvvəlcə yalnız özündə mövcud olan ruh (dünya ruhu – A.H.) özinkişafında şüur kəsb edib özünü dərk edir və bununla da özünün özündə-və-özü-üçün-mövcud-olan mahiyyətini açır və gerçəkləşir, zahirən də ən ümumiyə – dünya ruhuna çevrilir. Bu inkişaf zaman və müəyyən konkret real varlıq hüdudlarında baş verdiyindən özü ilə tarixi təmsil edir və deməli, onun ayrı-ayrı məqamları və pillələri ayrı-ayrı xalqların ruhlarıdır. Öz keyfiyyət müəyyənliyində təkcə və təbii olan hər bir belə ruhun vəzifəsi bütövlükdə bütün fəaliyyətin (ruhun fəaliyyətinin – A.H.) yalnız *bir pilləsini* doldurmaqdır və onun yalnız bir tərəfini həyata keçirməkdir [7, s.355-366]. Lakin burada incə bir mətləb var, yəni öz hüdudlarında tarixə malik olan hər bir xalqın ruhu "hadisələri müxtəlif xalqların ruhlarının dialektikasını təmsil edən" ümumdünya tarixinə daxil ola bilmək üçün əvvəlcə "öz şüurunu və öz gerçəkliyini" müəyyən şərtlər daxilində (coğrafi, iqlim və i.a.) inkişaf etdirməlidir [7, s.365].

Müsəlmanlardan danışsa da, N.Nərimanovun "insaniyyətə xidmət" kimi səciyyələndirdiyi nicat yolu – islam həqiqəti əslində təkcə onlar üçün yox, bütün bəşəriyyət üçün ali həqiqəti təmsil edir. Bu mənada dialektik proses kimi götürülən "həqiqəti-islam" Hegelin tarixin və xüsusilə də ümumdünya tarixinin əsasında duran, "ilahi hikmətin planı", və yaxud "zəka" adlandırdığı və onda reallaşan və reallaşmaqda olan "özündə-və-özü-üçün" son məqsədə [5, s.366] uyğun gəlir. Əgər Hegeldə dünya ruhu müxtəlif xalqların ruhlarının cəmindən yaranırsa, N.Nərimanovda həmin ruhu təmsil edən ümumi ideal müxtəlif xalqların ideallarından yaranır [4, s.75].

Rus mütəfəkkiri və publisisti P.Çaadayev (1794-1856) 1828-ci ildə yazıb, 1836-cı ildə çap etdirdiyi məşhur "Fəlsəfi məktub"unda rus gerçəkliyini ifşa edirdi. Onun fikrincə, ruslar sanki zamandan

kənarda mövcuddurlar, bu günlə yaşayırlar, çünki onların başqa xalqlar kimi tarixi, ənənələri, qürur duyacaqları "xoş xatirələri" yoxdur, mədəniyyəti isə tamamilə başqalarından mənimsəmə və təqliddir. Maraqlıdır ki, Çaadayevin rus mədəniyyətinin qəti şəkildə orijinal olmaması məsələsini fəlsəfəyə gətirməsini, B.Qroys "orijinal rus fəlsəfi diskursunun başlanğıcı" hesab edir [8, s.53]. Çünki rus gerçəkliyinə kəskin neqativ qiymət verməklə o, "Rusiyanı bütün dünya tarixinə münasibətdə Özgə kimi kəşf edir… Bununla da… dünya tarixinin özü natamam görünür və Hegelin mütləq ruhu … hər cür tarixiliyə alternativ xalis şüursuz, ifadəsiz mövcudluq üsulu kimi başa düşülən xalis maddi prinsipdə özünə müxalif tapır" [8, s.54].

N.Nərimanov Çaadayevdən fərqli olaraq, xalqlardan hər birinin, hətta hansısa ümumi bir dinə etiqad etmələrindən asılı olmayaraq, orijinallığını apriori qəbul edir və dil, adət, tərbiyəni önə çəkirdi. (Aydındır ki, imperiya tərkibində "yad" millətin ərazi, iqtisadi, siyasi birlikdən danışması mümkün deyildi). Lakin onun fikrincə, hər hansı bir millətin orijinallığı hələ onun ümumi ideala çatması üçün, və yaxud, bir növ Hegelin dünya ruhunu özündə təmsil edən ümumdünya tarixinə daxil olub sivilizasiyalı xalqlar arasında özünəməxsus yer tutması, özünü bir millət kimi təsdiq etməsi üçün kifayət deyil, onun bu yolu keçə bilməsi üçün *xüsusi məsləki* olmalıdır. Məslək ərəb sözü olub, dilimizə yol, hərəkət xətti, istiqamət, əqidə, və nəhayət, ideya kimi tərcümə olunur. N.Nərimanov millətin xüsusi məsləkindən danışanda, məhz milli ideyanı nəzərdə tutur. Milli ideyanın substansiya kimi şüur forması isə millətin özünü dərk etməsidir, yəni Hegelin təbirincə, "öz obyektivliyində özünü özünün eyni kimi və buna görə ən ümumi kimi tanımaqdır" [7, s.247], N.Nərimanovun dilində isə sadəcə özünü tanımaq, özü ilə qeyrisinin fərqini düşünməkdir. Millətin özünü tanıması üçün isə milli dil, milli məktəb, milli ədəbiyyat, milli mətbuat və "qeyri-qeyri şeylər" lazım idi [13; 14].

Xüsusilə milli ədəbiyyat, milli teatr və milli mətbuat xalqın bir növ özünü özünə bəzək-düzəksiz, yəni, olduğu kimi, bütün qüsurları ilə birlikdə göstərən güzgüsü rolunu oynayırdı. Bu mənada o, milli özünütənqid güzgüsü idi.

Öz xalqının, millətinin mədəniyyətinə tənqidi gözlə baxıb, təhlil əsasında onu dəyərləndirmək bacarığını nəzərdə tutan milli özünütənqid parlaq əksini Azərbaycan fəlsəfəsindən daha çox ədəbiyyatında, xüsusilə bəhs etdiyimiz dövrdə xalqımızın milli şüurunun oyanışında və təşəkküründə müstəsna xidmətlər göstərmiş maarifçilərimizin, ədiblərimizin əsərlərində tapmışdır. Belə ki, fəlsəfi traktatlarda yaşadığın ölkənin tarixinin, ictimai həyatının, xalqın şüur və düşüncə tərzinin tənqidi, dəlillərə əsaslanan şərhi nəinki dövlət, rəsmi din, hətta cəmiyyətin oxumuş təbəqələri tərəfindən hər zaman qəzəblə qarşılanmışdı. Volter fəlsəfənin yarandığı vaxtdan təqiblərə məruz qaldığını deyib əlavə edirdi: "itlərə bəyənmədikləri yeməyi təklif edəndə, onlar o dəqiqə sizi dişləyirlər" [11, s.682]. "Dişləsəydilər" hələ yaxşıdı, bir çoxları həyatları ilə vidalaşmalı olur, digərləri vətəndən didərgin düşürdülər. Şərq tarixində belə misallar az deyil. Odur ki, tənqidin gələcək nəslə müsbət təsirini, həqiqəti örtüksüz, birbaşa söyləməyin əhəmiyyətini xüsusi nəzərə çarpdıran M.F.Axundovun ədəbi-bədii formada yazdığı fəlsəfi əsəri – "Kəmalüddövlə məktubları"nın müəllifi olduğunu gizlətməsi qətiyyən təəccüb doğurmur. Yuxarıda bəhs etdiyimiz Çaadayevin "Fəlsəfi məktubu" vətənpərvər tələbələrin hiddətinə səbəb olmuş, çox çətinliklə onların silahlı hücumunun qarşısı alınmışdı. Sonra … Çaadayevi dəli elan etdilər. Buna cavab olaraq 1837-ci ildə yazdığı "Dəlinin apologiyası" əsərini o, Kolricdən epiqraf kimi gətirdiyi bu sözlərlə başlayırdı: "Ey mənim qardaşlarım! Mən çox acı həqiqət söylədim, amma acı kədərlə söyləmədim". O, vətənini və xalqını sevdiyini, lakin "bağlı gözlərlə, aşağı əyilmiş başla, kilidlənmiş ağızla sevməyi bacarmadığını" yazır, kor-koranə vurğunluq dövrünün artıq ötüb keçdiyini, vətənə həqiqət borclu olduqlarını bildirir [3, s.157] və Rusiyanın gələcəyinə inamını həmin həqiqətlə bağlayır. N.Nərimanov da "xalqın dərdini çəkənlərdən görən göz, eşidən qulaq, sağlam beyin, həssas ürək", millətin tərəqqisi, gələcək səadəti naminə hətta acı olsa belə, heç kəsdən çəkinmədən söylənilən həqiqət tələb edirdi. O, "Bahadır və Sona" romanında yazırdı: "Millətimiz bir haldadır ki, bir balaca nağıl da yazsan böyük iş etmiş kimisən! Ancaq yazan şəxs gərək xalqın diqqətindən qorxmasın… Mərdanə, hər sözü açıq desin, qardaşı olmuş olsa da". Həqiqət carçılarını tənqid edib hörmətdən salmağa çalışanları isə o, "həsədlərindən partlayıb zurnalarını bəm" etməkdən başqa "əllərindən bir şey gəlməyib arada söz gəzdirən öv-

rətlər"ə bənzədir və onlara qulaq asmamağı məsləhət görürdü, çünki "Bu tövr şəxslər hər millətdə var, onlar axırda özlərinə layiq olan mərtəbəni tapırlar…" [9, s.189].

Hər halda ədəbiyyat – istər nəsr, dram əsərləri, istərsə də poeziya olsun – yazıçının bədii təxəyyülünün məhsulu hesab edildiyindən, buradakı tənqidə, necə deyərlər, dözmək, haradasa bəraət qazandırmaq mümkün idi. M.F.Axundovun komediyaları da bir çoxlarına "xalqı sevməməyin əlaməti kimi görünmüş"düsə də [1, s.78], mütəfəkkirin həyatı üçün birbaşa təhlükə törətməmişdi. Bu baxımdan filosofların tarix boyu ədəbiyyat janrlarına meyli başa düşüləndir.

Ədəbiyyatda ifadə olunan milli özünütənqid xalqın özünü tanımasına və özünütəsdiqinə təkan verməklə özündə güclü fəlsəfi məzmun daşıyır. Bu cəhət N.Nərimanovun "Nadanlıq" dramından başlamış "Bir kəndin sərgüzəşti" hekayəsinədək bütün ədəbi əsərlərinə xasdır.

"Nadanlıqda"da feodal-patriarxal qaydaların hökm sürdüyü mühitdə, mövhumat və xurafat girdabında çapalayan bir kəndin insanları ilə üzləşirik. Savadsızlıq, mədəniyyətsizlik, avamlıq onları elə bir hala salmışdır ki, öz xeyir və şərlərini anlamır, yaxşını yamandan seçmir, dost-düşmənlərini tanımırlar. "Adam öldürməyin, quldurluq etməyin, karvan kəsməyin" mərdlik hesab olunduğu bu kənddə ona elm və maarif nuru gətirən məktəbin timsalında yeniliyə, tərəqqiyə hər cür müqavimət göstərilir. Əsər boyu insanı insan sifətindən məhrum edən, sonda qardaşı qardaş qatilinə çevirən nadanlığın törətdiyi faciələr, ailələrin puç olması, insanların əzabına, göz yaşlarına, bədbəxtliyinə səbəb olması bədii boyalarla təsvir olunur.

"Pir" povestində avam və cahil insanların dindarlığının da kor-koranə, şüursuz olduğu göstərilir. Bu Allahın buyruqlarını icra edən, "namaz qılıb oruc tutan" mömin müsəlmanlar islamın həqiqi əxlaqi mahiyyətini anlamır, əzbərlədikləri duaların mənasına varmır, gündə neçə dəfə namazlarında, dualarında Allahın təkliyinə şahidlik verdikləri halda əlləri dolu fırıldaqçı Cəfərqulunun pirinə pənah aparırlar. Əsərin əsas süjet xətti ətrafında çoxarvadlılıq, qızların erkən ərə verilməsi, ailədə qadın hüquqsuzluğu, qapalı mövhumatçı mühitdən doğan müxtəlif ictimai fəsadlar, ailədə müxtəlif xəstəliklər, tibbi müalicəyə biganəlik, nəticədə sonsuzluq, xəstə, şikəst uşaqların doğulması və s. bu kimi problemlərə də toxunulur.

"Bir kəndin sərgüzəşti" hekayəsindəki [10, s.221-228] milli özünütənqid daha kəskindir, həqiqət daha acıdır, çünki burada qonşu timsalında məkrli, yırtıcı düşməni olan bir xalqın avamlığının, sadəlövhlüyünün, ətalətinin daha acınacaqlı nəticələrə səbəb olduğu, onun bir millət kimi hüququnun, mənliyinin tapdalanmasına, başqa xalqlar arasında hörmətsizliyinə, dəhşətli bəlalara düçar olmasına aparıb çıxardığı göstərilir. Sakit tərzdə, təmkinlə, və hətta bir qədər də soyuqqanlılıqla nəql edilən bu hekayə aydın məzmunu ilə şəffaf görünsə də başdan-ayağa rəmzlərdən ibarətdir. Əsas rəmz Qafqaz kəndlərindən birinin camaatının "ata-babadan bir-birinə düşmən gözü ilə baxan" İnəmre və Namləsüm adlanan iki məhəllənin adlarında gizlənmişdir. Rəmzi açmaq üçün vaxtilə məhəllələrin abadlığına çalışmış iki böyük adamın adı kimi təqdim edilən bu əcayib sözləri yalnız tərsinə oxumaq kifayətlir: İnəmre, yəni erməni, Namləsüm, yəni müsəlman, o vaxtlar azərbaycanlılara belə müraciət edirdilər. Bunu bildikdən sonra o biri rəmzləri açmaq artıq çətin deyil.

N.Nərimanovun mövcud gerçəkliyin eyiblərini açıb göstərən bu əsərlərini oxuyarkən, onun bir millətin özü ilə qeyrisinin fərqini bilməyincə, "özünü tanımayınca, hüququnu düşünməz" sözlərinin nə qədər doğru, xalqın nicatını, milli varlığını qoruyub saxlaya bilməsinin şərtini elm və maarifdə görməsində nə qədər haqlı olduğunu bir daha anlayır, "milli dil"dən başlayan "milli məktəb, milli ədəbiyyat, milli mətbuat…" çağırışlarının təntənəli şüarlar olmadığını dərk edirsən. Xalqa yaxın olmaq üçün onunla öz dilində danışmaq lazım idi. O, dilimizi ərəb və fars sözləri ilə "zinətləndirənlərə" kinayə edir, Bahadırın dili ilə deyirdi: "Mən deyirəm: ədəbi dil camaat dilidir. Yəni, camaat hankı dildə danışırsa, o dildə də yazmaq gərəkdir. Məncə, ədib camaata tabedir, nəinki camaat ədibə" [9, s.146]. Fəxrlə "firəng dili Avropada nə məqami-haiz isə bizim də ana dilimiz Asiyada o məqami-haizdir" [5] söyləyərkən də o, məhz həmin "camaat dilinin" tutduğu yüksək yeri, mənsəbi göstərirdi.

N.Nərimanova görə, ana dili millətin əsas atributudur, onsuz millətin nə xüsusi məsləki, nə də "pak milli hissiyyatı" ola bilər. Odur ki, daim onun inkişafının qayğısına qalır, onu qoruyur, başqala-

rından da bunu tələb edirdi. 1922-ci ildə N.Nərimanovun mətbuatda türk dilinin məhdudlaşdırılması və türk dili dərslərinin azaldılması haqqında "fitnəkar məqalələr"ə "Bakinski raboçi" qəzetində cavab verərək, türk dilinin Azərbaycanda dövlət dili elan edildiyini və Azərbaycanda heç kimin və heç bir şəraitdə onu ləğv etməyə və ya əhəmiyyətini azaltmağa ixtiyarı çatmadığını sərt bir şəkildə bəyan etməsi buna bariz nümunədir.

Daha bir məsələ. Bəzən milli ideyanın dövlət quruluşundan asılı olmadığını deyirlər. Lakin N.Nərimanov millətin öz milli ideyasını gerçəkləşdirməsinin əsas şərtini hürriyyətdə və xalqının respublika quruluşlu müstəqil azad demokratik dövlətində görürdü. Bu arzusu artıq "Nadir şah" tarixi dramında öz gizli ifadəsini tapmışdır. N.Nərimanovun tarixi şəxsiyyət kimi Nadir şaha müraciət etməsində, görünür, onun türk əfşar tayfasından olması faktı müəyyən rol oynamışdı. (Türk əfşar tayfası Azərbaycan xalqının etnogenezində iştirak etmişdir. Macar şərqşünas alimi L.Ligeti 1936-1937-ci illərdə Əfqanıstanda olarkən, burada yaşayan əfşarların dilini tədqiq etmiş və onun Azərbaycan dilinin dialekti olması qənaətinə gəlmişdir). Eyni zamanda N.Nərimanov əsərdə Nadir şahın həyata keçirmək istədiyi islahatlarda öz dövlətçilik baxışlarını ifadə edir. Nadir şah isə dövləti möhkəmləndirmək üçün dörd məsələni önə çəkir: əvvəla, iki düşməni – sünni və şiə məzhəblərini barışdırmaq və birləşdirmək əzmindədir, çünki bununla dövlət daxilində birliyə nail olmaqla yanaşı, qonşu Osmanlı dövləti ilə münasibətləri də yaxşılaşdırmaq olar. İkincisi, İncili tərcümə etdirmək istəyir ki, idarə etdiyi ölkədə qeyri tayfaların dinini bilib, ona müvafiq hərəkət etsin. Üçüncü fikri "mollaların ixtiyarını azaltmaq"dır, çünki mollalar ixtiyarında yaşayan dövlətdə tərəqqi olmaz, ona görə o, dövlətə dair qanunların verilməsini tamamilə ruhanilərdən almağa hazırlaşır. Dördüncü fikri xalqın firəvanlığı ilə bağlıdır. O istəyir ki, padşahlığında əlsiz-ayaqsızlardan başqa, fəqir və sail tapılmasın, çünki kasıb və dilənçisi çox olan dövlət tez puç olar [9, s.124-126]… Lakin mütərəqqi ideyaları N.Nərimanovun qəhrəmanını məhv edir.

N.Nərimanov bolşevik partiyasının proqramını burada həm də xalqlara öz müqəddəratlarını həll etmək, hətta Rusiyadan ayrılıb müstəqil dövlət qurmaq haqqında maddələrinə görə qəbul etmişdi. Gerçəklik bunların yalnız quru yalançı vədlərdən ibarət olduğunu göstərdi. Bütün millətləri bir arşınla ölçüb, onların milli xüsusiyyətlərini nəzərə almayan bolşevizm millətin mənəvi varlığı üçün güclü təhlükəyə çevrilmişdi. M.S.Ordubadi 1920-ci ildə N.Nərimanovla etdiyi söhbətlərini xatırlayaraq üstüörtülü şəkildə onun məhz sonuncuya münasibətdə belə bir mühüm müddəasına diqqəti cəlb edərək yazır: "O deyirdi: Dünyada bir əqidənin hakim olması milliyyətin orijinallığını itirmək deməkdir. Çünki əqidənin milli adət və milli mədəniyyət üzərində böyük bir təsiri ola bilər" [2]. Milli ideyasız millətin gələcəyinin olmadığı fikrinə sona qədər sadiq qalan N.Nərimanov partiya funksionerlərinin Azərbaycanı simasızlaşdırma cəhdlərinə qarşı var qüvvəsi ilə mübarizə edirdi. Həyatının sonunda böyük dövlət vəzifəsindən istefa verib, yenə böyük bir həvəslə ədəbi yaradıcılığa qayıtmaq istəyirdi. Əcəl buna imkan verməsə də, bu istəyi ilə o, millətin öz varlığını qorumasında, yeni mənəvi intibahında ədəbiyyat və mədəniyyətin əbədi əhəmiyyətinə inamını bir daha təsdiq etdi.

N.Nərimanovun bədii və publisistik əsərlərini yazdığı vaxtdan bir əsr, hətta daha çox bir müddət keçsə də, cəmiyyətdə hər şey kökündən dəyişsə də, ədibin obrazları bizə doğmadır, onlarda biz özümüzü tanıya bilirik, çünki o, xalqın mənəvi varlığının mahiyyətini, psixologiyasını, mentalitetinə xas arxetipləri düzgün göstərə bilmişdir. Ona görə bu irs bu gün də Azərbaycan xalqının milli özünüdərk və özünütəsdiq mənbələrindən biridir.

Açar sözlər: milli ideya, mənəvi varlıq, substansiya, milli özünüdərk, özünütanıma, özünütəsdiq, milli ruh, millət.

İstifadə edilmiş ədəbiyyat

1. Axundov M.F. Əsərləri. III cild. Bakı: Azərnəşr, 1955
2. "Azərbaycan" qəzeti, 13 aprel 1990-cı il.
3. Чаадаев П.Я. Статьи и письма. М.: "Современник", 1989, 624 с.
4. Hacıyeva A.Ə. Nəriman Nərimanovun din haqqında düşüncələri. Bakı: "Azərbaycan Ensiklopediyası", NPB, 1998.

5. "Həyat" qəz., 15 avqust 1906-cı il, № 181
6. "Kaspi" qəz., 14 aprel 1900-cü il, № 89
7. Гегель Г.В.Ф. Философия духа. Энциклопедия философских наук, т.3. М.: "Мысль", 1977, 471 с.
8. Гройс Б.В. Поиск русской национальной идентичности // "Вопросы философии", 1992, №9, с. 52-60.
9. Nərimanov N.N. Seçilmiş əsərləri. Bakı: Elm, 1973, 672 s.
10. Nərimanov N.N. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 496 s.
11. Вольтер Ф.М. Философские сочинения. М.: "Наука", 1988, 751 с.
12. "Yeni iqbal" qəz., 4 yanvar 1916-cı il, №199
13. "Yeni iqbal" qəz., 20 yanvar 1916-cı il, № 212
14. "Yeni iqbal" qəz., 26 fevral 1916-cı il, № 243

Арзу Гаджиева

НАЦИОНАЛЬНАЯ ИДЕЯ В ПРОИЗВЕДЕНИЯХ НАРИМАНА НАРИМАНОВА

Резюме

Отправной точкой статьи является определение национальной идеи, данное самим Н.Нариманов (1870-1925). В одной из своих публицистических статей он раскрывает диалектику взаимосвязи общей идеи человечества с национальной идеей. По мнению Н.Нариманова, без национальной идеи у нации нет будущности. Анализируя произведения Н.Нариманова, автор выявляет в них образы национальной идеи азербайджанского народа.

Ключевые слова: национальная идея, духовное бытие, нация, субстанция, национальная самокритика, национальное самопознание, национальное самоутверждение, национальный дух

Arzu Hajiyeva

THE ISSUE OF NATIONAL IDEA IN THE WORKS OF N.NARIMANOV

Summary

The article examines the issue of the national idea put forward by Nariman Narimanov. In one of his publicist articles he opens the dialectic between the national idea and the common ideas of humankind. According to Narimanov, every nation has its own particular idea. Analyzing the works of N.Narimanov, the author reveals the images of the national idea of the Azerbaijani people.

Keywords: national idea, spiritual being, nation, substance, national self-criticism, national self-consciousness, self-assertion, national spirit

UOT – 1(09)

İradə Zərqan
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.

QAFQAZDA TÜRK-MÜSƏLMAN DİRÇƏLİŞİ

Məqalədə bildirilir ki, XVIII-XIX yüzilliklərdə türklərin yalnız Osmanlı dövləti və İranda Qacarlar sülaləsi müstəqil idi. Türk xalqlarının bir qismi Rusiya və Çin dövlətinin idarəçiliyi altında idi. Müstəqil dövlətlərdə də milli kimlik təfəkkürü tam formalaşmamış və ideoloji səviyyəyə qalxmamışdı. Qeyd olunur ki, dəyərlər onlardan istifadə olunarkən, əməli fəaliyyət nəticəsində əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan xalqı yalnız sələflərinin izləri ilə getməklə kifayətlənmir, onların açdığı cığırları daha geniş yollara qovuşdurur, şəhid qanları bahasına qorunmuş vətəni gülüstana çevirir. Bir zamanlar Əli bəy Hüseynzadənin düşüncə və firçasından pərvəriş tapan Azərbaycan bayrağı hazırda Müasir Azərbaycan dövlətinin dünya arenasındakı müvəffəqiyyətlərinə vüqarla şahidlik edir. Azərbaycan dövləti isə əsrin əvvəllərindən fərqli olaraq bayrağında əks olunan simvolları mətanətlə qorumaq və yaşatmaq iqtidarını bütün dünyaya nümayiş etdirir.

Ziya Gökalp "Türkçülüyün əsasları" əsərində 1853-cü ildə Osmanlı imperatorluğunda yaşayan türklərin vəziyyəti haqqında aşağıdakı qənaətin olduğunu yazmışdır: "Türkiyədə türkləri hakim sinif adlandırmaq çətindir" [2, s.6]. O dövrdə türklərin durumunu fransız yazıçısı Röne Pinon belə təsvir etmişdir: "Osmanlı imperatorluğunda hər bir kəs üçün yer vardır. Türklər üçün də" [2, s.9]. Qeyd olunan vəziyyət türk sultanlarının bəzi hallarda ifrat təəssübkeş siyasətinin və yersiz canfəşanlığının nəticələri kimi meydana gəlirdi. Məsələn, Sultan II Mahmud demişdi ki, "mən təbəəmdəki din fərqlərini ancaq came, kilsə və sinaqoqlara girdikləri zaman görmək istərəm" [2, s.9]. Halbuki dini əqidə insanın olduğu hər yerdə - onun bütün həyat və fəaliyyətində təzahür edir. Əqidə yalnız müəyyən ayinləri icra etməklə məhdudlaşmır, insanın ruhundan qaynaqlanaraq düşüncəsini, davranış və hərəkətlərini tənzimləyir, təbiətə, cəmiyyətə, ümumiyyətlə, dünyaya münasibətini formalaşdırır. Natamamlıq duyğusu düşüncədən başlayır. Əgər insan dünya maraqlarına, yaxud zənnə (təhlükə hesab etdiyi öz fantaziyalarına) qapılaraq ilahi hikmətdən üz çevirirsə, nəticələrini də tezliklə görür. Osmanlı sultanları tərəfindən imperiyanın bütövlüyünü saxlamaq üçün bəzi hallarda yeridilən qeyri-milli, formal dini siyasət öz acı nəticələrini verməyə başlamışdı.

Osmanlı dövlətində humanist məqsədlə qəbul olunmuş və 1839-1876-cı illərdə qüvvədə olan "Gülxanə xətti hümayunu" tənzimat fərmanı türkləri daha acınacaqlı vəziyyətə saldı. 1909-cu ildə albanların üsyan etməsi, "Əlmühdül ərəb" cəmiyyətinin fəaliyyəti [2, s.11], qeyri-türk millətlərin Balkan müharibəsində (1912-1913) çörəyini yedikləri, suyundan içdikləri Türk torpaqlarını bir vətən kimi müdafiə etməmələri həqiqəti gün kimi aydınlatdı. Türk dövlətçiliyinin dostları və düşmənləri məlum oldu. Hakimiyyətdəki ideoloji boşluq cəmiyyətin siyasi və milli iflasını reallaşdırmaqla yanaşı, dövlətçiliyin əsas hərəkətverici qüvvəsinin müəyyənləşdirilməsi problemini də aktuallaşdırdı.

Bilgə Kağanın (673-732) "Ey türk oğuz bəyləri! Türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz türk ulusu, özünə dön!.." [2, s.3] kəlmələrinin unudulduğu, dünyada daha bir türk dövlətinin də çökmək üzrə olduğu bir zamanda türkləri hansı ideya dirçəldə, yenidən öz ruhuna, milli mənsubiyyətinə qaytara bilərdi?

O dövrdə türkləri üç əsas mənafe birləşdirə bilərdi: dini yaxınlıq, milli yaxınlıq, yaxud iqtisadi-strateji maraqlara söykənən ərazi yaxınlığı, yəni qonşuluq əlaqələri.

Əli bəy Hüseynzadə 1906-cı ildə "Kuhi-qaf və simurq" [4] məqaləsində Qafqazın türk-müsəlman dirçəlişinin əhəmiyyətinə diqqət çəkərək yazırdı: "Qafqaz Asiya ilə Avropa arasında bir körpüdür, Bakı Avropanın Asiyaya olan qapılarından biridir… Belə bir məkanda həm də dünyanın ruhən və cismən ən gözəl xalqı yaşayır və irqi-Qafqaziyyə mənsubiyyəti ilə fəxr edirlər. Bəs ərəblərin "Huristan" adlandırdıqları bir məkanın azadlığı niyə olmasın?" [5, s.140-141].

Əli bəyə görə ruh və fikir gözəlliyinin əlaməti azadlıqdır. O bu haqda yazmışdır: "Şən, namus və tar, heysiyyət, istiqamət, şücaət, həmiyyət, qeyrət, rüfət, nəcabət kimi sifətlərin cümləsi hürriyətdən, azadlıqdan törər. Bu sifətlər ruhda olduqca insanın simasına inikas edər… Bəncə, Qafqaz türkləri ətrakın ən hürriyətpərəstidir" [5, s.141-142]. Lakin hürriyətpərəstlik məsələnin bir tərəfidir. Əsas problem türk-müsəlman birliyini gerçəkləşdirəcək və gələcəyə aparacaq vahid ideologiyanın olmaması idi.

Əli bəy Qaf dağına zəncirlənmiş və ciyəri qaraquş tərəfindən yeyilən, lakin vüqarını itirməyən Prometeyi Qafqaz türklərinə bənzədir. Prometeyin ciyərini parçalasalar da, onun azadlıq hissini məhv edə bilmədikləri kimi, Qafqaz xalqlarını da əsarətdə saxlamaq olmaz. Əli bəy Hüseynzadə Prometeyi xilas edən Heraklla Zal oğlu Rüstəmin köməyinə çatan Simurq quşunu müqayisə edir və bildirir ki, bu əfsanələr əbəs deyildir. Təbiətlə cəmiyyətdə bir harmoniya vardır. Qartallar yurdunun insanları da ucalıqda pərvəriş tapırlar. O, türk-müsəlman dirçəlişinin Qafqazda gerçəkləşəcəyinə inamla yazır: "Qafqaz ölkəsi aləmin istibdad və bidad altında inləyən qismini əsarətdən xilas etmək xüsusunda ən böyük rol oynayacaqdır!" [5, s.143].

Üç tərəfdən dənizlə, cənubdan isə Türkiyə və İranla əhatə olunan Qafqazda yaşayan yüzdən artıq xalq və tayfa milli, dini və dil fərqlərinə baxmayaraq, əsrlər boyu sülh və qardaşlıq münasibətlərini qoruyub saxlaya bilmişdilər. Lakin ermənilər 1890-cı ildə şovinist "Daşnaksütyun" partiyasını yaradaraq mənfur "Böyük Ermənistan" ideyasını reallaşdırmağa başlayan andan əvvəlcə yaşadıqları Osmanlı dövlətinin, sonra isə gəldikləri Qafqazın asayişini pozdular.

Məlum olduğu kimi, sultan Əbdülhəmidin humanist münasibətindən sui-istifadə edən ermənilər 1890-cı ildə "Daşnaksütyun" və "Qnçak" partiyalarını yaratmış, Türkiyənin Qars, Van, Ərzurum, Xarput, Diyarbakır, Bitlis, Sivas, Adana və Kilikiyanın cənub vilayətlərində yerli türk əhalisini məhv etmək, qovub çıxarmaqla zor gücünə, silahlı basqın və vəhşi qırğınlar hesabına "Böyük Ermənistan" yaratmaq iddiasına düşmüşdülər. Qəsbkar siyasətlərinə və azğın hərəkətlərinə görə 1896-cı ildə Türkiyədən qovulan ermənilər Qafqazdakı 54 qəzadan yalnız beşində məskunlaşmalarına [1, s.120] baxmayaraq, mənfur niyyətlərini həyata keçirməkdən əl çəkmədilər.

Erməni şovinistləri Osmanlı dövlətindəki məğlubiyyətlərinin acısını Qafqaz müsəlmanlarından çıxır, rus məmurlarının himayədarlığı sayəsində İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda müsəlmanları öldürür, təsərrüfatlarına ziyan vurur, torpaqlarından çıxarır, nəyin hesabına olursa olsun məqsədlərinə çatmağa çalışırdılar. Nikolay hökuməti isə Qafqazda böyük qüvvə olan türklərin əleyhinə kütbeyin övladlarının ağlasığmaz hərəkətlərinə göz yumurdu. "Rus əsgərləri, polislər və jandarmlar türklərin qırılmasını kənardan seyr edirdilər. Elə ki ermənilər türklər tərəfindən sıxışdırılırdı, başlayırdılar onlara kömək etməyə..." [1, s.123].

Rəsmi mənbələrə görə, Rusiya ilk olaraq Şərqi Anadolu və İranda yaşayan 70 min ermənini 20 il müddətinə vergidən azad etməklə Cənubi Qafqaza yerləşdirmişdir. 1914-cü ilə qədərki məlumatlarda isə Naxçıvan, İrəvan, Qarabağ, Gəncə və Bakı ətrafına köçürülən ermənilərin sayının 1 milyonu keçməsi qeyd olunmuşdur [3, s.15-16].

Hadisə və proseslərin gedişi qəti tədbirlər görməyi tələb edirdi. Qafqaz müsəlmanlarını qırğınlardan qorumaq məqsədilə 1905-ci ildə Bakıda Əhməd Ağaoğlunun rəhbərlik etdiyi "Difai" ("Müdafiəçi") partiyası yaradıldı və fəaliyyətə başladı. Bu əhəmiyyətli hadisə Qafqazda türk-müsəlman dirçəlişinin ilk sanballı təzahürü hesab oluna bilər.

Türk-müsəlman dirçəlişinin növbəti addımları Qafqazdan kənarda gerçəkləşsə də, qeyd olunan nəzəri platformanın davamı idi. 8 aprel 1905-ci ildə Peterburqda Rəşid əfəndinin evində kiçik

bir heyətin iştirakı ilə Rusiya Müsəlmanları İttifaqının birinci qurultayı keçirildi. Daha bir əlamətdar hadisə - ikinci qurultay 22 yanvar 1906-cı ildə Peterburqda Həsən Həbibullanın evində iki yüz nəfərin iştirakı ilə baş tutdu. Avqustun 15-də Nijni Novqorodda kirayə tutulmuş gəmidə 13 saat davam edən və daha artıq nümayəndənin qatıldığı "Rusiya Müsəlmanları İttifaqının" üçüncü qurultayında artıq "Xalq partiyasının proqramı" qəbul edilmişdi. Rusiyanın müxtəlif ərazi nümayəndəliklərindən təqdim olunmuş 7 proqram layihəsi Kazanda davam etdirilən həmin qurultayda müzakirə olunmuş və Əlimərdan bəy Topçubaşovun 79 maddədən ibarət Proqram layihəsi qəbul olunmuşdu [1, s.146].

Proqramda siyasi məqsədlər, əhalinin hüququ, dövlət quruluşu, dini qaydalar, məhəlli muxtariyyət, məhkəmə, maarif, maliyyə işləri, torpaq məsələsi, qadınların seçki hüququ kimi aktual məsələlər öz əksini tapmışdı.

Rusiya Müsəlmanları İttifaqının əsas simalarından biri olan Əli bəy Hüseynzadə milli birlik naminə müxtəlif təkliflərlə çıxış edirdi. Onun araşdırmalarının əhatə dairəsini və ictimai mövqeyini qələmə aldığı yazıların mövzusunda aydın görmək olur: "Türklər kimdir və kimlərdən ibarətdir" [5, s.41-70], "Ramazanül-mübarək və hürriyyət" [5, s.85-86], "Milliyyət və insaniyyət" [5, s.110-114], "Müxtəlif bəhanələrlə adam öldürmək" [7, s.188-191], "Həyat və meyli-füyuzat" [7, s.225-229], "Vəqayeyi-aləmə bir nəzər" [7, s.241-246], "Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar" [5, s.181-190], "Siyasəti-fürusət" [5, s.274-410], "Nicat məhəbbətdədir!" [5, s.194-199] və s.

Əli bəy millətin istiqlalı üçün siyasi güc və nüfuzu əsas hesab edərək göstərirdi ki, bunun üçün tərəqqi, tərəqqi üçün isə xalqın birliyi lazımdır. O, rəhbəri olduğu "İttihad və tərəqqi" firqəsinin strategiyasında da silaha deyil, siyasətə, sözün gücünə, mədəniyyətə və maarifə, ədalətə və qanunlara güvənilməsini ifadə edir və nizam-intizamlı idarə üsulunun vacibliyini vurğulayırdı.

"Bir millət üçün hər şeydən əqdəm arzu ediləcək şey qüvvətdir... Qüvvət üçün tərəqqi, tərəqqi üçün ittihad (birlik) lazımdır" - deyən Əli bəy Hüseynzadə "İttihad və tərəqqi" firqəsinin strategiyasını aşağıdakı kimi açıqlayırdı: "Qılınc degil, siyasət lazım, lisan lazım, əhli-maarif lazım, qələm lazım, ədalət lazım, adilanə və müdəbbiranə üsuli-idarə lazım!" [5].

Əli bəy Hüseynzadə tarixi prosesdə mədəniyyət, sivilizasiya, ictimai-iqtisadi formasiyalar mövzusunu şərh edərkən öz mülahizələrini açıq bildirir: "Tarixi dövrlərə təqsim üçün vəhşət və heyvaniyyət ilə mədəniyyət və insaniyyətdən daha mətin əsas olamaz! İnsaniyyəti heyvaniyyətdən, mədəniyyəti vəhşətdən təfriq edəcək bir əlamət varsa, o da qətl və qitalın, xunxarlığın və xunrizligin ortadan rəf olmasıdır... İstanbul fəth edildi, Amerika kəşf olundu, müqatilə, səfkidəmə xitam buldumu, bəşəriyyət heyvanlıqdan xilas oldumu? Əsla!.. Vəhşətində, heyvaniyyətində bu günə qədər israr edib durmuşdur!.." [5, s.137-138]. Mütəfəkkirin fikirləri bu gün də aktualdır. Müasir dünyada gedən proseslər, İraqda, Suriyada səngimək bilməyən müharibə fitnə-fəsadları, Kobani hadisələri bəşər düşüncəsinin ümumilikdə heç də dəyişmədiyinin göstəricisidir.

Bu dəyişməzliyin səbəblərindən birini Əli bəy müsəlmanların mütiliyində görürdü: "Bizə dedilər ki, "Çirkabə daş atma, üzərinə sıçrar!" Biz də bu sözü bir hikmət zənn edərək atmıyoruz... Bu çirkabların qoxusu, üfunəti getdikcə artıyor... Xeyr, əfəndim! Belə olmaz. Çirkablara daş atılmalıdır, həm də doluncaya, yox edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər..." [5, s.251]. O davam edərək bildirir ki, daş, qaya yetməsə, tibbi, mikroböldürücü üsullarla, neftlə odlamaq lazımdır ki, üfunət və pislikdən əsər qalmasın. Həqiqətən də, bizə laqeydlik və ətalət yox, mübarizə gərəkdir.

Azərbaycan alimi Yaşar Qarayevin şərh etdiyi kimi, Əli bəy Hüseynzadə irsini öyrənməklə müasir dövrdə baş verən müharibələrin, o cümlədən Azərbaycanın da cəlb edildiyi Qarabağ savaşının səbəb və məqsədlərini, ideya qaynaqlarını, habelə problemdən qurtuluş yollarını görmək olar [5, s.4-21].

O, şəraitdən asılı olaraq çıxış yolunu gah inqilab, gah da təkamüldə görürdü [5, s.440]. Lakin düşüncəni dəyişmədən vəziyyətin dəyişəcəyini gözləmək çətindir. Klassik metodların hansını seçmək məsələsi də yenə "sahələrdən" və "əkinçilərdən", zaman, məkan və hərəkətverici qüvvə amillərindən asılıdır.

Əli bəy Hüseynzadə Türk dövlətçiliyindəki ideoloji boşluqları görür və insanların düşüncəsində inqilab yaratmaq istəyirdi: "... Fədai lazımdır, fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai!.." [5, s.252].

O bəzən də təkamülün tərəfdarı kimi çıxış edərək yazırdı: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa mədələrində həzm olunmasın" [5, s.265].

Onu ən çox narahat edən məsələlər: millətinin bəzi hallarda mütiliyi, ləngliyi, zamanın nəbzini tuta bilməməsi, öz dəyərlərinə sahib çıxmaması, istedadına müvafiq davranmaması, şəraiti nəzərə almaması və s. idi.

Məqalələrindən birində Ə.Hüseynzadə təəssüfünə yumor qataraq yazırdı: "...Tiflisdə də bomba partladı, Bakıda isə altmışa qədər bomba partlamadan zabitiyyə tərəfindən tutulub müsadirə oluna bildi... Demək ki, bizim Bakı cəmaəti dəxi bombalar üzərində oturuyormuş..." [5, s.158].

Əli bəy Hüseynzadənin XX əsrdə qələmə aldığı mədəniyyət və tərəqqi haqqındakı mülahizələri bu gün qloballaşma və mədəniyyətlərin inteqrasiyası şəraitində türk xalqlarına öz hərəkətverici qüvvələrini təyin etməkdə müəyyən istiqamət verir. O, birlik haqqında düşünərkən tarixi şərait, ərazi, əqidə və milli amilləri nəzərə almağın vacibliyini diqqətə çəkir, azadlıq mübarizəsində türk xalqlarını Qərbə, avropalılara deyil, məhz özlərinə arxalanmağa çağırırdı. Ə.Hüseynzadə bu məsələlər haqqında yazırdı: "Nə ingilis məmləkətində, nə də Fransada, Avstriya və Germaniyada İran və Türkiyəyi oyandıracaq bir hürriyyət ədəbiyyatı hüsula gəlmədi və gələməz də… İsveçrənin sizə biganə olan soyuq Alplarından, Misirin lal və samit olan ehramlarından, hətta Avropanın mərakizi qeylüqalından imdad gözləməyərək, oralardan səsinizi, fəryad və fəqanımızı vətənə eşitdirəməzsiniz. Oralarda sizi kimsə himayə edəməz! Gəliniz, gəliniz Qafqaza, Simurğun qanadları altına!.." [5, s.144].

Onun fikirləri biliyin, Avropa dəyərlərindən bəhrələnməyin əleyhinə deyildi. Əli bəy Hüseynzadə millətin kimə və nəyə etimad etməsi problemini çözməyə çalışır, müsəlmanların çəkdiyi zillətlərin səbəblərini aydınlaşdırır, "yeni türklərin zəlalətlərini" aşağıdakı kimi sıralayırdı: "Bunları hər vəqt yanıldan üç məsələdir: məsələlərin birisi - sünniliyi, şiəliyi ayrı-ayrı şey hesab edib, islamiyyəti həqqilə anlamamalarıdır; ikincisi - xilafət bəhsini islamiyyətlə qarışdırıb aləmi-islama mənafei-xilafət nöqteyi-nəzərindən baxmalarıdır, üçüncü məsələ isə sülalə bəhsi olub türklüyü osmanlılıqdan, yəni xanədani-ali-Osmana mərbut bilməkdən ibarətdir" [5, s.159].

Məzhəb ayrılığı üzündən birləşə bilməyərək mübahisə edən müsəlmanlara Əli bəy Hüseynzadə irsindən maraqlı bir cavab vardır: "...imam-əzəm Əbu Hənifə həzrətləri o cənabın (İmam Cəfəri-Sadiq) şagirdlərindən olub həlqeyi-tədris və təlimlərində bulunmuşlardı... İmam əzəmin tutduğu təriq İmam Cəfəri-Sadiqin göstərdiyi yoldan başqa bir şey deyildir... bizlərə ittihad üçün ayrı bir təriq aramaq əbəsdir, zənn edəriz..." [5, s.238]. Bu qeydlər Ə.Hüseynzadənin 1907-ci ildə "Füyuzat" jurnalının 15-ci nömrəsində İslam peyğəmbərinə həsr etdiyi "Mövludi-nəbi" məqaləsindən götürülmüşdür. Tamamilə haqlıdır, belə ki, İmam Cəfəri-Sadiq həzrətləri də Muhammməd əleyhissəlamın yoluna sadiq olduğundan bu ismi almışdır. Deməli, kitabı Quran, peyğəmbəri Muhammməd olan bir millətin ittihad yolu birdir – Allahın yoludur.

Əli bəy Hüseynzadənin Avropaya nisbətən Rusiya haqqında fərqli düşüncəsinin əsasında da doğmalıq əndişəsi, orada yaşayan türk soylu millətlər və onların ortaq dilləri amili dururdu. O yazırdı: "Rusiya ölkəsində hürriyyət sayəsində bir millət tərəqqiyə başlayır ki, onun dili Türkiyə və İran xalqına biganə deyildir. Bu millət Kazandan, Ufadan Səmərqəndə, Mavərayi-Baykaldan Krıma qədər müntəşir olan türk və tatar əqvamıdır" [5, s.144].

O, Qafqaz və Rusiyada yaşayan türk-müsəlman ziyalılarının azadlıq ideyalarını İran və Türkiyəni ağuşuna alacaq selin məcraları hesab edərək yazırdı: "Bu selin də məcrası bilaşəkk və şübhə bu iki məmləkətə Qafqaz bərzəxi olacaqdır!.. İştə, görünür ki, Qafqaz hürriyyəti-aləmin tarixində mühüm rollar oynayacaqdır. Bu rolların da ən böyügü Qafqaz və Azərbaycan türklərinə aiddir" [5, s.144].

Maraqlı burasıdır ki, Əli bəy Hüseynzadə hələ 1906-1907-ci illərdə yazdığı məqalələrində Türkiyənin demokratik inkişaf yolu tutacağını və İran inqilabının labüdlüyünü bütün təfərrüatı və cəhətləri ilə proqnozlaşdırmışdı [5, s.241-242].

Lakin bir acı həqiqət vardı ki, Qafqazda yaşayan gürcü, erməni və türklərdə eyni dövlət içində, bir bayraq altında, bir və bərabər yaşama iradəsi, əzmi və mövcud ortaqlığı davam etdirmə arzusu yox idi. Bu üç millətin milli maraqları bir-birinə zidd idi və aralarında da tarixi düşmənçiliklər və dərin ayrılıqlar var idi [3, s.82].

Milli şüuru və vətənpərvərlik ölçüləri müxtəlif olan xalqları bir ideologiya ətrafında birləşdirmək çox çətindir. Buna baxmayaraq Ə.Hüseynzadə Qafqaz Seyminin (18 yanvar 1918 – 28 may 1918) dağılması əleyhinə idi. O, türk-müsəlman birliyinin gücünə, türklərin cəsarət və nüfuzuna inandığı üçün düşünürdü ki, Qafqaz Seymi daxilində də söz sahibi olmaqla millət üçün çox şey etmək olar. Onun düşündüyünü ümummilli lider Heydər Əliyev Azərbaycanın SSRİ tərkibində olduğu illərdə tamamilə aydın şəkildə sübut etdi. Hətta adlarının çəkilməsi qadağan olunan bir şəraitdə Azərbaycanın ilk qurucuları M.Rəsulzadənin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ə.Topçubaşovun ideyaları əməli şəkildə həyata keçirilir, Azərbaycanın bugünkü müstəqilliyinin təməllərinin möhkəmləndirilməsi yolunda böyük işlər görülürdü.

Ə.Hüseynzadənin düşündüyü kimi, həqiqətən də, o zamanlar ərazilərin parçalanması özü ilə arzuolunmaz nəticələr gətirdi. 30 oktyabr 1920-ci ildə N.Nərimanovun başçılıq etdiyi Sovet Azərbaycanı türklərin yaşadığı ərazinin yalnız bir hissəsində qurulmuş, Göyçə mahalı və Borçalı ərazisi orada yaşayan türk-müsəlman əhali ilə birlikdə respublikanın sərhədlərindən kənarda qalmışdı.

XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazda reallaşmağa başlayan türk-müsəlman dirçəlişi Orta Asiya və Anadolunu ağuşuna alaraq hazırda bütün dünyanı əhatə etməyə başlamışdır. Əli bəy Hüseynzadə dirçəlişin üç aspektini "İttihad, qüvvət, tərəqqi"devizində ifadə etmiş, ittihadı (birliyi) isə "Türkçülük, islamçılıq, avropaçılıq (müasirlik)" dəyərlərinin sintezində görmüşdü.

"Türkçülüyün babası" [2, s.9; 6, s.141] hesab olunan Əli bəy Hüseynzadənin eyni zamanda beynəlmiləlçi və bəşəri şəxsiyyət olması bütün yaradıcılığına sirayət etmişdir O, 1905-ci il hadisələri barəsində "Bundan sonra nə etməli?" sualına belə cavab vermişdi: "...millət və milliyyət tərəfdarlığı etməyib, insaniyyət və səadəti-məmləkət naminə... qeyrət və himmət etməli, ..., millətin heyəti-məcmuəsinə isnad etməyib, ancaq cinayətin faili olan şəxsi, fərdi günahkar bilməlidirlər!" [7, s.112-113].

O, XIX-XX əsrlərdə Avropanın tərəqqisini protestantlıq və xüsusilə də Martin Lüterin xidmətləri ilə bağlayaraq yazırdı: "Bu gün İsveç, Germaniya, Hollanda kimi protestant məmləkətlərində bir fərd yoxdur ki, İncili oxuyub anlamasın. Bu əqvamın, öz Quranlarının mənasından bixəbər qalan müsəlmanlara əxlaq və məişətcə təfəvvüqləri əsbabından biri budur..." [5, s.241].

Müasir dövrdə müsəlman aləminin problemlərindən biri hələ də İslam dininə mənsub insanların böyük bir hissəsində elm və əqidə vəhdətinin olmamasından irəli gəlir. Əqidədə qətiyyət göstərən zümrənin bir qismi elmə maraq göstərmir, elm adamlarının əksəriyyəti isə əqidə məsələsinə ciddi yanaşmır. Əli bəy Hüseynzadən söylədiklərindən 100 il keçməsinə, sələflərimizin müdrik kəlamlarından əsrlər keçməsinə, texnologiyaların həyatın ən həssas sahələrinə daxil olmasına, dünyanın mənzərəsinin tamam dəyişməsinə baxmayaraq, əksər cəmiyyətlərin problemləri köhnədir.

Açar sözlər: Qafqaz, türk-müsəlman dirçəlişi, Əli bəy Hüseynzadə, Azərbaycan

İstifadə edilmiş ədəbiyyat

1. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
2. Göyalp Z. Türkçülüyün əsasları. Tərcümə, ön söz, izah və şərhlərin müəllifi Elman Mustafaoğlu. Bakı: Maarif, 1991, 175 s.
3. Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). Bakı: Qismət, 2009, 408 s.
4. "Həyat"qəzeti. 1906, № 143.
5. Hüseynzadə Ə. Seçilmiş əsərləri. İki cilddə. 1-ci cild. Bakı: Çaşıoğlu, 2008, 580 s.
6. Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.
7. Mustafayev İ., Murtuzayev S. İmam Şamil (tarixi-publisistik oçerk). Bakı: Vətən, 1993, 240 s.

Ирада Зарган

ТЮРКСКО-МУСУЛЬМАНСКОЕ ВОЗРОЖДЕНИЕ В КАВКАЗЕ

Резюме

В статье анализируется вопрос тюркско-мусульманского возрождения на Кавказе в конце XIX – начале XX века и роль Али-бека Гусейнзаде в этом процессе. Рассматривая данный период в контексте времени, пространства и движущих сил, автор выявляет факты, характеризующие тюркско-мусульманское возрождение, и выдвигает научные умозаключения, связанные с этой проблемой. На основе обзора произведений Али-бека Гусейнзаде выявляются его социально-политические взгляды, составляющие основу идеологии возрождения. Отмечается, что ценные мысли Али-бека Гусейнзаде являются основными принципами независимого Азербайджана.

Ключевые слова: Кавказ, тюркско-мусульманское возрождение, Али-бек Гусейнзаде, Азербайджан

İrada Zarqan

THE TURKISH-MUSLIM REVIVAL IN THE CAUCASUS

Summary

The article analyzes the issues of the Turkic-Muslim revival in the Caucasus at the end of the XIX and beginning of the XX century and the role of Ali bey Huseynzade in this process. Considering this period in the context of time, space and driving forces the author reveals the facts characterising the Turkic-Muslim revival and puts forward scientific conclusions related to this problem. Based on a review of the works of Ali bey Huseyzade, the author reveals his social and political view forming the basis of the ideology of revival. It is noted that the valuable thoughts of Ali bey Huseynzade are the basic principles of independent Azerbaijan.

Keywords: Caucasus, the Turkic-Muslim revival, Ali bey Huseynzade, Azerbaijan

UOT – 316.3

Rauf Məmmədov
AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.

ERKƏN EVLİLİK PROBLEMİNİN SOSİOLOJİ TƏDQİQİ

Məqalədə erkən evliliyin gənclərin gələcək həyatında yarada biləcəyi təhlükələr təhlil edilir, onların hansı risklərlə qarşılaşa biləcəkləri araşdırılır. Erkən evliliyin ən ağır fiziki və psixoloji-mənəvi yükünün qızların üzərinə düşdüyü vurğulanaraq, təhsil almaq hüququndan məhrum olan qızların sosial həyatdan təcrid edilməsi və "ər evinə" məhkum edilməsi, patriarxal ənənənin şüuraltı davranışı kimi qiymətləndirilir.

Erkən evlilik (18 yaşdan əvvəl) gənc oğlan və qızın gələcək həyatına bir çox təhlükələr yaradır. Xüsusilə, qızlar bu evlilikdə çox böyük risklərə addım atırlar. Çünki onun nəticələrindən oğlanların qurtulmaq şansı olduğu halda, qızların belə bir risk etmək şansı yoxdur. Erkən evliliyin ən ağır fiziki və psixoloji-mənəvi yükü qızların üzərinə düşür. Təhsil almaq hüququndan məhrum olan qızların sosial həyatdan təcrid edilməsi və "ər evinə" məhkum edilməsi, patriarxal ənənənin şüuraltı davranışıdır. Bu davranış normasında yalnız kişilər deyil, qadınlar da iştirak edirlər. Çünki onlar da, "ər evinə" məhkum edilərək həmin dəyərlərin əsgərlərinə çevrilirlər. Əfsuslar olsun ki, bu cür "ailə divarları" arasında yetişən insanlar sonradan həmin normaları sosial idarəetməyə gətirirlər. Bu gün boşanan, əxlaqsız yollara düşən, cinayət törədən, övladlarını tərk etmək məcburiyyətində qalan, öz valideynlərinin evindən qovulan, qətl edilən, narkomaniyaya qurşanan minlərlə qadınlar arasında erkən evliliyin qurbanı olanlar az deyildir. Onların bu duruma gəlməsinə səbəb, qadının varlığını inkar edən ifrat patriarxallıqdır. O, tarixin qədim çağlarından bu günədək gələn kölelik zehniyyətinin davamıdır. Bütün peyğəmbərlər tarix boyu ona qarşı inqilabi mübarizə aparsalar da, onlardan sonra gələn ruhanilər zümrəsi hakim təbəqələrlə birgə onu dirçəltdilər. Çünki patriarxal hakimiyyətin gücü, itaətkar rəiyyətin köləliyinə bağlıdır.

"Erkən evlilik" və "dini kəbin" anlayışı


"Erkən evlilik" anlayışı əksər hallarda "erkən nikah" kimi təqdim olunur. Lakin bu anlayış yanlışdır. Çünki hər bir nikah, hüquqi aktdır. Erkən evlilik hüquqi akt olmadığı üçün, onun "erkən nikah" kimi səciyyələndirilməsi doğru deyildir.

Bir çoxları erkən evliliyin əsasında dini kəbinin dayandığını düşünürlər. Dini kəbin, yalnız şəriət qanunları ilə idarə olunan ölkələrdə hüquqi statusa malikdir. Dünyəvi qanunlarla idarə olunan ölkələrdə dini kəbinlərin heç bir hüquqi statusu yoxdur. Azərbaycan da dünyəvi dövlət olduğu üçün, burada dini kəbinlər yalnız rəmzi-mənəvi xarakter daşıyırlar.

Nikahın mahiyyəti, ona öz razılıqları ilə daxil olan qadın və kişinin qarşılıqlı vəzifələri, öhdəlikləri və məsuliyyətləri ilə bağlı hüquqlardan ibarətdir. Bu hüquqların təminatına əsas verməyən hər hansı bir nikah müqaviləsinin "dini kəbin" adlandırılması doğru deyildir. Çünki "dini kəbin" bu hüquqları təmin etdiyi təqdirdə mənəvi-əxlaqi xarakter daşıya bilər. Yaxud, bu hüquqları təmin edən hər hansı bir dünyəvi nikah müqaviləsi də dərin mənəvi-əxlaqi keyfiyyətə malikdir. Bu məsələ insan hüquqları ilə bağlıdır. Onun dini və dünyəvi olaraq müxtəlif formatlarda təqdim olunmasının heç bir mənası yoxdur. Lakin cəmiyyətdə bununla bağlı müəyyən stereotiplərin olduğunu nəzərə alaraq, dünyəvi və dini nikahların ayrı-ayrılıqda deyil, vahid bir formatda birləşdirilməsinə ehtiyac vardır. Məsələn, nikah qeydiyyatını həyata keçirən dövlət idarələrində dini nikah mərasimini yerinə yetirən rəsmi ilahiyyatçıların da iştirakı mümkündür. Bu məcburi deyil, könüllü əsaslarla yerinə yetirilə bilər. Bu kimi tədbirlərin gerçəkləşdirilməsi "dövlət nikahı" və "dini kəbin" anlayışları arasında ziddiyyəti ortadan qaldırar və nikah məsələsinə olan məsuliyyətin psixoloji olaraq artmasına səbəb olar.

Azərbaycanda nikah yaşı

Diaqram 1. 2016-cı il yanvar ayının 1-i vəziyyətinə əhalinin cins və yaş tərkibi. (Sayı, qadın və kişilərin bütün əhaliyə nisbəti, faizlə)



Mənbə: http:www.stat.gov.az

Azərbaycanda nikah yaşı 18-dir. Azərbaycan Ailə Məcəlləsinə görə yaşı 18-dən aşağı olan (17 yaş istisna olmaqla) gənclər arasındakı evlilik qeyri-hüquqi statusu olan "erkən evlilik" kateqoriyasına daxil olur. Lakin bəzi üzürlü səbəblər olduqda nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Bu səbəblər daha çox nikaha girmək istəyən tərəflərin ailə vəziyyətləri ilə bağlı olur. Məsələn, onların valideynləri ağır, ölümcül xəstə olduqda, qız hamilə olduqda və s. hallarda tərəflər 17 yaşında nikaha daxil ola bilərlər [1].

Azərbaycanda qadın və kişilərin sayı arasında, demoqrafik inkişaf məsələsində problemlər olmadığı üçün, erkən nikahın heç bir demoqrafik əsası yoxdur.

Niyə görə 18 yaş?

18 yaş, 1989-cu ildə Uşaq hüquqlarına dair Konvensiya tərəfindən ailə qurmaq üçün mümkün yaş kimi müəyyən olunub. Beynəlxalq standartlara görə, erkən yaşda evlənmək insan hüquqlarının pozulması hesab edilir. Azərbaycan 1995-ci ildə "Qadınlara qarşı ayrıseçkiliyinin bütün formalarının ləğvi haqqında" Konvensiyanı ratifikasiya edib. Buna görə də, Azərbaycanda 18 yaş nikaha daxil olmaq üçün yetkinlik yaşı kimi qəbul edilir və ondan aşağı yaş həddində olan evliliklər hüquq pozuntusu kimi dəyərləndirilir.

Cinayət Məcəlləsinin 176-cı maddəsinin 2-ci bəndində nikah yaşına çatmayan insanı nikaha məcbur etməyə görə (ata, ana və qəyyumlar) 4000 manata qədər cərimə və yaxud 4 ilə qədər həbs nəzərdə tutulur. Azərbaycan Cinayət Məcəlləsinə erkən evliliyə məcburetmə maddəsinin əlavə edilməsindən sonra erkən evliliklərin sayında azalma olubdur.

Problemə qarşı mübarizə tədbirləri yalnız qanunvericiliyin təkmilləşdilməsi yolu ilə məhdudlaşmamalıdır. Eyni zamanda, maarifləndirmə tədbirləri genişləndirilməli və problemə qarşı mübarizə gücləndirilməlidir. Bu məsələ ilə bağlı regionlarda maarifləndirmə tədbirləri aparılır.

BMT-nın insan hüquqları çərçivəsində təyin etdiyi həddi-buluğ səviyyəsinin konkret göstəricisi 18 yaşdır. Yəni, bu yaşdan əvvəl bağlanan nikahlar insan hüquqlarının pozulması aktı kimi dəyərləndirilir. Bu yaş həddi orta hesabla gənclərin fizioloji və psixoloji yetkinliyi dövrü kimi qiymətləndirilir. Bu yaş həddi onların bir şəxsiyyət kimi formalaşması məsələsini də ehtiva edir. Çünki şəxsiyyətin yetişməsində əsas rol oynayan ümumi orta təhsilin (10-11 illik) yekunlaşması və vətəndaşlıq hüququnun əldə edilməsi (18) dövrü də məhz 18 yaşda olur. Müasir hüquqi dövlətlərdə təhsil və vətəndaşlıq kimi mühüm sosial məsələlər cəmiyyətin təməl sistemini təşkil edir və ictimai idarəetmə strategiyası bu sistem üzərində bərqərar olur. Bu baxımdan, həddi-buluğ səviyyəsinin konkret 18 yaş həddində müəyyənləşməsi, cəmiyyətin sistemli strateji inkişafına xidmət edən bir addımdır. Bu yaş həddinin 16-15 yaşa endirilməsi ictimai idarəetmə sistemində müəyyən problemlərin ortaya çıxmasına və cəmiyyətin strateji inkişafına mənfi təsir göstərə bilər.

Nikah yaşının 18 yaşından aşağı olması yalnız ictimai idarəetmə sistemində problemlərin ortaya çıxması ilə məhdudlaşmır. Bu, həmçinin, şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. Çünki tibbi araşdırmalar göstərir ki, qızların və oğlanların orta fizioloji-psixoloji həddi-buluğ dövrü təqribən 18 yaşdır. Bu yaş həddindən bir qədər əvvəl və ya gec yetkinlik yaşına çatmış gənclər çoxluq təşkil etmirlər. Bu, onların nikaha 18 yaşından əvvəl daxil olmasına əsas vermir. Çünki həddi-buluğ dövrü yalnız fizioloji-psixoloji amillərlə deyil, həmçinin vətəndaşlıq hüququnun əldə edilməsi ilə müəyyənləşir. Vətəndaşlıq hüququ olmayan şəxsin nikaha daxil olmaq hüququ da yoxdur. Deməli, erkən evlilik, şəxsiyyətin insan hüquqlarının pozulmasına və onun istismar olunmasına şərait yaradan qeyri-qanuni aktdır.

Həddi-buluğ səviyyəsi konkret yaş həddi ilə məhdudlaşdırıla bilməz. Eyni məkan və zamanda yaşayan insanların fizioloji və psixoloji baxımdan bir-birindən fərqli olduqları heç kimə sirr deyildir. Bu fərqlilik coğrafiyalara görə də dəyişir. Məsələn, qızlar üçün rəsmi nikah yaşı bir çox ərəb ölkələrində 16-17 yaş kimi müəyyənləşdirilibsə, Çin üçün bu yaş həddi 20-dir. Bu baxımdan, bu məsələ nisbi xarakter daşıyır. Lakin, bu nisbiliyin konkretləşməsi dövlət siyasətində öz əksini tapmalıdır.

Şəxsiyyətin ümumi icbari təhsilini yekunlaşdırdığı və vətəndaşlıq hüququnu əldə etdiyi yaş dövrü həddi-buluğ səviyyəsinin konkret göstəricisi olmalıdır. Çünki vətəndaşlıq hüququ olmayan şəxsin rəsmi evlənmək hüququ da yoxdur. Nikah, hüququ dövlətdə və şəriət hüququnda hüquqi bir akt olduğu üçün, qeyri-hüquqi şəxsin nikah müqaviləsinin bağlanmasında hüquqi tərəf kimi iştirak etməsi mümkün deyildir. Buna görə də hüquqi dövlətdə olduğu kimi, şəriət hüququnda da bu məsələyə aydınlıq gətirilməsi zəruri olmuşdur.

Bu gün şəriət ilə və ya dünyəvi hüquq sistemi ilə idarə olunan bir çox müsəlman dövlətləri həddi-buluğu (rüşd) müəyyən yaşlarda ifadə ediblər. Bu dövlətlər arasında yaş həddi qoymayan dövlətlər də vardır. Lakin bu dövlətlərdə şəxslərin həddi-buluğ səviyyəsi ilə onların təhsil və vətəndaşlıq hüquqları arasında münasibətlərin tənzimlənməsi məsələsinin uzlaşdırılması siyasəti araşdırılmalıdır. Beynəlxalq statistika qurumları BMT-nın insan hüquqları çərçivəsində müəyyənləşdirdiyi 18 yaş həddi-buluğ yaşından aşağı bağlanan bütün nikahları insan hüquqlarının pozuntu halı kimi dəyərləndirir. Bu da doğru yanaşma deyildir. Əgər dövlət nikah yaşının 17 həddində müəyyənləşdiribsə və dövlət siyasətini insan hüquqlarını pozmamaq şərti ilə bu təməl üzərində formalaşdırıbsa, bunu BMT-nın qərarına uyğun gəlməməsini əsas götürərək hüquq pozuntusu kimi qiymətləndirmək olmaz. Bu baxımdan, bu statistik göstəricilərdə nikahların hansı yaşlarda bağlanması səviyyəsi öz əksini tapmalıdır. Lakin 14-15 yaşlarda bağlanan nikahlar vətəndaş hüquqları, fizioloji və psixoloji baxımdan insan hüquqlarını birmənalı şəkildə pozur.

Azərbaycanda evlənmə yaşı 18 yaş üzərində (17 istisna olmaqla) formalaşmışdır. Lakin ölkədə nikaha daxil olanların orta yaş həddi qızlar arasında 23-24, oğlanlar arasında isə 27-28 hesab olunur. Birinci nikaha daxil olanların orta yaş həddi qızlar arasında 22-23, oğlanlar arasında isə 26-

27-dir. 1989-2015 illər arasında müşahidə olunan dinamika göstərir ki, nikaha daxil olmaq üçün orta yaş həddi həm oğlanlar, həm də qızlar arasında tədricən artır (təqribən 2 yaş). Ancaq, evlilik yaşının tədricən qalxması da müsbət hal kimi qiymətləndirilə bilməz. Çünki, tibbi araşdırmalar sübut edir ki, qadınların ana olmaq riski də tədricən cavanlaşır.

Cədvəl 1. Rəsmi orqanlar tərəfindən qeydə alınmış nikaha daxil olanların orta yaşı, yaş sayı [2]

İllər *Year*	Nikaha daxil olanların orta yaşı *Average age at marriage*		1-ci nikaha daxil olanların orta yaşı *Average age at the 1st marriage*	
	qadınlar *women*	kişilər *men*	qadınlar *women*	kişilər *men*
1989	23,7	27,0	22,8	25,7
1990	24,3	27,4	23,2	26,2
1991	23,3	26,8	22,9	26,2
1992	23,2	26,7	22,7	25,9
1993	22,8	27,0	22,3	25,9
1994	22,9	27,3	22,3	24,2
1995	23,0	27,5	22,9	26,5
1996	23,3	28,0	22,6	26,6
1997	23,2	28,0	22,6	26,8
1998	23,3	28,1	22,6	26,6
1999	23,5	28,4	22,9	27,1
2000	23,6	28,4	23,1	27,3
2001	23,6	28,4	23,1	27,3
2002	23,8	28,6	23,4	27,6
2003	23,7	28,6	23,3	27,6
2004	23,7	28,5	23,3	27,5
2005	23,7	28,4	23,4	27,5
2006	23,5	28,2	23,3	27,5
2007	23,5	28,1	23,3	27,4
2008	23,4	28,0	23,1	27,3
2009	23,4	28,0	23,1	27,3
2010	23,4	27,9	23,1	27,3
2011	23,7	28,3	23,4	27,6
2012	24,0	28,4	23,7	27,6
2013	24,0	28,4	23,7	27,7
2014	24,1	28,6	23,7	27,6
2015	24,1	28,6	23,6	27,5

Mənbə: http:www.stat.gov.az


Azərbaycanda erkən evlilik məsələsinin tədqiqi

Azərbaycanda erkən evlilik məsələsinin tədqiqi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, gender problemləri ilə əlaqədar olan bir çox QHT-lər və elmi idarələr, gender və insan hüquqları ilə bağlı beynəlxalq təşkilatlar (UNİCEF) məşğul olurlar. Onların təqdim etdiyi so-

sioloji araşdırmalar və statistik məlumatlar ölkədə müvafiq problemlərlə bağlı mənzərəni görməyə və onunla strateji mübarizə aparmağa imkan yaradır. Biz bu məqalədə, UNİCEF və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim edilən araşdırmanın nəticələrindən istifadə edərək ölkədə erkən evliliklə bağlı problemin mənşəyini müəyyənləşdirməyə çalışmışıq.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən respublikanın 4 bölgəsində - Bakı, Abşeron, Quba və Ağstafada araşdırma aparılıbdır. Rəsmi rəqəmlərə əsaslanaraq demək olar ki, son 16 ildə Azərbaycanda 50.976 erkən evlilik olmuşdur. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin araşdırmalarına görə, Azərbaycanda erkən evlənənlərin yaş həddi əsasən 15-17 yaş arasındadır. 18 yaşdan aşağı bütün evliliklər insan hüquqlarının pozulmasını ifadə edən "erkən evlilik" (və ya "erkən nikah") kateqoriyasına aid edilir.

Qrafik 1. 15-17 yaş arasında müşahidə olunan erkən evlilik halları (illərə görə say ilə)



Diaqramdan göründüyü kimi, 15-17 yaş həddində olan erkən evlilik halları 1995-1996 illərdə sürətlə 2000-dən 3000-ə yüksəlmiş və sonra 2000-ci ilədək azalan xətt üzrə davam etmişdir. Lakin, 2001-ci ildən yenidən yüksələn xətt üzrə inkişaf edərək 3500-ə çatmışdır. Konkret statistika rəqəmlərin aşağıdakı kimi olduğunu göstərir (cədvəl 2).

Erkən evliliklər (illərə görə sayları)

Cədvəl 2.

İllər	Nəfər	**İllər**	Nəfər	**İllər**	Nəfər
1999	2649	**2004**	3214	**2009**	5380
2000	2473	**2005**	4016	**2010**	4883
2001	2348	**2006**	4607	**2011**	5138
2002	2140	**2007**	5023	**2012**	295
2003	2556	**2008**	5544	**2013**	229


Mənbə: [1]

Göründüyü kimi, 1999-cu ildən erkən evliliyin sayı 2012-ci ilədək artan dinamika üzrə inkişaf etmişdir. 2012-ci ildən bu dinamika kəskin şəkildə aşağı düşmüşdür. Bunu hüquq orqanlarının bölgələrdə apardığı cəza tədbirləri ilə də əlaqələndirmək olar. Azərbaycanda 2012-ci ildən başlayaraq bununla bağlı hüquq mühafizə orqanları ciddi tədbirlər görmüşlər. 2015-ci ildə erkən evlilik hallarına görə 52 cinayət işi açılmışdır. Bu cür təbdirlərin həyata keçirilməsi öz effektini verirsə, maarifçilik tədbirləri ilə yanaşı, onları da tətbiq etmək vacibdir.


Sovet dövründən əvvəl erkən evlilik Azərbaycanda adi hal idi. SSRİ dövründə sosializm ideologiyası, icbari təhsil və işsizliyin aradan qaldırılması bu tendensiyanı kəskin şəkildə azaltdı. Lakin müstəqillik dövründən sonra sovet ideologiyasının çökməsi ənənəvi dəyərlərin inkişafına şərait yaratdı. Erkən evliliklər də məhz bu dövrdən başlayaraq fəallaşdı. Bunun mentalitetdə izi olduğu üçün, onun yenidən fəallaşması mümkündür. Araşdırmalar da bunu təsdiq edir.

Azərbaycanda erkən evlilik faktlarının 39%-i şəhər, 61%-i isə kənd yerlərində qeydə alınıb. Tovuz, Gəncə, Ağstafa, Qazax erkən evliliklərin ən az qeydə alındığı bölgələrdir. Lakin Quba, Bakı-Abşeron, Lənkəran bölgələrində erkən evliliyə pozitiv münasibət bəsləyənlər çoxluq təşkil edirlər. Azərbaycanın müxtəlif regionlarında 488 respondent arasında aparılan araşdırmalarda "Erkən evlilik sizin bölgədə artır, yoxsa azalır?" (Diaqram 2) və yaxud "Erkən evliliyə münasibətiniz necədir?" (Diaqram 3) - suallarına verilən cavablar göstərir ki, bu tendensiya potensial olaraq mövcuddur.

Diaqram 2. Sizcə, erkən evlilik sizin bölgədə artır?




Diaqram 3. Erkən evliliyə münasibətiniz necədir?



Mənbə: [2]

Respondentlərin əksəriyyətinin erkən evliliyin bölgədə artdığını təsdiqləməsi bir daha təsdiq edir ki, problem statistikada olduğundan daha dərin xarakterə malikdir. Çünki yerli əhalinin bildiyi faktların çox az hissəsi öz əksini statistikada tapır. Xüsusilə, erkən evliliyin qanun pozuntusu kimi dəyərləndirilməsi, onun müəyyən edilməsində çətinliklər yaradır. Əhali arasında erkən evliliyə pozitiv münasibət daha çox üstünlük təşkil edir (55%-59%). Lakin bu münasibət bölgələrə görə dəyişir. Araşdırılan bölgələr arasında erkən evliliyə ən çox neqativ münasibət Ağstafada (67%), ən az isə Quba (13%) və Bakı-Abşeron bölgələrində (14%) müşahidə olunur (Diaqram 4).


Diaqram 4. Bölgələrdə erkən evliliyə neqativ münasibət



Mənbə: [2]

Erkən evliliyə pozitiv münasibətin ən çox yayıldığı bölgələrdə patriarxal ənənələr daha güclüdür. Çünki, araşdırmalara görə, həmin bölgələrdə erkən ailə quran qızların əksəriyyəti valideynlərinin razılığı və ya onların təkidi ilə ərə gediblər. Bu qadınların 83%-i öz razılıqları olmadan bu evliliyə cəlb olunduqlarını, yalnız 17%-i öz istəkləri ilə evləndiklərini bildirirlər. Bəzən bu cür evliliklərin 19%-i qızların qaçırılması ilə nəticələnir. Qaçırılan qızların 13%-i öz razılıqları, 6%-i isə razılıqları olmadan baş tutur. Bu evliliklərin baş tutmasında ataların rolu (53.5%) daha böyükdür (Diaqram 5).


Diaqram 5. Erkən evlilikdə ailə üzvlərinin rolu



Mənbə: [2]


Qərar qəbuletmə prosesində kişilərə (53.5%) nisbətən qadınların az iştirak etmələri (6%) patriarxal ənənələrin güclü olduğunu göstərir. Araşdırmalar göstərir ki, qadınların qərarvermə prosesində rolu yaşının artması ilə artır (Qrafik 6).

Qrafik 2. Qərar qəbuletmə prosesində qadınların yaşa görə rolu




Erkən evlilik hadisələrinin yoxsul və təhsil səviyyəsi aşağı olan insanlar arasında geniş yayılması danılmaz faktdır. Lakin problemin kökünü məhz bu problemlərlə əlaqələndirmək yalnış olardı. Sosial-iqtisadi problemlər bəhs olunan problemlərə öz təsirini göstərirlər. Komitənin məlumatına görə, erkən ailə quran qızların valideynlərinin sosial tərkibi araşdırılarkən məlum olub ki, bu qızların 31.9%-nin atası kənd təsərrüfatı işçisi, 17% fəhlə, 10% nəqliyyat işçisidir. Qızların 53.7%-nin anası evdar qadın, 18% kənd təsərrüfatı işçisidir. Həmin qızlarla evlənən kişilərin 21% kənd təsərrüfatı, 14% ticarət, 10% nəqliyyat sektorunda çalışır, 13% fəhlə, 7% işsizdir. Lakin erkən evliliklə ərə gedən qızların 37%-i oğlan evinin iqtisadi durumunun onun ailəsinin iqtisadi durumundan yaxşı olduğunu, 49%-i orta olduğunu, 14%-i isə pis olduğunu bildiribdir. Qızlarını bu evliliyə vadar edən valideynlərin motivasiyalarının bir qismi öz qərarlarını ailənin iqtisadi vəziyyəti (7%), öz seçimi (19%), adət-ənənələr (29%), qızının xoş gələcəyini istəməsi ilə (45%) bağlayırlar (Diaqram 6.)


Diaqram 6. Erkən evliliyin motivasiyaları.




Diaqram 7. Erkən evliliyə daxil olan qız və oğlanların təhsil səviyyəsi.



Diaqram 8. Erkən evlilikdə olan qızların analarının atalarının təhsil səviyyəsi



Diaqram 9. Erkən evlilikdə olan qızların təhsil səviyyəsi



Mənbə: [2]

Araşdırmalara görə, erkən evlilik hadisələri xüsusən kənd yerlərində (Bakı kəndləri də daxil olmaqla) və şəhərdə məskunlaşan kəndlilər arasında geniş yayılır. Çünki, urbanizasiya proseslərinin episentrlərində formalaşan müasir dünyagörüşü sistemi, bu cür halların ortaya çıxmasına şərait yaratmır. Bura, bölgələrlə müqayisədə şəhərlərdə inkişaf etmiş təhsil sistemi, intensiv sosial münasibətlər, geniş informasiya məkanı, nisbətən sosial-iqtisadi durumun üstünlüyü və digər hallar aiddir. Qlobal sivilizasiya dəyərlərinin şəhərlərdə sürətlə yayılması ənənəvi təfəkkürün ortadan qalxmasını təmin edirsə, bölgələrdə bu proses ləng gedir. Bunun müsbət tərəfləri ilə yanaşı, mənfi tərəfləri də vardır. Ənənələrdəki mənfi hallardan biri olan erkən evlilik hadisəsinin azalması üçün, bölgələrin müasirləşməsinə, sosial-iqtisadi inkişafına və gender sahəsində maariflənməsinə ehtiyac vardır [3].

Bölgələrin mədəni problemlərinin həllində sosial-iqtisadi inkişaf məsələləri xüsusi önəm daşıyır. Çünki bölgələrdə işsizlik problemi və bununla bağlı olaraq əmək qabiliyyətli kişi əhalisinin şəhərlərə, başqa ölkələrə əmək miqrasiyası etməsi erkən evlilik məsələlərinin ortaya çıxmasında öz payı vardır. İlk növbədə kiçik və orta sahibkarlıq fəaliyyətinin, turizmin inkişaf etdirilməsi, bölgə gənclərinin bu işlərdə fəallığının təmin olunması problemlərin həllində mühüm rol oynaya bilər. Bu, immiqrasiyada olan məhsuldar qüvvələrin öz evlərinə dönməsini, bölgələrdə sosial-iqtisadi və mədəni durumun inkişaf etməsini, nəticədə, erkən evlilik məsələlərinə təsir edən demoqrafik tarazlığın bərpa olunmasını təmin edər. Azərbaycanda 1975-2015-ci illərdə şəhər və kənd əhalisi üzrə ümumi nəsilvermə əmsalının 3.74%-dən 2.1%-ə düşməsi (DSK), 2000-2015-ci illərdə abortların sayının 7.8%-dən 10.3 %-ə yüksəlməsi (DSK), 1960-2015 illərində boşanmaların sayının 0.7%-dən 1.3%-ə qalxması (DSK) bunu düşünməyə əsas verir.

Erkən evliliyin FƏSADLARI:

- *Fiziki təhlükə*

Müşahidələr və statistik məlumarlar təsdiq edir ki, erkən evliliklə bağlı doğuş zamanı körpənin və ya ananın sağlam olmaması və ya ölməsi ehtimalı yüksəkdir. Erkən hamiləliyin baş verməsi riski vardır. Çünki, həddi-buluğa çatmayan qızlar fiziki və psixoloji baxımdan bu prosedurlara hazır olmurlar.

15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 2008-ci ildə 3633, 2009-cu ildə 3538,

2010-cu ildə 4103, 2011-ci ildə 4392, 2012-ci ildə 3236, 2013-cü ildə 2855, 2014-cü ildə 3296 olmuşdur. Son illərdə 15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 21.420 nəfər olubdur. Bununla yanaşı 2000-2015-ci illərdə ana ölümlərinin sayında da artım müşahidə olunmuşdur (Cədvəl 3).


2000-2015-ci illərdə şəhər və kənd yerləri üzrə 15-19 yaşda qadınların doğum əmsalı (hər 1000 qadına düşən diri doğulanların sayı)

Cədvəl 3.

İllər *Year*	Cəmi *Total*	Şəhər yerləri *Urban places*	Kənd yerləri *Rural places*
2000	29,0	20,4	37,9
2001	26,4	19,6	33,4
2002	26,2	19,4	33,4
2003	27,7	19,7	36,2
2004	35,0	32,4	49,1
2005	41,1	28,7	53,0
2006	44,0	30,8	57,4
2007	46,0	31,6	60,6
2008	50,2	31,1	76,7
2009	49,5	30,0	75,7
2010	60,0	38,2	88,6
2011	56,7	39,4	74,5
2012	53,3	35,6	72,8
2013	47,2	36,0	56,5
2014	52,9	35,2	70,1
2015	52,4	35,1	69,0

Mənbə:[2]

Qrafik 2. Azərbaycanda ana ölümlərinin səviyyəsi (%-lə)



Mənbə:[2]

Erkən evlilikdə olan şəxslər rəsmi dövlət qeydiyyatından keşmədikləri üçün, *tibbi arayışa* malik olmurlar. Bu, sonradan meydana çıxmaq ehtimalı olan genetik, xroniki xəstəliklərin qarşısının alınmasına, sağlam nəslin dünyaya gəlməsinə maneçilik törədir. Hər hansı bir fiziki fəsadın ortaya çıxması isə, tədricən ağır psixoloji problemlərin yaranmasına səbəb olur.

-Psixoloji təhlükə

Erkən evliliyə məcbur edilən qızlar ailənin mənəvi-psixoloji, eyni zamanda fiziki yükünü

çəkməyə hazır olmurlar. Çünki ana olan qızların özləri anaya möhtacdırlar. Onlar öz yaşıdları ilə birgə əylənməyə, vaxt keçirməyə, analarının qayğısına ehtiyacları olduqları halda, bunlardan və cəmiyyətdən təcrid olunmaq məcburiyyətində qalırlar. Onlar yeni yaranmış psixoloji mühitə adaptasiya olmaqda çətinlik çəkirlər. Əgər, onların həyat yoldaşları və ətrafındakı insanlar mövcud durumu düzgün dəyərləndirə bilməsələr, gənc qızların psixoloji problemləri yarana bilər.

-Boşanma riski

Müşahidələr və statistik məlumarlar təsdiq edir ki, erkən evliliklə boşananların sayı üstünlük təşkil edir. Çünki ortada hüquqi nikahın gətirdiyi məsuliyyət hissi yoxdur. Bu evlilikdə olan kişilər aliment verməyəcəklərini, mülkiyyətinin bir qismindən məhrum olmayacaqlarını, heç bir hüquqi məsuliyyət daşımayacaqlarını bildikləri üçün asanlıqla boşanmaya gedirlər.

Erkən evlilikdə boşanma halları bölgələrə görə fərqlənir.

Boşanma hallarında (yaxud, ərləri əmək qabiliyyətini itirəndə, gənc yaşda vəfat edəndə) qadınlar özlərini və uşaqlarını maddi baxımdan təmin etməkdə problemlərlə üzləşirlər. Ailə dağılanda həmin qadın nə aliment ala bilir, nə də övladlarının atalarının evində yaşamaq hüququnu təmin edə bilir. Nikah olmadığına görə, o, övladlarının doğumunu və valideynliyini rəsmiləşdirə bilmir, bundan başqa həyat yoldaşının evinə qeydiyyata düşə bilmir. Buna görə də uşaqlar heç bir gəlir mənbəyi olmayan ananın öhdəsində qalır. Nəticədə, qızını erkən ərə verib xərclərini azaltmaq istəyən ailə, qızının övladlarını da böyütmək məcburiyyətində qalır. Bəzi hallarda boşanan bu qızlar öz problemləri ilə baş-başa buraxılırlar. Çarəsiz qadınların insan alverinin qurbanlarına çevrilmək riski yüksəkdir. Statistik göstəricilər bunu təsdiq edir.

Bu kimi hallarda və ya qadın yenidən ərə gedərkən əksər hallarda öz övladlarından imtina edir və onları yiyəsiz buraxırlar. Bu özünü azyaşlı qızların abort əməliyyatlarında və kimsəsiz uşaqların artmasında göstərir. Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Mamalıq Ginekologiya İnstitutunun məlumatına görə, 2011-ci ildə Azərbaycan üzrə yeniyetmə qadınlar arasında qeydə alınan abortların sayı 1204 olmuşdur. Onlardan 15-17 yaş arası 135 nəfər, 18-19 yaş arası isə 1069 nəfərdir.

-Təhsilsiz və işsiz qalmaq riski

Erkən evlilik əsasən qızların təhsil imkanlarını məhdudlaşdırır, onların sonralar işlə təmin olunmasında bir çox problemlər yaradır, onları peşəkar və həyat bacarıqlarının əldə edilməsi üçün hər hansı imkanlardan məhrum edir.

Araşdırmalar göstərir ki, erkən yaşda ərə gedən qızların yalnız 2 %-i təhsilini davam etdirir (Diaqram 10).

Diaqram 10. Erkən evlilikdən sonra qızların təhsilini davam etdirmə səviyyəsi



Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) məlumatlarına görə, 2014-cü ildə 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin (cari ilin məzunları) 53,67%-ni (60042

nəfər) oğlanlar, 46,33%-ni (51 826 nəfər) qızlar təşkil edib. 11-ci siniflər üzrə buraxılış imtahanında isə mənzərə bir qədər fərqli olub və imtahanda iştirak edən şagirdlərin 55,96%-ni (46501 nəfər) oğlanlar, 44,04%-ni (36 592 nəfər) qızlar təşkil edib. Qeyd olunub ki, ölkə üzrə hər iki imtahanda oğlan və qız şagirdlərin nisbəti bir-birinə yaxın olsa da, ayrı-ayrı bölgələr üzrə bu göstəricilər arasında kəskin fərqlər müşahidə olunur. Cənub rayonlarında (Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad və Masallı rayonları) 9-cu sinif şagirdlərinin 47,73 faizini qızlar təşkil edibsə, 11-ci sinif şagirdləri arasında bu göstərici 39,04 faizə bərabər olub. 11-ci sinifdə şagirdlərin sayında qızların payı kəskin şəkildə azalıb. Cənub rayonlarında qızların təhsildə sayının azalmasının əsas səbəbi bu region üçün xarakterik olan erkən evlilik məsələsi ilə bağlıdır.

Açar sözlər: nikah, erkən evlilik, ailə, təhsil, boşanma

İstifadə edilmiş ədəbiyyat

1. Study on early marriages in Azerbaijan 2007.
https://www.unicef.org/azerbaijan/Brochure_Eng.pdf
2. Dövlət Statistika Komitəsi (DSK). http://www.stat.gov.az/source/gender
3. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. http://scfwca.gov.az/?lang=en

Рауф Мамедов

СОЦИОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ ПРОБЛЕМ РАННЕГО БРАКА

Резюме

В статье анализируется возможные опасности в жизни молодежи в связи ранним браком, раскрываются возможные в этой связи риски. Отмечается, что тяжелая физическая, психологическая, моральная нагрузка в связи с ранним браком падает на плечи девушек. Ранние браки лишая права девушек на образование изолируют их от общественной жизни приговаривает к дому мужа и рассматривается как заговор патриархальной традиции.

Ключевые слова: брак, ранний брак, семья, образование, развод

Rauf Mammadov

SOCIOLOGICAL STUDY OF EARLY MARRIAGE PROBLEMS

Summary

The article analyzes the dangers of early marriage in the future life of young people, examines the risks they face. İt is noted that heavy physical, psychological-spiritual burden falls on the girls. Early marriage deprives the girls of their right to education, isolates them from social life and convicts them to the "husband`s house". And all these are considered as the behavior of the patriarchal tradition.

Keywords: marriage, early marriage, family, education, divorce

UOT – 316.42

Kurt Faruk
Bakı Dövlət Universiteti, doktorant

MULTİKULTURALİZMİN MODELLƏRİ VƏ YENİ BİR MODEL OLARAQ MURRAY BUKÇİN ANLAYIŞI

Məqalədə müasir dövrün ən aktual məsələlərindən hesab olunan multikulturalizm anlayışının modelləri araşdırılır. Həm dövlətlərin bu problemə dair siyasətləri, həm də multikulturalizm modellərinin hamısını özündə birləşdirən Murray Bukçinin İctimai ekoloji modeli ətrafında fikir mübadiləsi aparılır. Bu model 2006-cı ildə vəfat edən İctimai ekologiyanın qurucusu olan Murray Bukçinin adı ilə bağlıdır. Qeyd olunur ki, həm səbəb, həm də nəticəyə yönümlü bir model olduğu üçün daha faydalı və bu problemi hərtərəfli həll etməyə istiqamətlənən bir modeldir. Məqalədə bu modelin daha çox araşdırılması və təcili olaraq həyata keçirilməsinin zəruriliyi vurgulanır.

Qlobal istiləşmənin və iqlim dəyişikliklərinin daha güclü hiss edildiyi bu günlərdə milyonlarla insan yerini məcburi şəkildə dəyişməkdədir. Bununla yanaşı insanlar yoxsulluq, müharibələr, ictimai ədalətsizlik və etnik-dini qarşıdurmalarla da tez-tez qarşılaşmaqdadır. Hansı mərhələsində olmamızdan asılı olmayaraq Kapitalizm bu gün dünyəvi dəyərləri yox etməkdə, ictimai və psixoloji həyatımızı böyük ölçüdə yoxsullaşdırmaqda və tənəzzülə doğru sürükləməkdədir. Bu prizmadan baxdıqda kapitalizm həm fərdi, ictimai və həm də təbii həyatı çətinləşdirməkdədir [8, s.1]. Bütün bunlarla yanaşı, XXI əsrdə ekoloji və multikultural problemlər də özünü aşkar şəkildə biruzə verir. Bu məqalədə həm dövlətlərin bu məsələlərə dair siyasətləri, həm də bu modellərin hamısını özündə birləşdirən Murray Bukçinin İctimai ekoloji modeli ətrafında fikir mübadiləsi aparılmışdır. Çünki bu model həm multikulturalizmin daha əhatəli bir şəkildə analizini təqdim etməyə, həm də yalnız köçkünlərin deyil, bütün insanların bir arada yaşaya biləcəyi yeni bir cəmiyyət yaratmağa xidmət edir.

Multikulturalizm məsələsinə münasibətdə ölkələr arasında yaxınlaşmalar müşahidə olunsa da, problemlərin həlli üsulları hər ölkədə özünəməxsus xarakter daşıyır. Buna görə də bu özünəməxsus modellər içərisində ilk olaraq İsveçrə modelini nəzərdən keçirək. İsveçrənin dil müxtəlifliyini bir mədəni siyasət hadisəsi kimi mənimsəməsinin əsas səbəbi bu ölkədə yaşayan etnik qrupların fərqli dillərdə danışmasıdır. Həmçinin ölkə ərazi baxımından kiçikdir – fransızca danışanlar, əsasən, ölkənin qərb hissəsində yaşamaqdadırlar. İtalyan və roman dillərində danışan etnik qruplar, əsasən, Alp dağlarının cənubunda və cənub-şərq yaylalarında məskunlaşmışlar.

İsveçrə konstitusiyasına görə alman, fransız və italyan dilləri ölkənin rəsmi dilləridir. Keçən il keçirilmiş referendumun nəticələrinə görə roman dili (İsveçrə romancası) də rəsmi dil olaraq qəbul edilmişdir. Ancaq ölkənin 1 faizdən də az əhalisinin dili olan roman dilinin rəsmi dil olaraq istifadəsi üçün qanunvericilik bazası hazırlanmalıdır.

Bir qayda olaraq, qanun mətnlərinin qüvvəyə minməsi üçün onların bütün rəsmi dillərə tərcümə edilməsi labüddür. Federal hökumətlə əlaqə zamanı hər bir vətəndaş öz dilindən istifadə etmək hüququna malikdir. Parlament protokolları ölkədəki bütün rəsmi dillərə tərcümə edilir. Federal hökumət nümayəndələri bütün yazılı müraciətlərə həmin müraciətin yazıldığı dildə cavab verməyə borcludurlar. Oxşar qanun Federal Məhkəmə üçün də keçərlidir. Yəni onlar da yazılmış müraciətləri eyni dildə verdikləri qərarla cavablandırılmalıdır. Dil azadlığı Federal Məhkəmənin zəmanəti altındakı əsas azadlıqlardan biridir. Bunun nəticəsi olaraq, İsveçrədə hər kəs şəxsi və ictimai həyatında öz seçimi olan dili istifadə edə bilməkdədir.

Dil azadlığı, Federal Məhkəmənin də qəbul etdiyi və yazılmamış bir qanun olaraq əyalət (torpaq suverenliyi) səviyyəsində qismən məhdudlaşdırılmışdır. Bu qismən məhdudlaşdırmanın məqsə-

di isə etnik dillərin ənənəvi yaşayış bölgələrində qorunub saxlanmasıdır. Dil müxtəlifliyi İsveçrə Dövlət (siyasi) Sisteminin əsas prinsiplərindəndir. Cəmiyyət və dövlət, bu qanunu qorumağı, plüralist demokratiyanı qorumaqla ekvivalent görməkdədir. Fransız və italyan dillərində danışan kantonlarda bu dillər, həm məktəbdə, həm ictimai həyatda istifadə edilməkdədir. Hər üç dilin qarışıq istifadə edildiyi kantonlarda isə Federal səviyyədə qəbul edilmiş qaydalar tətbiq edilir. Bələdiyyələr isə, ümumiyyətlə, çoxluq prinsipinə əsaslanır. Ticino və Graubünden Kantonları bir azlıq dili olan İtalyan və Roman dillərini qorumaq və inkişaf etdirmək üçün Federal Hökumətdən maddi yardım alırlar. İsveçrənin təqdim etdiyi çox mədəni cəmiyyət modelinin üzərində dayandığı üç sütun vardır: 1. Federalizm; 2. Dil müxtəlifliyi və azadlığı; 3. Etnik azlıqların, azlıq hüquqlarına deyil, əksəriyyət (yəni bərabər vətəndaşlıq) hüquqlarına tabe edilməsi üçün onların təmsil imkanlarının artırılması.

İsveçrə bunu qanunvericilik, icra, məhkəmə və yayım-tədris dili sahələrində həyata keçirmək məqsədi ilə qanuni-təşkilati infrastruktur yarada bilmişdir [7, s.165]. Yeni İsveçrə Konstitusiyası da, din və vicdan azadlığını (Maddə15) zəmanət altına almışdır. Bütün bu təminatların ortaq səbəbi isə "insanın inancının varlığının özünü meydana gətirməsi və bu xüsusiyyəti ilə də dövlət hakimiyyətinin yaxud da digər ictimai güclərin davamlı təzyiqinə qarşı vətəndaşların qorunmasına ehtiyacın olmasıdır" [12, s.2]. Əslində bu, heç də bir möcüzə deyil, ağıllı və realist bir seçimdir. Cəmiyyətin yanaşmasından asılı olaraq bu ayrı-seçkiliyə və yaxud da əksəriyyətin təzyiqinə çevrilə bilər.

Bununla yanaşı İsveç azlıqlar siyasətinin əsas prinsiplərini ilk dəfə 1975-ci ildə formalaşdırmış və bu prinsipləri 1986-ci ildə bir daha təsdiq etmişdir. Buna görə azlıqlar siyasəti üç əsas prinsipə söykənmişdir.

Birinci qanun seçmə azadlığıdır. Bu qanun mədəni və dil fərqliliklərin hansı istiqamətdə inkişaf edəcəyinə köçkünlərin özlərinin qərar verməsini ifadə etməkdədir;

İkinci prinsip bərabərlikdir. Buna görə immiqrantlar, digər İsveçlilər kimi bərabər həyat standartlarına sahib olmalıdırlar.

Üçüncü qanun isə İsveç cəmiyyəti ilə immiqrant qruplar arasındakı əməkdaşlığı nəzərdə tutur. Əməkdaşlıq-köçkünlərin öz gələcəklərini qurarkən siyasi proseslərdə iştirakını, İsveç cəmiyyəti ilə qarşılıqlı anlayış və həmrəyliyini ifadə edir [6, s.163].

İsveçdən fərqli olaraq Fransada ana dili təhsili 1980-cı illərin əvvəllərindən immiqrant qrupların öz ölkələrinin konsulluqları tərəfindən təşkil edilmişdir. Ana dili təhsili valideynlərin tələblərindən daha çox konsulluqların istəyi və Fransa Təhsil Nazirliyinin əməkdaşlığı ilə başladılmışdır. Bu təhsili verən müəllimlər məktəblər tərəfindən təyin edilməklə yanaşı, konsulluqlar tərəfindən təmin edilməkdə və əmək haqları qarşılanmaqdadır. Təməl təhsildə minimum iştirak mövzusunda qəti qaydalar yoxdur. Burada məktəblər, nazirlik və konsulluq arasındakı xüsusi razılaşmalar təyin edici rol oynayır. Orta təhsildə 5-8 şagirdin iştirakı vacib şərtlərdəndir.

2000-ci illərdə Fransada etnik azlıqlar siyasəti, bütünləşməkdən daha irəliyə gedən və daha çox uyğunlaşma (adaptasiya) olaraq xarakterizə edilən yeni bir mərhələyə qədəm qoymuşdur. Burada yeni gələn immiqrantlara "inteqrasiya müqavilələri" yolu ilə daha çox Fransız dili kursları verilərək təhsilə istiqamətləndirilərkən, məskunlaşmış immiqrant və etnik azlıqların da Fransada etibarlı olan ortaq dəyər və normalara uyğunlaşmaları əsas götürülür.

Almaniyada isə yaşayan immiqrantların cəmiyyətə uyğunlaşmasının dəstəklənməsi məqsədilə Berlində təşkil edilən beşinci Adaptasiya Konfransının, əslində Alman hökumətinin immiqrantlara qarşı tətbiq etdiyi siyasətin əsasını təşkil etdiyini qeyd edə bilərik. "İmmiqrantlardan nə qədər uyğunlaşma gözlənilməli, bu mövzuda məntiqsizlik harada, hansı nöqtədə başlayır?" kimi suallar, fərqli mədəniyyətə sahib immiqrantların cəmiyyətə uyğunlaşma probleminin həll edilməsi məqsədi ilə verilir. Qaçqınların, məktəbdə almanlara nisbətdə təhsil səviyyələrinin daha pis olması, məşğulluq bazarında çətinliklə üzləşmələri və üçüncü nəsildən bir çox uşağın belə hələ də doğru-düzgün alman dilində danışa bilməməsi kimi problemlər, almanlar tərəfindən gündəmə gətirilən ən əhəmiyyətli problemlərdir. Dil öyrənmə, təhsil və idman kimi sahələrdə köçkünlərin dezavantajlarının qar-

şısının alınması, ictimai işlərdə daha çox immiqrantların işləməsi, onların diplomlarının tanınması və onlara müntəzəm olaraq dil kurslarının təqdim edilməsi, uyğunlaşma qanunlarından çıxan qərarlardır. Ancaq uyğunlaşma qanunları bəzən tənqid də edilir. Çoxlarını bu qanunların immiqrantlara hüquqlar vermək əvəzinə, onları almanlaşdırma siyasəti olduğunu düşündürür. Yaşıllar Partiyasının Uyğunlaşma sözçüsü - Federal Parlamentin Millət vəkili Mehmet Qılınc, Adaptasiya Konfransını bu sözlərlə tənqid etmişdir: "Qaçqınların hüquqlarına dair çox əhəmiyyətli mövzular şüurlu olaraq müzakirə edilməmişdir. Bunların içində vətəndaşlığa qəbulun asanlaşdırılması, Avropa Birliyi vətəndaşı olmayan insanların yerli seçkilərdə iştirakının reallaşdırılması və qaçqın uşaqların zərərinə olan çox köhnəlmiş və bayağı təhsil sisteminin modernləşdirilməsi kimi mövzular təəssüf ki, müzakirə edilmir" [10, s.12; 10].

Kanadada multikulturalizm daha çox aborigenlərlə iki Avropa milləti (fransız və ingilis) arasındakı mübarizələrin nəticəsində doğulmuşdur. Dünyanın hər yerindən daha yaxşı bir həyat tapmaq məqsədilə köçkünlərin bir-birinin ardınca gələn köç dalğaları ilə Kanada sürətlə böyüməyə davam etməkdədir. Son 40 ildə Kanadanın etnik və mədəni əhalisi artaraq daha çox müxtəliflik qazanmışdır. 1971-ci ildə Kanada dünyada multikulturalizm siyasətini həyata keçirməyi qəbul edən ilk ölkə olmuşdur. Kanada zəngin etnik və irqi müxtəlifllikləri qəbul edir və onları dəyərləndirir. Kanadada 200-dən çox etnik qrup birlikdə yaşayır. 40-dan çox mədəniyyət Kanadanın etnik mətbuatında təmsil olunur. Bu gün Kanadada əhali artımının 50%-ni xaricdən gələnlər təşkil edir. Kanada Multikulturalizm Aktı, Kanada cəmiyyətindəki hər mənşədən insana, ayrıca fərdlər və fərqli mənşəyə aid cəmiyyətlər arasındakı əlaqələrə tam və bərabər yanaşma təqdim edir. Multikulturalizm yolunda irəliləyən Kanada, bütün Kanadalıların potensialını qəbul etməklə, onların cəmiyyətə inteqrasiyasını və sosial, mədəni, iqtisadi və siyasi mövzularda aktiv vəzifə almalarını təşviq edir.

Kanada "immiqrant ölkəsi" anlayışına bütün mənalarda uyğun gələn bir ölkədir. 1996-cı il siyahıya alınmasına görə ölkənin əhalisi 28.528125 nəfər olaraq təsbit edilmişdir. Əhalinin 8.806275 nəfəri özünü mənşə etibarilə "kanadalı" olaraq təqdim edir; geriyə qalan 19.721850 nəfər isə mənşəyini "kanadalı" kimi qeyd etmir. Rəsmi statistikalar çox fərqli ictimai mənşəyə mənsub kütlələrin xüsusiyyətlərini ən kiçik detalına qədər incələyirlər. Dövlət müəyyən dövrlərdə ölkədəki insanların ictimai mənşələrinə bağlı statistik məlumatlar dərc etdirir. Bununla əlaqəli statistikalar araşdırıldığında, az qala dünyanın bütün ölkələrindən gələn insanların Kanadada Kanada vətəndaşı olaraq yaşadıqları aydın olur. Əlbəttə ki, müxtəlif ictimai mənşələrə malik insanların sayı bir-birindən çox fərqlidir. Məsələn; Kanada vətəndaşlarından 6.832095 nəfəri ingilis, 5.597845 nəfəri fransız, 1.207475 nəfəri italyan, 921585 nəfəri çinli, 799010 nəfəri isə aboregen olmasına baxmayaraq, cəmi 1750 nəfər Keniyalı, 1330 nəfər Uqandalı, 255 nəfər Sakit Okean Adaları mənşəli və 18130 nəfəri türklərdir. Sıralamanın bu iki uc nöqtəsi arasında da fərqli mənşəyə mənsub təxminən 150 etnik birlik mövcuddur. Kanadanın "immiqrant ölkəsi" xüsusiyyətini daha ətraflı dəyərləndirmək üçün köç, sığınacaq axtaran şəxslər və etnik mənşə statistikalarına baxmaq kifayətdir. Ölkə və xüsusilə də böyük şəhərlərin hamısı, belə demək olarsa, "dovğa qazanı" kimi qarışıqdır. Hər yerdə hər millətdən olan insanı görmək, dünya üzərində danışılan hər dili eşitmək və bu dildə yazılmış bir yazını (qəzet, tabel, elan və s.) oxumaq mümkündür. İngilis və fransızcanın nisbi üstünlüyünə, müasir həyat tərzinin geniş yayılmasına baxmayaraq, dində, dildə, paltarda, qanunvericilik formasında, hər cür fərqliliyi hər an hər yerdə görmək mümkündür [9, s.27].

Ümumilikdə, belə bir nəticəyə gəlmək olar ki, kanadalıları birləşdirən əsas dəyərlər bunlardır: 1. Bərabərlik və düzgünlüyə inam; 2. Müşavirə və dialoq inancı; 3. Uzlaşma və tolerantlıq; 4. Müxtəlifliyin dəstəklənməsi; 5. Mərhəmət və alicənablıq; 6. Ətraf mühitə bağlılıq; 7. Azadlıq, sülh və zorakılığa əsaslanmayan dəyişikliklər [11, s.66-67].

ABŞ-da isə multikulturalizmin deyil, daha çox xalqların Amerika cəmiyyətində birləşdirilərək fərqli irqlərdən və etnik birliklərdən ibarət siyasi millətin formalaşmasına şərait yaradılmasının şahidi oluruq. Burada əsas anlayış ağ Anglo-Sakson mədəniyyətidir. ABŞ modelində mədəniyyətin

qarşılıqlı prinsiplərinin 5 əsası qabardılır. Bunlar, müstəsnalıq (qeyri-adilik), təhlükə hissi, qarşıdurma hissi, stereotip düşüncələr (şablon fikirlər) və fərqli cəmiyyətlərə baxış və onlara yanaşma tərzləridir [1, s.273].

Azərbaycan modeli isə özündə fərqlilik göstərən bir model təşkil edir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra mədəniyyətlərin toqquşması düşüncəsinə qarşı özünün tarixdən gələn tolerantlıq modelini dünyaya tanıtmaq, dialoqun məkanı olmaq arzusunu, XXI əsrin dialoq fəlsəfəsini ortaq səylərlə, birlikdə tanıtmaq məqsədini əsas götürmüşdür. Bunu etməyi mümkün edən faktorlar nələrdir? Azərbaycan modeli multikulturalizm üçün necə model ola bilər? Azərbaycanın mədəniyyətlərarası modelinin xüsusiyyətlərindən bəhs edərkən üç əsas məqam diqqəti çəkir: bunların birincisi Azərbaycanın fərqli etnik quruluşlu xalqlarla və fərqli irqlərlə yaşamaq sahəsində tarixdən gələn konkret bir təcrübəyə sahib olmasıdır. Azərbaycanda heç bir zaman etnik-dini sahədə problem olmamışdır. Bunların ikincisi isə müstəqillik illərində tolerantlıq və dialoq adət-ənənələrinin və dəyərlərinin qorunub saxlanmasıdır. Və son olaraq da Azərbaycanda mədəniyyətlərarası əlaqələrdə hər bir mədəni xalqın hüquqlarının və özünü ifadə etmək fəlsəfəsinin nəzərə alınmasıdır [1, s.279].

Fərqlilik, birlik və birliyin həqiqi fəlsəfəsi, dialoq və səmimilik Azərbaycançılıq fəlsəfəsidir. Belə dinamik modeldə professor R.Aslanovanın sözü ilə desək, xalqların və millətlərin müxtəlifliyində hər bir element "donmuş eskponat" vəziyyətində olmur, canlı "çələng" kimi inkişaf edir və sintez təşkil edir.

Bunlardan başqa bir də Hollandiya (Niderland) modelinin araşdırılması mövzumuzun gedişatı, modellərin müqayisəsi və multikulturalizmə müxtəliflik gətirməsi baxımından əhəmiyyətlidir. Bunu əhəmiyyətli edən Hollandiyada yaşayan etnik azlıqlardan Frislandların vəziyyətidir. Mövzumuz baxımından onlara verilən hüquqlar gözəl bir nümunədir. Hollandiya mənşə ayrı-seçkiliyi olaraq azlıqları etnik və milli azlıqlar olmaq üzrə iki qrupa ayırır. Köçəri azlıqlar Qərb və Qərb olmayan olaraq ifadə edildiyi halda, milli azlıqlar Frislandlar hesab edilir.

Frislandiya "frislandların ölkəsi" deməkdir və Hollandiyanın 12 əyalətindən biridir. 650000 nəfər əhalinin yaşadığı bu əyalətdə fərqli mədəniyyətdən olanların kimliyinin qorunmasına imkan yaradılmışdır. Əyalət, Hollandiyanın digər əyalətləri kimi özünə xas bir bayraq, gerb və milli marşa malikdir.

Frisland dilinin əsas mövqeyi nədən ibarətdir? Hollandiyada frisland dili ikinci rəsmi dil olaraq qəbul edilmişdir. Təhsildə yalnız zəruri olaraq öyrədilən bir dil deyildir, həmçinin bəzi dərslərin frisland dilində verilməsi də mümkündür. Frisland dili əyalət daxilində ictimai təşkilatların rəsmi yazışmalarında, xalq təşkilatlarında istifadə edilir. Məhkəmələrdə istifadə edilməsi ilə yanaşı, küçə, şəhər və məkan adları də bu dildə yazılır. Məhkəmənin divarında "öz dilinizi müdafiə edə bilərsiniz" deyə xəbər verilir. Frisland dili ilkin vaxtlarda məktəbdən əvvəl və sonra seçilə bilərdisə, bir müddət sonra bu seçim zəruri hala gətirilmişdir. İndi isə rəsmi dil kimi qəbul edilir.

Yalnız frisland dili deyil, bəzi kiçik regional və azlıq dillər də qoruma altına alınmışdır. Bu dillər: Aşağı Saksoniya, Eşkenazi (Eşkanazi Yəhudiləri), Roma və Sinti (qaraçı) dilləri və Limburg dilidir (regional) [15].

Murrey Bukçin modelinə nəzər salsaq görərik ki, o, ictimai ekologiyanın qurucusu olmuş və insanların təbiət üzərindəki hökmranlıq düşüncəsinin insanın insan üzərində, hətta kişinin qadın, yaşlıların gənclər, bir etnik qrupun digəri, dövlətin cəmiyyət, bürokratiyanın fərd, bir sinfin digər sinif və müstəmləkəçi güclərin müstəmləkə xalqlar üzərindəki hökmranlığından qaynaqlandığına inanır. M.Bukçin qeyd edirdi ki, bu hökmranlıq aradan qaldırılmadıqca insanların azadlığından və bərabərliyindən söz edilə bilməz. Onun düşüncəsinə görə, sosial-ekoloji azadlıq anlayışı yalnız fabrikdə deyil, ailə içində də, yalnız iqtisadiyyatda deyil, psixologiyada da, yalnız maddi həyat şəraitində deyil, ruhi şərtlərdə da davam etdirilməlidir. Cəmiyyətdəki ən molekulyar əlaqələri, xüsusilə qadın və kişi, böyüklər və uşaqlar, ağlar və digər etnik qruplar, biseksual və homoseksuallar - bu siyahı

uzadıla bilər - arasındakı əlaqələri dəyişməyincə, cəmiyyət ən sosialist mənada sinifsiz və istismarsız hala gəlsə də, hökmranlıq düşüncəsi varlığını davam etdirəcək. İyerarxiya var olduğu və təhkimçilik insanları bir elitalar sistem ətrafında təşkilatlandırdığı müddətcə, təbiətə hökmranlıq etmək düşüncəsi də davam edəcək və bu düşüncə planetimizi qaçılmaz bir sona aparacaq [13, s.16].

Bukçinin yalnız hökmranlığın mövcud olmadığı bir dünya üçün deyil, eyni zamanda çox mədəni bir həyat üçün də təklif etdiyi model, şəhərlərin eko-birliklərə ayrılmasıdır; "... İnsanlığın həyata baxışını dəyişməli və təbiəti qəbilə quruluşundan bu yana istismar edən xüsusi mülkiyyət maneələri aradan qaldırılaraq, bir insan kollektivi kimi dünyanın problemləri ilə birlikdə maraqlanmalıyıq. Şəhərlərimiz birliklərə, ya da eko-birliklərə ayrılmalı, ətrafımızdakı eko-sistemlərin həcminə uyğun incəlik və ustalıqla yenidən dizayn edilməlidir. Çünki bunu həyata keçirdiyimiz yerlər içində yaşadığımız şəhərlərdir" [13, s.12].

Ayrıca bu modeldə hər mədəniyyətin müstəqil şəkildə mövcud olmaq və öz dəyərlərini yaşatmaq hüququ vardır. Bunun siyasi toplum tərəfindən qəbul edilməsi ancaq öz-özünü idarə edən bir fərdin səyləri nəticəsində mümkündür. Bu da öz növbəsində, vətəndaşların bir-birinə qarşı hiss etdikləri məsuliyyətə, vətəndaşlıq əlaqələrinin yaratdığı yüksək düşüncə və mədəni qaydalara söykənir [3, s.11].

M.Bukçinin buradakı məqsədi şəhəri və vətəndaşı ictimai ekoloji dilində yenidən təsvir etməkdir. Bukçin bu modelin ən gözəl konfederal rəhbərliklərdə həyata keçirilə biləcəyini qeyd edir. Bunu da fiziki və korporativ olmaqla iki yerə ayırır.

M.Bukçin fiziki olaraq modelin həyata keçirilməsi çox vaxt tələb etdiyinə görə bunu ən yaxşı şəkildə təşkilati olaraq, yəni yerli bələdiyyələr vasitəsilə reallaşdırmağı düşünür. Çünki yerli özünüidarəetmə anlayışı "potensial" olaraq azad təşkilatlardır. Təbii ki, indi onların ciddi şəkildə dövlət qurumlarının nəzarəti altında olduqlarını da yaddan çıxarmamalıyıq. Ancaq yenə də bu vəziyyət bələdiyyələrin birbaşa demokratiyanın yaranması və yayılması üçün yeni bir siyasi sahədə inkişaf potensialı təşkil etdiyi həqiqətini dəyişdirə bilməz. Əgər bələdiyyələrin demokratik və siyasi potensialını reallaşdırmaq istəyiriksə, var olan böyük şəhərləri kiçik yerli özünüidarəetmə bölgələrinə ayırmalıyıq.

Beləcə nəhəng metropoliyalarda və digər şəhərlərdə yaradılacaq təşkilati yerli rəhbərliklər sayəsində idarəetmənin mərkəzi şəhər mərkəzlərindən məhəllələrə və kiçik bələdiyyələrə ötürürlər. Buralarda insanlar özlərini maraqlandıran hər mövzuda - yerli, regional və ya beynəlxalq mövzularda öz siyasətlərini formalaşdıra bilərlər. Yəni bunun həyata keçirilməsi ilə yeni bir siyasi sahə üçün də zəmin hazırlanmış olar. Məhəllələrdə yaradılacaq xalq məclislərindən ibarət olan bələdiyyələr, bu mənada potensial olaraq, birbaşa demokratiyanın siyasi sahəsini formalaşdıran təşkilati strukturlardır [8, s.6].

Bu şəkildə demokratikləşmiş bələdiyyələrin birləşərək daha geniş əhatəli konfederasiyalar meydana gətirmələri lazımdır. Komünalizmə görə, vətəndaş məclislərinin bir araya gəlməsindən meydana gələcək konfederasiya olmadan yaradılacaq bir azad bələdiyyəçilik ciddi olaraq uğur qazana bilməz. Daha da əhəmiyyətlisi budur ki, konfederasiya olmadan yalnız bir bələdiyyənin, ya da şəhərin yerli rəhbərliyi çox asan bir şəkildə dar fikirli, daxilə bağlı və hətta milliyyətçi düşüncələrə zəmin hazırlaya bilər. Bu nöqteyi nəzərdən komünalizm fikrinə görə bələdiyyələrin birləşərək konfederasiya meydana gətirmələri həm bələdiyyənin sərhədlərini aşan problemlərlə məşğul olarkən işləri asanlaşdıracaq; həm sosial-iqtisadi həyatın daha müxtəlif imkanlara sahib olmasının yolunu açа biləcək; həm də dar fikirli, daxilə bağlanan birliklərin meydana gəlməsinin qarşısını ala biləcək bir zəmin yaratmış olacaqlar. Bunun yanında konfederal olaraq birləşmiş məclislər və bələdiyyələr cəmiyyətin xaricində və onun yaxınlığında meydana gəlmiş olan dövlətə və ya digər iqtidar mərkəzlərinə qarşı da ayrı bir güc yarada biləcəklər.

Bu məzmunda qiymətləndirildiyində azad bələdiyyəçilik layihəsi, o şəhərdə yaşayan bütün vətəndaşlar tərəfindən, cinsiyyətindən, dinindən və milliyyətindən asılı olmayaraq bərabər qəbul

edilə bilər. Beləliklə də o bölgədə, ya da yaşayış sahəsində yaşayan hər kəs yalnız orada oturduqları üçün vətəndaş məclislərində iştirak etmək hüququna malik olacaqlar.

İctimai ekologiyanın, bəlkə də ən əhəmiyyətli tərəfi və buradan aldığı gücün mənbəyi bütöv bir cəmiyyət anlayışını ehtiva etməsidir. Komünalizm, iqtidarın yerli rəhbərliklər vasitəsilə vətəndaşlara yayılmasını, qarşılıqlı yardımlaşmanı, mürəkkəbliklərin minimuma endirilməsini, birbaşa hərəkəti, birbaşa demokratiyanı, bərabərlik prinsipini və həyat vasitələrinin hər kəsin əlində və xidmətində olduğu, ətrafı və mülkiyyəti iyerarxik olmayan bir tərzdə kommunal paylaşılan bir cəmiyyətin bütövlüyünü tələqin edir [8, s.8].

İctimai ekologiyaya görə bölgə anlayışı, şəhər həyatının bütün təşkilatları üçün tətbiq olunmalıdır. Şəhərdəki nəhəng muzeylər və teatr mərkəzləri kimi mədəni strukturların yerini hər məhəllədə qurulacaq kiçik muzeylər və teatrlar almalıdır. Universitet təhsil və araşdırma mərkəzi olaraq xidmətlərinə davam etməlidir. Böyük xəstəxanalar yerinə kiçik klinikalar və səhiyyə ocaqları inkişaf etdirilərək səhiyyə ictimailəşdirilməlidir. Bu təşkilatların idarələri xüsusi mülkiyyətdən azad olmalı, olduqları yerin bələdiyyəsinə verilməlidir. Beləliklə, ictimai siyasi həyatın dirçəldilməsi üçün lazım olan təşkilati tədbirlər sayəsində psixoloji və sosial həyatın qarşılıqlı işləməsinin və inkişaf etdirilməsinin yolu açılacaqdır.

İctimai ekologiya, bir tərəfdən bir məskunlaşmanın coğrafi olaraq insani ölçüdə olmasını, siyasi qərarların bu məskunlaşmanın xalq məclisində birbaşa demokratiya yolu ilə verilməsinin vacibliyini müdafiə edərkən, digər tərəfdən də əgər bir məskunlaşma özünü qonşusu olan məskunlaşmaların, bölgələrin, böyük coğrafi sahələrin və vaxt ötdükcə bütün insanlığın ayrılmaz bir parçası olaraq görmədən, dünyasını yalnız bu dar məkanda sıxışdırdığı zaman təcrid olunmuş, özünə qapalı və dar düşüncəli bir cəmiyyət meydana gətirmə təhlükəsini də həssaslıqla vurğulamaqdadır [2, s.22]. Konfederasiyanın sistemin inkişafının ən yüksək nöqtəsinə çatıb ictimai bir təşkilatlanma halına gələ bilməsi üçün iqtisadiyyatın konfederativ hala gətirilməsi, yəni yerlərdəki fermaların, fabriklərin və digər lazımlı obyektlərin yerli rəhbərliklərin əlinə verilməsi lazımdır.

İctimai ekologiya təliminə görə, iqtisadiyyat lokallaşdırılmalı, "mülkiyyət" (fabriklər, sexlər, torpaqlar, fermalar və s.) yerli rəhbərliklərin əlində olmalı və iqtisadiyyatın xalq məclisindəki bütün vətəndaşlar tərəfindən idarə edilməsi təmin edilməlidir. Vətəndaşlar birliyin iqtisadi qaynaqlarının kollektiv "sahibləri" olacaqlar. Torpaq və investisiyalar artan bir şəkildə birliyin, xalq məclislərindəki vətəndaşların və bu məclislərin konfederasiyadakı nümayəndələrinin nəzarəti altına veriləcək. İşlərin necə planlaşdırılmasının, hansı texnologiyaların istifadə edilməsinin və ya hansı malların paylaşdırılmasının vacibliyi isə ancaq praktikada öz həllini tapacaqdır. Amma rasional və ekoloji standartlar tərəfindən yönləndirilən ehtiyacları qarşılayacaq malların keyfiyyətli və kapitalizmə alternativ meydana gətirə biləcək səviyyədə olması da böyük əhəmiyət kəsb edir [14, s.6; 11].

Açar sözlər: multikulturalizm, mədəniyyət, dil, vətəndaş, sivilizasiya, M.Bukçin

İstifadə edilmiş ədəbiyyat

1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: 2016
2. Ata S. Toplumsal Ekolojinin Politikası // Toplumsal Ekoloji Dergisi, 2002, №1, s.21-27
3. Bookchin M. Kentsiz Kentleşme: Vatandaşlığın Yükselişi ve Çöküşü. İstanbul: Ayrıntı Yayınları, 2014, 400 s.
4. Bookchin M. Toplumsal Ekoloji ve Komünalizm. İstanbul: Sümer Yayıncılık, 2014, 128 s.
5. Bookchin M. Toplumu Yeniden Kurmak. İstanbul: Sümer Yayıncılık, 2013, 228 s.
6. Canatan K. Avrupa Ülkelerinin Azınlık Politikalarında Türkçe Anadil Eğitiminin Konumu "İsveç, Fransa ve Hollanda Örnekleri". İstanbul: Sümer Yayıncılık, 2007, s.159-172
7. Ergil D. Çok kültürlülük ve Çok dillilik // Ankara Üniversitesi SBF Dergisi. 1995, Cilt: 50, №3, s.159-165

8. İdem Ş. Toplumsal Ekoloji ve Komünalizm. http://www.ekoloji.org/index.php?option=content&task=view&id=96 (05.05.2013)
9. Köstekçi A.K. Çok Kültürlülük Üzerine Mantıksal İrdelemeler.
10. Kymlicka Will. Çev. Yard. Öztürk F. Çok kültürlülük Başarı, Başarısızlık ve Gelecek. 2012, Cilt: 70, №2, s.297-332
11. Özensel E. Çok kültürlülük Uygulaması Olarak Kanada Çok kültürlülüğü // Akademik İncelemeler Dergisi, 2012
12. Pekin H. İsviçre Hukukunda Din ve Vicdan Özgürlüğü // Türkiye barolar birliği dergisi, 2002, s.449-458
13. Tavukçu S. Murray Bookchin'in "Toplumsal Ekoloji" Felsefesi ve KCK'nın İdeolojik Kodları. http://www.sde.org.tr/tr/authordetail/murray-bookchinin-toplumsal-ekoloji-felsefesi-ve-kcknin-ideolojik-kodlari/995 (17.11.2011)
14. Ünal F.Toplumsal Ekoloji // Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, №26, Nisan, 2010, s.114-123
15. https://www.youtube.com/watch?v=fOmIE-kwRtI.

Курт Фарук

МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И НОВАЯ МОДЕЛЬ МУРРАЙ БУКЧИНА

Резюме

В статье рассматриваются модели мультикультурализма, как одного из актуальных проблем современности. Ведется обмен идеями вокруг общественно-экологической модели Муррай Букчина объединяющий в себе все модели мультикультурализма. Этот модель связан с именем Муррай Букчина, который умер в 2006г. Отмечается что этот модель ориентированная на причину и результат, направлена на решение этой проблемы. Обосновывается необходимость исследования и срочного претворения в жизнь этой модели.

Ключевые слова: мультикультурализм, культура, язык, гражданин, цивилизация, Муррай Букчин

Kurt Faruk

THE MODELS OF MULTICULTURALISM AND A NEW MODEL OF MURRAY BOOKCHIN

Summary

The article examines the models of multiculturalism, as one of the actual problems of modern era. The article exchanges ideas on social ecology model of Murray Bookchin combining all models of multiculturalism. This model is related to the name of Murray Bookchin, the founder of social ecology, who died in 2006. It is noted that, the model is focused on the cause and results, and aimed at solving this problem. The article emphasizes the importance of the investigation and implementation of these models.

Keywords:multiculturalism, culture, language, citizen, civilization, Murray Bookchin

УДК – 340.15

Ильхам Алиев
Институт Прав Человека НАНА

ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ И НРАВСТВЕННЫЕ ЦЕННОСТИ

В статье анализируются государственно-религиозные отношения в рамках общемировых процессов, учитывая присущие каждой стране историческую адаптацию. На высоком уровне представляются связь моральных ценностей с социальной как универсальные человеческие качества. Отмечается, что связь национальными и религиозными корнями обоснует развитие общества и государства.

Государственно-религиозные отношения развиваются в рамках общемирового процесса, однако имеют свои особенности, связанные как с историческим прошлым каждого государства, так и проводимой в условиях суверенного развития внутренней политикой. Неоднократно доказано, что насильственная атеизация общества не привела к исчезновению религии, и это вполне естественно. Как считали мыслители, религия – это убеждение, что все происходящее с нами необычайно важно, и именно поэтому она будет существовать всегда. Причины религиозности людей объективны, и религия в течение многих веков выступала и выступает в качестве регулятора человеческого поведения.

Обеспечение свободы совести и вероисповеданий является важной стороной внутренней и внешней политики каждого государства и должно осуществляться в соответствии с характером его государственного устройства, с учетом мировоззренческого и конфессионального многообразия общества, реальной степени его секуляризации. В Конституции Азербайджанской Республики (ст.7) на высшем законодательном уровне закреплено и провозглашено: "Азербайджанское государство – демократическая, правовая, светская, унитарная республика" [8, с.5].

Сегодня в мире существует несколько типов государственно-религиозных отношений, которые отражают как историю, так и современность.

Отношения государства и религии, культурно-религиозные традиции и их влияние на историю и внутреннюю ситуацию в государстве – одна из фундаментальных проблем, решить которую пытались многие великие умы человечества. Мировая история учит, что государственно-религиозные отношения складывались, складываются и будут складываться как результат социального компромисса между субъектами этих отношений, различными слоями общества, обладающими разными, подчас альтернативными религиозно-мировоззренческими убеждениями и соответствующей им социальной практикой. В силу предназначения, государство призвано выполнять роль посредника и гаранта для достижения такого компромисса, а также поддерживать баланс интересов личности, общества и государства на протяжении всего периода своего существования.

Эти задачи вытекают из сущности понятия "религия", под которой имеют в виду то, что дается человеку при соблюдении правил духовной жизни, а именно возможность единения с источником жизни, истины и блага – Богом [3, с.13].

Deməli, şair dialoqun başlanması üçün əvvəlcə iştirakçıların statusunu eyniləşdirir – İsgəndər Nüşabənin aslan kimi hökmdar olduğunu qəbul edir. Nüşabə həm də dərin biliyə sahib olması makedoniyalını inandırır. Ancaq bu məqam hələ dialoq deyil, o daha çox konfliktdən dramatizmə keçiddir. Çünki tərəflərin fikir mübarizəsi sonrakı misralarda davam edir. İsgəndər bu mərhələdə artıq hökmdar sifətində Nüşabə ilə ünsiyyət qurmalı olur. Maraqlıdır ki, əsərdə dialoq ortamını Nüşabənin yaratması açıq ifadə edilib. Çünki Bərdə hökmdarı İsgəndərlə ilk rəsmi təması böyük hökmdarları qarşılamağa layiq bir şəraitdə təşkil edir. Bu zaman şair Nüşabənin bir hikməti səssizcə süfrəyə gətirdiyini vurğulayır:

...Nüşabə xidmətə bağladı kəmər,
Əmr etdi: durmayıb gözəl pərilər
Şahlara yaraşan bir süfrə açsın.
Qızıl büsat qurdu şahın önündə.
Bir xonça qoyuldu günəşdən parlaq,
İçində dörd büllur kasa qoyaraq,
Biri dürr, birinə yaqut qoyulmuş [3, s.216].

Bu səhnə artıq İsgəndərin Bərdə hökmdarı tərəfindən sınağa çəkilməsini əks etdirir. Nüşabə dialoqa aparan qısa və səmərəli yolu tapır. Süfrəyə kasalarda ləl-cəvahirət qoymaqla İsgəndərə müraciət edir: "dünya malında gözün olmağın insana faydası nədir?". İsgəndər əvvəlcə Nüşabəni başa düşmür və heyrətlə soruşur: "Daşı da yeyərmi ağıllı insan"? Onda şair Nüşabənin dili ilə sirri açır - əgər daş-qaşın insana faydası yoxdursa, onda onlar üçün "bu qədər vuruşmaq, çarpışmaq neçin"?.

Burada Nizaminin, ümumiyyətlə, konfliktlərin yaranma səbəbinə gözəl bir eyhamı vardır. Şair göstərir ki, hökmdarlar arasında münaqişələr əslində onların varlanmaq, başqalarını özünə tabe etmək hərisliyindən yaranır. Nüşabə də əsərdə məhz bu məqamı İsgəndərə işarə ilə çatdırır. Onu anlayan makedoniyalı dərhal əlini süfrədən çəkərək, Nüşabənin özünün daş-qaşı nədən topladığını ifadə edən fikirlər səsləndirir. Lakin ümumi situasiya elədir ki, İsgəndər ya Nüşabənin hikmətini qəbul etməlidir, ya da özünün zalım bir padşah olduğunu göstərməlidir. Əsərdə Nizami İsgəndərin Nüşabənin hikmətini qəbul etməklə dialoqu harmoniya səviyyəsinə çatdırdığını maraqlı dillə ifadə edir. İsgəndər Nüşabəyə müraciətən deyir:

Bununla bərabər diqqət edincə
Sözlərin yerlidir, doğrudur məncə,
Eşq olsun bu fikri sağlam qadına,
Mərdliyin yolunu göstərir mana [3, s.218].

Beləliklə, "İsgəndərnamə"də konfliktlə başlayan ünsiyyət dramatizmdən keçərək münasibətlərin harmoniyası, yəni dialoqun baş tutması ilə yekunlaşır. Bizim yanaşma kontekstində bu, bədii əsərdə konfliktin dialoq vasitəsi ilə harmoniyaya çevrilməsi mümkünlüyünün nümayişidir. Nizami bədii obrazlarla bu prosesi gözəl ifadə edib. Nəticədə dünyanın ən zalım və qüdrətli hökmdarlarından biri belə, barışa meyil göstərib. Yuxarıdakı müqayisələrdən görünür ki, fransız yazıçısı Q.Müssonun və Nizaminin əsərlərinin məzmunu, süjeti, yazılma tarixi fərqli olsa da onların oxşar cəhətləri də var. Hər ikisində süjet münaqişə ilə başlayır dialoqla bitir. Onu da deyək ki, bu məqam heç də bütün əsərlərdə mövcud deyil. Məsələn, Hötenin "Faust" əsərində proseslər dialoqla yox qəhrəmanlardan birinin səhnədən getməsi ilə yekunlaşır. Ancaq pərdə arxası aydın olur ki, bunun səbəbi məhz əsərin əsas obrazlar arasında dialoqun alınmamasından ibarətdir. Əslində bu fəlsəfi baxımdan dialoqun təntənəsini göstərir. Çünki dialoqun yoxluğu həyatın deyil ölümün qələbəsinə aparıb çıxarır.

Özlüyündə bu məqam fəlsəfi baxımdan bədii təfəkkürlə bağlı maraqlı bir özəlliyi aşkar etməyə imkan verir. Belə ki, bədii təfəkkür mahiyyətcə dialojidir. Bu dialoq müəlliflə obrazlar arasında cərəyan edən ünsiyyət hadisəsinin məzmununa uyğun qurulur. Obrazlararası dialoqun yekunu müəllifin məqsədindən asılıdır. Bu səbəbdən əsərdə hadisələrin necə bitməsi birbaşa müəllifin şüuruna bağlıdır .

Buradan bir daha M.Baxtinin şüurun dialoji mahiyyəti ilə bağlı fikirlərinin tam əsaslı olması qənaəti əldə edilə bilər. Yuxarıda vurğuladığımız məqamlar bədii təfəkkürün bir sıra fəlsəfi özəlliklərini müəyyənləşdirməyə imkan verir. Müasir fransız yazıçı Q.Müssonun və dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığından gətirdiyimiz iki nümunə həmin tezisi təsdiq edir. Birincisi bədii əsərlərin fəlsəfi dərki mətnin analizi ilə sıx bağlıdır. Mətn analizi müəllifin əsəri yaratması prosesi özünü anlamağa imkan verir. İkincisi bədii təfəkkür mahiyyətcə tarixidir. Bununla yanaşı bədii əsərdə fərdi yaradıcılıq imkanları və yazıçının intellektual gücü mühüm rol oynayır. Üçüncüsü bədii əsərin mətnində şüurun dialojiliyi bütün hallarda özünü göstərir. Ümumiyyətlə, bədii yaradıcılıq istənilən formasında müəllifin özü ilə yaratdığı obrazlar arasında dialoqdan ibarətdir. Bu əsərin hər bir hissəsində görünməyə bilər. Ancaq ümumi yanaşma məntiqi M.Baxtin mənasında şüurun dialojiliyi özəlliyinə əsaslanır. Bütövlükdə məsələnin bu tərəfi çox aktualdır və daha geniş analiz tələb edir.

Açar sözlər: fənlərarası yanaşma, bədii yardıcılıq, mətn, bədii əsər, dialoq, şüur, bədii obraz, konflikt, dramatizm

İstifadə edilmiş ədəbiyyat

1. Бахтин М.М. Эстетика словесного творчества. М.: Искусство, 1979, 422 с.
2. Qurbanov F.M. Tarixin "postqərb" mərhələsinə keçid. I cild. Risklər, ssenarilər və proqnozlar. Bakı: Təknur, 2009, 377 s.
3. Gəncəvi N. İsgəndərnamə. Bakı: Yazıçı, 1982, 690 s.
4. Мюссо Г. Бумажная женщина. М.: ЭКСМО, 2012, 340 с.

Физули Гурбанов
Конул Шакиева

ЕДИНСТВО КОНФЛИКТА И ДРАМАТИЗМА В ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЯХ

Резюме

В статье художественное творчество анализируется в призме междисциплинарного подхода, который в последнее время интенсивно разрабатывается философами и методологами науки. Показывается, что произведение фактические является результатом диалога между автором и образами произведения. Другая сторона вопроса связана с переходом взаимоотношений между образами от конфликта к драматизму, и в конечном счете к диалогу. В статье анализируется конкретные произведения современного французского писателя Г.Мюссо и великого Азербайджанского поэта Н.Гянджави. На основе этого анализа выдвигаются некоторые тезисы. В призме диалогичности сознания осуществляется философский анализ художественного произведения.

Ключевые слова: междисциплинарный подход, художественное творчество, текст, художественное произведение, диалог, сознание, художественный образ, конфликт, драматизм

Fizuli Qurbanov
Konul Shakiyeva

UNITY OF THE CONFLICT AND DRAMATISM IN ARTISTIC WORKS

Summary

The article analyzes artistic creativity in the prism of interdisciplinary approach, which has recently been intensively developed by philosophers and methodologists of science. It is shown that the work is the result of dialogue between the author and images of the work. The other side of the issue relates to the transition of the relationship between the images from conflict to drama and ultimately to dialogue. The article analyzes concrete works of contemporary French writer Q.Musso and great Azerbaijan poet N.Ganjavi. On the basis of this analysis, some thesis are put forward.

Keywords: interdisciplinary approach, artistic creativity, text, artistic work, dialogue, consciousness, artistic image, conflict, dramatism

UOT – 165.2

Elbəzək Əsgərova
AMEA Fəlsəfə İnstitutu

MÜASİR ELMİ İDRAKIN İNKİŞAFINDA COĞRAFİ BİLİYİN ROLU

Məqalədə müasir elmi idrakda müşahidə edilən proseslərin kontekstində coğrafiyanın qnoseoloji, dünyagörüşü və metodoloji roluna nəzər salınır. Göstərilir ki, bu proses məzmunca tarixi xarakterlidir. İndiki mərhələdə coğrafiyanın elmlərarası inteqrasiyada tutduğu yer və oynadığı rol daha da artıb. Bunun səbəbi həmin fənnin özünün nəzəri və metodoloji inkişafı ilə yanaşı, müasir dövrün xüsusiyyətləri ilə də bağlıdır. Məqalədə həmin kontekstdə "ikiqat sistemləşdirmə" adlı prinsip irəli sürülür. Bu prinsipə görə, müasir dövrdə coğrafi mühit təbiətlə cəmiyyət arasında başlıca "kommunikativ mediator" rolunu oynaya bilər.

Müasir elmi idrak intensiv surətdə inkişafdadır. Bu proses mürəkkəbliyi və qeyri-xəttiliyi ilə seçilir. Elmlər arasında əlaqələr yeni səviyyədə özünü göstərir. Burada klassik və qeyri-klassik elmdə müşahidə edilməyən idraki faktorlara rast gəlinir. Onların sırasında konkret fənlərin müasir elmi mənzərənin formalaşmasındakı rolunun yeniləşməsi xüsusi yer tutur. Çünki elmlərarası əlaqələrin məzmun və forması dəyişir. Keyfiyyətcə fərqli bir mənzərə yaranır, elmi idrakın dinamikası daha mürəkkəb forma alır. Bununla aydın olur ki, fəlsəfi-elmi idrak üçün aktuallıq kəsb edən məqamlar prizmasında konkret elm sahələrinin idrakdakı rolunun analizini aparmaq zəruridir.

Bu problemin başqa vacib aspekti də vardır. O, Niklas Lumanın bir qeydində lakonik ifadə olunub. Alman sosioloqu yazırdı: "Müasir dünya özünün xüsusi əlamətləri ilə öz növbəsində müasir cəmiyyətin dəqiq analoqudur" [3, s.167]. Yəni müasir tarixi mərhələdə təbiət elmləri ilə humanitar və ictimai elmlər arasında daxili sıx bağlantı mövcuddur. Həmin bağlılıqda vurğulamaq lazımdır ki, coğrafiya elm kimi həmişə elmi idrakın təkamülündə mühüm rol oynayıb və hazırda bu proses xüsusi məzmun kəsb etməkdədir. Bu elm sahəsi təbiəti elə bir aspektdə öyrənir ki, təbiətşünaslıq, humanitar, ictimai və geosiyasi elmlərlə ortaq nəzəri və metodoloji kəsişmə sahəsi mövcuddur. Bu səbəbdən coğrafiya tarixən ayrı fənn kimi müxtəlif elmlərin qarşılıqlı əlaqəsində əhəmiyyətli rol oynayıb. Məsələn, geosiyasətin formalaşmasında coğrafiyanın rolunu xatırlamaq olar. İndi də geosiyasi nəzəriyyələrdə coğrafi faktor əsas amillərdən biri kimi qəbul edilir. O, dövlətlərarası münasibətlərin xarakteri və məzmununun müəyyənləşməsində ciddi rol oynayır. Lakin coğrafiyanın geosiyasi nəzəriyyələrə təsiri bununla məhdudlaşmır. Daha aktual olanı odur ki, coğrafiya həm də nəzəri və metodoloji özəlliyi ilə müxtəlif elm sahələrinə təsir göstərir. Bu o deməkdir ki, elmi idrakın məzmununda coğrafiyanın nəzəri və metodoloji özəlliyi də yer almaqdadır. Müasir mərhələdə bu qarşılıqlı təsir daha da güclənib. Hətta sosial elmlərdə coğrafiyanın bilik və metodlarından istifadə edirlər. Bu kontekstdə olduqca maraqlı bir idraki situasiya yaranır. Elmin təkamül tarixində ilk dəfə olaraq sosial mühitdə coğrafi faktorun oynadığı rolun fəlsəfi təhlilinə ciddi ehtiyac yaranır. Ənənəvi fəlsəfi təfəkkür üçün bu, xeyli qeyri-adi olsa da, post-neoklassik təfəkkürü onsuz təsəvvür etmək konstruktiv sayılmır. Məsələnin bu aspektinə daha geniş nəzər yetirməyə ehtiyac vardır. Hər şeydən əvvəl metodoloji xarakterli bir məqamı vurğulamaq gərəkdir. Alimlərin araşdırmalarına görə, mürəkkəb və açıq sistemlərin davranış seçim imkanları nə qədər çox olursa, onun hissələri arasında əlaqələrin səviyyəsi bir o qədər yüksək olur. Bu barədə U.Eşbinin fikirləri mövcuddur və o, həmin qaydanı "zəruri müxtəliflik prinsipi" adlandırır [6, s.7]. O halda müasir elm üçün coğrafi faktorun nəzərə alınmasının bütövlükdə elmi idrakın kreativlik imkanlarını daha da artırdığı haqqında maraqlı nəticə çıxara bilərik. Bu kontekstdə başqa vacib məqam ondan ibarətdir ki, coğrafiyanın digər elmi sahələrlə qarşılıqlı əlaqəsi müasir mərhələdə elmin konvergensiyasının məntiqi çərçivəsində baş verir. Lakin metodoloji aspektdə elmlərin konvergensiyası aspektində əhəmiyyətli bir şərt ödənilməlidir. Bu, sistemin bütövlüyünün saxlanması və məqsədə çatılması ilə əlaqəlidir. Məlumdur ki, seçim müxtəlifliyinin artması başqa tendensiyalarla yanaşı, sistemin dağılmasına da təkan verə bilər. Xoşbəxtlikdən təbiət və cəmiyyətin özü bu mənfi halın aradan qaldırılması üçün etibarlı mexanizm ha-

zırlayıb. Qreqori Beytson bu məsələnin müxtəlif aspektlərini analiz edərək, maraqlı bir tezis irəli sürür. Onun yazdığına görə, müxtəlif manevrlərin hesabına sistem özünün başlıca məqsədini dəyişmir: "dəyişmir, çünki sistem daim dəyişir" [2].

Bir tərəfdən bu kontekstdə prosesin ümumi xarakterinin analizini vermək, digər tərəfdən isə belə bir qarşılıqlı əlaqənin metodoloji xüsusiyyətini ayırd etmək bizim üçün aktualdır.

Müasir elm sürətlə inkişaf etməkdədir. Hətta ictimaiyyətdə elmi kəşflərin analizi elmi kəşflərin sürəkliliyindən geridə qalır. Bu proses daha geniş məzmuna malikdir, buraya coğrafiya elminin sürətli inkişafı da daxildir, səbəb isə Yer kürəsinin və onun fərdi regionlarının coğrafi tədqiqatının yüksək səviyyəyə çatmasındadır. Bu coğrafiya elminin təsviri-regional coğrafi paradiqma çərçivəsində inkişafının qeyri-mümkünlüyünə və elmi bilik və ictimai təcrübə sistemində yeni funksiyaların yaranmasının labüdlüyünə və eyni zamanda təkmilləşmiş konseptual bazaya yiyələnməsinə gətirib çıxartdı. Eyni zamanda cəmiyyətin sosial-iqtisadi inkişafı ilə bağlı dəyişən şərtlər sənaye, daha sonra elmi və texnoloji inqilab zəminində qarşısına yeni tapşırıqlar qoymuşdur.

Coğrafiya elmin əsasən təsviri-koqnitiv sahəsindən konstruktiv elm sahəsinə çevrilmişdir. Eyni zamanda qabaqcıl coğrafi tədqiqatın əsas problemi cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsinin tədqiqi olmuşdur. Bu birbaşa coğrafiyanın digər elmi sahələrdən fərqləndirici bəzi metodoloji xüsusiyyətlərə və müvafiq istiqamətdə baş verən elmi inkişafın çoxsaylı praktik aktuallığa malik olması ilə əlaqəli olmuşdur. Elm sahəsində elmi biliyin metodları genəl olaraq 3 əsas qrupa (mərhələyə) ayrılır: fəlsəfi, ictimai-elmi (m., demək olar ki, bütün elm sahələri üçün) və spesifik-elmi. Bütün bu mərhələlər coğrafiya elminin tarixində iz qoymuşdur və müasir tədqiqatçıların əlində elmi "mənbə" rolunu oynuyur.

Elmi faktın epistemoloji funksiyası budur ki, o ətraf dünyanı insan təfəkkürü ilə birləşdirən biliyin bilavasitə başlanğıcıdır. Coğrafi tədqiqatda əsas yeri modelləşdirmə, sistem analizi, riyazi-ləşdirmə və s. kimi əsas elmi yanaşma və metodlar tutur. Coğrafiyada əsasən məntiqi (sistemin strukturunu göstərən fenomen əlaqələrin təbiət və istiqamətini göstərən izah edici növü), kartoqrafik və riyazi modellər istifadə olunur.

Coğrafiyanın xarakteristik xüsusiyyətləri fəlsəfə, fizika, kimya, biologiya, geologiya, iqtisadiyyat, tarix, hüquq, riyaziyyat və digər elmlər tərəfindən öyrənilən cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi ilə bağlı olduqca mürəkkəb interdissiplinar probleminin tədqiqində bu elmə xüsusi yer ayırmışdır.

Coğrafiya məlum olduğu kimi, iki böyük sistemi fiziki-coğrafi(təbii-coğrafi) və ictimai-coğrafi elmləri və elmi istiqamətləri birləşdirən elm və ictimai elmin qovşağında mürəkkəb şəkildə təşkil olunan elmlər sistemidir. Bundan əlavə, çoxsaylı mürəkkəb elmi və praktiki problemlərin tədqiqi prosesində bir qrup sintetik təbii-sosial coğrafiya(təbii resurslar, təbiətin idarəsi, tibb, istirahət guşələri, tarix üzrə coğrafiya və s.) sahələri yarandı. Coğrafi elmlər sisteminin hər bir müəyyən edilmiş bölgüsü cəmiyyət və təbiət arasındakı qarşılıqlı əlaqələrlə bağlı problemləri öyrənən spesifik elmi-praktiki məsələləri həll edir. Sosial-coğrafi elmlər cəmiyyət və təbiət arasındakı qarşılıqlı əlaqə ilə bağlı problemləri araşdıraraq, ərazilərdəki sosial-ekoloji-iqtisadi sistemlərin davamlı inkişafı üçün ictimai həyat, problemlər və perspektivlər kimi müxtəlif sferaların məkan olaraq təşkilindəki ərazi-ekoloji faktorların və təbii resursların təsirinin özülünü, mexanizmini və tənzimləmələrini əks etdirərək mürəkkəb problemləri həll edir. Təbii resurslar, təbiətin idarəsi, geoekologiya, istirahət guşələri və turizm, tibb üzrə coğrafiyanın süni sintetik sahələrinin inkişafı ilə birgə sosial-coğrafi tədqiqatın müvafiq xəttini daha da dərinləşdirmək coğrafi biliyin inteqrasiya imkanının kəşfinə və coğrafiyanın obyektiv birləşiminin möhkəmlənməsinə gətirib çıxaracaq.

Coğrafi mühit insan həyatında vacib rol oynayır. Buna görə də qloballaşma modellərində coğrafi faktoru nəzərə almaq zəruridir. Ümumilikdə sual bundan ibarətdir ki, coğrafi faktorun qeydə alınma mexanizmi hansıdır. Bu prosesdə coğrafi faktorun yeri və rolu qlobal ziddiyət və problemlərin həlli ilə bəşəriyyətin optimal inkişafına nail olmaqla müəyyən olunmalıdır. Qloballaşma modellərində hədəf faktor həlledici rol oynamalıdır, çünki bu prosesi modelləşdirməyin əhəmiyyəti yoxdur. Buna görə də universal elmi yanaşma zəruridir, belə ki, ilkin olaraq harmoniyanın inkişafını təmin etməklə dünya təkamülünün dinamik sistemini qurmağa yardım edəcəkdir. Bunun üçün müasir elmi yanaşmaların qneseoloji, fəlsəfi, metodoloji aspektlərinə müraciət etmək olar. İnformasiya cəmiyyətinin qurulması mürəkkəb sosial qarşılıqlı əlaqələrin yaranması ilə həyata keçir. Cəmiyyət kompleks sistem kimi keyfiyyət baxımından yeni formaya keçir. Sosial proseslərin dinamikası in-

sanların həyatını dəyişir, bu özünü yeni tarixi mövzunun yaranmasında göstərir. Həmçinin insanların dünyagörüşü də yenilənir. Bu proses mahiyyət etibarı ilə paradoksaldır. Belə ki, "dünya cəmiyyəti" məzmun etibarı ilə tam anlamını qazanmamışdır. Bütün bunlardan sonra, qloballaşma dünya cəmiyyətinin formalaşmasına gətirib çıxarır. Digər hallarda, qloballaşma dünyanı məhv edəcək qüvvə olacağını göstərəcəkdir. Təəssüf ki, çağdaş araşdırmalarda, daha çox məzmun analizinə yer verilir.

Təsadüfi deyil ki, son illərdə, elmi bilik çərçivəsində təbii faktorlar sosial proseslərlə sıx qarşılıqlı əlaqədədir. Elmi bilik üçün, noosfreanın inkişafı və qorunması olduqca zəruridir. Bu proses müxtəlif elm sahələrinin inteqrasiyası və yeni sintetik elmi istiqamətlərin yaranması və yeni informasiya texnologiyalarının yaranması ilə həyata keçir. Müasir nəzəri bilik olduqca sürətlə praktik tətbiqini həyata keçirir. Elmi nəzəriyyələrin inkişafının sürətlənməsi və onların intensiv tətbiqi insan fəaliyyətindəki aksioloji aspekti reallaşdırmış olur. Elmi bilik avtomatik olaraq təfəkkür prosesini və onun praktiki nəticəsini bir mərhələdə birləşdirir. Başqa sözlə desək, təfəkkür prosesinin hər bir mərhələsində elmi biliyin strategiyası biliyin istiqamət və məzmununu müəyyən edir. Buna görə də, dünyanın müasir elmi mənzərəsi sistemliliyi, alt qruplarının paradoksal kombinasiyası və sosial-mədəni məzmunu ilə xarakterizə olunur. Eyni zamanda, elmi biliyin cəmiyyətin fəaliyyətində və dünya sistemindəki rolu bütövlükdə yeni formalar qazanır.

Qloballaşma prosesində coğrafi faktorun fəlsəfi və metodoloji analizi ən vacib və kompleks problemlərdən biridir. Ən vacib rolu isə müvafiq metodoloji prinsipin yaradılması olmuşdur. Yuxarıda qeyd olunduğu kimi, qloballaşma özü mürəkkəb və çoxaspektli "insan ölçülü" prosesdir. Coğrafi faktor cansız təbiətə istinad edir, və eyni zamanda ictimailəşmənin elementidir. Klassik elmi ənənəyə görə, təbii sistemlər "insan ölçülü sistemlərdən" (sosial, siyasi, mədəni, ictimai-mədəni, ekoloji və s.) əsaslı şəkildə fərqlənir. Müasir sintetik elmi cərəyanlar çərçivəsində təbii və "bəşər" sistemlərinin tədqiqini mümkün edən yanaşmalar yaradılıb inkişaf etdirilir. Əsasən bu yanaşmaların qneseoloji və metodoloji sahələrində coğrafi faktorun qloballaşma prosesindəki rolunun analizi üçün universal metodoloji prinsiplər araşdırılıb tapılmalıdır.

Bəşəriyyət təbii dünya adlanan müəyyən mühitdə mövcud olur. Lakin bəşəriyyət bir proses olaraq da mövcud ola bilər. Bu baxımdan, bəşəriyyət ən inkişaf edən, mürəkkəb, qeyri-xətti və açıq sistem hesab oluna bilər. Bu sistemə görə, təbii ətraf mühit həm mövqenin yeri, həm də onunla davamlı qarşılıqlı əlaqədə olan ətraf mühitin özüdür. Bəşəriyyətin ətraf mühitlə qarşılıqlı əlaqəsi özü özlüyündə mürəkkəb və yaradıcı prosesdir. Buna görə də, bəşəriyyət hər mərhələdə təbiətlə qarşılıqlı əlaqənin xüsusi yollarını axtarıb inkişaf etdirməlidir, bu isə təbiət və cəmiyyətin birgə təkamülünü yaratmış olur. Bu perspektiv baxımından, qloballaşma prosesi ən genəl formasında bəşəriyyət və təbiətin qarşılıqlı uyğunlaşma yoludur.

Müasir elmi konseptlərə əsasən, qarşılıqlı uyğunlaşmanın yaradıcı özülü var. Başqa sözlə desək, burada genəl situasiyanın daimi dəyişkənliyi müşahidə olunur. Bəşəriyyət təbiətlə müqayisədə daha dinamikdir. Bu baxımdan o hər zaman dinamikadan öndədir, təbiətin qarşısına "yeni suallar" qoyur. Bu paradoksal vəziyyətdir. Çünki bəşəriyyət özü müşahidə olunan sistemdir. Təbiətin verdiyi hər bir sual bəşəriyyətə ünvanlanır. Müasir elmi dildə bu dairəvi prinsip adlanır. Bu prinsipə görə, təşkilatın hər bir ardıcıl mərhələsi bir öncəki mərhələ ilə əks təsirdə (müsbət və ya mənfi) olur. Nəticə etibarı ilə, proses mövcud olduğu ətraf mühitə təsir edir. Prosesin müəyyən dəyişiklik mərhələsindən sonra, mövcudluq məkanı dəyişir və tədricən bir-birinə uyğunlaşırlar. Buna görə də, bu proses və ətraf mühit arasında fərqli xüsusiyyətdə sıx qarşılıqlı əlaqə var, buraya təbii ətraf mühit, bəşəriyyətin strukturunun qurulması, təşkil etmə fəlsəfəsindəki xətti anlar da daxildir. Təbiət və cəmiyyətin birliyi fəlsəfəsi arasında analogiya və uyğunluq olmalıdır. Təbii ətraf mühitin birliyinin yollarını araşdırmaqla sosial sistemlərə müvafiq nəticələr çıxarmaq mümkündür. Hansı anlamda təbiət birdir? Landşaftların müxtəlifliliyi təbiətdə necə birləşir? Yerin coğrafi birliyi nə deməkdir? Bu suallara cavab verməklə qloballaşma prosesində düzgün strategiyanı seçmək də daxil olmaqla "insan ölçülü" sistemlərin doğru inteqrasiyası üçün konstruktiv nəticələr çıxarmaq olar. Nəzərə almaq lazımdır ki, bu problemi həll etmək olduqca çətindir.

Yuxarıdakı fəlsəfi və metodoloji yanaşmalara əsaslanaraq, qloballaşma prosesinin "iki qat sistemləşdirilməsi" tezisini irəli sürürük. Birincisi - qloballaşma bəşəriyyət-təbiət sistemində, ikincisi - bəşəriyyət yerli sivilizasiyaların və təbiətin sistemi kimi. Qloballaşmanın iki tərəfli xüsusiyyətində prosesin nəzəri və praktiki paradoksları gizlənmişdir. Bu nöqteyi-nəzərdən dünyanın hazırkı qlobal-

laşma mərhələsində müşahidə olunan ziddiyyətlərin daha dərin ontoloji kökləri var. Artıq qeyd etdiyimiz kimi, bu paradoksun fəlsəfi əsası təbiət və cəmiyyət arasındakı əlaqənin özülünə dayanır. Daha dəqiq desək, "coğrafi mühit" anlayışının ən doğru fəlsəfi kontekstdə ictimailəşmə xüsusiyyətini, yəni təbiət və cəmiyyət arasındakı aktual əlaqələr sahəsi kimi funksiyasını nəzərə almaq gərəkdir. Bu barədə Y.K.Pletnikovun bir fikri maraqlıdır. Rusiyalı alim vurğulayır: "Təbiət və cəmiyyəti ayıra sərhəd şərti və nisbidir. Coğrafi mühit isə onların qarşılıqlı əlaqə sahəsidir" [4, s.76]. Əslində bu barədə çox maraqlı mövqeni məşhur ingilis coğrafiyaçısı Devid Harvey ifadə edib. O, "Coğrafiyada elmi izah" adlı əsərində, "coğrafi mühit" anlayışının universallığı və müasir elmi metodologiyada oynaya biləcəyi rolu dolğun təhlil edib [5]. Rusiya alimi V.A.Anuçin isə konkret olaraq müasir cəmiyyətin inkişafında coğrafi faktorun oynadığı rolun nəzəri təhlilini verib. Alim göstərir ki, cəmiyyətin inkişafı ilə coğrafi mühit anlayışının da məzmunu yeniləşir [1].

Yuxarıdakı analizdən sinergetik məntiqlə alınır ki, təbiət-cəmiyyət-coğrafi mühit anlayışları arasındakı bu cür qarşılıqlı əlaqə "coğrafi faktor" anlayışının məzmununa ikili xüsusiyyət aşılayır. Konkret desək, bu özəllik bir halda coğrafi mühiti bəşəriyyətin mövcud olduğu məkanı, digər halda isə cəmiyyət-təbiət sisteminin reallaşması sahəsi kimi əks etdirir. Buna görə də, ən konstruktiv yanaşma qloballaşmanın "iki qat sistemləşdirmə"nin təkamülü kimi göründüyü yanaşma olacaqdır. Bu əsasən təbiət və cəmiyyətin birgə təkamülüdür, lakin sistematik əlaqələrin ("kommunikasiya" termini də istifadə oluna bilər) sinergetikasına daha çox yer verilmişdir. "İki qat sistemləşdirmə" coğrafi faktora eyni zamanda həm məkan, həm də proses kimi baxmaq vasitəsidir. Bu yanaşma ilə coğrafi faktor həm təbii sistem, həm də ictimai sistemin komponentidir (və ya kommunikasiyasıdır). Daha konkret ifadə etsək, coğrafi mühit təbiətlə cəmiyyət arasında "kommunikativ mediator" rolunu oynaya bilər. Coğrafi mühitin bu "iki qat sistemləşdirmə" vasitəsi qloballaşma prosesinə xüsusi zəruri-lik - paradoksallıq aşılayır. Ümumilikdə isə sual bundan ibarətdir ki, qloballaşma prosesinin daha ahəngdar inkişafı üçün bu paradoksdan necə istifadə etmək lazımdır. Fikrimizcə, "iki qat sistemləşdirmə" yanaşması çərçivəsində bu problem həll oluna bilər. Məhz "iki qat sistemləşdirmə" metodu vəziyyətdən çıxmağın epistemoloji, ideoloji, və metodoloji parametrlərini göstərir. Əsas problem insanda, onun düşünmə tərzindədir. Müxtəlif yerli sivilizasiyaların uğurlu birləşməsi üçün "iki qat sistemləşdirmə" metodu çağdaş təfəkkür tələb edir. Tam əhatəli təfəkkür insanları ərazi, mədəni, dini, əxlaqi, və digər səbəblərdən birləşdirməyə qarşıdır. Bu faktorları rədd etmədən, yerli mədəniyyətlərin ahəngdar şəkildə inteqrasiyası üçün əsas məsələ onların bərabərlik və müstəqilliyini prosesin bütün aspektlərində qəbul etməkdir. Bu yanaşmanın əsas məqsədi müxtəlif statuslara malik "qlobal əyalət", "küçə" yaratmaq deyil, belə ki, qlobal cəhətdən vahid, müstəqil və özünü inkişaf etdirən cəmiyyət qurmaqdır.

Tam əhatəli təfəkkür çərçivəsində biz digər zəruri məsələni də qeyd etməliyik. Təbiətdə, müxtəlif coğrafi xüsusiyyətlər tam şəkildə bir birilə qarşılıqlı əlaqədədir. Deməli, bəşəriyyətin mövcud olduğu mühit əhatəli şəkildə qurulmuşdur. Buna görə də, bəşəriyyət dairəvi prinsip səbəbi ilə sistematik proses kimi təbiətin təşkili və təkamülündə ortaq xüsusiyyətlərə sahibdir. Əlbəttə ki, bəşəriyyət müstəqil bir sistemdir və daxili xarakteristikası ilə özünü formalaşdırmışdır. Lakin bu sistem dairəvi prinsip səbəbi ilə mövcudluq mühiti ilə sıx şəkildə əlaqədədir. Buna görə də, coğrafi faktor bəşəriyyətin təkamül dinamikasında müstəqil, inkişaf edən, mürəkkəb, və açıq sistem kimi formalaşır. Buna görə də, təfəkkürün tam əhatəliliyi eyni zamanda təbiətin strukturunu əhatəli qavramaq deməkdir.

Bu səbəblərdən dolayı, qloballaşma prosesində coğrafi faktorun rolunu və yerini təhlil etmək üçün tam əhatəli təfəkkürü başlanğıc prinsip kimi istifadə etmək olar. Təfəkkürün tam əhatəliliyi qloballaşma prosesində coğrafi faktorun rolu və yerinin konstruktiv analizinin "iki qat sistemləşdirmə"nin paradoksal mexanizminin təsiri ilə həyata keçirməsini reallaşdıra bilər. Bir tərəfdən, təbiət və bəşəriyyət arasındakı sıx əlaqələri təhlil etmək (sistem-ətraf mühitin kontekstinin analizi), digər tərəfdənsə yerli sivilizasiyaların birləşməsində coğrafi faktorun yerini və rolunu göstərmək mümkün olur. Bu kontekstdə, qloballaşmanın müxtəlif modellərinin müqayisəli analizini aparmaq mümkün olacaqdır. Eyni zamanda, qloballaşmanın hazırkı mərhələsində Azərbaycanın müstəqil dövlət və mədəniyyət sistemi kimi yeri və rolunun analizini aparmaq bizim üçün olduqca zəruri əhəmiyyət kəsb edir. Xüsusən də qloballaşma prosesində Azərbaycanın təbii sərvətlərinin və ictimai-mədəni xüsusiyyətlərinin rolunu analiz etmək daha zəruri əhəmiyyət kəsb edir. Bizim üçün bu məsələdə əsas prinsip, bir tərəfdən cəmiyyətin müstəqilliyini digər tərəfdən beynəlmiləl bəşəri və mədəni də-

yərlərin müşahidəsini nəzərə almaqla Azərbaycanın dünya sivilizasiyasına inteqrasiyasının optimal variantını yaratmaqdır. Şübhəsiz, bu prosesdə, müasir elmin təkamülünün fəlsəfi analizi zəruri rol oynayacaqdır. Biz həmçinin inanırıq ki, coğrafiya bir elm kimi bu prosesdə sonuncu yerdə dayanmır.

Açar sözlər: coğrafiya, fənlərarası yanaşma, elmlərin inteqrasiyası, "ikiqat sistemləşdirmə", qloballaşma, coğrafi mühit, kommunikativ mediator

Использованная литература

1. Анучин В.А. Географический фактор в развитии общества. М.: Мысль, 1982, 402 с.
2. Бейтсон Г. Шаги в направлении экологии разума. Избранные статьи по антропологии. М.: КомКнига, 2005, 232 с.
3. Луман Н. Общество как социальная система. Пер. с нем./ А.Антоновский. М.: Логос, 2004, 232 с.
4. Плетников Ю.К. О природе социальной формы движения. М.: Наука, 1971, 380 с.
5. Харвей Д. Научное объяснение в географии / Сокрщ. Пер. с англ. В.Я.Барласа и В.В.Голосова. М.: Прогресс, 1974, 502 с.
6. Эшби У.Р. Введение в кибернетику. М.: Изд.-во иностр. лит., 1980, 461 с.

Елбазак Аскерова

РОЛЬ ГЕОГРАФИЧЕСКИХ ЗНАНИЙ В РАЗВИТИИ СОВРЕМЕННОЙ НАУЧНОЙ ЗНАНИ

Резюме

В статье рассматривается гносеологическая, мировоззренческая и методологическая роль географии в современном научном познании. Показывается, что этот процесс по содержанию имеет исторический характер. Это обусловливается с одной стороны методологическим и гносеологическим развитием самой географии, а с другой, особенностями современной эпохи. В этом контексте в статье выдвигается тезис о "двойной систематизации". По этому принципу на современном этапе "географическая среда" может играть роль "коммуникативного медиатора".

Ключевые слова: география, междисциплинарный подход, интеграция наук, "двойная систематизация", глобализация, географическая среда, коммуникативный медиатор

Elbazak Askarova

THE ROLE OF GEOGRAPHICAL KNOWLEDGE IN THE DEVELOPMENT OF MODERN SCIENTIFIC KNOWLEDGE

Summary

The article considers the epistemological, world outlook and methodological role of geography in modern scientific knowledge. It is shown that this process has a historical character. At the present stage, the role of geography in the integration of sciences has increased. This is due, to the theoretical and methodological development of the subject and the features of the modern era. In this context, the article puts forward the thesis of "double systematization". On this principle, at the present stage, the "geographical environment" can play the role of a "communicative mediator".

Keywords: geography, interdisciplinary approach, integration of sciences, "double systematization", globalization, geographical environment, communicative mediator

UOT – 165.2

Hafizə İmanova
AMEA Fəlsəfə İnstitutu

AĞILLI GÜC: GEOSİYASİ VƏ FƏLSƏFİ ASPEKTLƏRİ HAQQINDA

Məqalədə Amerika geostrateqi və analitiki Jozef Nayın elmə daxil etdiyi "ağıllı güc" anlayışının nəzəri, elmi və fəlsəfi məzmunu təhlil edilir. Göstərilir ki, bu anlayışın konkret yaranma tarixi vardır və əsas hədəfi Amerikanın xarici siyasi fəaliyyəti ilə bağlıdır. Məqalədə vurğulanır ki, "ağıllı güc" həm nəzəri yanaşmadır, həm də praktiki tətbiq üsulu, fəaliyyət metodudur. Həmin kontekstdə yazıda "ağıllı güc"ün geosiyasi-nəzəri anlamı ilə fəlsəfədə işlənən "ağıl", "rasional qərar qəbuletmə", "məqsədyönlülük" kimi anlayışların məzmunu arasında qısa təhlili müqayisələr aparılıb. Ağıllı güc həqiqətən yeni bir güc formasıdırmı? Onun xarakterik xüsusiyyətləri hansılardır, harda tətbiq etmək mümkündür və alimlər onu necə təsvir edir? Məqalədə bütün bu suallara cavab verməyə səy göstərilir.

"Ağıllı güc" anlayışını dərk etmək üçün "güc" məfhumunun elmdə işlənən bir sıra özəlliklərini izah etmək lazımdır. Adi yanaşmada gücü insanın sahib olmaq istədiyi elə keyfiyyəti kimi qəbul etmək olar ki, onun təsirlərini sosial həyatın hər sahəsində - fərdlərarası münasibətlərdən tutmuş iqtisadi, dini, siyasi məsələlərdə görmək mümkündür. Elm tarixində güc anlayışı daha çox təbiətşünaslıqda, fizikada işlənib. İctimai elmlərdə o, kollektiv fəaliyyətin müxtəlif sferaları kontekstində metaforik mənada işlənib. Məsələn, "iqtisadi güc", "siyasi güc", "sosial güc", "hərbi güc", "müdafiə gücü" və s. Eyni zamanda, bu kimi anlayışlar sosial-humanitar elmi konsepsiyanın idraki və metodoloji özəlliyi çərçivəsində fərqli məzmunlar alıb. Biz həmin anlamların incəlikləri üzərində dayanmayacağıq. Çünki onların hər biri ayrı tədqiqatın obyektidir. Lakin bir qədər sonra fəlsəfədə "ağıl" və "güc" anlayışları üzərində J.Nayın daxil etdiyi "ağıllı güc" anlayışı bağlılığında geniş dayanacağıq. Bu, bizə müəyyən nəzəri müqayisələr aparmağa imkan verəcəkdir.

Beləliklə, Jozef Nay hansı mənada "ağıllı güc" anlayışından istifadə edib? Onun Armitracla birgə yazdığı məqaləyə müraciət edək. Amerikalı professor, geostrateq Jozef Nayın fikrincə, "güc istənilən nəticəni əldə etmək üçün başqalarının davranışlarına təsir etmək qabiliyyətidir" [2, s.6]. Lakin o, bunu fərdin fəaliyyəti müstəvisində deyil, daha çox kollektiv fəaliyyət – cəmiyyət, dövlət, hakimiyyət, siyasi qüvvələrin fəaliyyəti kontekstində başa düşür. Bununla bağlı R.Armitrac və J.Nay vurğulayırlar: "Tarixən güc anlayışı ölkənin əhalisi və ərazisi, təbii sərvətləri, iqtisadi gücü, hərbi qüvvələri, sosial sabitliyi ilə ölçülmüşdür" [2, s.6]. Nay "ağıllı güc" konsepsiyasını məhz bu anlayış üzərində qurur. Ümumiyyətlə götürdükdə, "ağıllı güc" nəzəriyyədir. Lakin o, eyni zamanda bir fəaliyyət strategiyasıdır. Konkret olaraq, ABŞ-ın siyasi-hərbi, diplomatik, geosiyasi, iqtisadi və sair sahələrdə dövlət kimi uğur əldə etməsini təmin edə biləcək sistemli fəaliyyət pozisiyasıdır.

Bu baxımdan "ağıllı güc" nə "yumşaq gücdür, nə də sərt gücdür", lakin onların hər ikisini özündə ehtiva edir [2, s.6-7]. Əsas məsələ J.Naya görə, ***"sərt" və "yumşaq" güclərin elə bir nisbətinə və qarşılıqlı əlaqələr dinamikasına nail olmaqdır ki, nəticə və məqsəd aspektində optimal yekun alınsın.*** Bu məqsədə nail olmaq isə təbii olaraq "ağıllı gücü" nəzəri aspektdən praktiki müstəviyə tətbiq edə biləcək metodoloji mexanizmin mövcudluğu şərti ilə mümkün ola bilər. Deməli, "ağıllı güc" sırf nəzəri hadisə deyil – onun praktiki-tətbiqi tərəfini aktuallaşdıran prinsiplər olmalıdır. Bununla bağlı J.Nayın bir fikri çox maraqlıdır. O yazır: "ağıllı güc – amerikan təsirini genişləndirmək və amerikan davranışlarına legitimlik vermək üçün alyanslara, tərəfdaşlığa və institutlara əhəmiyyətli dərəcədə vəsaitlər qoyan zəruri hərbi cəhəti olan yanaşmadır" [2, s.8]. Bütün bunlarda son məqsəd isə dünyada elə bir rifah halına nail olmaq nəzərdə tutulur ki, o, Amerikaya "öz hakimiyyətini dünyanın qalan hissəsi ilə uyğunlaşdırmağa" yardım edir [2, s.17].

Göründüyü kimi, "ağıllı güc" ümumi məzmunu olan termin kimi deyil, konkret geosiyasi hədəfi olan anlayış-konsept, proqram, fəaliyyət platforması qismində daxil edilib. Bu aspektlərdə onun fəlsəfi izahı çox aktualdır.

Həmin problemin təhlilinə keçməzdən öncə nəzəri praktikada işlənən "yumşaq güc" və "sərt güc" terminləri üzərində bir qədər geniş dayanaq. Geosiyasi nəzəriyyələrdə adətən gücün 2 formasından istifadə olunur: yumşaq güc və sərt güc. Məlumdur ki, sərt güc beynəlxalq münasibətlərdə güc siyasəti, zorakılıqla xarakterizə olunur. Sərt güc ən qədim güc forması olub nizam intizamın müharibələrlə, zorakılıqla təmin edildiyi ölkələrdə tətbiq olunur. Sahiblənmək və əldə etmək prinsipləri bu gücdə əsas prioritetlərdəndir. Sərt güc ölkələri silah gücü ilə istədiklərini əldə etmək üçün münaqişələrə, müharibələrə sövq edir.

Yumşaq güc isə tamamilə fərqli bir məfhumdur. Dövlətlər, qurumlar, təşkilatlar, həmçinin fərdi şəxslər zorakılıq və güc tətbiq etmədən də müxtəlif vasitələrlə güc siyasəti tətbiq edə bilərlər. Yumşaq güc elə bir güc formasıdır ki, münaqişələri həll etmək üçün müharibələr aparmağa ehtiyac yoxdur, mədəniyyət, mentalitet və mənəvi dəyərləri aşılamaqla istənilən nəticəni əldə etmək mümkündür. Burda əsas prioritet qanunvericilikdir. Qanun tənzimləmələri ilə dəyərlərə və maraqlara müraciət edərək gücü tətbiq etmək mümkündür.

Ağıllı güc özündə yumşaq və sərt gücü birləşdirərək nəinki siyasi kontekstlərdə, həm də qeyri-siyasi kontekstlərdə işlədilə bilər. Ağıllı güc məfhumu son zamanlar Avropa İttifaqı tərəfindən daha çox işlədilir. Avropa İttifaqı beynəlxalq arenada əvəzolunmaz rola malikdir. Lakin alimlər hesab edir ki, Avropa İttifaqı xarici və təhlükəsizlik məsələlərində maneələr yaradır və əsas aparıcı qüvvə olmamalıdır. Onun missiyasını NATO daha məqsədəuyğun yerinə yetirir. Professor Adrian Hyde-Price iddia edir ki, Avropa Birliyi mülki gücə malik deyil, belə ki, o sərt güc siyasətindən istifadə edir. Barry Posen isə bildirir ki, Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti ABŞ-ın gücünü tənzimləyən bir layihədir. Bu yanaşmalardakı əsas problem onların mənzərəni ətraflı təsvir edə bilməməsidir. Onlar xarici siyasətin yalnız bir hissəsinə toxunur, kənar sektorlarına isə toxunmur. Bu kontekstdə ağıllı güc yanaşması ətraflı analizini belə verə bilər: ağıllı güc diplomatik, iqtisadi, hərbi, siyasi, hüquqi və mədəni sahələrin kombinasiyasıdırmı və Avropa Birliyi bu sahələr arasında balans yaradacaq ən yaxşı modeldirmi?

Bu kimi suallar maraqlıdır. Lakin bizi daha çox "ağıllı güc" anlayışının fəlsəfi refleksiyası maraqlandırır. Fəlsəfədə, ümumiyyətlə, ağıl beynin qavrama, anlama, yadda saxlama, ümumiləşdirmə, məntiqi nəticə çıxartma və qərar qəbul etmək qabiliyyətləri ilə dərk edilir. Bununla bağlı müxtəlif fəlsəfi məktəblərdə fərqli yanaşmalar olsa da, 2 mühüm məqam mövcuddur: rasionallıq və məqsədyönlük. Rasionallıq ümumiyyətlə insan fəaliyyətinin əsasında zəkanın (ağlın) dayandığını nəzərdə tutur. Buraya insanın mənəvi, mədəni, idraki, və sosial praktiki fəaliyyət növlərinin hamısı daxildir. Deməli, fəlsəfi anlamda ağıllı hərəkət etmək hər şeydən öncə rasional olmaq(düşünmək və hərəkət etmək) mənasını verir.

Bunun fonunda məqsədyönlülük ağlın çox mühüm parametri təsiri bağışlayır. Hələ Aristotel əsas səbəblər sırasında məqsədyönlülüyü ayrıca göstərmişdir. Rasional olmaq fəlsəfi kontekstdə məqsədə elmi olaraq çatmaq mənasını da verə bilir. Deməli, məqsədyönlülük ağlın nəzərdə tutulan hədəfə addım-addım çatılması ilə sıx bağlıdır. Bu prizmadan qərar qəbuletmənin məqsədə nail olmağın həlledici faktoru olmasını qeyd edə bilərik.

Fəlsəfə tarixində və müasir elmdə qərar qəbul etmə haqqında çox maraqlı fikirlər söylənilib. Məsələn qeyri-səlis məntiq və sinergetikaya görə istənilən situasiyada qərar qəbul etmədə qeyri-müəyyənlik mövcud olur. İnsan bütün mənzərəni görüb tam təhlil etmək və şübhəsiz, həqiqi olan qərar qəbul etmək imkanına malik deyildir. Lütfi Zadə yazır ki, qərar qəbuletmə prosesində həmişə qeyri-müəyyənlik zonası mövcud olur. Herman Hakenin tədqiqatlarında da analoji mövqe vardır [3].

Deməli, rasional və məntiqi olmaq hələ ağıllı qərar qəbul etmək demək deyildir. Bütövlükdə, ağıllı fəaliyyət rasional və məntiqi düşünərək situasiyaya uyğun məqsədyönlü qərar qəbul etməkdir. Buna görə fəlsəfədə rasional qərar qəbul etmək "ad hoc" dur. Onda belə nəticəyə gəlmək olar ki,

ağıl əsasında məqsədə çatmaq rasional məntiq əsasında mövcud situasiyaya adekvat davranmaq deməkdir (reaksiya vermək deməkdir).

Belə çıxır ki, fəlsəfi anlamda ağıllı davranış həmişə situativdir (ad hoc). Onda deyə bilərik ki, mütləq ağıllı qərar yoxdur, situasiyaya uyğun olan və ağıllı hesab olunacaq qərarlar vardır. Buradan fəlsəfi olaraq ağılla bağlı başqa bir nəticə çıxara bilərik. Yəni ağıl prosessual təbiətlidir. O, rasional və məntiqi hesablamalar əsasında heştalt (fraqmentar deyil, bütöv obraz şəklində) keçidlərin sintezidir.

Belə çıxır ki, ağıl anlayışı funksional aspektdə qərarlar silsiləsinin rasional məntiqi sistemi kimi təsəvvür edilə bilər. Belə bir anlamın işığında Jozef Nayın irəli sürdüyü "ağıllı güc" anlayışının fəlsəfi çalarları üzərində düşünmək olar. İlkin araşdırmalar göstərir ki, fəlsəfi anlamda ağıl anlayışı ilə Jozef Nayın "ağıllı güc" anlayışı arasında nəzəri müqayisəni rasionallıq, prosessuallıq, məntiqilik, və qərar qəbul etmə faktorları üzrə aparmaq elmi cəhətdən əsaslı görünür. Jozef Nayın tərifinə görə ağıllı güc yumşaq və sərt gücün konkret nəticə verə bilən sintezini təşkil etmək üsulundan ibarətdir. Yəni ağıllı güc bu anlamda elə bir rasional metoddur ki, subyektə məqsədə nail olmaq imkanı verir. Məqsədyönlülük fəlsəfi ağıl ilə geosiyasi nəzəri ağıllı güc anlayışlarını birləşdirən vacib xarakteristikadır. Beləliklə, ağıllı güc anlayışının fəlsəfi məzmunundan yararlanaraq ağıllı güc anlayışının nəzəri təhlilini vermək mümkündür.

Yuxarıdakı müddəalardan görünür ki, ağıllı güc anlayışında məqsədyönlü qərarların qəbul edilməsi həlledici rol oynayır. Qərar qəbuletmə haqqında müasir elmi təsəvvürlərdə bir neçə maraqlı məqam vurğulanır. Biz onların sırasında R. Bellman, Lütfi Zadə, H.Haken yanaşmalarında özünü göstərən və ağıllı güc problemi aspektində əhəmiyyətli saydığımız özəllikləri qeyd edək. R. Bellman və Lütfi Zadə hər bir qərar qəbuletmə zamanı aydın olmayan informasiya sahəsinin mövcud olduğunu yazıblar. Onlar belə bir formul irəli sürürlər: "Qərar = məqsədlər və məhdudiyyətlərin sintezi" [1, s.188].

Deməli, Bellman və Lütfi Zadəyə görə, istənilən qərarın qəbul edilməsi zamanı məqsədlər dəqiqləşdirilməli və onlara nail olmaq üçün konkret şərtlər müəyyənləşməlidir. Buradan Jozef Nayın ağıllı güc anlayışının fəlsəfə aspekti barədə maraqlı bir tezis irəli sürə bilərik: ağıllı güc=yumşaq güclə sərt gücün kombinasiyası. Yəni yumşaq gücü məqsəd olaraq irəli sürərək sərt güclə ona məhdudiyyətlər qoyaraq ağılla gücə müvəffəq olmaq olar. Ancaq burada yumşaq və sərt güclər funksiyalarını dəyişə bilərlər. Deməli, Bellman-Zadə qərar qəbuletmə formulunda ifadə olunan prinsip ağıllı güc məsələsində real vəziyyəti tam ifadə edə bilər. Çünki daima məlum olmayan informasiyalar qərar qəbuletmə prosesinin fonunda mövcud olur və bu qeyri-müəyyənlik yaradır.

Ağıllı güc misalında yumşaq və sərt güclərin funksiyası həmin qeyri-müəyyən situasiyanın xarakterindən asılıdır. Bu mənada istənilən variantda ağıllı güc tətbiqi risklərə bağlıdır. Belə çıxır ki, mütləq mənada ağıllı güc yoxdur. Onun mahiyyətində situativlik vardır. Ancaq başqa ümumelmi yanaşma çərçivəsində bu sinergetikanın banisi Herrman Hakenin yanaşmasında yer almış bir prinsiplə əlaqələdir. O, bunu "Beynin işləmə prosesləri" əsərində ifadə edib. Həmin prinsip qərar qəbuletmə ilə obrazların dərk edilməsi (tanınması) arasındakı analogiyaya əsaslanır [3, s.283-285].

Alman alimi vurğulayır ki, burada istənilən qərar qəbuletmədə məlum-naməlum faktorlarlar nisbəti mövcuddur ki, eyni qayda obrazların tanınmasında da özünü göstərir. Konkret deyilsə, Herman Haken bu analogiyanın təməlində aşağıdakı qaydanın dayandığını iddia edir: "İnsan hətta dəyişmiş şəraitdə sonuncu davranışını təkrarlayır" [3, s.284]. Yəni situativ olaraq ya yeni bir təcrübə qazanmadığına görə öncəkini təkrarlayacaq yaxud da dəyişən situasiyada sonuncu davranışının effektiv olacağını düşünür. Bu tezisi obrazların tanınması ilə qərar qəbuletmə arasındakı analogiyanı təmin edən bir qanunauyğunluğun mövcudluğu təsdiq edir. Həmin qanunauyğunluq "histerezis" hadisəsinə əsaslanır. Histerezis yunancadan tərcümədə "gecikmə, geridə qalma" deməkdir.

Beləliklə, "ağıllı güc" anlayışı konkret məzmunu olan və daha çox strateji hədəflərə çatmaq üçün dövlətin fəaliyyətini təşkil etməyə aid olan hadisədir. J.Nay onu ABŞ-ın qarşısına qoyduğu məqsədlərə nail olmaqda yardımçı ola biləcək nəzəri-praktiki fəaliyyət üsulu olaraq yaradıb. Təbii ki, bu anlayışın nəzəri, geosiyasi, siyasi və fəlsəfi aspektləri geniş tədqiqatın mövzusudur. Biz bura-

da yalnız lokal mənada əhəmiyyəti olan bir qisim məsələlərə qısa nəzər salmağa çalışdıq. Analizlər göstərir ki, geosiyasi kontekstdə işlənən "ağıllı güc" anlayışı əslində təbiətşünaslıq və fəlsəfədə konkret mənbələrə malikdir. Bu bağlılıqda L.Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi, sinergetika, avtopoyezis və sair müasir elmi istiqamətlərin nəzəri-konseptual aparatının rolu az deyil. Fəlsəfədə işlənən "ağıl" və "qərar qəbuletmə" anlayışlarının təbiətşünaslıqda və geosiyasətdə istifadə olunan anlayışlarla hansı qarşılıqlı əlaqəsi ola biləcəyi sualı da bizim üçün yuxarıda vurğulanan aspektdə çox maraqlı görünür. Bu istiqamətdə tədqiqatları davam etməyin yararlı ola biləcəyini düşünürük.

Açar sözlər: "ağıllı güc", ağıl, rasionallıq, geosiyasət, strategiya, "yumşaq güc", "sərt güc"

İstifadə edilmiş ədəbiyyat

1. Беллман Р., Заде Л. Принятие решений в расплывчатых условиях / В сб.: Вопросы анализа и процедуры принятия решений. М.: Мир, 1976, с.173-215
2. Center for Strategic and International Studies (CSIS), 'CSIS Commission on Smart Power: A Smarter, More Secure America', co-chairs, Richard L. Armitage and Joseph S. Nye, Jr., 2007, p.5-14.
3. Хакен Г. Принципы работы головного мозга: Синергетический подход к активности мозга, поведению и когнитивной деятельности. М.: ПЕР СЭ, 2001, 351 с.

Хафиза Иманова

УМНАЯ СИЛА: О ГЕОПОЛИТИЧЕСКОМ И ФИЛОСОФСКОМ АСПЕКТАХ

Резюме

В статье анализируется теоретическое, научное и философское содержание понятия "умная сила", введенная в науку американским геостратегом и аналитиком Дж.Найом. Показывается, что у этого понятия есть конкретная история возникновения, и основная цель связана с внешнеполитической деятельностью Америки. В статье отмечается, что "умная сила" одновременно является и теоретическом подходом и методом практической деятельности. В этом контексте проводится сравнительный анализ понятий "ум", "рациональное принятие решений", "целенаправленность" и "умная сила".

Ключевые слова: умная сила, ум, рациональность, геополитика, стратегия, "мягкая сила", "жесткая сила"

Hafiza İmanova

SMART POWER: ABOUT GEOPOLITICAL AND PHILOSOPHICAL ASPECTS

Summary

The article analyzes the theoretical, scientific and philosophical content of the concept of "smart power", introduced by the American geostrategist and analyst J.Noy (junior). It is shown that this concept has a concrete history of origin, and the main goal is connected with foreign policy activity of America. The article notes that "smart power" is both a theoretical approach and a method of practical activity. In this context a comparative analysis of the concepts "mind", "rational decision-making", purposefulness and "smart power" is carried out.

Keywords: "smart power", mind, rationality, geopolitics, strategy, "soft power", "hard power"

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

UOT – 332.01

Tərbiz Əliyev
AMEA İqtisadiyyat İnstitutu, i.ü.e.d., professor
Hikmət Səlimov
Lənkəran Dövlət Universiteti, doktorant

LƏNKƏRAN İQTİSADİ RAYONUNDA EMAL SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN MÖVCUD POTENSİALLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ YOLLARI

Məqalə Lənkəran iqtisadi rayonunda emal sənayesi müəssisələrinin mövcud potensiallarından səmərəli istifadə edilməsi yollarına həsr olunub. Məqalədə Lənkəran regionunun coğrafi-iqtisadi xarakteristikası verilmiş, Lənkəran iqtisadi rayonunun sənaye potensialı nəzərdən keçirilmiş, emal və qida sənayesi məhsullarının strukturunda baş verən dəyişikliklər təhlil edilmiş, mühüm nəticələr çıxarılmış, dəyərli təkliflər irəli sürülmüşdür.

Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifah halını yüksəltmək, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq dövlətin fəaliyyətində mərkəzi yer tutur. Bu sahədə əldə ediləcək nailiyyətin bazasında ölkənin qeyri-neft sənayesi dayanır.

Son 10 ildə bu sahədə əldə edilən nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı, onu da qeyd etmək lazımdır ki, ayrı-ayrı iqtisadi regionlarda mövcud sənaye potensialından səmərəli istifadə edilmir və orada çoxsaylı ehtiyat imkanları mövcuddur. Elə buna görə də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında – qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, aqrar-emal sektorunun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi prioritet istiqamətlər sırasındadır [1]. Bununla yanaşı, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında" yeni istehsal sahələrinin yaradılması, regionların sənaye potensialının gücləndirilməsi, sənaye texnologiyalar parklarının və məhəllələrinin yaradılması, ixrac yönümlü qeyri-neft sektorunun inkişaf etdirilməsi və digər mühüm tədbirlərin icrasının zəruriliyi qeyd edilmişdir [2].

Lənkəran regionunun coğrafi-iqtisadi xarakteristikası

Azərbaycanın iqtisadi rayonları içərisində Lənkəran iqtisadi rayonu təbii sərvətləri, iqlimi, iqtisadiyyatın strukturu, bütünlükdə məhsuldar qüvvələrin yerləşdirilməsi, əhalinin orta illik artım tempi və digər göstəricilər üzrə mövcud iqtisadi rayonlardan öz spesifik xüsusiyyəti ilə fərqlənir. Statistik məlumatlara görə hazırda Lənkəran iqtisadi rayonunun əhalisi 900 min nəfər təşkil edir və əhalinin sıxlığı hər kvadrat kilometr üçün 150 nəfərdir.

Ölkənin Cənubi-Şərqində yerləşən Lənkəran iqtisadi rayonu – Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı və Lənkəran inzibati rayonlarını əhatə etməklə subtropik rütubətli iqlimə malikdir. Dünyada mövcud olan 11 iqlim qurşağından 7-nə bu iqtisadi rayonun ərazisində rast gəlmək olar. Ölkə ərazisinin 7%-i, əhalisinin 9,3%-i, təsərrüfat subyektlərinin 7,2%-i, iqtisadiyyatda muzdla işləyənlərin 4,3%-i, kənd təsərrüfatı məhsulunun 10,6%-i, respublika üzrə istehsal olunan çayın tam həcmi, tərəvəzin 30%-i, kartofun 25%-i, üzümün 15%-i, meyvənin 12%-i bu iqtisadi rayonun payına düşür. İqtisadi rayonda tikinti qumu, gil, çay daşı, gips və s. qeyri-filiz ehtiyatları regionun iqtisadi inkişafında mühüm rol oynayır və bu iqtisadi rayon termal mineral sularla zəngindir. Bakı-Astara dəmir və avtomobil yolları sərnişin və yük daşımalarında, eləcə də Azərbaycanla İran İslam Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsində mühüm rol oynayır. Lənkəran şəhərində beynəlxalq statusa malik aeroport fəaliyyət göstərir. Bu region kurort və turizmin inkişafı üçün əlverişlidir [6].

Lənkəran iqtisadi rayonunun sənaye potensialı

İqtisadi regionun sənayesi yerli kənd təsərrüfatı xammalı əsasında inkişaf etdirilir. Sənaye məhsulunun 90%-ə qədəri yeyinti və yüngül sənayenin payına düşür. AR DSK-nin məlumatlarına

görə 2016-cı ilin əvvəlinə regionda 90 sənaye müəssisəsi və sənaye fəaliyyəti ilə məşğul olan 944 fərdi sahibkar vardır. Onların birgə fəaliyyəti nəticəsində 2010-2015-ci ildə sənaye məhsulunun həcmi 151% artaraq, 2015-ci ilin sonunda 74,7 mln. manat təşkil etmişdir. Qeyd edilən illər ərzində regionun sənaye müəssisələrində çalışan işçilərin sayı 142,2% artaraq 5537 nəfərə çatmış, əsas istehsal fondlarının dəyəri 131%, işçilərin orta aylıq əmək haqqı 150,5% artmışdır. Bu da nəticə etibarı ilə, işə qəbul və işdən çıxma dövr əmsallarının müqayisə dövründə nisbətən azalmasına imkan vermişdir. Regionun sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 2010-cu ildə 56,2%-dən 2015-ci ildə 60,6%-ə çatmışdır. Təhlilin əhatə etdiyi dövrdə hazır sənaye məhsul ehtiyatının ilin axırına qalığı 2,6 mln. manatla 4,9 mln. manat arasında dəyişmiş və müqayisə dövründə 111,5% artsa da, onun bütün məhsulun tərkibindəki xüsusi çəkisi 5,3%-dən 3,9%-ə enmişdir. Regionda sənaye məhsulunun həcminin əsas istehsal fondlarının dəyərinə işçilərin sayına nisbətən daha yüksək templə çoxalması fondverimi göstəricisinin 113,8%, fondla silahlanmanın isə - 105,5% çoxalmasına təminat yaratmışdır (cədvəl 1).

Lənkəran iqtisadi rayonunda sənaye müəssisələrinin fəaliyyətini xarakterizə edən əsas iqtisadi və sosial göstəricilər *)

Cədvəl 1


Göstəricilər	İllər						2010-2015-ci illərdə artım tempi %-lə
	2010	2011	2012	2013	2014	2015	
Fəaliyyət göstərən müəssisələrin sayı	92	84	75	76	77	90	97,8
Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin qiymətləri ilə, mln. man.	49,5	65,9	65,8	65,2	71,0	74,7	150,9
Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə)	97,3	147,4	138,9	87,9	97,9	96,2	x
Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə	56,2	59,8	58,6	59,9	58,7	60,6	x
Hazır məhsul ehtiyatının ilin axırına qalığı, mln.man.	2,6	2,8	4,9	4,5	4,7	2,9	111,5
Qalıq məhsulun bütün məhsulun tərkibindəki xüsusi çəkisi, faizlə	5,3	4,2	7,5	6,9	6,6	3,9	-1,4
İşçilərin orta siyahı sayı, nəfər	3895	3913	4363	5560	5827	5537	142,2
İşə qəbul edilmişdir, nəfər	1998	918	1413	1123	1513	2115	105,9
İşə qəbul üzrə dövr əmsalı, faizlə	51,3	23,5	32,4	20,2	26,0	38,2	-13,1
İşdən çıxarılmışdır, nəfər	1573	946	438	646	1516	2206	140,2
İşdən çıxma üzrə dövr əmsalı, faizlə	40,4	24,2	10,0	11,6	26,0	39,8	-0,6
İşçilərin orta aylıq əmək haqqı, manat	212,5	232,6	266,6	270,5	284,9	319,7	150,5
Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə,mln.man.	172,4	170,5	180	192,4	217,9	225,6	130,9
Fondverimi, manat	0,29	0,39	0,37	0,34	0,33	0,33	113,8
Fond tutumu, man.	3,48	2,59	2,74	2,95	3,07	3,02	86,8
Fondla silahlanma min.man/nəfər	12,7	16,8	15,1	11,7	12,2	13,4	105,5

*) cədvəl müəlliflər tərəfindən "Azərbaycanın sənayesi" statistik məcmuəsinin məlumatları əsasında tərtib edilib hesablanmışdır [4].

Emal sənayesi məhsullarının strukturunda baş verən dəyişikliklər


Statistik məlumatların təhlili göstərir ki, təkcə 2010-2015-ci illər ərzində Lənkəran iqtisadi rayonunda emal məhsullarının strukturunda əsaslı dəyişiklik baş vermişdir. Əgər 2010-cu ildə bütün emal məhsulunun strukturunda qida məhsulları istehsalı 29,6%; mebel istehsalı 63,7%; tikinti ma-

terialları 4,1% və digər emal sahələrində istehsal edilən məhsulların xüsusi çəkisi -2,6% təşkil etmişdirsə, 2015-ci ildə həmin nisbət uyğun olaraq: 30,5%; 55,4%; 11,8% və 2,0% olmuşdur (şəkil 1)



Təhlilin əhatə etdiyi dövrdə regionda bütün emal sənayesi məhsullarının həcmi 171% artmış, onun bütün sənayedəki payı 2010-cu ildə 59,7%-ə çatmışdır. Bu illər ərzində qida məhsullarının istehsalı 176,3%; içki istehsalı 3,5 dəfə; toxuculuq məhsulları 2,3dəfə; tikinti materialları istehsalı 4,5 dəfə; mebel istehsalı 149%; metal məmulatları istehsalı 134,4% artmışdır.

Statistik məlumatlara görə 2015-ci ildə regionda fəaliyyət göstərən sənaye müəssisələrinin 46,7%-i Lənkəran və 23,3%-i Masallı rayonu üçün xarakterik olduğu halda, istehsal edilən sənaye məhsulunun xüsusi çəkisi uyğun olaraq: 27,6% və 48,4% təşkil etmişdir ki, bu da həmin rayonlarda fəaliyyət göstərən müəssisələrin xarakterik xüsusiyyətini səciyyələndirir. Oxşar vəziyyət Astara və Lerik rayonları üçün də xarakterikdir (şəkil 2)



Şəkil 2. Sənaye müəssisələrinin və məhsulun rayonlar üzrə xüsusi çəkisi yekuna görə faizlə) [4; 6].

Tədqiq edilən iqtisadi rayonda emal müəssisələrinin inzibati rayonlar üzrə fəaliyyətini xarakterizə edən göstəricilərin təhlili nəticəsində aydın olur ki, 2010-2015-ci illərdə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı Astara və Lerik rayonlarında sabit qalmış, Cəlilabad, Masallı və Yardımlı rayonlarında kəmiyyətcə azalma baş vermış, artım isə yalnız Lənkəran inzibati rayonu üçün xarakterik olmuşdur. Buna baxmayaraq müqayisə dövründə bütün inzibati rayonlar üzrə emal sənayesi məhsulların həcmində dinamik artın təmin edilmişdir. Həmin dövrdə iqtisadi rayonun bütün inzibati bölgələrində emal müəssisələrində çalışan işçilərin və fərdi sahibkarların sayında da əsaslı kəmiyyət dəyişikliyi baş vermiş, işçilərin sayı bütünlükdə 1642 nəfər, fərdi sahibkarların sayı isə - 654 nəfər çoxalmışdır. Həmin göstəricilər üzrə yüksək artım tempi Cəlilabad, Lənkəran və Masallı inzibati rayonlarında müşahidə edilir (cədvəl 2).

Lənkəran iqtisadi rayonunda emal müəssisələrinin fəaliyyətini xarakterizə edən əsas göstəricilər [4; 6]

Cədvəl 2

Rayonların adı	Fəaliyyət göstərən müəssisələr (vahid)		Fərdi sahibkarlar (nəfər)		Sənaye məhsulu (mln. man)		İşləyənlərin sayı (nəfər)	
	2010	2015	2010	2015	2010	2015	2010	2015
İqtisadi rayon üzrə. Cəmi	92	90	290	944	49,5	74,4	3895	5537
O cümlədən: Astara rayonu	8	8	17	90	10,6	11,2	349	443
Cəlilabad rayonu	11	9	57	159	3,7	5,3	394	459
Lənkəran rayonu	40	42	96	235	12,2	20,6	1512	1685
Masallı rayonu	24	21	192	377	21,6	36,0	1361	2608
Lerik rayonu	4	4	15	54	0,875	0,897	117	189
Yardımlı rayonu	5	6	13	29	0,562	0,688	162	153

Qida məhsullarının strukturunda baş verən dəyişikliklər

İqtisadi region üzrə əsas növ qida məhsullarının istehsalını nəzərdən keçirərkən aydın olur ki, təbii çay istehsalı 2010-cu ildə 113,8 tondan 2015-ci ildə 273,5 tona çatmış və yaxud 2,4 dəfə artmışdır. Bu illər ərzində regionda çörək və çörək-bulka məmulatları istehsalı 141,4%; xama və qaymaq 4,1 dəfə, qurudulmuş süd 5,8 dəfə; pendir və kəsmik 101,1% artmış, lakin üzlü süd istehsalı 20,8%; kərə yağı 30,8% azalmışdır. Bununla yanaşı 2013-cü ildən başlayaraq regionda un istehsalı mənimsənilmiş və 2014-cü ildə onun həcmi 1259 ton və 2015-ci ildə 627,7 ton təşkil etmişdir.

Lənkəran iqtisadi rayonu üzrə əsas növ qida məhsullarının istehsalı*)

Cədvəl 3

Məhsulların adları	İllər						2010-2015-ci illərdə artım tempi %-lə
	2010	2011	2012	2013	2014	2015	
Təbii çay, ton	113,8	180,5	252,2	445,5	405,4	273,5	2,4 dəfə
Çörək və çörək-bulka məmulatı, ton	1503	1364,8	1889,8	1374,1	3211,1	2124,9	141,4
Un, ton	-	-	-	578,6	1259	627,7	x
Üzlü süd, ton	4751	5412	3416	4153	3245	3764	79,2
Xama və qaymaq, ton	23,1	175,1	140,5	88,1	80,0	94,9	4,1 dəfə
Kərə yağı,ton	29,2	79,2	38,8	40,4	14,9	20,2	69,2
Pendir və kəsmik, ton	456,8	1229	632,7	347,3	500,9	462	101,1
Qurudulmuş süd, ton	240,4	2031	1378	911,6	1199	1383	5,8 dəfə
*) Azərbaycanın sənayesi. Bakı: DSK, 2016, s.216, 218, 220, 223, 225							

Aparılan kompleks təhlil göstərir ki, Lənkəran iqtisadi rayonunda emal sənayesi müəssisələrinin mövcud iqtisadi potensiallarından lazımi səviyədə istifadə edilmir. Belə ki, təhlilin əhatə etdiyi dövrdə hazır məhsul qalığının dəyəri 111,5% artmış, işçilərin işə qəbulu və işdən çıxması dövr əmsalı dünya təcrübəsində nəzərdə tutulan buraxıla bilən həddən xeyli yüksəkdir. Bu vaxt aqrar emal sferasının fəaliyyətində mövsümü xarakterlə izahedilsə də, bu sahədə təşkilati və sosial xarakterli tədbirlərin həyata keçirilməsini ön plana çəkir. Regionun sənaye sektorunda çalışan işçilərin orta aylıq əmək haqqı da ümumi respublika göstəricisindən aşağıdır. Sənaye müəssisələrinin yarıdan çoxu aşağı güclə işləyir. Sənaye müəssisələrinin investisiya təminatı və innovasiya fəaliyyəti aşağıdır.

Fikrimizcə, regionun emal sənayesi müəssisələrinin iqtisadi potensialından səmərəli istifadə edilməsi üçün aşağıdakı tövsiyələrin həyata kecirilməsi məqsədəuyğun olardı:

- Aqrar-emal sənayesi müəssisələrinin xammal təchizatının yaxşılaşdırılması məqsədilə tədarük məntəqələrinin yaradılması və əhalidən meyvə, tərəvəz, süd və digər qida məhsullarının alınmasının yaşayış məntəqələrində təşkili;
- Təchizat – emal – satış – nəql – anbarlaşdırma – kadr təminatı sxemi üzrə fəaliyyətin təşkili üçün hər bir inzibati rayonun iqtisadiyyatının strukturuna uyğun müvafiq klasterlərin və aqroparkların yaradılması;
- Rayonlararası ixtisaslaşdırılmış və qarışıq tipli aqroparkların yaradılması;
- İstehsalın son nəticəsi ilə əməyin ödənişi arasında üzvü əlaqəni təmin etmək üçün motivləşdirmə prosesinin intensivləşdirilməsi;
- Emal sənayesi müəssisələrinin təchizat, satış və əks əlaqə sistemində İKT-dən geniş istifadə edilməsi;
- Hazırda texniki şərt əsasında istehsal edilən məhsulların keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması hesabına müəssisələrin ixrac imkanlarının artırılması.

Açar sözlər: Lənkəran iqtisadi rayonu, emal sənayesi müəssisələri, potensial

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. "Respublika" qəzeti, 30 dekabr 2012.
2. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı (№964). "Respublika" qəzeti, 27 dekabr 2014-cü il
3. Azərbaycanın Statistik Göstəriciləri. Bakı: Dövlət Statistika Komitəsi, 2016, 824 s.
4. Azərbaycanın sənayesi. Bakı: Dövlət Statistika Komitəsi, 2016, 244 s.
5. Azərbaycanda tikinti. Bakı: Dövlət Statistika Komitəsi, 2016, 384 s.
6. Azərbaycanın regionları. Bakı: Dövlət Statistika Komitəsi, 2016, 834 s.

Тарбиз Алиев
Икмет Салимов

ПУТИ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЯ ПОТЕНЦИАЛА ПРЕДПРИЯТИЙ ОБРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ В ЛЕНКОРАНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

Резюме

В статье дана экономико-географическая характеристика Ленкоранского района и на основе многолетних статических данных проанализированы основные технико-экономические и социальные показатели промышленных предприятий, изменения структуры продукции обрабатывающей промышленности, а также структуры пищевой продукции, выявлены соответствующие резервы и определены пути их рационального использования.

Ключевые слова: Ленкоранский экономический район, обрабатывающая промышленность, потенциал

Tarbiz Aliyev
Hikmat Salimov

WAYS OF EFFECTIVE USE OF THE CURRENT POTENTIAL OF MANUFACTURING ENTERPRISES IN THE LANKARAN ECONOMIC REGION

Summary

The article gives an economic and geographical description of the Lankaran region and, based on long-term statistical data, analyzed the main technical and economic and social indicators of industrial enterprises, changes in the structure of manufactured products, as well as the structure of food production, identified the reserves and ways of their rational use.

Keywords: Lankaran economic region, manufacturing industry, potential

UOT – 338.484

Gülnarə Hacıyeva
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d., dosent

AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZM SEKTORUNUN TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ XARİCİ TƏCRÜBƏ

Məqalədə qeyd edilir ki, turizm sektoru dünyada xüsusi yerə malik olmaqla beynəlxalq xidmətlər ticarətinin dinamik inkişaf edən sahələrindəndir. İşdə turizm sektorunun inkişafında dövlət tənzimlənməsinin rolu tədqiq edilir. Hazırda turizmin dövlət tənzimlənməsinin təşkilinə bir neçə yanaşma mövcuddur. Belə ki, bəzi inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi yoxdur, bazar subyektləri isə özləri operativ tənzimləməni həyata keçirirlər. Məqalədə xarici təcrübənin təhlili əsasında ölkədə turizm sektorunun inkişafı istiqamətində təkliflər işlənilmişdir.

Xidmətlərin beynəlxalq ticarətində dinamik inkişaf edən sahələrdən biri də müasir turizm sənayesidir. Son 20 il ərzində dünyada xarici turistlərin gəlişinin orta illik artım sürəti 5,1%, valyuta daxil olmaları 14%, gələn turistlərin sayı 900 milyon nəfərə çatmışdır. Proqnoz göstərir ki, 2020-ci ildə beynəlxalq turist gedişi 1,56 mlrd. nəfərə çatacaq ki, onlardan 1,18 mlrd. nəfər öz regionlarında səyahət edəcəklər. Yalnız 377 mln. nəfər uzaq səyahətlər edəcəklər. Qeyd edilir ki, nəinki region daxili səyahət, digər dünya regionlarına uzaq səfərlər daha yüksək sürətlə artacaqdır [4].

Turizmin ölkə iqtisadiyyatlarının tədiyə balansında rolu çox böyük əhəmiyyətə malikdir. Turizm beynəlxalq əmək bölgüsünə, iqtisadiyyatın inkişafına və həmçinin millətlər arasında əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır.

Turizmin dünya ölkələri sıralamasında 2015-ci il reytinqinə görə turizmin ÜDM-yə mütləq ifadədə töhfəsinə görə reytinqdə Azərbaycan 136-cı yerdən 90-cı yerə sahib çıxaraq, 1,5% xüsusi çəkiyə malik olmuş, turizmin mütləq ifadədə iş yerlərinin açılmasında töhfəsinə görə 123-cü yerdən 86-cı yerə sahib olmuşdur. İnvestisiya qoyuluşu üzrə 149 ölkə arasında 89-cu yerə sahib olaraq 0,4% xüsusi çəkiyə malik olmuşdur.

"World Travel and Tourism Council"un hesabatına əsasən, 2015-ci ildə turizmə investisiya yatırımı 2010-cu illə müqayisədə 2,75 dəfə artaraq 434,1 mln. manat təşkil etmiş və 2026-cı ilə 709,9 mln. manat olacağı proqnozlaşdırılır [4].

Ümumdünya Turizm Təşkilatının ekspertləri müəyyən etmişlər ki, ölkədə turizmin inkişaf tendensiyası ilə onun ümumi iqtisadi vəziyyəti arasında sıx əlaqə mövcuddur. Səyahətlərin dinamikası isə ölkədə olan iqtisadi vəziyyətə çox həssasdır. ÜTT-nin statistikası göstərir ki, son bir neçə il ərzində beynəlxalq səyahətlər və onlardan əldə edilən gəlirlər dünyanın bütün regionlarında artmışdır.

Dünyanın hər bir turist regionunda turist bazarının təhlili onun yaranma tarixini, cari vəziyyətini və ümumdünya turist sektorunun gələcəyini işıqlandıraraq bir çox məqsədlər güdür:

- beynəlxalq turizmin artdığı və azaldığı regionları eyniləşdirmək;
- turistlərin sayının coğrafi paylanmasında böyük fərqlərin mövcudluğunun səbəblərini, onlardan əldə edilən gəlirləri və bu dinamikada olan fərqləri təhlil etmək;
- iqtisadiyyatın daha da genişləndirilməsi məqsədilə beynəlxalq turizm üçün böyük potensialı olan ölkələri araşdırmaq.

İqtisadiyyatın ayrı-ayrı sahələrinin formalaşması və tənzimlənməsində dövlət əhəmiyyətli rola malikdir. Xarici ölkələrin təcrübəsi göstərir ki, elm və innovasiya sahəsində düşünülmüş dövlət müdaxiləsi həm ümumi iqtisadi inkişaf prosesində, həm də onun ayrı-ayrı istiqamətlərində hiss olunacaq müsbət nəticələrin əldə edilməsinə gətirib çıxara bilər [1, s.6].

Son dövrlər turizm bütün ölkələrdə yüksək sürətlə inkişaf etməyə başladı. Müxtəlif ölkələrin təcrübəsi ilə tanış olaraq görmək olur ki, bu inkişaf əsasən dövlət tərəfindən, dövlət institutları tərəfindən dəstək hesabına mümkün olur. Turizm biznesindən gəlir əldə etmək üçün dövlət turist potensialı baxımından ölkə ərazisini tədqiq etmək üçün əsaslı vəsait sərf etməlidir. Dövlət proqramları turist biznesinin, turist mərkəzlərinin inkişafı, zəruri infrastrukturun yaradılması, reklam və informasiya təminatını stimullaşdırır.

Hazırda turizmin dövlət tənzimlənməsinin təşkilinə bir neçə yanaşma mövcuddur. Belə ki, bəzi inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi yoxdur, bazar subyektləri isə özləri operativ tənzimləməni həyata keçirirlər. Turist xidmətləri bazarında dövlət tənzimlənməsi həyata keçirilən ölkələrdə isə iki modeldən istifadə edilir: xüsusi dövlət hakimiyyəti orqanları və ya tənzimləmə müxtəlif profilli təşkilatlar tərəfindən həyata keçirilir.

Məsələn, Avstriyada turizm sahəsi İqtisadiyyat Nazirliyi tərəfindən idarə edilir. Turizm imkanlarının reklamı Avstriya milli turist ofisi həyata keçirir. Avstriyada dövlət tənzimlənməsinin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Turist sahəsi üçün federal qanunvericiliyin olmaması, Turist fəaliyyətinə iqtisadiyyatın inteqrasiya olunmuş sahəsi kimi yanaşılması.

Böyük Britaniyada turizm sahəsini Mədəniyyət və İdman Nazirliyi idarə edir ki, burada turizmə cavabdeh olan təşkilat - British Tourist Authority (BTA) nazirliyin tabeçiliyində fəaliyyət göstərir. Bu təşkilat Böyük Britaniyaya xarici turist axınının cəlb edilməsi ilə məşğuldur, eyni zamanda daxili turizmin inkişafı ilə məşğuldur. Bu təşkilat eyni zamanda turizm sferasında məşğul olan dövlət təşkilatları və hakimiyyətlə məsləhətlər təşkil edir. Bu məqsədlə administrasiyanın təşəbbüsü ilə xaricdə fəaliyyət göstərən ofisləri vasitəsilə ölkə xaricində reklam kompaniyaları həyata keçirirlər. Bu məqsədlə həmçinin kütləvi informasiya vasitələrindən istifadə edirlər. Administrasiya beynəlxalq konfransların keçirilməsini təşkil edir, beynəlxalq turizmlə bağlı konsaltinq və marketinq xidmətlərini təqdim edir və müxtəlif informasiya materiallarının nəşri ilə məşğul olur. BTA təşkilatı direktorlar şurası idarə edir. Təşkilatda 300 nəfər çalışır ki, bunlardan 1/3 Londonda fəaliyyət göstərir. Təşkilatın zəruri pul vəsaitlərinin 68%-i dövlət büdcəsi hesabına formalaşmışdır. Təşkilatın əsas funksiyaları aşağıdakılardan ibarətdir:

- turizm industriyasının standartlarının yüksəldilməsi və istehlakçılara sağlamlıq və təhlükəsizlik məsələləri üzrə məsləhətlərin təşkil edilməsi;
- istehlakçılara maliyyə təhlükəsizliyi baxımından sxemin təklif edilməsi;
- istehlakçılara təzminatın ödənilməsi ilə bağlı məsələlərin həll edilməsi;
- turoperatorlar və müştərilər arasında balansın təmin edilməsi məqsədilə hökumətlə qarşılıqlı əlaqələrin yaradılması.

Təşkilatın xərclərinin maliyyələşdirilməsi onun üzvlərinin, o cümlədən turagentlər və turoperatorların üzvlük haqqları hesabına həyata keçirilir. Bu ölkədə kompleks turları həyata keçirmək üçün dövlət maliyyə təminatı sxemi (Avia Səyahətlərin Təşkilatçıları Lisenziyaları - ATOL) fəaliyyət göstərir. Kompleks turların satışını həyata keçirən turoperatorlar adı çəkilən şirkətin lisenziyasına malik olmalıdırlar. Kompleks turların ödənişini həyata keçirən istehlakçılara ATOL-un sertifikatı verilir. ATOL-un sertifikatının istehlakçılarda olması, tələblərin ödənilə bilmədiyi və ya müflisləşmə vəziyyətində istehlakçının qarantını ifadə edir. Nəzərə alsaq ki, Böyük Britaniya çox böyük olmayan ada dövləti olduğu üçün xaricə səyahət zamanı kompleks turlar təklif edən turist kompaniyalarının xidmətlərindən istifadə edilir. Bu zaman ATOL lisenziyalaşdırma sistemi istehlakçılara maddi təzminat ödənilməsinin qarantı kimi çıxış edir.

Almaniyada turist biznesi ilə İqtisadiyyat Nazirliyində Milli turist komitəsi məşğul olur ki, o da Almaniyada turist məhsulunun hərəkətinə və ölkəyə turist axınının artmasına cavabdehdir. Bu komitənin ofisləri dünyanın 27 ölkəsində fəaliyyət göstərirlər. Turist təşkilatlarının müvəqqəti ödəmə qabiliyyətini itirməsi və ya müflisləşməsi nəticəsində turist təşkilatlarının turistlər qarşısında qanunvericiliklə əsasını aşağıdakılar təşkil edir:

- Alman Mülki Məcəlləsinin bütün iqtisadi münasibətlərin iştirakçılarına tətbiq edilən ümumi müddəalar;

- Turoperatorların ödəmə qabiliyyətinin olmaması və müflisləşməsi ilə bağlı turistlərin maraqlarını qoruyan əlavə mexanizm yaradan xüsusi müddəalar.

Bu mexanizmin yaradılması özündə turist təzminatının ödənilməsini əks etdirir: turist məhsulunun dəyərini (baş tutmamış səyahətlə bağlı vəsaitlərin qaytarılması; turoperatorun müflisləşməsi nəticəsində geriyə qayıtmaq üçün əlavə xərclərin ödənilməsi. Turistlərin maraqlarının qorunması baxımından turoperatorlar qanunda nəzərdə tutulmuş 2 üsuldan biri ilə yerinə yetirə bilər: a) sığorta kompaniyası ilə turoperator arasında nəzərdə tutulmuş risklə bağlı sığorta müqaviləsinin bağlanması; b) müvafiq bankla bank qarantı müaviləsinin bağlanması. Qeyd edilən üsullardan ikincisinə çox nadir hallarda rast gəlmək olar. Çox vaxt turoperatorlar sığorta müqavilələri bağlayırlar. Göstərilən mexanizmin fəaliyyətinə nəzarət etmək üçün turoperator, turaqent, turist, sığorta təşkilatı arasında qarşılıqlı əlaqəyə nəzər salaq:

1) Turoperator yuxarıda göstərilən risklərin sığortalanması ilə bağlı ilin əvvəlində müqavilə bağlayır;

2) Turaqent (turoperatora turist məhsulunu satan) turistlə müqavilə bağlayarkən sığorta kompaniyası tərəfindən verilən sığorta polisini yoxlayır, yalnız bundan sonra turaqent turist məhsuluna görə pul almaq hüququna malik olur;

3) Turist turoperatorun müflisləşməsi baş verdikdə sığorta kompaniyasına qarşı tələb hüququna malikdir;

4) Turistdə şübhə yarandığı halda, Almaniyada turoperatorların rəsmi reyestrinə müraciət edərək zəruri informasiya əldə edə bilər.

Turoperatorun müflisləşməsi nəticəsində, sığorta müqaviləsində nəzərdə tutulmayan zərər və əlavə xərcləri Almaniya Mülki Məcəlləsində nəzərdə tutulmuş ümumi müddəalara əsasən turoperatorlar tərəfindən ödənilir.Turistlərin maraqlarını qorumaq məqsədilə xüsusi fondlar mövcud deyil.

İsraildə Turizm Nazirliyi fəaliyyət göstərir. 2007-ci ildə bu təşkilatın büdcəsi 150 mln. dollar təşkil etmişdir. Bu vəsaitlər müxtəlif tədbirlərin maliyyələşdirilməsinə sərf edilmişdir. Bu tədbirlər dünyada informasiya, sərgi, təqdimatla bağlıdır. Eyni zamanda vəsaitlərin bir hissəsi müxtəlif konfransların keçirilməsinə, konsalt xidmətinin təşkilinə, reklam materiallarının nəşrinə yönəldilmişdir.

İndoneziyada turizm fəaliyyəti ilə xüsusi şöbələr fəaliyyət göstərir, turistlərin hüquqlarının qorunması sahəsində geniş səlahiyyətlərə malikdir. Belə ki, ölkədə turist polisi fəaliyyət göstərir ki, bu da turist biznesinin bütün müəssisələrində nəzarət həyata keçirir. Eyni zamanda, konflikt vəziyyətin (iştirakçılar xarici turistlər) həll edilməsində birbaşa iştirak edir.

İtaliyada 1983-cü ildə turizm sferası, hotel industriyasının inkişafı istiqamətində qanun qəbul edilmişdir. Qanun regional səviyyədə turist biznesinin idarə edilməsinin əsas təşkilatlarını müəyyən edir və onların fəaliyyətini tənzimləyir. Turist müəssisələri və onların qeydiyyatdan keçmə şərtləri dəqiqləşdirilmişdir. Qanunda hotel təsərrüfatının təsnifatı müəyyən edilmiş, turist biznesi ilə məşğul olmaq istəyən turist bürosu, nəqliyyat və ictimai assosiasiyalar üçün bir sıra şərtlər müəyyən edilmişdir. Bundan başqa, qanun turizm sahəsində professional fəaliyyəti tənzimləyir, dövlət tərəfindən turist biznesinə dəstək üzrə tədbirləri müəyyən edir. Turizm fəaliyyəti üzrə Departament İstehsal Fəaliyyəti Nazirliyinin tərkibindədir. Departament regional turist administrasiyasının fəaliyyətini əlaqələndirir, milli xüsusiyyət kəsb edən normativ-sahəvi sənədlər hazırlayır. Beynəlxalq fəaliyyətdə departament hökumətlərarası razılaşmaların əldə edilməsi ilə məşğul olur. Yerli administrasiyanın səlahiyyətləri geniş xarakter daşıyır.

Onlar turist fəaliyyətinin öz ərazisində lisenziyalaşdırılması ilə bağlı bütün suallara cavab verir, hotellərin təsnifatını aparır, turist məhsulunun həm daxildə, həm də xaricdə hərəkətini və reklamını həyata keçirmək hüququna malikdir. Eyni zamanda İtaliyanın beynəlxalq turizm bazarında təmsil etmək üçün Turizm Milli təşkilatının rolu böyükdür. Bu təşkilatın əsas funksiyası reklam-informasiya işlərinin təşkili, marketinq tədqiqatının aparılması, xarici və yerli turist təşkilatlarının fəa-

liyyətinin koordinasiyasından ibarətdir. Milli turizm təşkilatı turizm departamentinin tabeçiliyindədir, onun fəaliyyəti dövlət büdcəsi tərəfindən maliyyələşdirilir.

Hazırda №79/2011 23 may 2011 il tarixindən "Turizm kodeksi" adı altında qanunverici dekret fəaliyyət göstərir ki, bu da dövlət səviyyəsində turizm industriyası məsələlərini tənzimləyir. Kodeks turindustriyanın müştərilərinin hüquqlarını qoruyur və turist xidmətlərinin səviyyəsini yüksəltməyə imkan verir. Bu kodeksin kritikləri qeyd edirlər ki, o turizmin tənzimlənməsi üzrə tam hüquqi akt kimi göstərilə bilməz.

Əvvəla, Kodeks səyahətlər paketi üzrə AB Direktivə əsaslanaraq istehlakçıların hüquqlarının qorunması ilə bağlı müddəaları özündə əks etdirir.

İkincisi, Kodeks mərkəzlə regionlar arasında kompromisin əldə edilməsinə istiqamətlənmişdir. Bunun nəticəsində turizmin inkişafı və bu sahədə marketinq regional səviyyədə tənzimlənir.

İtaliyada turist xidmətləri istehlakçılarının Milli zəmanət fondu (Fondo Nazionale di Garanzia per il consumatore di pacchetto turistico) fəaliyyət göstərir ki, bu da Kodeksin 51 maddəsinə əsaslanaraq, turoperatorların müflisləşməsi hallarında tətbiq edilir. Fondun vəsaitləri zərərçəkmiş turistlərə kompensasiyanın ödənişində istifadə edilir. Fondun vəsaitləri turist fəaliyyətini fərdi şəkildə həyata keçirən fiziki şəxslərə istifadə edilə bilməz. Fond öz fəaliyyətini tərkibinə İqtisadi İnkişaf Nazirliyi, Xarici İşlər Nazirliyi, İqtisadiyyat və Maliyyə Nazirliyinə daxil olan müxtəlif təşkilat və institutların özündə birləşdirən İdarəetmə Komitəsi tərəfindən həyata keçirir.

İspaniyada bütün turist fəaliyyəti ümummilli səviyyədə "Turizm sahəsində sərişdə haqqında" qanunla tənzimlənir. Bu qanundan əlavə hər bir 17 əyalət turist fəaliyyəti üzrə öz qanunvericiliyinə malikdir. Turizm üzrə maddələr turizm məhsullarının satıcısı ilə turist arasında münasibətləri, eyni zamanda turist biznesi ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslər üçün müəyyən şərtləri tənzimləyir. 1996-cı ildə İspaniyanın parlamentində "Birləşdirilmiş səyahətlər haqqında" qanun qəbul edilmişdir. Bu qanunda turist təşkilatlarının, turist xidmətinin istehlakçısının hüquq və öhdəlikləri dəqiq müəyyənləşdirilmişdir. Birləşdirilmiş səyahət dedikdə turməhsul nəzərdə tutulur ki, bu da özündə 3 elementdən 2-ni – gecə yerləşdirmə, nəqliyyat və digər turist xidmətləri. Bu qanun turist sferasının fəaliyyətinin daxili məsuliyyətinin düzgün bölüşdürülməsi, turist məhsulunun ayrı-ayrı aspektlərini araşdırır. İspaniyada turist fəaliyyəti ilə bağlı bütün məsələlərlə ticarət, turizm və kiçik biznes üzrə Dövlət katibliyi məşğul olur. Dövlət katibliyindən başqa İqtisadiyyat Nazirliyinin nəzdində digər təşkilatlat da var: Turizm üzrə Mərkəzi direksiya; "Paradores" hotel şəbəkəsi - tərkibinə 83 otel daxildir; Madrid və Malaqada yerləşən 2 sərgi-konqres mərkəzi, Turespaca – İspaniya Turizm institutu. İqtisadiyyat Nazirliyinin səlahiyyətləri kifayət qədər məhduddur. Xidmətlərin sertifikatlaşdırılması, lisenziyalaşdırma,turist industriyasının strategiyasının işlənilməsi kimi mühüm məsələləri yerli hakimiyyət orqanlarının səlahiyyətindədir. Bu təşkilatların fəaliyyətinin koordinasiyası məqsədilə İspaniyada turizmin inkişafı üzrə Şuranın tərkibinə dövlət hakimiyyəti orqanları, həmçinin xüsusi biznesin nümayəndələri daxildir. Bir çox hallarda şuranın qərarları yalnız tövsiyyə xarakteri daşıyır. "Turespaca" İspaniya Turizm İnstitutu xarici turistlərin cəlb edilməsi ilə məşğuldur. İnstitut həmçinin kurortların reklam fəaliyyətinin xaricdə hərəkəti ilə məşğul olur. İnstitutun fəaliyyəti tamamilə dövlət büdcəsindən maliyyələşir.

Turizm fəaliyyətini tənzimləyən əsas normativ-hüquqi aktlara aşağıdakılar daxildir:

1. Avropa Şurası və Parlamentinin 2006/123/CE 12 dekabr 2006il Reqlamenti.
2. Kralın 1/2007 16 noyabr tarixli qanunvericilik fərmanı (istehlakçı və istifadəçilərin hüquqlarının qorunması haqqında əsas qanunun mətni həyata keçirilir.
3. İspaniyanın hər bir muxtar icmalarının turist fəaliyyətinin tənzimlənməsi haqqında qanun.

Göstərilən hüquqi aktlara əsasən turizm sahəsində fəaliyyət göstərən kompaniyalar iki istiqamətdə öz cavabdehliklərinə zəmanət verməlidirlər:

- turoperatorun qeydiyyatdan keçdiyi muxtar icmanın hakimiyyət orqanları qarşısında;
- xidmət alanlar qarşısında.

1. Turoperatorun fəaliyyəti dayandırıldıqda muxtar birlik qarşısında məsuliyyət sığorta fəaliyyəti ilə və ya bank zəmanəti ilə həyata keçirilir. Kastilya və Leon muxtar icmalarda bank zəmanəti hər il ilkin məbləğ qoyulduğu ayda bərpa olunur. Bank zəmanətinin məbləği turoperator/turaqentin sinfindən asılı olaraq hesablanır:

- turaqentlik (pərakəndə satışla) - 60101,21€;
- turoperator (topdansatış) - 120202,42€;
- hər iki fəaliyyət - 180303,63€;
- Balear və Kanar adalarında qeydiyyatdan keçən aqentliklər- 60000€.

2. Turoperatorun məcburi sığortalanma şərtləri turist kompaniyasının konkret təkliflərindən və sığorta müqaviləsinin şərtlərindən asılıdır. Orta hesabla sığorta məbləği hər blok mülki məsuliyyət üçün 600000€ təşkil edir.

Bundan başqa, turagentlik turist sferası işçilərinin kollektiv müqaviləsinə əsasən kompaniyanın fəaliyyətinin dayandırılması zamanı muzdlu işçilərin ödənişini sığortalamalıdır.

Fransada Turizm haqqında qanun turların satışı ilə məşğul olmaq imkanı verən şəraiti müəyyənləşdirir. Turist agentlikləri, müxtəlif ictimai təşkilatlar, yerli turist təşkilatları üçün turist fəaliyyətinin həyata keçirilməsi baxımından bir sıra şərtlər müəyyənləşdirilmişdir. Buraya qanun tərəfindən müəyyən edilmiş turist fəaliyyəti ilə məşğul olmağa rəsmi icazə almaq imkanları nəzərdə tutulur. Bu qanunun xüsusi bölməsində turist xüdməti istehsalçıları və istehlakçıları arasında bütün münasibətlər öz əksini tapmışdır. Burada xidmət təklif edən və alanın əsas hüquq və öhdəlikləri öz əksini tapmalıdır. Qanun xidmətin keyfiyyətinə görə turist məhsulu təklif edənin cavabdehlik tədbirlərini reqlamentləşdirir. Bundan başqa, qanun onun pozulmasına görə məsuliyyəti və qanunu pozanlara qarşı sanksiyaları, dövlət təşkilatları tərəfindən fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət mexanizmini nəzərdə tutur. Turizm fəaliyyətinin tənzimlənməsi ilə Nəqliyyat və İctimai İşlər Nazirliyi məşğul olur. Bu Nazirlik turizm sahəsinin idarə edilməsi və tənzimlənməsi, turizm biznesinə investisiyalar və beynəlxalq münasibətlərlə bağlı məsələlərlə məşğul olur. Turizm fəaliyyətinin idarə edilməsində məşvərətçi səslə bir sıra təşkilatlar da iştirak edirlər. Bunlara aşağıdakıları aid etmək olar: Nəqliyyat və ictimai işlər Nazirliyi üzrə Turizm Şurası; Fransanın çiçəklənməsi üzrə Milli Komitə; Səfərlər üzrə Milli Agentlik; Fransız Turist İnjinirinq Agentliyi və Turizm üzrə Milli Müşahidə Şurası. Regional səviyyədə mərkəzi icra hakimiyyəti nümayəndəliyi fəaliyyət göstərir ki, onun səlahiyyət dairəsinə turist sferasının inkişaf məsələləri daxildir. Bu nümayəndəliyin fəaliyyəti turist sahəsində yerli təşəbbüsün koordinasiyasına yönəldilmişdir. Beynəlxalq bazarda Turist mərkəzi kimi Fransanın imicinin təbliğatı ilə 1987-ci ildən fəaliyyət göstərən "Maison de la France" assosiasiyası məşğul olur. Bu qürumun fəaliyyəti 60% dövlət büdcəsindən maliyyələşir.

Finlyandiyada turist fəaliyyəti "Turların satışına hüququ olan subyektlər" haqqında qanunla tənzimlənir. Bu qanunun qəbul edilməsi Finlyandiyanın AB-nə daxil olması və qanunların AB-nin tələblərinə uyğunlaşdırılmasının zəruriliyi ilə bağlıdır.Bu qanunlar turların satışı üzrə turist firmaları və müştəri arasında münasibətlərin tənzimlənməsini,münaqişələrin aradan qaldırılmasını nəzərdə tutur. 1995-ci ilin mart ayında Finlyandiyanın hakimiyyət strukturlarının "Turist fəaliyyəti ilə məşğulluq haqqında" Sərəncamı qəbul edildi. Bu sərəncamda turist fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmə zamanı tələb olunan sənədlər göstərilir.

Finlyandiyada milli norma və normativ-hüquqi sənədlərə əsaslanaraq turizm sahəsi tənzimlənir. Turfirmaların fəaliyyətini tənzimləyən əsas normativ aktlara aşağıdakılar aiddir:

- Kompleks turist arayışları haqqında qanun;
- Kompleks turist arayışlarının satışı sahəsində fəaliyyət göstərən kompaniyalar haqqında qanun;
- Turist informasiyası haqqında Sərəncam;
- Fin turist agentləri assosiasiyası və Finlandiya rəqabət və istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı şöbə tərəfindən kompleks turist arayışlarının təqdim edilmə şərtləri razılaşdırılır.

Turistlərin hüquqları onların fərdi və ya turist arayışı əsasında səyahət etməsindən asılıdır. Kompleks turist arayışı təqdim ediləndə turfirma arayışa daxil olan kompleks xidmətlərə görə cavabdehlik daşıyır. Belə ki, cavabdehlik subpodratçılara ötürülə bilməz. Əgər turoperator və ya turagent ödəniş qabiliyyətli olmasalar, müştəri müqaviləni poza bilər və vəsaitini geri götürə bilər. Bu həm kompleks turist arayışlarına, həm də aviabiletlərə və ya hotel vauçerlərinə tətbiq edilə bilər. Bu zaman vahid hesabla kompleks turist arayışı və ya hissə-hissə ödənişin həyata keçirilməsi mümkündür. Fin təcrübəsinin müsbət cəhətini qeyd edərək göstərmək olar ki, turistlər rəqabət və istehlakçı hüquqlarının müdafiəsi şöbəsinin rəsmi saytında turoperator və turagentlərin etibarlılığı haqqında məlumat əldə edə bilirlər.

Amerika Birləşmiş Statlarında 1961-ci ildə "Beynəlxalq Turizm haqqında" ilk milli qanun qəbul edilmişdir. Bu qanun Səyahət və turizm üzrə Administrasiyanın yaradılmasını nəzərdə tuturdu ki, bu da ABŞ Federal Ticarət Nazirliyinin tərkibində fəaliyyət göstərirdi. 1981-ci ildə "Turizm sahəsində Milli siyasət haqqında" qanun qəbul edildi. 1992-ci ilin may ayında "İxracın inkişafı və turizm sahəsində siyasət haqqında" qanun qəbul edilir ki, bu da Turizm Administrasiyası qarşısında aşağıdakı vəzifələr qoyur: ABŞ maraqları baxımından turizm sahəsində dövlət siyasətinin koordinasiyası, turist fəaliyyətinin statistikasının aparılması, turist bazarı konyunkturunun tədqiqi,turizmin inkişaf proqramına əsaslanmaq. Federal səviyyədə turizm fəaliyyətinin tənzimlənməsi ilə məşğul olan Milli təşkilatdan başqa, hər bir ştatda turist biznesinin inkişafına cavabdeh olan müvafiq katiblik mövcuddur. Bir çox hallarda bu ticarət, kommersiya və turizm Agentliyidir. Bu agentlik turist biznesinin hərtərəfli və planauyğun inkişaf məsələlərini həll edir. Bu təşkilat eyni zamanda turizmin təbliğatı ilə bağlı reklam-informasiya proqramlarının təşkili, turist sahəsinin vəziyyətinin təhlili və inkişaf perspektivlərinin tədqiqi ilə məşğuldur. 1996-cı ildə ABŞ Konqresi turizm biznesinin inkişafını canlandıran bir qanun da qəbul edir. 1997-ci ildən başlayaraq yeni federal turist strukturu - Milli Turizm Təşkilatı fəaliyyət göstərməyə başlayır. Qanunda deyilir ki, əgər MTT yaxın gələcəkdə dünya turist bazarında ABŞ-ın xüsusi çəkisini, xarici turist axınını artırmasa, onda bu təşkilat buraxılacaq.

İsveçrədə turizm məsələləri üzrə Mərkəzi turizm şöbəsi məşğul olur ki, hansı ki, ən iri milli reklam agentliklərindən biridir. AB-də 1990-cı ilin iyininda qəbul edilmiş AB direktivi turist xidmətləri və turist məhsulu üzrə bütün məsələləri tənzimləyir. İstehlakçı hüquqlarının qorunması məqsədilə bu direktivdə turist firmaları ilə turistlər arasında bağlanmış müqavilələrin mətni vahid məzmuna gətirilmişdir.

İsveçrədə turoperator və turagentlərin maliyyə öhdəliyinin yerinə yetirilməməsi baxımından fəaliyyətlərinin dayandırılması "Turist arayışları haqqında" 18 iyun 1993 il №944.3 saylı İsveçrə Federal Qanunu ilə tənzimlənir. Bu qanun alıcılarla satıcılar (turoperatorla turagentlər) arasında müqavilə münasibətlərini tənzimləyir. "Turist arayışları haqqında" qanun turist xidmətlərinin istehlakçısı və turoperatorlar arasında müqavilənin forma və tərkibini müəyyən edir, turoperatorun hüquqi məsuliyyətini bərpa edir, turist xidmətləri istehlakçılarının maliyyə resurslarının saxlanması şərtlərini təmin edir.

"Turist arayışları haqqında" Federal qanun 1 iyul 1994-cü ildə qüvvəyə mindi və onun reallaşdırılması üçün İsveçrə turist assosiasiyası ilə [3] iri turoperatorlarının birgə Zəmanət Fondu yaradıldı.

1995-ci ildən İsveç Avropa Birliyinin tam hüquqlu üzvüdür və Avropa qanunvericiliyinə əməl etmək məcburiyyətindədir. Belə ki, AB şurasının direktivinə uyğun olaraq (13 iyun 1990) turoperator və ya turagent tərəfindən əldə edilən turlar zəmanət sisteminə düşürlər. Direktivə əsasən AB ölkələrində turoperatorun müflisləşməsi nəticəsində istehlakçı qarşısında öhdəliyi yerinə yetirmək məqsədilə zəmanət təqdim edilir. Lakin bu zəmanətin ödənilməsi üçün əsas tələb ondan ibarətdir ki, turlar, ofisləri və qeydiyyatları AB-də yerləşən turoperator və ya turagentlərdən əldə edilməlidir. Tur internet vasitəsilə əldə edilmişdirsə, bu zaman turoperatorun hansı ölkədə qeydiyyatdan keçməsi məlum olmur, bu isə zəmanətin alınması riskini artırır. Bu zaman İsveçdə əldə edilən turlarla bağ-

lı, onların veb-saytlarında tam rekvizitləri göstərildiyi halda müqavilənin bağlanması məsləhət görülür. İstehlakçıların informasiya təminatı və müdafiəsi, turoperatorların müflisləşməsi ilə AB-də Avropa İstehlakçılar Mərkəzi [2] məşğul olur. Bu ölkədə turist zəmanəti həmçinin, Danimarka, Finlandiya, İslandiya və Norveç ölkələrinin turoperatorlarının fəaliyyətinə də şamil edilir.

Milli səviyyədə turist xidmətlərinin göstərilməsi və turist zəmanətinin təqdim edilməsi ilə bağlı qaydalar aşağıdakı normativ-hüquqi aktlarla tənzimlənir:

- Kompleks turist səfərləri haqqında qanun (англ. Package Tours Act, шв. Lag om paketresor, SFS 1992: 1672);
- Turist zəmanəti haqqında qanun (англ. Travel Guarantees Act, шв. Resegarantilag, SFS 1972: 204);
- Turist agentlərinin fəaliyyətinin reklamı Dövlət Komitəsinin fəaliyyətinin reqlamentinin təsdiqi üzrə Sərəncam (Förordning med instruktion för Resegarantinämnden, SFS 2007:1039).

Turist zəmanətləri haqqında İsveç qanununa uyğun olaraq kompleks turist səyahətləri satışı ilə məşğul olanlar öz fəaliyyətlərinə başlamamışdan əvvəl zəmanət vəsaitlərini Dövlət İsveç Orqanında [5] deponentləşdirməlidir. Zəmanət vəsaiti dövlər orqanında kompaniyaların aşağıdakı xidmətləri gördüyü halda yerləşdirilə bilər:

Turist səyahətləri; turist səyahəti zamanı nəqliyyat xidməti; ayrıca transfer və oteldə yerləşdirmə ilə bağlı turist xidmətləri; təhsillə bağlı səyahət və transferlə, o cümlədən qəbul edən ailədə yerləşdirilmə ilə bağlı turist xidmətləri göstərən kompaniyalar.

Zəmanətləri saxlayan dövlət orqanı hər bir turoperatora, onun yerinə yetirdiyi işin məbləği haqqında məlumata əsasən zəmanət məbləğini müəyyən edir. Ölkədə minimal zəmanət məbləği 50000 kron və ya 6250 ABŞ dolları həcmində müəyyən edilmişdir. Lakin onu da qeyd etmək lazımdır ki, turoperatorlar öz fəaliyyətləri haqqında düzgün informasiya verməddikdə məhkəmə iddiaları və cərimələrə cəlb olunur. Qanuna görə zəmanət fonduna vəsaiti birbaşa ödəyə bilməz. Bütün ödənişlər bank, sığorta kompaniyaları və ya kredit təşkilatları vasitəsilə həyata keçirilməlidir [6].

Norveçdə kompaniyaların turist məhsulu paketi təqdim edən zəmanət öhdəlikləri "Paket turist məhsulları və turist zəmanəti haqqında" №57 saylı 25 avqust 1995 il tarixli qanunun 11-ci fəslinin müddəaları ilə müəyyən edilmişdir. Burada qeyd edilir ki, turist məhsulu paketi təqdim edən şəxslər istehlakçılar qarşısında öhdəliyin yerinə yetirilməsi zəmanətini təqdim etməlidirlər. Belə zəmanət həmçinin nəqliyyat xidmətlərinə də (əgər nəqliyyat vasitəsi istehlakçının şəxsi istifadəsinə verilərsə) aid edilir. Zəmanətin təqdim edilməsi ilə bağlı öhdəlik xarici kompaniyaların turist məhsulları paketinin satıcılarına da şamil edilir. Eyni zamanda müxtəlif nəqliyyat və yerləşdirmə xidmətlərinə zəmanətin təqdim edilməsi ilə bağlı öhdəlik də müəyyən edilir. Öhdəliklərin yerinə yetirilməsi zəmanəti dedikdə bank və sığorta kompaniyası tərəfindən Zəmanət Fondu hesabına maliyyə zəmanəti nəzərdə tutulur. Zəmanət fondu öhdəliklərin yerinə yetirilməsini təmin etməyə imkan verən müxtəlif formalar tətbiq edə bilər. Turist məhsulları paketi ilə bağlı qanunla nəzərdə tutulmuş zəmanət əvəzinə bu ölkənin qanunvericiliyinə uyğun zəmanət verilir. Zəmanət fondunun tələblərinə uyğun olaraq turu təşkil edən kompaniya öhdəlikləri yerinə yetirməyə imkan verən zəmanətin olduğunu sübüt etməlidir. Zəmanətin təqdim edilməsi prosedurlarının təşkili ilə Zəmanət fondu məşğul olur. Zəmanətlə bağlı qanunvericiliyin tələblərinin yerinə yetirilməsinin təmin edilməsi üçün Zəmanət fondunun yığımın müəyyən edilməsi ilə bağlı hüquqları müəyyən edilmişdir. Fondun fəaliyyəti və turist zəmanətinin təşkili prosedurları "Turist zəmanəti və Zəmanət fondu haqqında (3 saylı 3 yanvar 2007-ci il) əmrlə tənzimlənir. Zəmanət fondunun xərcləri fondun öz vəsaitləri hesabına ödənilir. Fondun idarə heyəti kalendar ili bitdikdən 3 ay ərzində müvafiq nazirliyə mühasibat və maliyyə hesabatını təqdim etməlidir.

Zəmanət müştərinin göndərilməsinə qədər və yaşayışı ilə bağlı xərclərin ödənişinin təmin edilməsinə xidmət göstərir. Əgər nəqliyyat xidmətləri turun bir hissəsini təşkil edirlərsə, onda zəmanət həm də turist göndərişi ilə bağlı xərclərin ödənişini təmin edir. Zəmanət fondunun vəsaitləri hesabına turun təşkili ilə bağlı tələblər təmin edilə bilər. Zəmanət fonduna xərclərin ödənilməsi

ilə bağlı tələblərlə tur bitdikdən sonra 6 ay ərzində müraciət edilə bilər. Əgər Zəmanət fondunun ünvanına nəzərdə tutulmuş məbləğdən artıq maliyyə tələbləri irəli sürülmüşdürsə, bu zaman fond tələblər haqqında geniş məlumat aldıqdan sonra ödənişlər həyata keçirilir. Cavabdeh nazirlik fondla, onun nizamnaməsi, illik zəmanət məbləği ilə bağlı ətraflı məlumatları müəyyən etmək hüququna malikdir. Bu və ya digər kompaniya tərəfindən təqdim edilən zəmanətin həcminə uyğun olaraq illik töhfə müəyyən edilir. Zəmanət fonduna zəmanət ödəyən bütün kompaniyalar turist məhsulları paketi ilə bağlı münaqişələrin həll edilməsi üçün agentliyin işinin təmin edilməsi ilə bağlı üzvlük haqqını ödəməlidirlər. Zəmanət öhdəliyi təqdim edən kompaniyalar ildə minimum 1 dəfə satışın məbləği haqqında məlumat verməlidirlər.

Belçikada turistlər qarşısında turoperator və turagentlərin məsuliyyətini tənzimləyən əsas normativ-hüquqi akt "Turoperator və turagentlə müqavilə haqqında" 16 fevral 1994-cü il tarixli Qanundur. Qanununun 9-cu maddəsinə əsasən turist məhsulunun satışı turist xidmətləri haqqında müqaviləyə əsasən həyata keçirilir. Qanunun 10-cu maddəsinə əsasən turist xidmətləri haqqında müqavilə, onun ləğv edilməsi, müddəti haqqında informasiyanı özündə əks etdirməlidir. Qanunun 17, 27-ci maddələrinə əsasən turoperator və turagent bağlanmış müqavilənin bütün şərtlərinin yerinə yetirilməsi üzrə məsuliyyət daşıyırlar. Qanunun 36-cı maddəsinə əsasən turoperator və turagent müflisləşəndə turistlər qarşısında öhdəliklərini yerinə yetirmək haqqında zəmanət verməlidirlər. Qanuna əsasən turoperator və turagent öz məsuliyyətini sığortalamalıdır ki, müflisləşən zaman turistlər müqavilədə nəzərdə tutulan ödənişin məbləğini geri qaytara bilsinlər. Turistlərin hüquqlarının qorunmasına gəldikdə 1983-cü ilin dekabrında turizm fəaliyyəti sahəsində təşkilatların və istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı Turizm sahəsində münaqişələr üzrə xüsusi Komissiya yaradıldı. Bu Komissiya Belçikanın Ədliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi tərəfindən rəsmi şəkildə tanınır. Komissiya birbaşa səyahətlə bağlı turoperator və turagentlərə qarşı turistlərin şikayətlərini araşdırmaqda səlahiyyətlidir. Bununla yanaşı, Komissiya səyahətin sığortalanması, vətəndaşların sağlamlığına vurulan ziyanla bağlı məsələlərin həllində səlahiyyətli deyil.

Komissiya öz tərkibinə iki prosedur daxil edir:

1. Barışdırma proseduru - məqsədi yaranmış münaqişənin nisbətən qısa bir vaxtda sülh yolu ilə həll edilməsi. Belə prosedurun keçirilməsi turistlə turagent və ya turoperator arasında qarşılıqlı razılaşma əsasında baş tuta bilər.

2. Arbitraj - məqsədi turistlə turoperator və ya turagent arasında yaranan mübahisəni həll edir. Dünya xəritəsinə nəzər salsaq görərik ki, Gürcüstan – Avropa ilə Asiya arasında strateji cəhətdən əlverişli bir ərazidə yerləşən kiçik bir ölkədir. Bu ölkəyə səyahət etməyin 9 səbəbi var.

"Turizm haqqında" Litva Respublikasının Qanunu 19 mart 1998-ci ildə qəbul edilmişdir. Qanun turizm sahəsində sahibkarlıq fəaliyyətinin təşkili prinsiplərini, turistlərin hüquqlarının müdafiəsi və turist xidmətləri göstərilməsi tələblərini müəyyən edir.Səyahətlərin təşkili üzrə fəaliyyəti AB üzvü olan ölkələrin vətəndaşları, digər fiziki şəxslər (Litva Respublikasında yaşamaq hüququna malik olan) həyata keçirə bilər.

Səyahətləri həyata keçirmək hüququnu təsdiq edən arayış müraciət edənə müəyyən edilməmiş vaxta , əgər Dövlət Turizm Departamentinə tələb olunan sənədləri təqdim etdiyi halda, verilir:

- Departament tərəfindən müəyyən edilmiş sifarişin düzgün tərtib edildiyi halda;
- Öhdəliyin yerinə yetirilməsini təsdiq edən sənəd;
- Turizm fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxsin bəyannaməsi.

Xarici təcrübənin təhlili göstərir ki, turizm fəaliyyətinin dövlət tənzimlənməsi sahəsində ölkəmizin qanunvericilik bazası ümumilikdə dünya meyillərinə cavab verir. Lakin bəzi qanunvericilik aktlarına turist bazarı iştirakçılarının məsuliyyətinin artırılması,turistlərin hüquqi cəhətdən müdafiəsinin yaxşılaşdırılması, turagent bazarının tənzimlənməsi sahəsində, maliyyə zəmanəti və onun hesablanması, turoperatorların şəxsi fondunun yaradılması, çarter daşımaları sifariş edən turoperatorların seçilməsi ilə bağlı dəyişikliklərin edilməsi qənaətbəxş hesab edilə bilər.

Açar sözlər: turizm, dövlət tənzimlənməsi, turist xidmətləri, qanunvericilik bazası, zəmanət

İstifadə edilmiş ədəbiyyat

1. Семенова Т.Ю., Чекалин В.С. Социально-экономическое развитие регионов на основе инновационной деятельности. СПб.: Инфо-да, 2008, 176 с.
2. European Consumer Centre, http://ec.europa.eu/consumers/ecc/index_en.htm
3. Schweizerischen Reise-Verband. www.swisstourfed.ch
4. "World Travel and Tourism Council"un hesabatı 2015
5. http://www.kammarkollegiet.se/
6. http://www.kammarkollegiet.se/travel-guarantee/sv/search

Гюльнара Гаджиева

ЗАРУБЕЖНЫЙ ОПЫТ В РЕГУЛИРОВАНИИ ТУРИСТИЧЕСКОГО СЕКТОРА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Резюме

В статье отмечается, что туристический сектор занимая особое место в мире является одним из динамически развитых сфер международной торговли услугами. В работе исследуется роль государственного регулирования в развитии туристического сектора. В настоящее время вопросам организации регулирования туризма существует несколько подходов. Так как в некоторых развитых странах отсутствует государственное регулирование, а рыночные субъекты осуществляют оперативное регулирование. В статье на основе анализа зарубежного опыта подготовлены рекомендации по развитию туристического сектора.

Ключевые слова: туризм, государственное регулирование, туристические услуги, законодательная база, гарантия

Gulnara Hajiyeva

FOREIGN EXPERIENCE IN THE REGULATION OF THE TOURISM SECTOR OF THE REPUBLIC OF AZERBAIJAN

Summary

The article notes that the tourism sector, occupying a special place in the world, is one of the dynamically developed spheres of international trade services. The role of state regulation in the development of the tourism sector is explored. Currently, the tourism regulatory organization has several approaches. In some developed countries there is no state regulation, and market entities carry out operational regulation. In the countries implementing state regulation on the tourist services market, two models are used: special bodies of state structures or regulation by various organizations. Based on the analysis of foreign experience, recommendations for the development of the tourism sector have been prepared.

Keywords: tourism, state regulation, tourist services, legislative base, guarantee

UOT – 330.341

Şövqi Quliyev
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.
Raic Həsənov
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

AZƏRBAYCANIN TƏBİİ İQTİSADİ POTENSİALININ TƏHLİLİ

Məqalədə Azərbaycanın təbii-iqtisadi potensialının mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilir. Qeyd edilir ki, istənilən ölkə üçün təbii-iqtisadi potensialın zənginliyi iqtisadi inkişaf üçün əsas amillərdən biridir və Azərbaycan Respublikası ixrac potensialının inkişafı baxımından güclü təbii-iqtisadi potensiala malikdir. Məqalədə təbii-iqtisadi potensial mineral-xammal ehtiyatları, təbii-iqlim şəraiti, su və torpaq ehtiyatları, turizm-rekreasiya ehtiyatları, coğrafi-nəqliyyat mövqeyi, əmək ehtiyatları kimi qiymətləndirilir.

İqtisadi nəzəriyyədən məlumdur ki, hər bir ölkənin təbii-iqtisadi potensialının sayca, həcmcə çox olması iqtisadi inkişaf üçün əsas amillərdən biridir. Dünyanın ən qədim yaşayış məskənlərindən olan, Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə tarixi "İpək yolu"nun üstündə yerləşən Azərbaycan Respublikası ixrac potensialının inkişafı baxımından güclü təbii-iqtisadi potensiala malikdir. Hazırda Azərbaycan Respublikasının beynəlxalq əmək bölgüsündə (BƏB) mövqeyini şərtləndirən əsas təbii-iqtisadi potensial onun zəngin mineral-xammal (karbohidrogen-neft və qaz, müxtəlif filiz, tikinti materialları, sənaye əhəmiyyətli su və s.) ehtiyatlarına malik olması hesab olunur. Bu qrupda indiki mərhələdə Azərbaycanın təbii ehtiyatlarının çox mühüm hissəsi ixrac potensialının inkişafında xüsusi əhəmiyyət kəsb edən mineral-xammal ehtiyatlarının, xüsusilə də karbohidrogen (neft və qaz) ehtiyatlarının payına düşür. Bunun da əsas hissəsini neft və qaz təşkil edir.

Azərbaycanın təbii iqtisadi potensialının qiymətləndirilməsi

Hər bir ölkənin təbii-iqtisadi potensialı onun inkişafı üçün əsas şərtdir. Bu baxımdan Azərbaycanın təbii-iqtisadi potensialını aşağıdakı kimi iri qruplara bölmək olar:

- *mineral-xammal ehtiyatları;*
- *təbii-iqlim şəraiti,*
- *su və torpaq ehtiyatları;*
- *turizm-rekreasiya ehtiyatları;*
- *coğrafi-nəqliyyat mövqeyi;*
- *əmək ehtiyatları.*

Azərbaycanın ümumi potensial neft ehtiyatları 8 mlrd. ton, qaz ehtiyatları isə 6,5 trln. m^3 həcmində qiymətləndirilmişdir [4, s.19]. Hazırda istər quruda, istərsə də dəniz akvatoriyasında (əsas hissəsi) 60-dan çox neft-qaz yatağı (15-i Xəzər dənizində) aşkar edilmiş, 50-yə yaxın yataq isə istismara verilmişdir. İndiyə qədər potensial neft ehtiyatlarının 40%-dən, qaz ehtiyatlarının isə 17%-dən istifadə olunmuşdur. Abşeron yarımadası və onun dəniz akvatoriyasından başqa Muğan-Salyan, Gəncə-Qazax, Dəvəçi-Siyəzən və s. rayonlarda da neft və qaz ehtiyatları vardır. Hazırda istismara cəlb olunmuş ehtiyatlar baxımından isə Azərbaycanın neft ehtiyatlarını 3-3,5 mlrd. ton, qaz ehtiyatlarını isə 2-2,5 trln. m^3 həcmində qiymətləndirirlər. Lakin aparılmış son geoloji tədqiqatların nəticəsinə əsaslanaraq mütəxəssislər bu qənaətə gəlirlər ki, bu ehtiyatlar iki dəfə çoxdur [4, s.112]. Bu göstərir ki, Azərbaycan iri neft və qaz ehtiyatlarına malik olan ölkədir. Digər tərəfdən, nəzərə alsaq ki, müasir dövrdə və yaxın perspektiv üçün karbohidrogenlər (neft və qaz) başlıca enerji daşıyıcısı və xammal olmaqla, dünya iqtisadiyyatının inkişafında mühüm rol oynayır, onda nəticə çıxara bilərik ki, Azərbaycanın ixrac po-

tensialının genişləndirilməsində və dünya bazarında mövqeyinin möhkəmləndirilməsində bu ehtiyatlardan səmərəli istifadə mühüm rol oynaya bilər. Azərbaycan neft və qazdan başqa 28 adda digər mineral-xammal ehtiyatları ilə də zəngindir. Respublikanın Gəncə-Qazax iqtisadi rayonu ərazisində aşkar edilən qara metal filizləri, əsasən, dəmir, marqans və xromdan ibarətdir. Bu filiz ehtiyatları faydalı qazıntı ehtiyatlarının ümumi nisbətində 10,4% təşkil edir. Respublikanın faydalı qazıntılar üzrə mineral-xammal ehtiyatlarının əsasən 43,7%-i təşkil edən əlvan metallar alünit, mis, qurğuşun, sink, molibden, civə, sürmə və sairdən ibarət olmaqla ölkənin Gəncə-Qazax, Balakən-Zaqatala, Kəlbəcər-Laçın və Naxçıvan MR iqtisadi rayonları ərazisində aşkar edilmişdir [6, s.107].

Azərbaycanın faydalı qazıntı ehtiyatları içərisində qızıl, gümüş, platin metalları və platin qrupu elementlərdən ibarət olan nadir metallar da mühüm əhəmiyyət kəsb edir. Müvafiq ehtiyatların 6,3%-i təşkil edən bu qiymətli metalların ehtiyatları respublikanın Kəlbəcər, Zəngilan rayonları, qismən də Naxçıvan MR ərazisində yerləşir. Azərbaycanda göstərilən mineral-xammal və nadir metal ehtiyatlarından başqa metal filizləri (dəmir filizi yataqları alunit filizi mis yatağı, mis-molıbden filizi yatağı), qeyri-filiz yataqları (əhəngdaşı, bentonit gil, seolit yatağı, çini daşı yatağı, barit yataqları), tikinti materialları da çox böyük ehtiyatlara malikdir. Bu faydalı qazıntıların ehtiyatı, ölkə ərazisində yerləşməsi, təyinatı və istismar səviyyəsinə nəzər salmaq maraqlı olardı. Azərbaycanda metal filizlərinin proqnozlaşdırılmış ehtiyatları 5,2 mln. ton, qalıq ehtiyatları isə 518,32 mln. ton təşkil edir. Bu növ filizlərin tərkibinə dəmir filizi yataqları (dəmir kobaltlı maqnetit filizlər), polimetal, mis, mis-sink yataqları, mis molibden filizi yataqları, alunit filizi yataqları daxildir. Ən böyük dəmir filizi yataqları Daşkəsən rayonu ərazisindəki Daşkəsən dəmir filizi yataqları qrupu (Zaqafqaziyada ən böyük dəmir filizi yatağıdır) təşkil edir ki, bu yataqlar da öz növbəsində Daşkəsən, Cənubi-Daşkəsən və dəmir-kobaltlı maqnetit filiz yataqlarına bölünür. Göstərilən ərazidə metal filizi yataqlarının ümumi ehtiyatı 228,5 mln. ton təşkil edir. Burada ən böyük yataq olan Cənubi Daşkəsən yatağının qalıq ehtiyatı 95,4 mln. ton, qalıq ehtiyatına görə sonrakı yerləri digər yataqlardan olan dəmir kobaltlı maqnetit filiz yataqları 87,9 mln. ton, Daşkəsən yatağı isə 44,9 mln. ton təşkil edir. Bu yataqlar respublikanın qara metallurgiya sənayesini konsentrant formasında xammalla təchiz edir. Daşkəsən və Cənubi Daşkəsən yataqları 1996-cı ilə qədər istismar olunmuş, dəmir yatağı isə ehtiyatdadır. Azərbaycan Respublikasında metal filizi yataqları içərisində ehtiyatına görə ikinci yeri Balakən və qismən Zaqatala rayonları ərazisində yerləşən və ümumi ehtiyatları 127,93 mln. ton olan Filizçay qrupu yataqları tutur. Bu qrup yataqlar isə öz növbəsində 5 yataqdan ibarətdir: Filizçay polimetal yatağı, Kasdağ polimetal yatağı, Katex polimetal yatağı, Mazımçay mis yatağı, Saqator mis-sink yatağı. Göstərilmiş yataqların ümumi ehtiyatları isə uyğun olaraq, 93,6; 2,4; 3,2; 16,5 və 12,3 mln. ton təşkil edir. Təyinatına görə bu yataqlar əlvan metallurgiya sənayesini xammalla (mis, sink, qurğuşun, kükürd və bəzi nadir metalların istehsalı mümkündür) təchiz etmək üçün nəzərdə tutulmuşdur. Hazırda isə bu yataqlar istismar olunmur. Ehtiyatına görə metal filizləri arasında sonrakı mühüm yeri Gəncə-Qazax İR, Daşkəsən rayonu ərazisində mövcud olan Zəylik alunit filizi yatağı tutur. Bu yatağın qalıq ehtiyatı 161,8 mln. ton (ümumi ehtiyatı 170 mln. ton) təşkil edir [5, s.97-117].

Alüminium istehsalı sahəsini xammalla təchiz edən bu yataq hazırda istismar edilir. 25 il müddətinə Hollandiyanın "Fondel metal Partisirations V.V." şirkətinə idarə olunmağa verilib. Mühüm metal filizi yataqlarından biri də Gəncə-Qazax İR, Gədəbəy rayonu ərazisində yerləşən Gədəbəy mis yatağı təşkil edir. Bu yatağın proqnozlaşdırılmış ehtiyatları 5,2 mln. tondur. Məlum olduğu kimi, bu yataq mis istehsalı üçün xammal mənbəyi olmaqla yanaşı, tərkibində qızılın yüksək konsentrasiyası aşkar edildiyinə görə də çox mühüm əhəmiyyət kəsb edir. Əlvan metallurgiya üçün xammal təşkil edən digər bir metal filizi yatağı Naxçıvan İR, Ordubad rayonu ərazisində mövcud olan Parağaçay mis-molıbden filizi yatağıdır. 1996-cı ildən istismar edilməyən bu yatağın qalıq ehtiyatları 90 min ton təşkil edir.

Azərbaycanın mövcud faydalı qazıntı yataqlarının ikinci böyük qrupunu qalıq ehtiyataları 1.640000 min ton, proqnozlaşdırılmış ehtiyatları isə 1.640600-1.640750 min ton olan qeyri-filiz yataqları təşkil edir. Bu yataqlar arasında ən böyük qrupu Naxçıvan İR, Babək rayonu ərazisində yerləşmiş Nehrəm, Şəkərabad-Qoşadizə və Naxçıvan daş duz yataqları təşkil edir. Xörək duzu istehsalı üçün və eləcə də kimya sənayesinin xammalla təchiz edilməsi üçün istifadə olunan bu yataqların ümumi ehtiyatları isə uyğun olaraq 736; 474 və 89 mln. tondur. Bu yataqlardan yalnız Naxçıvan yatağı 1926-cı ildən istismar olunur, digər yataqlar isə ehtiyatdadır. Digər mühüm qeyri-filiz yatağı hazırda erməni təcavüzkarları tərəfindən işğal olunmuş Zəngilan rayonu ərazisindəki ümumi ehtiyatları 128,6 mln. ton olan Zəngilan əhəngdaşı yatağıdır. Bu yataq kalsiumlaşdırılmış soda istehsalı üçün nəzərdə tutulmuşdur. Dəmir konsentratının yuvarlaqlaşdırılması, buruq qazma məhlulu, neftin təmizlənməsi və keramzit istehsalı, qəlibləmə və s. üçün nəzərdə tutulan digər bir qeyri-filiz ehtiyatımız *bentonit gili* yataqlarıdır. Bu yataqlara qalıq ehtiyatı 112,5 mln. ton olan Daş Salahlı (Gəncə-Qazax İR, Qazax rayonu), ümumi ehtiyatı təqribən 10 mln. ton olan Sıxandağ (Abşeron İR, Xızı rayonu) və 427 min ton olan Xanlar (Gəncə-Qazax İR, Xanlar rayonu) yataqları aiddir. Xanlar bentonit gil yatağından başqa, digər yataqlar hazırda istismar olunurlar. Belə ki, yeni təşəkkül tapmış "Azərbentonit" şirkətinin fəaliyyəti Sıxandağ yatağının istismar olunmasına əsaslanır. Azərbaycanın qeyri-filiz yataqları arasında əhəngdaşı yataqları da mühüm yer tutur. Belə ki, metallurgiyada flyus istehsalı üçün istismar olunması nəzərdə tutulan bu yataqların böyük ehtiyatları əsasən Gəncə-Qazax İR, Daşkəsən rayonu ərazisində aşkar olunmuşdur. Ümumi ehtiyatları 50,8 mln. ton olmaqla əhəngdaşı ehtiyatının böyük hissəsini təşkil edən Xoşbulaq əhəngdaşı yatağı bu ərazidə yerləşir və yataq hazırda ehtiyatdadır. Təbii qazların qurudulması, neft məhsullarının, təbii və axar suların təmizlənməsi, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması, heyvan və quşların yemlənməsində və s-də istifadə olunan və ümumi ehtiyatları 39 mln. ton olan və Gəncə-Qazax İR, Tovuz rayonu ərazisində yerləşən Aydağ seolit yatağı "İntergeotetis" şirkəti tərəfindən çox aşağı səviyyədə istismar olunur. Respublikanın Gəncə-Qazax İR, Daşkəsən rayonu ərazisində qeyri-filiz yataqlarından olan Çovdar çini daşı yatağı aşkar edilmişdir. Hazırda ehtiyatda olsa da bu yataqdan zərif keramik məmulatlar, tikinti keramikası, elektrokeramika, odadavamlı materiallar istehsalında, kağız sənayesi və s. sahələrdə istifadə oluna bilər. Bu yatağın ümumi ehtiyatları 3,4 mln. ton təşkil edir. Azərbaycanın digər qeyri-filiz yataqları sırasına qazma məhlullarının ağırlaşdırıcı, ağ boyaların istehsalı, səhiyyə məqsədləri və s.-də istifadə olunan *barit yataqları* da daxildir. Bu ehtiyatlar Çovdar barit yatağı (Gəncə-Qazax İR, Daşkəsən rayonu) və Başqışlaq (Gəncə-Qazax İR, Goranboy rayonu) barit yatağı ilə təmsil olunur. Bu yataqların qalıq ehtiyatları müvafiq olaraq 44 və 385 min ton, proqnozlaşdırılan ehtiyatları isə uyğun olaraq 200-300 və 400-450 min ton təşkil edir. Azərbaycanın zəngin olduğu faydalı qazıntı yataqları arasında öz rəngarəngliyi ilə seçilən və çox böyük ehtiyatlara, geniş çeşidə malik olması ilə özünəməxsus yer tutan daha bir ehtiyata tikinti materialları istehsalı üçün yararlı xammal yataqları daxildir. Azərbaycan ərazisində tikinti sənayesinin xammal bazasını təşkil edən 250-dən artıq müxtəlif növ *qeyri-filiz* və *tikinti materialları* yataqları kəşf edilmişdir ki, bu yataqlar da ölkənin demək olar ki, bütün ərazilərində yayılmışdır. Bu yataqları 9 qrupda birləşdirməklə, aşağıdakı xammal növlərinə bölmək olar: [5, s.354].

- Sement xammalı (qalıq ehtiyatı 350 mln. ton);
- Şüşə xammalı (qalıq ehtiyatı 190mln. ton);
- Gips, anhidrid, gəc xammalları (ümumi ehtiyatı gips 40, anhidrid 18, gəc 1,6 mln. ton);
- Üzlük daşları (ehtiyatları 80 mln. m^3);
- Tikinti daşları (ehtiyatları 57 mln. m^3);
- Mişar daşı (ehtiyatları 280 min m^3);
- Gillər (ehtiyatları 98 mln. m^3);
- Tikinti qumları (ehtiyatları 18 mln. m^3);

- Qum-çınqıl qarışığı (ehtiyatları 800 mln. m^3);

Sement xammalı. Qalıq ehtiyatları 350 mln. ton olan sement xammalı ehtiyatları öz növbəsində sement istehsalı üçün istismar olunan 4 əhəngdaşı, 3 gil, 1 tras və 1 vulkan külü yataqlarına bölünür. Əhəngdaşı yataqları içərisində yalnız Şahqaya (Abşeron İR) yatağı Qaradağ sement zavodu tərəfindən istismar olunur, Gəncə-Qazax İR və Tovuz rayonu ərazisində yerləşən Daş Salahlı və Yuxarı Öksüzlü, eləcə də Yuxarı Qarabağ İR və Ağdam rayonunda yerləşən Çobandağ əhəngdaşı yataqları isə hazırda ehtiyatdadır. Bu yataqlar arasında ehtiyatına görə ən böyük əhəngdaşı yatağı ümumi ehtiyatı 140,5 mln. ton olan Çobandağ əhəngdaşı yatağıdır. Şahqaya yatağının qalıq ehtiyatı 90,8 mln., adı çəkilən digər yataqlarda ümumi əhəngdaşı ehtiyatı isə 10,4 mln. tondur. Sement istehsalı üçün zəruri olan növbəti mühüm yataq olan gil yataqları 3 böyük yataqla təmsil olunmuşdur. Abşeron İR ərazisində yerləşən və Qaradağ sement zavodu tərəfindən istismar olunan Qaradağ gil yatağının qalıq ehtiyatı 30,1 mln. ton, Yuxarı Qarabağ İR, Ağdam rayonu ərazilərində yerləşən və ehtiyatda olan Boyəhmədli və Şahbulaq gil yataqlarının ümumi ehtiyatları isə 69,9 mln. tondur. Gəncə-Qazax İR, Tovuz rayonu ərazisində yerləşən və hazırda sement istehsalı üçün istismar olunan Koroğlu tras yatağının ümumi ehtiyatı 4,9 mln. tondur. Sement istehsalı üçün nəzərdə tutulan, lakin hazırkı anda istismar olunmayan, yəni ehtiyatda olan Acıdərə vulkan külü yatağı Gəncə-Qazax İR və Ağstafa rayonu ərazilərini əhatə edir [2].

Şüşə xammalı. Azərbaycanda mövcud olan şüşə xammalının qalıq ehtiyatı 190 mln. ton olmaqla, dolomit və kvars qumları yataqlarından ibarətdir. Ən böyük dolomit ehtiyatı Naxçıvan İR, Babək rayonu ərazisində yerləşən Nehrəm dolomit yatağında yerləşir. Kalsiumlaşdırılmış soda və maqnezium oksidi istehsalı, şüşə istehsalı üçün yararlı olan və qalıq ehtiyatı 182,4 mln. ton olan bu yataq hazırda ehtiyatdadır. "Xəzər" SC tərəfindən şüşə istehsalı üçün istismar olunan və qalıq ehtiyatı 96 min ton olan Keçiqaya dolomit yatağı isə Abşeron İR ərazisində yerləşir. "Xəzər" SC şüşə istehsalı üçün həm də Abşeron İR ərazisində yerləşən kvars qumlarından da istifadə edir. Bu ərazidə yerləşən Hacıvəli və Hökməli kvars yataqlarının ümumi qalıq ehtiyatları 12 mln. tondur. Digər bir kvars qumu yatağı Quba-Xaçmaz İR, Quba rayonu ərazisində yerləşən Şərqi Zeyid yatağıdır. Ehtiyatda olan bu yatağın ümumi qalıq ehtiyatı 1,1 mln. tondur.

Gips-anhidrid-gəc xammalları. Bu qrupu əsasən aşağıdakı yataqlar təşkil edir:

- Gəncə-Qazax İR, Goranboy rayonu ərazisində yerləşən Yuxarı Ağcakənd gips yatağı. Bu yataqda gips üçün qalıq ehtiyatı 39 mln. ton, anhidrid üçün 18 mln. ton olmaqla büzücü materiallar və gips məmulatları istehsalı üçün hazırda istismar olunur;
- Naxçıvan İR-kı Ərəzin gips yatağı. Naxçıvan tikinti materialları kombinatı tərəfindən gips məmulatları istehsalında istifadə olunan yatağın qalıq ehtiyatı 1,3 mln. tondur;
- Gəncə-Qazax İR ərazisindəki Gəncə gəc yatağı. Qalıq ehtiyatı 2,2 mln. ton olan bu yataqlar Gəncə tikinti materialları kombinatı tərəfindən yandırılmış gəc istehsalı və torpaqların gipsləşdirilməsi məqsədilə istifadə olunur;
- Yuxarı Qarabağ İR, Tərtər rayonu ərazisindəki Tərtər gəc yatağı. 1986-cı ildən istismar olunan bu yatağın qalıq ehtiyatı 328 min tondur;

İstismara cəlb olunmamış digər yataq isə hazırda işğal altında olan Cəbrayıl rayonu ərazisindəki İnbaşlı gəc yatağıdır. Yatağın ümumi ehtiyatı 1,3 mln. tondur [1].

Üzlük daşları xammalı. Bu xammal ehtiyatı mərmərləşmiş əhəngdaşı, qabbro, qranodiorit, porfirit, tuf, teşenit və travertin yataqlarından ibarətdir. Binalar üçün üzlük təbəqələrin istehsalı üçün istifadə olunan mərmərləşmiş əhəngdaşı xammalı yataqları istismar olunan və ehtiyatda olan yataqlara bölünür. İstismar olunan ehtiyatlara Daşkəsən rayonu ərazisindəki ümumi qalıq ehtiyatı 3,8 mln. ton olan Daşkəsən və Əmirvar mərmərləşmiş əhəngdaşı yataqları və qalıq ehtiyatı 8,2 mln. ton olan Babək rayonundakı ən böyük Buzqov mərmərləşmiş əhəngdaşı yatağı daxildir. Ehtiyatda olan yataqlara Şərur rayonundakı İlya-Noraşen (2,3 mln. ton), Vəlidağ (3,3 mln. ton) və Xalac

(1990-cı ilə qədər istismar olunmuş və hazırda qalıq ehtiyatı 140 min tondur) mərmərləşmiş əhəngdaşı yataqları, Babək rayonundakı Culfa mərmərləşmiş əhəngdaşı yatağı daxildir. Bu ehtiyatlar əsasən üzlük təbəqələrin istehsalı üçün nəzərdə tutulub. Digər bir mərmərləşmiş əhəngdaşı yatağı işğal olunmuş Ağdam rayonu ərazisindəki qalıq ehtiyatı 4 mln. ton olan Gülablı mərmərləşmiş əhəngdaşı yatağıdır. Üzlük daşları xammalı üzrə digər ehtiyatı Şərur rayonundakı Şaxtaxtı və Qarabağlar travertin yataqları təşkil edir. Birinci yatağın qalıq ehtiyatı 7,2 mln. ton, ikinci yatağın qalıq ehtiyatı isə 4 mln. tondur. Hər iki yataq hazırda ehtiyatdadır. Göstərilmiş yataqlardan başqa Azərbaycanda üzlük daş xammalına Şəmkir rayonu ərazisindəki üzlük təbəqələrin və qırma daş istehsalı üçün istifadə olunan, hazırda ehtiyatda olan və qalıq ehtiyatı 31,8 mln. ton olan Şəmkir qranodiorit yatağı, Yüksək keyfiyyətli üzlük təbəqələrin istehsalında istismar olunan və qalıq ehtiyatları 900 min ton olan Qazax rayonu ərazisindəki Musakey qabbro yatağı; üzlük təbəqələrin və qırma daş istehsalı üçün nəzərdə tutulan, lakin hazırda ehtiyatda (ümumi ehtiyatı 10,3 mln. ton) olan Tovuz rayonundakı Hacıbulaq porfirit yatağı və Hacıalılar tuf yatağı (940 min ton); binalar üçün üzlük təbəqələrin istehsalında istifadə olunan Babək rayonundakı Qaradaş teşenit yatağı (ehtiyatdadır, ümumi ehtiyatı 1,75 mln. ton) daxildir.

Tikinti daşları xammalı. Bu xammal əhəngdaşı yataqlarından ibarət olmaqla, əhəng və qırma daş istehsalında istifadə olunması nəzərdə tutulub. Yataqların hamısı hazırda ehtiyatdadır. Ehtiyatların ümumi həcmi 57 mln.^{3} m-dir. Ehtiyatların ərazi üzrə yerləşməsi çox müxtəlifdir. Belə ki, bu ehtiyatlar əsasən Xızı, Daşkəsən, Xanlar, Qazax, Tovuz, Balakən, Qax, Qəbələ, Şəki, Zaqatala, Siyəzən, Ordubad rayonları ərazisində yerləşir. Ən böyük ehtiyatlar isə Qazax rayonundakı Daş Salahlı və Daşkəsən rayonu ərazisindəki Daşkəsən əhəngdaşı yataqlarıdır. Belə ki, bu yataqların ümumi ehtiyatı 19,1 mln. m^3-dir. Digər mühüm yataqlara isə aşağıdakı yataqlar daxildir: Aladaş, Aydağ, Katexçay, Masex, Yuxarı Çardaxlı, Dərəzarat əhəngdaşı yataqları və Qızılca porfir yatağı (ümumi ehtiyatları 26,9 mln. ton). Nisbətən az əhəmiyyətli yataqlara isə Ağçay, Qəbələ Qarabulaq, Zəyzit, Salam Məlik əhəngdaşı yataqları (ümumi ehtiyatları 1,3 mln. ton) aiddir.

Mişar daşı xammalı. Bu ehtiyatlar daş və mişar daşı istehsalı üçün istifadə olunur. Bunlar əsasən əhəngdaşı və qismən də tuf xammalı yataqlarından ibarətdir.

Bu yataqlar respublikanın Abşeron, Xanlar, Qazax, Şəmkir, Ağdam, Fizuli, Qobustan, Babək və Şərur rayonları ərazisində yerləşməklə, ümumilikdə 22 yatağı əhatə edir. Bu ehtiyatlardan yalnız 5-i: Abşeron rayonunda yerləşən Hacıvəli, Səngəçal, Qaranaq əhəngdaşı yataqları və Qazax rayonu ərazisində yerləşən Daş Salahlı (ən böyük yataq), Həcərli-qaya əhəngdaşı yataqları hazırkı şəraitdə istismar olunur. Qalan 17-i yataq isə ehtiyatdadır. Bunlardan ən mühümlərinə Zəyəm, Diləgərdi və Dölətyarlı (işğal olunmuş Fizuli rayonu ərazisində), Şəmkir, Şiştəpə, Ağdağ əhəngdaşı yataqları və Murut tuf yatağı (Xanlar rayonu) daxildir.

Gil xammalları. Bu xammal növləri əsasən kərpic və qismən də kirəmid istehsalı üçün nəzərdə tutulmaqla, əsas etibarilə ehtiyatda olan və konservasiya olunmuş yataqlarda yerləşir. Ümumi ehtiyatı 98 mln. m^3 olan gil xammalının yalnız 4,6 mln. m^3-i (4,7%) istismar olunur. Bu yataqlara Şəmkir rayonundakı Çardaxlı gil yatağını, Masallı rayonundakı Kosagül, Kolatan və Ərkiban gil yataqları, Göyçay rayonundakı Göyçay gil yatağı və Babək rayonundakı Naxçıvan gil yatağını aid etmək olar. Ehtiyatda olan yataqlardan isə ən mühümlərinə Abşeron rayonundakı Sumqayıtçay gil yatağını, Samux rayonundakı Gəncə yatağını, Şəki rayonundakı Daşüz, Qarasu və Kiçik Dəhnə yataqlarını və Siyəzən rayonundakı Səadan yatağı daxildir. Bu yataqların ümumi ehtiyatı 26,3 mln. m^3 təşkil edir.

Tikinti qumları xammalı. Bu xammal ehtiyatı iki böyük yataqdan ibarət olmaqla, ümumi ehtiyatı 18 mln. m^3 təşkil edir. Babək rayonu ərazisində yerləşən və ehtiyatına görə ən böyük yataq

olan (ümumi ehtiyatın 69%-i) Pircuvardüz qum yatağı və Zaqatala rayonunda yerləşən nisbətən kiçik olan Alazan qum yatağı hazırda ehtiyatdadır.

Qum-çınqıl qarışığı xammalı. Azərbaycanda tikinti materialı kimi istifadə olunan xamallar içərisində ehtiyatına görə ən böyük xüsusi çəkiyə malik olanı qum-çınqıl yataqlarıdır. Belə ki, bu yataqların ümumi ehtiyatı 800 mln. m^3-dir. Bu xammalı təşkil edən 37 yataqlar ərazi cəhətdən çox müxtəlif yerləşməklə, onların yalnız 10-u istismar olunur, qalan 27 yataq isə ehtiyatdadır. İstismar olunan yataqların ümumi həcmi 381 mln. m^3 (47,6%) təşkil edir. Qazax, Ağstafa, Mingəçevir, Bərdə və İmişli rayonları ərazisində bu xamal yatağının ehtiyatları daha böyükdür. İstismar olunan daha mühüm ehtiyatlar kimi Qazax rayonundakı Yuxarı Salahlı (78,3 mln. m^3), Mingəçevir şəhərindəki Mingəçevir yatağı (qalıq ehtiyatı 113,9 mln. m^3), Bərdə rayonunda Tərtərçay (qalıq ehtiyatı (q.e.) 20,7 mln. m^3), İmişli rayonunda Bəhrəmtəpə-I və II yataqları (q.e. 127 mln. m^3) və Xızı rayonundakı Ataçay qum-çınqıl yatağını (ü.e. 6 mln. m^3) göstərmək olar. Respublikanın Muğan-Salyan, Abşeron və Naxçıvan MR iqtisadi rayonlarında olan yodlu-bromlu su yataqları və duz ehtiyatları mühüm mineral-xammal ehtiyatlarıdır. Bunlardan daş duz ehtiyatlarının ümumi dəyəri potensial ehtiyatların 27,3%-i təşkil edir. Respublikamızda sanatoriya-kurort, müalicə-sağlamlıq komplekslərinin genişləndirilməsi və yenilərinin yaradılması, eləcə də əhalinin böyük miqdarda istehlak etdiyi süfrə sularına olan tələbatını ödəmək üçün mühüm əhəmiyyət kəsb edən mineral-termal və mineral suların 32 yataq üzrə böyük ehtiyatları (gündə 20 min kub metr) vardır. Bu ehtiyatlar əsasən Kəlbəcər, Muğan-Salyan, Xaçmaz, Naxçıvan MR və Lənkəran iqtisadi rayonları ərazisində yerləşmişdir. Azərbaycanın təbii-iqtisadi potensialının mühüm bir hissəsini də ölkənin turizm-rekreasiya ehtiyatları təşkil edir [3, s.215].

Dağ, meşə, dəniz, şirin, mineral və termal su mənbələri, müalicə palçığı yataqları və s. bu kimi təbii ehtiyatlar və qədim tarixi-mədəni abidələr burada geniş istirahət və müalicə-sağlamlıq şəbəkələri yaratmağa və xarici turizmi inkişaf etdirməyə imkan verir. Azərbaycanda sanatoriya-kurort və müalicə-sağlamlıq komplekslərinin inkişafı üçün lazım olan təbii-coğrafi xüsusiyyətlərin mövcud olması burada turizmin inkişafı üçün çox əlverişli şərait yaradır. Belə ki, kurort-turizm təsərrüfatının inkişafı üçün Azərbaycan əvəzolunmaz təbii ehtiyatlara, Xəzər dənizinin hidronim şəraitinə, məşhur Naftalana, Badamlı, Sirab, İstisu kimi bol mineral sulara, meşəlik, düzənlik, dağlıq sahələrə, müxtəlif istiqamətli ovçuluq bazalarına, altı mindən çox tarixi memarlıq abidələrinə malikdir. Bu baxımdan Azərbaycanın Abşeron bölgəsində Xəzər dənizi sahilləri və qədim tarixi abidələr əsasında, Gəncə-Qazax bölgəsində Göy-Göl və Hacıkənd ətrafında, Şəki-Zaqatala bölgəsində qədim tarixi abidələr və əlverişli təbii-iqlim şəraiti, Quba-Xaçmaz bölgəsində əlverişli təbii-iqlim şəraitinin və müalicəvi mineral suların, Lənkəran-Astara və Şirvan bölgələrində əlverişli təbii-iqlim şəraitinin əsasında, Naxçıvan MR-da Batabat duz mədənləri və mineral su mənbələri ətrafında sanatoriya-kurort və müalicə sağlamlıq müəssisələri şəbəkəsini genişləndirməklə ölkədə xarici turizmi inkişaf etdirmək olar.

Ümumiyyətlə, Azərbaycanın təbii-iqtisadi potensialı üzrə geniş imkanlara malik olması ölkənin ixrac potensialının inkişafında mühüm rol oynayır. Digər tərəfdən ölkənin əlverişli coğrafi mövqedə yerləşməsi təkcə turizmin inkişafı üçün deyil, eyni zamanda Avropa ilə Asiya arasında nəqliyyat dəhlizi kimi strateji bir rol oynamağa və bununla da tranzit daşımalarından gəlir əldə etməyə əlverişli zəmin yaradır. Müasir dövrdə bu potensialın qorunub saxlanması və inkişaf etdirilməsi ölkənin beynəlxalq rəqabət gücünün yüksəldilməsi və dünya təsərrüfat sistemində layiqli yer tutması üçün çox vacibdir.

Açar sözlər: iqtisadi potensial, xammal ehtiyatları, təbii iqlim şəraiti, əmək ehtiyatları

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı şəhəri, 29 dekabr 2012-ci il, № 800
2. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı şəhəri, 14 aprel 2009-cu il, № 80
3. Hüseynov İ.H., Əfəndiyeva N.T. Turizmin əsasları. Bakı: Mars-Print NPF, 2007, 442 s.
4. İsayev A.S. Neft və qaz sənayesinin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2008, 299 s.
5. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya və ətraf mühit. Bakı: Elm, 2004, 505 s.
6. Məmmədov R. Azərbaycanın iqtisadi rayonları. Bakı: 1990, 145 s.

Шовги Кулиев
Раич Гасанов

АНАЛИЗ ПРИРОДНО ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНА

Резюме

В статье анализируется и оценивается современное состояние природно-экономического потенциала Азербайджана. Отмечается что богатство природно-экономического потенциала в каждой стране является одним из основных факторов его экономического развития. Подчеркивается, что Азербайджан с точки зрения развития экспортного потенциала имеет богатый природно-экономический потенциал. В статье природно-экономический потенциал оценивается как минерального – сырьевые резервы, природно-климатические условия, водные и земельные ресурсы, географическо-транспортные, трудовые резервы.

Ключевые слова: экономический потенциал, сырьевые ресурсы, климатические условия, трудовые ресурсы

Shovqi Quliyev
Raij Hasanov

ANALYSIS OF NATURAL ECONOMIC POTENTIAL OF AZERBAIJAN

Summary

The article analyzes and evaluates the current state of the natural-economic potential of Azerbaijan. It is noted that the richness of natural-economic potential for any country is one of the main factors for economic development. From the point of view of the development of export potential Azerbaijan has a rich natural-economic potential. The article evaluates natural-economic potential as mineral-raw materials resources, natural climatic conditions, water and land resources, tourism and recreational resources, geographical transport, labour resources

Keywords: economic potential, law material resources, natural climatic conditions, labour resources

UOT – 338.43

Nailə Eyvazova
Azərbaycan Dövlət İqtisad Universiteti, i.ü.f.d.

AQRAR SAHƏDƏ İNNOVASİYALI SAHİBKARLIĞIN FORMALAŞMASI İSTİQAMƏTLƏRİ

Müasir dövrdə aqrar sahədə innovasiyalı sahibkarlığın təşkilinə zərurət yarandığı üçün onun müasir inkişaf meyillərinin tədqiq edilməsi məqsədəuyğun hesab edilib. Məqalədə aqrar sahədə innovasiya texnologiyalarının mahiyyəti açıqlanmış, müasir şəraitdə innovasiya anlayışının formalaşmasının zəruriliyi nəzərdən keçirilmiş, aqrar sahədə istehsala innovasiyanın tətbiqinin üstünlükləri və səmərəliliyi təqdim olunmuşdur.

Müasir şəraitdə dünya təsərrüfatının qloballaşan iqtisadi sistemə çevrilməsi və ölkələrarası iqtisadi və ticarət əlaqələrin intensivləşməsi ilə səciyyələnir. Hər bir ölkədə istər daxili tələbatların ödənilməsi, istərsə də dünya təsərrüfat sistemində səmərəli mal mübadiləsini təmin etmək məqsədilə daha keyfiyyətli, yüksək rəqabət qabiliyyətinə malik kəndli (fermer) təsərrüfatlarının məhsullarının istehsalına cəhd göstərilir. Xammal, material və xidmət sahəsində üstünlük əldə etmək ölkələrin malik olduqları bir sıra təbii, iqtisadi, texniki, professional və s. müqayisəli üstünlüklərə əsaslanır. İnnovasiyalı sahibkarlığın təşkili məqsədilə müqayisəli üstünlüyə malik sahələri inkişaf etdirərək həm öz tələbatını ödəyir, həm də dünya bazarında səmərəli mal mübadiləsinə qoşula bilir. Azərbaycanın güclü istehsal ehtiyatları, yüksək məhsuldar əkinçilik və maldarlığı, innovasiya texnologiyaları əsasında inkişafda olan emal sənayesi, milli aqrar sferada çalışan ixtisaslı kadrları, müasir infrastrukturu vardır. Bu cür imkanları nəzərə alaraq ölkəmizin regionlarında innovasiyalı sahibkarlığın təşkilinə böyük zərurət olduğu üçün problem xüsusi aktuallığa malikdir.

Hazırda Azərbaycanın aqrar sahəsini sosial-iqtisadi inkişafının normal fəaliyyəti və dayanıqlı inkişafı üçün rəqabətqabiliyyətliliyin yüksəlməsini təmin edən yeni idarəetmə texnologiyaları tələb olunur. Bunlar biliklərə və elmin son nailiyyətlərinə əsaslanmalıdır. Bu əsasda aqrar sahədə innovasiyalı sahibkarlığın təşkilinə zərurət yaranmışdır. Odur ki, ölkəmizin aqrar sahəsində innovasiyalı sahibkarlığın təşkilinə zərurət yarandığı üçün onun müasir inkişaf meyillərinin tədqiq edilməsi zəruridir.

1. Aqrar sahədə innovasiya texnologiyalarının mahiyyəti

Azərbaycanın əlverişli təbii-iqlim şəraitinə malik olması tarixən burada kənd təsərrüfatının inkişafını şərtləndirmişdir. Hələ qədim dövrlərdən Azərbaycan əkinçilik, maldarlıq, ipəkçilik, meyvəçilik, heyvandarlıq kimi sahələr üzrə geniş fəaliyyət göstərən bir diyar olmuşdur.

Müasir dövrdə isə ölkəmiz çoxsahəli və daha da inkişaf etmiş kənd təsərrüfatına malikdir. Belə ki, son onilliklər ərzində Azərbaycanda müxtəlif bitkiçilik məhsulları istehsalı (taxıl, pambıq, tütün, üzüm, meyvə, tərəvəz və s.), həmçinin heyvandarlıq sahələri (maldarlıq, qoyunçuluq, quşçuluq, baramaçılıq, arıçılıq və s.) üzrə əsaslı inkişaf baş vermişdir.

Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli Fərmanına müvafiq kompleks tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi ilə əlaqədar təsərrüfatçılarla yanaşı, elmi-tədqiqat institutları və ali məktəblərin elmi-pedaqoji heyətlərinin qarşısında da mühüm vəzifələr qoyuldu [1, s.1]. Bu nöqteyi-nəzərdən ölkənin strateji-inkişaf planının həyata keçirilməsində əsas vasitələrdən biri də regionların inkişafı proqramlarının işlənmə-

si və həyata keçirilməsidir ki, bu da, beynəlxalq təcrübədə özünü doğruldur. Burada infrastrukturun təşkili və yaxşılaşdırılması məsələləri öz əksini tapmışdır.

Ölkənin aqrar sahəsinin sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008-ci illər, 2009-2013-cü illər və 2014-2018-ci illər) infrastrukturun inkişafı üçün geniş imkanlar yaradır. Belə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransda əldə olunmuş nailiyyətlərə əsaslanaraq bir daha göstərmişdir ki, məhsulun keyfiyyətini yüksəltmək və xarici bazarlara çıxmaq üçün indi aqrar sahənin imkanı var.

Eyni zamanda, ölkədə yerli kənd təsərrüfatı xammalı əsasında ənənəvi olaraq fəaliyyət göstərən və müəyyən səviyyədə inkişaf etmiş emal sənayesi də mövcuddur. Belə ki, Azərbaycanda kənd təsərrüfatının emalı sənayesi meyvə-tərəvəz konservləri və şirələri, tomat, bitki yağları, pivə, şərab məhsulları, çay, ət məmulatları, süd məhsulları, taxıl məhsullarının emalı (unüyütmə, yarma və qarışıq yem, çörək və makaron məmulatları), pambıq, yun, barama və gön-dəri xammallarının ilkin emalı, fermentləşdirilmiş tütün istehsalı kimi sahələr sürətli inkişafdadır. Bunlarla yanaşı, qeyd etməliyik ki, bir sıra çox qiymətli efirli, yağlı ərzaq, parfümeriya və təbii rəngləyici məhsullar (qızılgül, zeytun, balqabaq tumu, zəfəran) istehsalı, gülçülüyün inkişafı, onların istehsalı və emalını xeyli artırmaq üçün imkan vardır.

Ölkə iqtisadiyyatının aqrar istehsal sferası keçmiş İttifaq mənafeyi əsasında formalaşmış, innovasiya texnologiyalarının ölkəyə gətirilməsi və tətbiqi mümkün olmamışdır. Buna görə də, dünya birliyinin müstəqil subyekt kimi ölkəmizin dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiya olunması üçün, ilk növbədə, dünya bazarlarında malik olduğumuz rəqabət üstünlükləri indi qiymətləndirilir. Ölkə Prezidentinin göstərişi ilə kənd təsərrüfatının, emal sənayesinin inkişafı ən yeni innovasiya texnologiyaları əsasında qurulur ki, bunun sayəsində də istehsal olunmuş məhsulların əsas üstünlük göstəricisi olan keyfiyyətli məhsulun xüsusi çəkisi ilbəil artır, xarici bazarlara çıxmaq imkanı artır.

Mövcud nəzəri yanaşmalar və müəyyənləşdirilmiş metodologiya əsasında ölkənin kənd təsərrüfatı sektoru üzrə əkinçilik və maldarlığın bütün sahələrinin rəqabətqabiliyyətliliyi, ona təsir edən amillər kompleks şəkildə qiymətləndirilmişdir [3, s.8].

Hazırda aqrar sahədə innovasiyalı sahibkarlığın formalaşdığı və inkişaf etdiyi şəraitdə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icra vəziyyətinə nəzər yetirdikdə xeyli uğurlu tədbirlərin həyata keçirilməsinin bir daha şahidi oluruq [2]. Belə ki, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə heyvanlar arasında aparılan süni mayalama tədbirlərinin genişləndirilməsi işi davam etdirilir. Kursu bitirmiş süni mayalama mütəxəssislərinə dövlət büdcəsindən ayrılmış vəsait hesabına süni mayalama avadanlığı, yedəkli motosiklet, maye azot və heyvan toxumu verilir. Respublikada istehsal olunan südün emal müəssisələrinə keyfiyyətli və itkisiz çatdırılması məqsədi ilə aqrar sahədə süd qəbulu məntəqələrinin yaradılması işi davam etdirilir.

Aqrar sahədə innovasiyalı sahibkarlığın formalaşdığı və inkişaf etdiyi şəraitdə iri fermer təsərrüfatlarının yaradılmasının dəstəklənməsi tədbirlərinə uyğun Dövlət Proqramında nəzərdə tutulan tapşırığın icrası uzunmüddətli xarakterə malik olmaqla onun reallaşması davam etdirilir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 mart 2013-cü il tarixli 10/4 pr-14 nömrəli protokolunda iri taxılçılıq təsərrüfatının yaradılması üçün hədəf kimi müəyyən edilmiş 29 rayon (Sabirabad, Salyan, Biləsuvar, Hacıqabul, İmişli, Saatlı, Ucar, Kürdəmir, Ağdam, Zərdab, Göyçay, Oğuz, Qəbələ, Şəmkir, Tovuz, Göygöl, Samux, Goranboy, Şabran, Siyəzən, Xaçmaz, Xızı, Ağcabədi, Beyləqan, Füzuli, Ağstafa, Neftçala rayon və Yevlax, Şəki şəhərləri) üzrə əlavə olaraq 200,0 min hektaradək dövlət mülkiyyətində olan müvafiq torpaq sahələrinin tədricən əkin dövriyyəsinə qatılması

istiqamətində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin funksiyalarına aid məsələlərin həlli ilə bağlı lazımi tədbirlər görülməkdədir.

Südlük və ətlik istiqamətli iri fermer təsərrüfatlarının yaradılması sahəsində işlər davam etdirilir. Cari ilin avqust və sentyabr aylarında tender keçirilmiş və ölkəmizə 7100 baş yüksək məhsuldar Holştin-friz və Simmental cinsindən olan damazlıq heyvanların gətirilməsi nəzərdə tutulmuşdur. Lizinq yolu ilə gətirilən heyvanlar iri təsərrüfatlarda yerləşdiriləcək və həmin heyvanların saxlanması, yemləndirilməsi, yetişdirilməsi, təkrar istehsalı barədə fermerlərə məsləhət xidmətləri göstəriləcəkdir.

2. Müasir şəraitdə innovasiya anlayışının formalaşmasının zəruriliyi

Maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalının inkişafına çevrilməsi ölkə infrastrukturunda innovasiyanın inkişafına təkan verir. Bu bölməni əhatə edən sahələr olduqca genişdir. Elm, təhsil, əqli mülkiyyətin qorunması, elmi-tədqiqat işlərinin yeni texnologiyaya istiqamətləndirilməsi, səhiyyə, sağlamlıq obyektləri, idman turizm kompleksləri, mədəniyyət, tarixi abidələrin qorunması və s. insan amilinə xidmət edən və olduqca güclü maliyyə vəsaiti tələb olunan sahədir. İnnovasiya ingilis sözüdür - yenilik mənasında işlənir. Avstraliyalı alim İ.Şumpeter innovasiya prosesində beş əlamətin olmasını məqbul hesab edir: yeni texnikanın istifadəsi, yeni texnoloji prosesin və ya sahibkarlığın yeni bazarla təmin olunması (alqı-satqı); yeni xassəyə malik məhsulun; yeni xammalın istifadə olunması; sahibkarlığın təşkilində, maddi-texniki təminatında dəyişikliklərin olması; yeni satış bazarının meydana gəlməsi kimi şərh edir [3, s.215]. Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Akademiyasından K.V.Pivovarov innovasiya terminlərinə aydınlıq gətirərək, ətraflı şərh verir və göstərir ki, innovasiyada yenilik olmalı; bazarın tələbatını ödəməli; istehsalçıya mənfəət gətirməlidir [9, s.125].

ABŞ və Yaponiya innovasiya inkişaf yolunu Avropa ölkələrindən 30-40 il əvvəl seçmişdir. Avropa ölkələrində əsrin 80-90-cı illərindən innovasiya problemlərinə dövlət səviyyəsində əhəmiyyət vermişlər. Dövlət əqli mülkiyyətin qorunması, elmi-tədqiqat işlərinin yeni texnologiya yaradılmasına xidmət etməsi, istehsal sahələrinin innovasiya tələblərinə cavab verməsini birbaşa və dolayı yollarla stimullaşdırmaqla yeniliyi iqtisadi inkişafın prioritet istiqamətinə çevrilmişdir.

İlk vaxtlar yetərincə kadr olmadığı üçün emiqrantlar arasında bu tələbləri ödəyənlər işlə, yaşayış yeri ilə, yüksək əmək haqqı ilə təmin olunmuşdur. Elm, təhsil, peşə hazırlığı innovasiya tutumlu sahələrin tələblərinə yönəldilmişdir. Həmin dövrdə innovasiya biznes sahəsinə çevrilirdi, kiçik, orta həcmli firmalarla yanaşı zəngin iş adamları ("işgüzar mələklər") öz vəsaitini bu sahəyə qoyurdu. İnsan kapitalına vəsait qoyuluşu da öz səmərəsini göstərirdi. Aparıcı dövlətlər mal və material ticarəti ilə yanaşı istehsal vasitələri istehsalı, maşın, dəzgah, avadanlıq və hazır modul ticarətinə üstünlük verir. İnnovasiya sahəsində ixtisaslaşmış aparıcı Qərb və Avropa dövlətləri onları maraqlandıran dövlətlərin ərazisində texnologiya, elmi-texniki biliklər, mühəndis-texnik xidmətləri ticarətinə həsr olunmuş sərgi-satış yarmarkası təşkil etməklə, dövlətlərin və iş adamlarının diqqətini cəlb edirlər [5; 6; 7]. Yeni texnologiya əsasında satılan zavodun tikilməsini, sonrakı servis xidmətini, yerli mütəxəssislərin hazırlatmasını şirkətlər öz üzərinə götürür, eyni zamanda müqavilə əsasında öz işçilərini yüksək əmək haqqlı işlə təmin edir.

Dünya təcrübəsində şirkətlər elmi-texniki yenilikləri, yeni texnologiyanı öz ölkələrində tətbiq edir, sınaqdan keçirir, sonda lisenziyanı (patenti) satır. İnnovasiya yönümlü intellektual texnologiya daha münbit istehsal şəraiti axtararaq xarici ölkələrin ərazisinə ixrac olunmaqla dünya təsərrüfat sistemində yeni əməkdaşlıq formasında işləyir [4, s.8]. İnnovasiya texnologiyası milli çərçivədən çıxaraq beynəlxalq məkanda səmərəli işləmək zərurəti ucuz yerli xammal, ucuz material, ucuz işçi qüvvəsi və yetərincə infrastrukturun olmasına və dövlət dəstəyinə əsaslanır. Ayrı-ayrı ölkələrin ərazisində fəaliyyət göstərən yeni texnologiya beynəlmiləl təsərrüfat sisteminin yaranmasına səbəb olur.

Beləliklə, bir ölkəyə məxsus investisiya qoyuluşu, digər ölkənin ərazisində ikinci iqtisadiyyatı yaradır. ABŞ dünya dövlətləri arasında ikinci iqtisadiyyatın həcminə görə birinci yeri tutur.

Müasir şəraitdə innovasiya konsepsiyasına dair baxışları ümumiləşdirərək belə qənaətə gəlmişik ki, aqrar sahədə innovasiyalı istehsal dedikdə innovativ fəaliyyətin son nəticəsi olduğunu başa düşmək olar. Bu baxımdan hesab edirik ki, aqrar sahədə innovasiyalı istehsal bazarda satılan yeni və ya təkmilləşdirilmiş kənd təsərrüfatı məhsuluna və ya praktiki fəaliyyətdə istifadə edilən təkmilləşdirilmiş texnoloji prosesə elmi-tədqiqat və işləmələrin yekunlarının real bir şəkil almasına yönəlmiş prosesdir.

Müstəqilliyini əldə etmiş ölkəmizin aqrar siyasətində ASK-n innovasiya iqtisadiyyatı əsasında qurulması ön plana çəkilmişdir. Bunun üçün aqrar sahədə məktəblərin maddi-texniki bazası güclənir, intellektual müəllim kadrları ilə təmin olunur. İnstitutlar çevik kadr hazırlığı sisteminə keçir, mobil elmi-istehsal kompleksi yaradılır.

Azərbaycanda həyata keçirilən tarazlı, kompleks sosial-iqtisadi inkişaf proqramı əsasında infrastrukturun dövlət nəzarətində olan innovasiya və maliyyə sektoru güclü inkişaf etdirilir. İnsan amilinin inkişafına qoyulan maliyyə vəsaiti ölkədə yoxsulluğun, işsizliyin sürətlə azalmasına, əhalinin pul gəlirlərinin artmasına, sağlamlığının yüksəldilməsinə, demoqrafik situasiyanın tənzimlənməsinə və bütünlükdə ölkə iqtisadiyyatının yüksəldilməsinə xidmət edir.

3. Aqrar sahədə istehsala innovasiyanın tətbiqinin üstünlükləri və səmərəliliyi

Qloballaşan iqtisadi münasibətlərin müasir dövründə keyfiyyət amilinin innovasiya infrastruktur obyektinə çevrilməsi təsadüfi deyildir. Əvvəla, innovasiya yeni texnika, texnologiya, yeni daha yüksək keyfiyyətdə məhsul istehsalına yol açır. Yeni məhsulun istehsal istehlakı daxili və xarici bazarlar kimi satış infrastrukturunda mövqeyi genişlənir. Ərzaq məhsullarının keyfiyyəti insanların sağlamlığı ilə birbaşa əlaqədar olduğu üçün keyfiyyət dövlət nəzarətindədir və dövlətin istehlakı tənzimlənmə obyektidir. Nəhayət ərzaq mallarının keyfiyyəti iqtisadiyyatda inkişafın səviyyəsini təyin edir, bazarda hakim mövqe tutur, dünya bazarlarını fəth edir. Mal və materialın dəyərinin təyin edilməsində obyektiv mövqedə durur.

Keyfiyyət strateji planda dövlət təhlükəsizliyi obyektidir. Ölkə daxili bazar infrastrukturunda xarici malların rəğbətlə qarşılanması, satılmasına baxmayaraq, bütün digər ölkələrdə olduğu kimi müstəqil Azərbaycan Respublikasında da xaricdən gətirilən ərzaq məhsullarının insan orqanizmi üçün tam təhlükəsiz olması üzərində dövlət nəzarəti mövcuddur.

Ərzaq məhsulları biri-birindən fiziki, kimyəvi xassələrinə və digər tərkib xüsusiyyətlərinə görə fərqlənirlər. Onların hər birinin tərkibində olan özünə məxsus müxtəlif maddələr, həmin məhsulun qidalılıq dəyərini, həzm olma əhəmiyyətini, dadını, rəngini, iyini, qida üçün yararlılığını, məhsulun saxlanmaya davamlılığını, daşınma şərtlərini, məhsulun quruluşunu və ümumiyyətlə, məhsulun keyfiyyətliliyini müəyyən edir.

Yeyinti məhsulları qeyri-əlverişli şəraitdə saxlanıldıqda və ya daşındıqda onların tərkibindəki üzvi maddələrin parçalanması nəticəsində kəskin xoşa gəlməyən iy verən maddələr-ammonyak, kükürd qazı, indol, skatol, meraptanlar, uçucu turşular və sair alınır. Tərkibində belə parçalanma getmiş yeyinti məhsulları qida üçün yaramır.

Son illərdə yeyinti məhsullarına ətir və dad vermək üçün süni surətdə müxtəlif ətirli maddələr alınmışdır. Ərzaq məhsullarının qidalılığı kimyəvi tərkibindən, bioloji və fiziki xassələrindən çox asılıdır. Yeyinti məhsulları zərərsiz olmaqla yaxşı həzmə getmək, orqanizmə enerji vermək və sair xüsusiyyətlərinə malik olmalıdır.

Torpaq və istehsal resurslarının məhdut olması, inflyasiya, əsas və dövriyyə vəsaitlərinin qiymətinin daim qalxması kəndli ailə təsərrüfatlarını ilk növbədə keyfiyyətli məhsul istehsal etməklə daxili və xarici bazarda üstün yer tutmaq və sahibkarlığın səmərəliliyini yüksəltməyə sövq edir. Dövlət dəstəyinə əsaslanan bu innovasiya yönümlü inkişaf ilk növbədə özünü daha məhsuldar taxıl,

kartof və digər bitki toxumlarının ölkəyə gətirilməsi, rayonlaşdırılması və toxumçuluğun inkişafı ilə əlaqədardır.

İnnovasiya prosesi kənd təsərrüfatının inkişaf konsepsiyasına uyğun olaraq yerli az məhsuldar mal-qaranın sayının azaldılması və yüksək məhsuldar cins heyvandarlığın inkişaf etdirilməsi, bunun üçün dövlət vəsaiti hesabına xaricdən cins malların gətirilərək təsərrüfatlara dəyərindən 50% aşağı güzəştli qiymətlərlə satılması da innovasiya texnologiyalarına rəğbətin artmasını göstərir. Son illərdə Hollandiyadan gətirilmiş cins inəklər Zaqatala, Şəki, Lənkəran və digər rayonlarda məskunlaşdırılmışdır. Praktiki olaraq bu inəklər yerli şəraitə tez uyğunlaşmış və yerli inəklərlə müqayisədə 8-10 dəfə çox süd verir.

Belə innovasiya texnologiyalar süd emalı, meyvə şirəsi istehsalı, bitki yağları istehsalı, şəkər istehsalı, meyvə və tərəvəz istehsalında və uzun müddət saxlanmasında da geniş yayılır. Ölkəmizə xaricdən ixrac olunan "Sandora" markalı şirə, əsasən Afrika ölkələrindən gətirilmiş apelsin, ananas, mandarin, banan püresi, şəkərlə konservləşdirilmiş limon şirəsi kimi xammaldan istehsal olunur. Vitaminlərlə zənginləşdirilmiş şirə məhsulu Rusiya, Orta Asiya, Qafqaz ölkələrində bazara sahib olmuşdur. Son illərdə yerli iş adamlarının Avstriya, İsveç, Bolqarıstan və digər ölkələrdən gətirdiyi texnoloji avadanlıqla işləyən "Gilan Holdinq" – Qəbələ konserv zavodu "Saf MMC" – Quba, Masallı, Xaçmaz konserv zavodunun yerli xammal əsasında istehsal etdiyi meyvə şirələri xaricdən gətirilən şirələrlə rəqabətdə öz üstünlüyünü göstərir. İndi bu şirələr ABŞ, Almaniya, Rusiya, Gürcüstan, Orta Asiya respublikaları və digər ölkələrə ixrac olunur.

Elmi informasiyalardan məlum olduğu kimi praktiki olaraq bütün ölkələrdə keyfiyyətli kənd təsərrüfatı məhsullarından uşaqlar üçün təbii qida məhsulları istehsalı üçün seçilir, müxtəlif cəlb edici assortimentdə, forma və rəngarəng qablarda buraxılmasına üstünlük verilir. Qida məhsullarının keyfiyyəti insanların, xüsusilə gənc nəslin sağlam böyüməsində, intelektual inkişafında həll edici rola malikdir. Keyfiyyətli ərzaq məhsullaını maddi əsasını, insan həyatının sağlamlığının, əhvalının, ruhunun, işgüzarlığının ictimai-sosial və ailə həyatında nikbinliyinin əsasını təşkil edir.

Respublikanın iri şəhərlərində müxtəlif adda və assortimentdə quru, səhər yeməkləri hazırlanıb satılsa da, xaricdən ölkəmizə gətirilən quru qida assortimentləri keks, biskivit və s. məhsullar istehsalçının təklif etdiyi qiymətlə satılır. Xaricdən ixrac olunan bir sıra quru ərzaq növlərinin, meyvə şirəsinin əvəz edən içkilərin, tam natural kənd təsərrüfatı məhsullarından hazırlanmasına şübhə ilə baxanlar da vardır. Bu şübhələr həmin ölkələrdə iri həcmdə istehsal olunan məhsulların istehsalı üçün lazım olan qədər təbii meyvənin olmasına şübhə ilə əlaqədardır.

Ölkəmizdə istehsal olunan təbii süd, xama, şəkər, zeytun yağı, soya əsasında həmin ərzaq məhsulları istehsal olunarsa, daxili bazarda xarici məhsullara rəqabət aparar. Məlumdur ki, süd və süd məhsullarının, zeytun yağının, soyanın tərkibi tam həll olunan zülallarla, yağlarla, mineral maddələrlə, bioloji aktiv mikroelementlərlə, vitaminlərlə zəngindir və insanın sağlam həyatı tərzi üçün vacibdir. Hazırda ölkə iqtisadiyyatında turizm infrastrukturu sürətlə inkişaf etməkdədir. İqtisadiyyatın bu yeni sahəsinin tələblərinə uyğun olaraq ölkədə aqroturizmin, yəni turist kontingentinin zövqünü oxşayan daha keyfiyyətli milli aqrar ərzaq məhsullarının istehsalına ehtiyac yaranır.

Müasir informasiya bolluğunun fiziki və əqli təziqin tələblərinə uyğun keyfiyyətdə ərzaq istehsalı üçün qeyri ənənəvi texnologiyalar da işlənir və istehsala tətbiq olunmaqdadır. İnnovasiya texnologiyaları baxımından aqrar sahədə inqilab yarada biləcək zülallar, yağlar asan mənimsənilən mineral maddələr, seçilmiş vitaminlərlə zənginləşdirilmiş qida məhsullarının assortiment kompleksini yaratmaq qenmühəndisləri, biotexnoloqların gündəlik işinə çevrilməkdədir. Genetik olaraq modernləşdirilmiş kənd təsərrüfatı bitkiləri ziyanvericilərə, xəstəliyə qarşı davamlıdır, məhsuldarlığı yüksəkdir, uzun müddət saxlamaq olur.

Dünya ölkələrində 50-dən çox kənd təsərrüfatı bitkisi modernləşdirilmiş, sınaqdan keçirilmiş və istehsala buraxılmışdır. Alma, pomidor, balqabaq, xiyar, salat bitkiləri, soya, buğda, düyü, günə-

baxan, tütün, pambıq və s. Genetik modifikasiya olunmuş bitkilərin məhsuldarlığı və qidalılıq keyfiyyəti öz sələflərindən çox yüksəkdir. Hazırda 100-dən çox bitki üzərində bu iş aparılır, 130 ölkədə genetik modernləşdirilmiş məhsuldan ərzaq istehsal edilir və satışa buraxılır.

Sənaye, tikinti və digər sahələrlə müqayisədə infrastruktur obyektləri, kənd təsərrüfatı məhsullarının istehsal və emal sənayesinin innovasiya texnologiyaları əsasında inkişaf etməsində olan geriliyin başlıca səbəbi aqrar sahənin özündə aqrobiznesin zəif inkişafı, kənd təsərrüfatı məhsullarının satış qiymətlərinin istehsaldan kənarda formalaşması sayəsində iqtisadiyyatın bu real sektorunun mənfəət səviyyəsinin aşağı olmasıdır.

Ölkəmizdə aqrobiznes sahibkarlığı sürətlə inkişaf etməkdədir. Təsərrüfat rəhbərlərinin, fermerlərin, professional hazırlığı və intellektual səviyyəsi sovet dövrünün texnologiyaları səviyyəsində formalaşmışdır. Bu boşluğu aradan qaldırmaq üçün respublikanın bütün ali və orta ixtisas təhsil ocaqlarında innovasiya istehsal yönümlü ixtisasların mənimsənilməsinə üstünlük verilir. Hazırda ildə 700 nəfərdən çox tələbə xarici institutlarda təhsil alır. Elmi-texniki yeniliklər, maliyyə, istehsal əlaqələri və sair yeniliklər haqqında informasiya, maarifləndirmə sistemini artırmaq olar. Məsələn, Avropa İttifaqı ölkələrin fermerləri internetin innovasiya texnologiyaları saytından onu maraqlandıran məlumatı asanlıqla əldə edə bilir.

Nəhayət son 70 ildə kənd təsərrüfatı istehsalının və maliyyə təsərrüfat infrastrukturunun yuxarıda planlaşdırılması ona uyğun olaraq maddi-texniki vəsaitlərlə mərkəzləşdirilmiş qaydada təmin olunması insanların şüurunda möhkəm yer tutmuşdur. Bu fakdır və onun nəticələrini biz hələ bir neçə illər hiss edəcəyik. Odur ki, dünyanın inkişaf etmiş ölkələrində və bizim öz təcrübəmizdən aydın olduğu kimi innovasiya texnologiyalarının tətbiqinə dövlət qayğısı göstərilir.

2014-2018-ci illərdə nəzərdə tutulmuş Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən innovasiya texnologiyaları əsasında çox iş görülmüşdür, o cümlədən, dövlət dəstəyi ilə xarici texnika və texnologiyalar əsasında emal sənayesinin modernləşdirilməsi nəticəsində daxili və xarici bazara yeni məhsullar çıxarılır, əvvəlki illərdən fərqli olaraq aqrar təsərrüfatlarda ərzaq emal sənayesində daha keyfiyyətli məhsulun istehsalına önəm verilir, məhsulun çeşidlənməsi, qablaşdırılması və saxlanmasına diqqət artırılır.

Yuxarıda göstərilənlərə əsasən nəticə etibarilə qeyd etmək lazımdır ki, əlverişli iqtisadi mühitin formalaşdığı şəraitdə dövlət ölkəmizin aqrar sahəsində innovasiyalı kənd təsərrüfatı məhsulu istehsalı siyasətini həyata keçirmək üçün aşağıdakı əlverişli şəraiti təmin etməlidir:

- bazar infrastrukturunda eyni məhsulun bolluğu şəraitində inhisardan azad rəqabət mühiti formalaşdırılmalıdır;
- təklif olunan məhsulların keyfiyyətinin idarə olunması dövlət nəzarəti ilə təmin olunmalıdır;
- istehsal mühitinin ekoloji şəraitinin sağlam olması üçün investisiya qoyuluşu artırılmalıdır;
- innovasiya texnologiyaları əsasında mineral və energetika resursları artırılmalıdır.

Açar sözlər: aqrar sahə, sahibkarlıq, innovasiya, istehsal, iqtisadiyyat, aqrobiznes

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan qəz., Bakı, 2003, 25 noyabr
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Respublika qəz. Bakı, 2014, 27 fevral
3. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi / İ.Ş.Qarayevin redaktəsi ilə. Bakı: İqtisad Universiteti, 2011, 522 s.
4. Aqrobiznes və ərzaq təhlükəsizliyi / İ.Ş.Qarayevin redaktəsi ilə. Bakı: İqtisad Universiteti, 2015, 365 s.

5. Əhmədov G.Ə. Kənd təsərrüfatı innovasiyaların tətbiq istiqamətləri. Bakı, Elm, 2010
6. Əzizova G. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universiteti, 2012, 212 s.
7. Hacıyev Q.B. İnnovasiyanı tətbiqi vasitəsilə aqromarketinq kommersiya xidməti strukturunun təşkili / "İnnovasiyalı kənd təsərrüfatında istehsalının formalaşdırılması problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: Şərq-Qərb, 2010, s.120-123
8. Кулиев А.А., Гаджиев Г.Б. Регулирование бизнес производства и продажи продуктов в аграрном секторе // Science and Education Studies, America, 2016, № 1(27)
9. Пивоваров К.В. Инновация экономики. Москва: 2010

Наила Ейвазова

НАПРАВЛЕНИЕ ФОРМИРОВАНИЯ ИННОВАЦИОННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВО В АГРАРНОМ СЕКТОРЕ

Резюме

Учитывая необходимость организации инновационного предпринимательства на современном этапе в аграрной сфере считается целесообразным исследования темпов его развития. В статье раскрывается сущность информационных технологий в аграрной сфере, отмечается необходимость формирования инновационного понятия, преимущества применения и эффективность инновацией в данной сфере.

Ключевые слова: аграрный сектор, предпринимательство, регион, инновации, производство, экономика, современные удобства, страна, продукт

Naila Eyvazova

THE DIRECTIONS OF FORMATION OF INNOVATIVE ENTREPRENEURSHIP IN AGRARIAN SPHERE

Summary

Considering the importance of formation of innovative entrepreneurship in modern era in agrarian sphere, it is expedient to study the rates of its development. The article explores the essence of information technologies in agrarian sphere, notes the importance of formation of the concept of innovation, presents the advantages and effectiveness of innovation in thr sphere.

Keywords: agrarian sphere, entrepreneurship, innovasion, production, economics, modern condition, counrty, product

UOT – 334.012

Arzu Tağıyeva
Sumqayıt Dövlət Texniki Kolleci

SAHİBKARLIQDA MÜFLİSLƏŞMƏNİN MÜƏYYƏN EDİLMƏSİ

Məqalədə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin zəruriliyinə aydınlıq gətirilərək, sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsinə cəhd göstərilmiş, bu riskin azaldılmasında kreditləşdirmənin rolundan bəhs edilmişdir. Azərbaycanda sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət sahələri üzrə maliyyə nəticələrinin təhlili aparılmış, sahibkarlıq subyektləri üzrə zərərin azaldılması və mənfəətin yüksəldilməsi istiqamətində təxirəsalınmaz kompleks tədbirlərin, proqramların, biznes planların işlənib hazırlanması və həyata keçirilməsinə zəruri ehtiyac duyulduğu vurğulanmışdır.

Müasir şəraitdə başlıca iqtisadi problemlərdən biri sahibkarlıq fəaliyyətinin inkişafı və səmərəliliyinin artırılması məsələsidir. Bunun üçün zəruri iqtisadi mühitin, hər şeydən əvvəl isə, sağlam rəqabətin mövcud olması zəruridir. Bu baxımdan sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsi və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sahibkarlığın inkişafı iqtisadiyyatın sağlamlaşdırılmasından ötrü əlverişli şərait yaradır. Çünki rəqabət şəraiti inkişaf edir, əlavə iş yerləri yaradılır, struktur yenidənqurması gedir, istehlak bölməsi genişlənir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, sahibkarlıq fəaliyyətinin hərtərəfli dəstəklənməsi rəqabətin daimi inkişafının istehlakçının üstünlük verdiyi hallara qarşı etinasızlıq göstərməklə bu prosesdən ötrü səciyyəvi olan inhisarlaşdırma tendensiyalarının aradan qaldırılmasının sarsılmaz şərtidir. Əhalinin ən müxtəlif sosial təbəqələri üçün nəzərdə tutulan ən müxtəlif mal və xidmətlərin təklif edilməsi sahibkarlıq fəaliyyətinə qarşı daimi tələbatın olması üçün şəraitin yaradılmasına imkan verir.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, sahibkarlığa bazar iqtisadiyyatının formalaşması və inkişafının ilkin şərti kimi yanaşmaq lazımdır. Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması formalaşan iqtisadi sistemin xarakterindən, məzmunundan, iqtisadi sistemin məqsədindən və bu məqsədi həyata keçirən resurs təminatından və onların təşkili metodlarından asılı olur. Məhz bunlar son nəticədə sahibkarlığın inkişaf dinamikasını, ona dövlətin himayəsi mexanizmlərini və idarəedilmə strukturlarını formalaşdırır. Sahibkarlığın inkişafı mülkiyyət münasibətlərinin forma və məzmunu ilə əlaqədar dəyişir, yeni sahə və ərazi quruluşuna malik olur. Bu baxımdan sahibkarlıq fəaliyyətinə ölkənin ümumi iqtisadi inkişafının daxili elementi, həmçinin iqtisadi artımın başlıca amili kimi yanaşılmalıdır.

Sahibkarlıq fəaliyyəti riskli fəaliyyətdir. Müasir sahibkarlığı risksiz təsəvvür etmək mümkün deyil. Çünki sahibkarın uğuru təkcə onun fəaliyyətinin seçilmiş strategiyasının düzgünlüyü və mötəbərliyindən deyil, həm də böhranlı vəziyyətlərin nəzərə alınmasından asılıdır. Bazar münasibətləri şəraitində rəqabətə davam gətirmək üçün texniki yeniliklərin tətbiqi, cəsarətli və həlledici addımlar lazımdır ki, bu da riski artırır. Deməli, sahibkarın əsas vəzifəsi riskdən yayınmaq deyil, riskin dərəcəsini dəyərləndirib onu idarə etmək bacarığıdır. Sahibkarlıqda risk iqtisadiyyatın vəziyyəti, siyasi qeyri-sabitlik, rəqiblərin, cinayətkar qrupların qeyri-qanuni hərəkətləri, təbii fəlakətlərlə bağlıdır. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı risklərin təzahür etməsinin obyektiv səbəbləri mövcuddur. Çünki bütün amillərin firmanın fəaliyyətinə təsirini əvvəlcədən hesablamaq olmur. Nəzərdə tutulmuş fəaliyyətin həyata keçirilməsi prosesində isə bir çox amillər gözlənilməz şəkildə dəyişə bilər. Buna görə də sahibkar firmanın həyat dövrünün bütün mərhələlərində itkiyə məruz qala bilər. Bu isə onun müflisləşməsinə gətirib çıxara bilər. Odur ki, sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsi və qiymətləndirilməsi mühüm vəzifələrdən biri hesab olunur.

Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin zəruriliyi

Müasir şəraitdə müstəqil Azərbaycan Respublikasında iqtisadiyyatın neft amilindən asılılığının azaldılması istiqamətində böyük miqyaslı və strateji əhəmiyyətli tədbirlər həyata keçirilir. Ardıcıl olaraq dövlət tənzimlənməsi sisteminin, sahibkarlıq mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin daha da yaxşılaşdırılması kimi kompleks tədbirlər mühüm əhəmiyyət kəsb edir. Həmçinin, sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər həyata keçirilir, sahibkarların istehsal etdiyi rəqabətqabiliyyətli məhsulların təşviqi sahəsində işlər davam etdirilir. Başlıca məqsəd iqtisadi islahatların və institutsional struktur dəyişikliklərin həyata keçirilməsi, sahibkarlıq fəaliyyətinin və bütövlükdə milli iqtisadiyyatın inkişafına təkan verməkdir. Sahibkarlığın inkişafına dövlət köməyi digər tədbirlərlə yanaşı, bu sektora əhalinin daha geniş kütləsinin, o cümlədən gənc sahibkarların, qadın sahibkarların cəlb edilməsini, insanların işgüzarlıq potensialının gerçəkləşməsinə əlverişli imkanların, kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinə əlverişli şərait yaradılmasına xidmət edir. Ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi təkmilləşdirilmiş, sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmləri yaradılmış, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatına alınması prosedurları daha da sadələşdirilmiş və elektron qeydiyyat prosesi işə salınmış, onlara göstərilən elektron xidmətlərin sayı genişləndirilmişdir.

Sahibkarliq fəaliyyətinin inkişafina mənfi təsir edən süni maneə və əngəllərin aradan qaldırılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrası sürətlə davam etdirilib. Dövlət başçısının təşəbbüsü ilə Milli Məclisdə qəbul olunmuş qanun da sahibkarlıq subyektlərində 2015-ci il noyabrın 1-dən iki il müddətində yoxlamaların dayandırılmasını nəzərdə tutur. Bu sənəd bazar subyektlərinin mənafelərinin qorunması, onların fəaliyyətinə əsassız müdaxilələrin aradan qaldırılması baxımından vacib əhəmiyyətə malikdir. Sahibkarliq fəaliyyətinin xüsusi razılıq tələb olunan növlərinin sayının 59-dan 37-dək azaldılmasına və sənədləşmə prosedurlarının sadələşdirilməsinə, bu işlərin "Asan xidmət" mərkəzlərində həyata keçirilməsinə başlanılıb. Vergi Məcəlləsinə edilən dəyişikliklərlə ticarət, ictimai iaşə, mülki tikinti sahələrində sahibkarların fəaliyyəti üçün sadələşdirilmiş vergi rejiminin tətbiqinə 2016-ci il yanvarın 1-dən başlanılıb [6].

2015-ci ilin ilkin yekunlarına görə ölkə sahibkarlarına dövlət büdcəsinin vəsaiti hesabına müvəkkil kredit təşkilatları üzrə kredit portfeli 1 milyard 15 milyon manat, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu üzrə 945 milyon manat, Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi Dövlət Xidməti üzrə 70 milyon manat təşkil edib. Ötən il həmin mənbələrdən və dövlət büdcəsindən ayrılmış vəsait hesabına 5243 sahibkara 249 milyon manat məbləğində güzəştli kredit verilib. Verilən kreditlərin 40 faizi və yaxud 100 milyon manatı dövlət büdcəsindən, 60 faizi və yaxud 149 milyon manatı isə kredit portfelinin vəsaiti hesabına, yəni qaytarılmış kreditlər hesabına olub. Bütövlükdə ayrılan güzəştli kreditlərin 85,6 faizi aqrar sektorun, 14,4 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib. Bununla yanaşı, 2015-ci ildə 5160 sahibkara 56 milyon manat məbləğində kiçik həcmli güzəştli kredit verilib. Ümumiyyətlə, Sahibkarlığa Kömək Milli Fondu fəaliyyətə başlayandan bəri qurumun xətti ilə sahibkarlara 2 milyard manatadək yardım göstərilib və sahibkarlıq subyektlərində yüz minlərlə yeni iş yerlərinin yaradılması təmin edilib [6].

Lakin bütün bunlara baxmayaraq sahibkarlıq subyektlərinin fəaliyyətlərində bir çox çatışmazlıqlar hələ də mövcuddur. Bu isə onların mənfəətinin azalmasında və zərərin artmasında özünü daha aydın göstərir. Bunu onların fəaliyyətlərinin maliyyə nəticələrini təhlil edərkən daha aydın görmək olar. Qeyd edək ki, maliyyə təhlilinin köməyilə sahibkarlıq subyektlərinin maliyyə dayanaqlığını obyektiv qiymətləndirmək, maliyyə resurslarından istifadənin səmərəliliyini müəyyənləşdirmək, mütərəqqi maliyyələşdirmə mənbələrini aşkara çıxarmaq mümkündür.

Son illər sahibkarlıq subyektlərinin maliyyə nəticələrini qiymətləndirərkən qeyd etmək lazımdır ki, 2015-ci ildə iqtisadiyyatın ayrı-ayrı sahələrində zərərin məbləği yüksələn xətlə artmışdır. Bütünlükdə 2015-ci ildə bütün müəssisə və təşkilatların zərərinin məbləği 2707,0 milyon manat ol-

muşdur ki, onun da 1478,6 milyon manatı və yaxud 54,6%-i sənayenin payına düşmüşdür. Sənayedə yaranan ümumi zərərin 42,1%-i mədənçıxarma sənayesi, 31,7%-i emal sənayesi üçün xarakterik olmuşdur. Eyni zamanda ölkə iqtisadiyyatını təmsil edən müəssisələrin 2015-ci ildə mənfəəti 16713,8 milyon manat təşkil etmişdir ki, onun da 14508,9 milyon manatı və yaxud 86,8 %-i sənayedə mümkün olmuşdur. 2014-cü illə müqayisədə zərər 41,7% artmış, mənfəət isə 28,0% azalmışdır.

Azərbaycanda sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyət sahələri üzrə maliyyə nəticələri, milyon manatla [5]

Cədvəl 1.

İllər / Sahələr	2014		2015	
	Mənfəət	Zərər	Mənfəət	Zərər
Cəmi	23210,0	1910,4	16713,8	2707,0
Mədənçıxarma sənayesi	18737,0	441,0	12522,6	622,6
Emal sənayesi	2075,5	445,7	1849,0	468,9
Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi	348,1	385,2	137,3	387,1
Kənd təsərrüfatı, ovculuq və meşə təssərrüfatı, nəqliyyat, poçt və rabitə	595,6	191,5	574,1	234,0
Tikinti	488,2	179,3	786,7	230,4
Topdan və pərakəndə ticarət, avtomobillərin və məişət əşyalarının təmiri, mehmanxana və restoranlarda xidmətin göstərilməsi	251,3	130,3	222,9	178,7
Təhsil, səhiyyə, kommunal, sosial və s. xidmətlər, daşınmaz əmlakla əlaqədar əməliyyatlar	705,7	137,4	621,2	118,7
Sənaye-cəmi	21169,2	1271,9	14508,9	1478,6
Ticarət, maliyyə və sığorta fəaliyyəti	660,7	143,6	571,5	598,2

Mənbə: www.azstat.org

Maliyyə nəticələrinin təhlili göstərir ki, sahibkarlıq subyektləri üzrə zərərin azaldılması və mənfəətin yüksəldilməsi istiqamətində təxirəsalınmaz kompleks tədbirlərin, proqramların, biznes planların işlənib hazırlanması və həyata keçirilməsinə zəruri ehtiyac duyulur.

Sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin müəyyən edilməsi

Maliyyə təhlili sahibkarlıq fəaliyyətinin müflisləşmə riskini proqnozlaşdırmaq və onun həmin böhran vəziyyətindən çıxması üçün qabaqcadan fikirləşmək və tədbirlər görməkdə geniş vasitələrə malikdir. Müflisləşmə mürəkkəb prosesdir və hüquqi, idarəetmə, təşkilati, maliyyə, uçot-analitik və digər müxtəlif mövqelərdən səciyyələndirilə bilər. Müflisləşmə proseduru sahibkarın uğursuz fəaliyyətinin yekun mərhələsini əks etdirir. O, təsadüfi hallarda sahibkarın, mühüm kontragentlərin və rəqiblərin inkişafı meyillərini vaxtaşırı olaraq izləyən təcrübəli maliyyəçi və menecerlər üçün gözlənilməz ola bilər.

Müasir iqtisad elmində maliyyə göstəricilərinin, o cümlədən mümkün müflisləşmə riskinin qiymətləndirilməsi göstəricilərinin proqnozlaşdırılmasının çox saylı müxtəlif üsul və metodları mövcuddur. Müflisləşməyə səbəb olan maliyyə çətinliklərinin yaranması əksər hallarda iqtisadiyyatın strukturunun yenidən qurulması ilə əlaqədardır. Məhz belə yenidənqurma respublikamız üçün səciyyəvidir və istənilən sahibkarlıq subyektinin fəaliyyətinin və maliyyə vəziyyətinin təhlili böhran aspektini nəzərə almalıdır. Müflisləşmə vəziyyətinin yaranması obyektiv və subyektiv səbəblərlə əlaqədardır. Müəssisənin müflisləşməsi bir anda baş vermir, o, müxtəlif xarici və daxili amillərin kombinasiyası ilə şərtlənə bilər. Həmin amillərin nisbəti konkret vəziyyətlərdə müxtəlif ola bilər və yalnız müəssisənin özünün fəaliyyət xüsusiyyətindən deyil, eləcə də fəaliyyət göstərdiyi ölkənin iqtisadi inkişafından da asılıdır. Belə ki, bəzi ədəbiyyatlarda göstərilir ki, qərb ölkələrində müflisləşmənin 2/3 hissəsi daxili, 1/3 hissəsi isə xarici səbəblərlə izah olunur [4, s.43].

Respublikamızda müəssisələrin maliyyə çətinliklərinin 2/3 hissəsi beynəlxalq və ümummilli risk amillərindən – dünya iqtisadi inkişafın tsikliliyi, bütövlükdə dünya iqtisadiyyatında, eləcə də ayrı-ayrı sahələrdə iqtisadi tsiklin mərhələlərindən, dünya ticarətinin və qiymətlərin səviyyəsindən asılıdır. Məsələn, neftin dünya qiymətinin aşağı düşməsi təkcə neft nəhənglərinin pul gəlirlərinə deyil, eləcə də bütün ölkələrdə iri və kiçik neft tsikli müəssisələrinin fəaliyyətinə mənfi təsir göstərir.

Maliyyə, istehsal-təsərrüfat, xidmət, innovasiya, idarəetmə və digər fəaliyyət növlərinin reallaşdırılmasında böyük itkilərin yaranması imkanları baxımından risklərin kəmiyyət və keyfiyyət cəhətdən qiymətləndirilməsi, həmçinin, idarə olunması problemi olduqca aktualdır. Risklərin idarə edilməsi sahibkarların əsas vəzifəsidir. Burada əsas fəaliyyət istiqaməti itkilərin baş verməsinin qarşısının alınması və yaxud onların minimuma endirilməsidir. Çünki, sahibkarlar dərk etməlidirlər ki, itkilərin doğurduğu səbəblər sadəcə olaraq səbəb kimi qalmır, bu müəyyən məbləğdə zərərdə ifadə olunur və istehsal xərclərini artırır. Ona görə də burada istər cari, istərsə də uzunmüddətli təsərrüfat qərarları mühüm əhəmiyyət kəsb edir. Burada risklərin idarə edilməsi texnologiyası və alqoritmi də vacibdir. Ümumiyyətlə, risklərin idarə edilməsi sahibkarlıq fəaliyyətinə təsirinin yumşaldılması üzrə kompleks tədbirlərin işlənib hazırlanması və reallaşdırılmasını nəzərdə tutur. Riskin idarə edilməsinə kompleks yanaşma sahibkara mövcud resurslardan daha effektiv istifadə etməyə, məsuliyyəti bölüşdürməyə, sahibkarlıq fəaliyyətini yaxşılaşdırmağa və riskin təsirinə qarşı təhlükəsizliyini təmin etməyə imkan verir. Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesində müəssisənin qarşılaşacağı risklərin aşkarlanmasından və onların yaranması səbəblərini öyrəndikdən, baş verə biləcək potensial itkiləri müəyyənləşdirdikdən sonra müəssisə qarşısında həmin risklərin azaldılması proqramının işlənib hazırlanması vəzifəsi durur [2, s.8].

Risk müəyyən məqsədlə bağlıdır. Lakin yaddan çıxarmaq olmaz ki, məqsədin özü də qeyri-real və əsaslanmış motivlərlə bağlı ola bilər. Ona görə də sahibkarlıq fəaliyyətində həmişə riskin müsbət və mənfi tərəflərini görmək, ölçüb-biçmək, onun səviyyəsini aşağı salmağa çalışmaq lazımdır. Bunun üçün risk situasiyasını əvvəlcədən proqnozlaşdırmaq, bu məqsədlə də bir tərəfdən hər bir riskin öz təbiətini, məzmununu öyrənmək, digər tərəfdən isə ona təsir edə biləcək amilləri nəzərə almaq lazımdır. Ən vacib problemlərdən biri də riskin səviyyəsinin müəyyən edilməsidir. Bunun üçün obyektiv meyarlara və üsullara istinad etmək lazımdır. Çünki, riskin səviyyəsini müəyyən etmədən onun barəsində hər hansı bir obyektiv idarəçilik qərarının qəbul edilməsi mümkün deyildir.

Riskin azalması maksimum çeviklik və məqsədyönlü fəaliyyət tələb edir. Bu məqsədyönlü fəaliyyət risklərin bütün potensial sferaları üzrə həyata keçirilməlidir. Risklərlə əlaqədar ən vacib məsələ riskin tərəflər arasında bölüşdürülməsi və riskdən olan itkilərin müəyyən edilməsidir. Lakin bazar şəraitində itkilərin mövcudluğu obyektiv olaraq onların sığortalanmasını tələb edir. Bir qayda olaraq risklərin tənzimlənməsində onların sığortalanmasına üstünlük verilir. Lakin əsas vəzifə itkilərin özünü törədən və yaxud törədə biləcək amillərin qarşısının alınması üzrə proqramların tərtib edilməsidir, iqtisadi fəaliyyətin sağlamlaşdırılmasıdır. Çünki, risklərin sığortalanması bir növ kompensasiya səciyyəsi daşıdığına görə öz təbiəti etibarilə passiv rola malik olur, riskləri xəbərdarlıq etmir, onun nəticələrini bir növ nəzərə almış olur. Sahibkar və yaxud menecer risklərin azaldılması üsulunu seçərək ilk növbədə bu riskin sığorta predmeti ola bilib-bilməyəcəyini aydınlaşdırmalıdır. Əgər risk sığorta olunmayan riskə aiddirsə, təhlükənin neytrallaşdırılması üzrə digər metodlara baxmağa keçilməlidir.

Riskin azaldılmasına yönələn tədbirlər sırasında diversifikasiyanın mühüm yeri var. Difersifikasiya sərmayə vəsaitlərinin bir-biri ilə bilavasitə bağlı olmayan müxtəlif investisiya obyektləri arasında paylaşma prosesidir. Əksər ədəbiyyat mənbələri diversifikasiyanı qiymətli kağızlar zərfinin idarə olunmasında risklərin azaldılmasının səmərəli yolu kimi dəyərləndirirlər. Diversifikasiya qeyri-müntəzəm riskin azaldılması vasitəsidir.

Limitləmə risk dərəcəsinin azalmasına şərait yaradan həm yuxarıdan, həm də aşağıdan məhdudiyyətlər sisteminin qurulmasıdır. Sahibkarlıqda limitləmə əksər hallarda malların kredit satışında, borc verilməsində, yatırılan kapital məbləğinin müəyyənləşməsində və sairdə tətbiq olunur. İlk növbədə bu, pul vəsaitlərinə, yəni xərclərin, kreditin, sərmayənin və sair həddini müəyyənləşdirilməsinə aiddir. Həmçinin limitləməyə misal olaraq sığortaçının özündə tuta biləcəyi məbləğin yuxarı

həddinin müəyyənləşdirilməsini çəkmək olar. Həmin həddin keçilməsi sığortadan imtinaya, yaxud həm sığorta və ya təkrar sığorta kimi formaların istifadəsinə gətirib çıxarır [2, s.54].

Riskin azaldılmasının digər yolu da tam məlumatın əldə edilməsidir. Məlumat asan əldə edildikdə istehlakçılar daha yaxşı proqnoz edə və riski azalda bilərlər. Qiymətli əmtəə olan informasiya pula satılır. Əməldə ən səmərəli nəticəni yalnız riskin azalmasına dair müxtəlif üsulların kompleks istifadəsi zamanı əldə etmək olar. Onları bir-biri ilə müxtəlif cür birləşdirməklə riskin azalması səviyyəsi və bunun üçün gərəkli olan əlavə xərcləri arasında optimal nisbətə də çatmaq olar. Ona görə riskləri sahibkarlıq fəaliyyəti gedişində idarə etmək çox lazımdır.

Riskin idarə edilməsi riskli hadisələrinin ortaya çıxmasını müəyyən dərəcədə proqnozlaşdırmaq və onların mənfi nəticələrinin istisna edilməsi və ya azaldılması üçün tədbir görməyə imkan verən üsul, fənd və tədbirlərin cəmi kimi səciyyələndirilə bilər. Burada sahibkarın qarşısında duran əsas vəzifə layihə baxımından risk və mənfəətin ən optimal nisbətini təmin edən variantı tapmaqdır. Bu zaman daha mənfəətli layihələrin həyata keçirilməsi daha böyük risklə bağlı olduğu nəzərə alınmalıdır.

Risklərin azaldılması bazar münasibətləri şəraitində müəssisə və firmalarda biznes-planın mükəmməl işlənib hazırlanmasından və proqnozlardan çox asılıdır. Biznes-plan sahibkara aşağıdakı əsas problemləri həll etməyə imkan verir:

- firmanın konkret fəaliyyət istiqamətlərini, məqsədyönlü bazarı və bu bazarda firmanın mövqeyini müəyyən etmək;
- firmanın uzunmüddətli və qısamüddətli məqsədlərini dəqiqləşdirmək, onlara nail olmağın strategiyasını və taktikasını göstərmək, həmin strategiya və taktikanın həyata keçirilməsinə görə məsul şəxslərin müəyyən edilməsi;
- firmanın maliyyə vəziyyətini, qoyulan məqsədlərə nail olmaq üçün mövcud maliyyə və maddi ehtiyatların uyğunluğunu qiymətləndirmək, biznes-planın həyata keçirilməsində qarşıya çıxa biləcək təhlükələri öncədən görmək.

Biznes-plan tərtib etmədən fəaliyyət göstərən sahibkar özü üçün tamamilə gözlənilməz olan məsələlərlə qarşılaşaraq çox çətin vəziyyətə düşə bilər ki, bu da öz növbəsində həmin sahibkarın özü üçün, həm də onun firması üçün ağır nəticələrə gətirib çıxarır. Sahibkar öz üzərinə götürmək istədiyi riski qiymətləndirərkən riskin mümkün nəticələrinin maliyyələşdirilməsi proqramının reallaşdırılması üçün zəruri resursların mövcud olmasından çıxış edir. Qeyd etmək lazımdır ki, müəssisə nə qədər böyük kapitala malikdirsə, o, riskə qarşı daha az həssas olur və sahibkar riskli situasiyalarda daha cəsarətlə qərar qəbul edə bilir.

Risklərin azaldılmasında informasiyaların rolu böyükdür. İnformasiyalar geniş əhatəli olmayanda, keyfiyyətsiz və köhnə olduqda riski minimuma endirmək də çətin olur. Risk-menecer yalnız adekvat informasiyalar əsasında öz funksiyalarını uğurla icra edə bilər, obyektin maliyyə vəziyyətinə düzgün olaraq proqnozlaşdırar.

Heç bir sahibkar bütün növ risklərdən yayına bilməz, onların böyük bir qismini o, öz üzərinə götürür, yəni şüurlu olaraq riskə gedir və edilən risklər nəticəsində yaranan zərərlərin əvəzi ödənilməz itkilərə gətirib çıxarmayana qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Bir sıra risklər özündə mümkün mənfəət potensialını daşıdığına və başqa bir qrup risklər isə qaçılmaz olduqlarına görə məqbul sayılırlar.

Riski öz üzərinə götürməkdə əsas məqsəd mümkün itkilərin əvəzini ödəmək üçün zəruri resurs mənbələrini axtarıb tapmaqdır. Bu halda itkilər sahibkarlıq riskinin və ümumiyyətlə, itkilərin baş verməsindən sonra yerdə qalan istənilən resurslarla ödənilir. Əgər firmada qalan resurslar kifayət etmirsə, onda bu, sahibkarlıq fəaliyyətinin azalmasına gətirib çıxara bilər.

Sahibkarlıq subyektlərinin sərəncamında itkilərin ödənilməsi üçün qalan resursları iki qrupa ayırmaq olar. Bunlar sahibkarlığın öz daxilində olan resurslar və kredit resurslarıdır.

İtki baş verdikdə bütün mülkiyyət növlərinin, eyni zamanda, zədələnməsi nadir hallarda olur. Buna görə də sahibkarlığın öz daxilində olan resurslara aiddir:

- müəssisəyə məxsus olan bina və tikililərin fiziki zədələnməsi zamanı zərər çəkməyən kassadakı nağd pul;

- zədələnmiş mülkiyyətin qalıq dəyəri;
- həm maliyyə, həm də istehsal fəaliyyətinin qismən davam etdirilməsindən gələn gəlir;
- qiymətli kağızlar və gəlirli investisiyalardan daxil olan dividend və faiz gəlirləri;
- sahibkarlıq subyektləri tərəfindən biznesi dəstəkləmək və s. üçün sərmayə edilən əlavə vəsaitlər;
- hesabat dövründə əldə edilmiş mənfəətin bölüşdürülməmiş qalığı, onun bölüşdürülməsinə qədər zəruri olduqda ayrı-ayrı maliyyə risklərinin mənfi nəticələrinin ləğvinə istiqamətləndirilə bilən maliyyə resursları ehtiyatı kimi nəzərdən keçirilə bilər;
- qanunvericilik tələblərinə və sahibkarlıq firması nizamnaməsinə müvafiq olaraq yaradılan firmanın ehtiyat fondu. Onun formalaşdırılmasına firma tərəfindən hesabat dövründə əldə edilən mənfəətdən 5%-indən az olmayan hissəsi istiqamətləndirilir.

Əgər firma sahibkarlıq risklərinin təsiri altında ortaya çıxan bütün itkiləri daxili resurslarla ödəmək iqtidarında deyilsə, onda onlardan bir hissəsini kredit resurslarından istifadə etməklə ödəmək olar. Ancaq bu halda kredit resurslarının əldə edilməsi imkanı əhəmiyyətli dərəcədə məhdud olur. Məhdudiyyətlərdən ən əsası firmanın gələcək mənfəətlilik perspektivinin sual altında olmasıdır. Kredit resurslarının əldə edilməsi imkanı çox vaxt itkilər baş verdikdən sonra biznesin qalıq dəyərindən asılı olur [1, s.209].

Sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin azaldılmasında kreditləşdirmənin rolu

Müasir dövrdə sahibkarlıq fəaliyyətinin inkişafında əsas məsələlərdən biri məhz onun kreditləşdirilməsidir. Dünya praktikasında bu problem müxtəlif yollarla həll olunur. İqtisadi nəticə isə eynidir. Kifayət dərəcədə maliyyə resurslarına malik olan dövlət, bank, investisiya fondları və s. böyük risk hesabına olsa da, yeni fəaliyyətə başlayan sahibkarlara yardımçı olmalıdırlar. Bu məsələlərin həllində ayrı-ayrı sərmayəçilər üçün maraqlı amil yüksək dərəcədə mənfəət əldə etmək, dövlət strukturları üçün isə məşğulluq probleminin həll olunması və belə layihələrin sosial səmərəsidir.

Ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafının maliyyələşdirilməsi və kreditləşdirilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi nəzdində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən güzəştli kreditlər Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, məqsədli dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir.

Sahibkarlıq fəaliyyətində həyata keçirilən investisiya layihələri həm dövlət vəsaiti, həm də sahibkarlıq subyektinin özünün vəsaitindən maliyyələşir. Hazırda qlobal maliyyə böhranı şəraitində Azərbaycan hökumətinin investisiya siyasətini, büdcə ödəmələrinə qənaət etməklə sahibkarların şəxsi vəsaitlərdən, həmçinin kənardan cəlb edilən vəsaitlərdən daha geniş istifadə etmək siyasətini gündəmdə saxlayır. Buna baxmayaraq, sahibkarlıq fəaliyyətinin dövlət vəsaiti hesabına kreditləşdirilməsi davam etdirilir. Bu məqsədlə Azərbaycanın İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi ilə birlikdə ayrı-ayrı sahələrin iqtisadi inkişafının istiqamətlərini müəyyənləşdirərək müvafiq investisiya layihələrinin həyata keçirilməsinə təminat yaradır. Bu zaman investisiya layihələri üç mərhələdə seçilir. Birinci mərhələdə müsabiqə elan edilir və onun keçirilməsi nəticəsində seçilmiş layihə həyata keçirilən tədbirlər siyahısına daxil olunur. İkinci mərhələdə layihəni həyata keçirən təşkilatla dövlət arasında müqavilə imzalanaraq ayrılacaq vəsaitin məbləği və işin yerinə yetirilməsi müddəti müəyyən edilir. Sonuncu mərhələ maliyyələşmə sisteminin seçilməsi ilə xarakterizə olunur.

Qeyd edək ki, investisiya layihələrində iştirak edənlərin başlıca məqsədi əsas fəaliyyət ilə müqayisədə daha çox və daha tez mənfəət əldə etməkdir. Bu səbəbdən də iştirakçıların hamısı istehsal-istismar mərhələsinədək olan bütün dövr ərzində investisiya layihəsinin səmərəliliyini mütəmadi olaraq təhlil edir. İstehsal-istismar mərhələsi investisiya üzrə layihələndirmənin son mərhələsidir və layihə istehsal gücünün təhvil verilməsini və sifarişçi tərəfindən qəbul edilməsini xarakterizə edir. Maliyyə, maddi və intellektual resursları məsrəfi müqabilində uzunmüddətli dövr ərzində mənfəət əldə etmək arzusunda olan investisiya layihəsi iştirakçıları üçün böyük riskdir [3, s.587].

Sahibkarlıq fəaliyyətinin kreditləşdirilməsində bank kreditlərini xüsusilə qeyd etmək olar. Kreditlərin cəlb edilməsi mümkünlüyü gələcək müəssisənin xarakteri, onun səmərəliliyi, eləcə də, bankın investisiya layihələri ilə iş təcrübəsindən asılıdır. Kreditlər iki istiqamətdə xərclənə bilər: investisiya məqsədlərinə və təsərrüfat məqsədlərinə. Birinci istiqamət uzunmüddətli kreditləri nəzərdə tutur və avadanlığın alınmasına, binaların, qurğuların tikilməsinə, dövriyyə vəsaitlərinin pul hissəsinin artırılmasına çəkilən xərclərlə əlaqəlidir. Digər, təsərrüfat məqsədli kreditlər, maddi resursların alınması, istehsalat ehtiyatlarının artırılması ilə əlaqəlidirlər. Bu kreditlər adətən qısamüddətli olur. Sahibkarlıq fəaliyyətinin kreditləşməsi riskinin yüksək olması, sövdələşmə xərclərinin çoxluğu ilə əlaqədar kommersiya banklarının sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi məsələsinə ehtiyatla yanaşmağa vadar edir. Bank kreditlərinin sahibkarlıq subyektlərinə çatdırılmasını təmin etmək üçün dövlətin bu sahədə əsaslı iqtisadi siyasət həyata keçirməsi lazımdır. Əks halda sahibkarlıq subyektləri ümumi şərtlərlə bank kreditlərindən istifadə etməkdə maraqlı ola bilməzlər. Bank kreditlərindən səmərəli və geniş istifadəni təmin etmək üçün dövlətin həmin kreditlərin müəyyən hissəsinə təminat verməsi mexanizminin tətbiqinə də diqqət yetirmək lazımdır. Bu zaman sahibkarlıq subyektlərinin maraqlarının nəzərə alınması əsas şərtlərdən biridir. Çünki, bank kreditləri sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin azaldılmasının mühüm vasitəsi kimi çıxış edə bilər. Odur ki, sahibkarlıq fəaliyyətində bank kreditlərindən səmərəli istifadə iqtisadiyyatın qloballaşdığı müasir dövrdə aktual problemlərdən biridir.

Bütövlükdə, dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin müflisləşmə riskini azaltmaq üçün aşağıdakı məsələlərin həllinə diqqət yetirilməlidir:

- sahibkarlıq fəaliyyətinin dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- sahibkarlıq fəaliyyətinə kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;
- sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində sahibkarlıq subyektlərinə kömək göstərilməsi;
- bazar subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf-müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;
- sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun), vergitutma, statistik və mühasibat hesabatlarının təqdim edilməsinin, onların fəaliyyətinin lisenziyalaşdırılmasının və istehsal etdikləri məhsulun (işin, xidmətin) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;
- sahibkarlıq subyektlərinin kommersiya fəaliyyətinin inkişafı üzrə tədqiqatların təşkili;
- sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırma qaydalarının sadələşməsi və lisenziyalaşdırılan fəaliyyət növlərinin siyahısının azaldılması;
- sahibkarlıq fəaliyyəti sahəsində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi ilə əlaqədar olaraq süni maneələrin aradan qaldırılması və s.

Bütün bunları ümumiləşdirərək sahibkarlıq fəaliyyətinin müflisləşmə riskinin azaldılması yollarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- sahibkarlıq fəaliyyəti qarşısında duran məqsədlərə uyğun olaraq müvafiq innovasiya layihələrinin seçilməsi, onların istehsalata tətbiqi proseslərinə təcrübəli məsləhətçilərin, tərəfdaşların, ortaqların cəlb edilməsi;
- sahibkarlıq fəaliyyətində innovasiya layihələrinin reallaşdırılması prosesində meydana çıxa biləcək əlavə problemlərin nəzərə alınması, onların aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi;
- bazar konyunkturasının dəyişmə meylinin proqnozlaşdırılması, innovasiya layihələrinin həyata keçirilməsi üçün tələb olunan əlavə xidmətlərə tələbatın səviyyəsinin öyrənilməsi;
- investisiya layihələrinin həyata keçirilməsi prosesində gözlənilən riskdən (risklərdən) sığortalama;

- nəzərdə tutulmayan xərclərin bağlanması üçün ehtiyat vəsaitin toplanması;
- yüksək riskli investisiya layihələrinin həyata keçirilməsinə maraqlı tərəfdaşların cəlb edilməsi yolu ilə riskin bölüşdürülməsi və s.

Ümumiyyətlə, hər bir insanın, kollektivin, ailə və bütövlükdə cəmiyyətin həyatı müəyyən risklərlə bağlıdır. Ona görə də indi söhbət risklərin tamamilə aradan götürülməsindən deyil, ancaq onların azaldılması və idarə edilməsindən gedə bilər. Dəqiq desək, məsələ risklərin özünü göstərmələrini və onların nəticələrini sıfra endirməkdə deyil. Əgər belə həllə nail olunarsa, onda bu həddindən çox resurslar tələb edə bilər. Real məqsəd-qəbul edilən səviyyəyə qədər risk ehtimalı və onun nəticələrini aşağı salmaqdır. Bütün bunlar isə son nəticədə sahibkarlıq fəaliyyətinin müflisləşmə ehtimalını minimumlaşdıra bilər.

Açar sözlər: sahibkarlıq, müflisləşmə, risk, qiymətləndirmə, mənfəət, investisiya

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011, 464 s.
2. Kazımlı X.H., Quliyev İ.İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2011,187 s.
3. Mahmudova İ.M., Zeynalov T.Ş., İsmayılov N.M. İqtisadi təhlil. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 800 s.
4. Vəliyev D.Ə. Azərbaycan iqtisadiyyatı. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2010, 428 s.
5. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin elektron səhifəsi.
6. http://anfes.gov.az/en/ - Sahibkarlığa Kömək Milli Fondunun elektron səhifəsi.

Арзу Тагиева

ОПРЕДЕЛЕНИЕ БАНКРОТСТВА В ПРЕДПРИНИМАТЕЛЬСТВЕ

Резюме

В статье отмечается необходимость развитие предпринимательской деятельности, сделана попытка определения риска банкротства предпринимательских субъектов, раскрывается роль кредитования в снижении риска. Проведен анализ финансовых результатов предпринимательских субъектов по видам экономической деятельности, отмечается необходимость проведения комплекс мер, программ, разработку бизнес планов и претворения их в жизнь в предпринимательских субъектах по снижению убытка и увеличению прибыли.

Ключевые слова: предпринимательство, банкротство, риск, оценка, финансы, прибыль, инвестиции

Arzu Tagiyeva

DETERMINING OF BANKRUPTCY OF ENTREPRENEURSHIP ACTIVITY

Summary

The article notes the need to develop entrepreneurial activity, makes an attempt to determine the risk of bankruptcy of entrepreneurial subjects, reveals the role of lending in reducing risk. The article makes the analysis of financial results of entrepreneurial subjects by type of econimic activity. Also, the article notes the need for a set measures, programs, development of business plans and their implementation in entrepreneurial subjects to reduce losses and increase profits.

Keywords: entrepreneurship, bankruptcy, risk, valuation, finance, profit, investment

UOT – 026.06

Təranə Vəliyeva
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

VERİLƏNLƏR BAZASI İNFORMASİYA SİSTEMİNİN TƏRKİB HİSSƏSİ KİMİ

Məqalədə informasiya emalı üçün informasiya sistemlərinin, verilənlər bazasının (VB) və verilənlər bazasının idarə olunması sistemlərinin (VBİS) yaradılmasının prinsipləri təhlil edilir. Burada informasiya texnologiyasının 3 əsas prinsipi - kompüterlə interaktiv rejimdə münasibətin qurulması, aparat və proqram təminatlarının inteqrasiyası, verilənlərin və prosesin icrasının çevikliyinin əsas yer tutması göstərilir. Eyni zamanda verilənlər bazaları haqqında ümumi məlumat verilərək VBİS-lərin yaradılma modelləri şərh olunur və VB-nin yaradılması üzrə praktik nümunəyə baxılır.

Son illər cəmiyyətin və elmin bütün sahələrinə informasiya texnologiyaları kütləvi şəkildə tətbiq olunur. Bu texnologiyalar informasiya resurslarından istifadə edilməsi prosesinin vacib tərkib hissəsi olmaqla, elmi-texniki tərəqqinin inkişafını, informasiya emalı üçün yeni texniki vasitələrin yaradılmasını analiz edir. Yeni informasiya texnologiyaları interaktiv (dialoq) rejim tətbiq etməklə avadanlıqların aparat, proqram və riyazi təminatlarını yerinə yetirən vasitələrdən də geniş istifadə edir. Onun əsas məqsədi istifadəçi üçün lazımi informasiyanı almaqdır [4, s.17].

İnformasiya texnologiyaları əsas mühit hesab olunan informasiya sistemləri ilə sıx bağlıdır. *Sistem* dedikdə, müəyyən məqsəd üçün nəzərdə tutulan və bir-biri ilə əlaqəli olan elementlər toplusu, texniki vasitə və proqramlar başa düşülür. *İnformasiya sistemi* isə istənilən sahədə qərar qəbul etmək üçün lazım olan informasiyanın yığılması, saxlanması, emalı, axtarışı, ötürülməsində istifadə edilən metodların və insan qüvvəsinin qarşılıqlı əlaqələrinin məcmusudur. Ümumilikdə, informasiya sistemləri - əməliyyatların aparılması üçün elektron avadanlıqlardan, kompüterlərdən, kompüter şəbəkələrindən, proqramlardan, verilənlər bazalarından, müxtəlif rabitə vasitələrindən ibarət olan informasiya emalı sistemidir [4, s.31].

İlk informasiya sistemləri XX əsrin 50-ci illərində yaranmışdır. Bu zaman onlardan maaşların hesablanmasında istifadə edilmişdir ki, bu da xərclərin və sənədlərin hazırlanması vaxtına qənaət etməyə imkan vermişdir. 80-ci illərin sonlarından informasiya sistemləri informasiyanın strateji mənbəyinə çevrilmiş, istənilən növ təşkilatlarda bütün səviyyələrdə istifadə edilməyə başlanılmışdır. Bu dövrdə onlar lazım olan informasiyanı vaxtında təmin edərək və təşkilatlara öz fəaliyyətlərində uğur qazandıraraq yardımçı olmuşdur.

İnformasiya sisteminin fəaliyyəti informasiya və idarəetmə texnologiyalarından bacarıqla istifadə olunmasıdır. Bu texnologiyalar *verilənləri emal etmək* və *idarəetməni informasiya ilə təmin etmək* funksiyalarını icra edir [4, s.388].

Verilənləri emal etmək dedikdə, lazımi ilkin verilənlərin emalı üçün alqoritmlərin və strukturlaşdırılmış məsələlərin həlli nəzərdə tutulur ki, bu da tətbiqi əmək məhsuldarlığını artırır, hesablama əməliyyatlarını sürətləndirir, işçilərin sayını azaldır.


İdarəetməni informasiya ilə təmin etmək isə təşkilatın informasiya tələbatını ödəməyi nəzərdə tutur. Yəni, tədqiq olunan obyekt və ya proses ətraflı araşdırılır, ilkin sənədlərdən və təcrübələrdən əldə edilən əsas məlumatlar toplanılır, kompüterə daxil edilir, sistemləşdirilir və emala göndərilir. Emaldan sonra alınmış nəticələr çıxış qurğularına və ya informasiya daşıyıcılarına ötürülür [8, s.135].

Hazırda informasiya sistemləri kompüter texnikası ilə idarə olunmaqla informasiyanın dəqiqliyinin təmin edilməsinə, kağız daşıyıcılarının maqnit daşıyıcıları ilə əvəz olunmasına, xidmətlərə xərclərin azaldılmasına, idarəetmə məsələlərində səmərəli nəticələrin alınmasına şərait yaradır. Bu sistemi qurmaq və ondan istifadə etmək üçün də istifadəçi sistemin strukturunu, təşkilatın siyasət və funksiyalarını, idarəetmənin məqsədini, standart üsullarını bilməlidir [5, s.262].

İnformasiya proseslərini emal etmək və kompüterdə informasiyanı qoruyub saxlamaq üçün informasiya sistemi olaraq *verilənlər bazasından (VB)* istifadə olunur. VB (*ingiliscə* ***Data Base*** *sözündən götürülmüşdür*) - verilənlərin nizamlı yığımı olub, onlardan istifadəni asanlaşdırır. İstifadəçilərin informasiya tələbatlarının tam və dəqiq əks etdirilməsi, onların sorğularına ətraflı və dolğun cavab verilməsi VB-nin əsas konsepsiyası hesab olunur. Daha doğrusu, VB - yaddaşda saxlanılan, istifadəçilər tərəfindən müxtəlif məqsədlər üçün istifadə olunan, bir-birilə əlaqələndirilmiş, mərkəzləşdirilmiş idarə olunan məlumatlar yığımını xarakterizə edir. Onların yaradılmasında əsas məqsəd - yaddaş sərfini azaltmaq üçün saxlanılan verilənlərdə təkrarlanmaların aradan qaldırılması, verilənlərdən müxtəlif sorğularda və müxtəlif məqsədlərdə istifadə oluna bilməsi, verilənlərin təhlükəsizliyinin təmin edilməsi, icazəsiz müraciətin qarşısının alınması, sistemdə qəza baş verdikdə verilənlərin itkisiz bərpa olunması, optimallaşdırma imkanının olması, xərclərin minimumlaşdırılması və sairdir [3, s.244].

VB-ni yaradarkən istifadəçi lazım olan məlumatları düzgün seçməlidir ki, növbəti mərhələlərdə bu məlumatlarla işləmək problem yaratmasın. Onun yaradılması məqsədindən asılı olaraq obyekt haqqında olan informasiyanın elementləri, yəni verilənlər müəyyən olunur. Burada isə verilənlərin seçilməsi, əlavə edilməsi, dəyişdirilməsi, axtarılması və kənarlaşdırılması böyük rol oynayır [2, s.150].

VB üzərində baş verən proseslərin və verilənlərin mübadiləsini tətbiqi proqramların köməyi ilə həyata keçirmək mümkündür.



Sxemdən görünür ki, terminal istifadəçisi verilənləri VB-dən almaq üçün sorğu formalaşdırır, tətbiqi proqram isə sorğunu formal şəklə salıb VBİS-ə müraciət edir, VBİS də öz növbəsində tələb olunan verilənlərin yerini təyin edərək, əldə etmək üçün ƏS-ə müraciət edir. ƏS-də fayl sisteminin proqramları verilənləri xarici yaddaşdan oxuyur, VBİS-in sistem buferlərinə yerləşdirir. Burada alınan verilənlər tələb olunan formata çevrilərək tətbiqi proqramın uyğyn sahəsinə köçürülür və sonda tətbiqi proqram VB-dən seçilən verilənləri istifadəçinin terminalında əks etdirir [2, s.145].


Verilənlər bazasında informasiya emalı prosesinin operativliyini və keyfiyyətini təmin etmək üçün proqram vasitələrindən - *verilənlər bazasının idarəolunması sistemlərindən (VBİS)* geniş istifadə olunur. VBİS-lərə aiddir: Paradox, dBase, FoxPro, Microsoft Access, Microsoft SQL Server, Oracle və s. Bu sistemlərin əsas iş prinsipi verilənlər bazasının strukturunu yaratmaq, bazanı verilənlərlə doldurmaq, bazada olan verilənləri redaktə etmək, verilənləri seçmək, nizamlamaq, tələb olunan şəkildə tərtib etmək, ötürməkdən ibarətdir [8, s.139].

VBİS-lər verilənlərin təşkili üsullarından asılı olaraq üç modeli dəstəkləyir:

1. İyerarxik modelli VBİS;


2. Şəbəkə modelli VBİS;
3. Relyasiya modelli VBİS.

İyerarxik modeldə verilənlər və onlar arasında əlaqələr ağacvarı struktura malikdir.



Bu modeldə düyünlər mahiyyəti, budaqlar isə mahiyyətlər arasında əlaqələri əks etdirir. Əlaqələr funksional xarakterli olub, birin birə (1:1), birin çoxa (1:M) və çoxun birə (M:1) prinsipi ilə yaradılır. Belə tip modellərin sayı çox deyil və onlara PC/FOCUS, TEAM-UP, DATA EDGE sistemlərini misal göstərmək olar.

Şəbəkə modelində də verilənlər ixtiyari ağac şəklində təsvir olunur, lakin 1:1, 1:M və M:1 əlaqələri ilə yanaşı çoxun çoxa (M:N) əlaqələrini də qurmaq mümkündür.



Bu modelli VBİS-lərə MARK-I, MARK-II, İDNS, TOTAL, ADABAS, SETOP sistemləri aiddir [3, s.308].

Ən çox müraciət olunan relyasiya modeli verilənlərin nisbətlər *(nisbət-ingiliscə "relation" sözündəndir)* şəklində təsvirinə və cədvəl formasında ifadə olunmasına əsaslanır. Bu model bütün növ əlaqələrin reallaşdırılmasına imkan verir. VB-nin mərkəzi obyekti **cədvəldir.**

№	Soyad	Ad	Vəzifə	Staj
1	Əliyev	Araz	Mühəndis	8
2	Məmmədov	Cavid	Texnoloq	15
3	Hüseynov	Rəşad	Operator	9

Cədvəl sətir və sütunlardan ibarətdir. Cədvəlin hər bir sətri (yazısı) özündə bir obyekt haqqında informasiyanı saxlayır, hər bir sütunu (sahəsi) isə obyektin bir xarakteristikasını müəyyən edir. Relyasiya modelli bu VBİS-lərə daha çox müraciət olunur: DBASE, FOXPRO, CLARION, PARADOX, İNQRES, ACCESS, ORACLE [7, s.270].

VBİS-lərdə obyekt və ya müəssisə üçün tələb olunan informasiyalar toplanır. Məsələn, hər bir dövlətdə onun vətəndaşları haqqında olan məlumatlar *(soyad, ad, atasının adı, doğulduğu yer, təvəllüd, ailə vəziyyəti, hərbi vəzifəsi, qan qrupu, gözlərinin rəngi, cinsi, boyu, yaşayış yeri, vəsiqəni verən orqanın adı, vəsiqənin verilmə tarixi*) böyük həcmli VB-lərdə saxlanılır [6, s.138].

Verilənlər bazasının yaradılması iki mərhələdən ibarətdir:

- layihələndirmə mərhələsi;
- istismar və ya istifadəçi mərhələsi.

Layihələndirmə mərhələsində baza yaradıcıları informasiyanın tərkibini öyrənərək cədvəllərin strukturunu, cədvəllərarası əlaqəni, bazaya aid sorğuları, formaları, hesabatları müəyyənləşdirirlər.

İstismar və ya istifadəçi mərhələsində bazaya formaların köməyilə informasiya doldurulur, sorğular vasitəsilə verilənlərin emalı və lazım olan nəticənin hesabatlar şəklində alınması icra olunur [1, s.366].

VB-nin yaradılması və istifadəsi ilə bağlı işləri idarə etmək üçün ali təhsil müəssisəsində təhsil alan tələbələrin bazasına Microsoft firması tərəfindən hazırlanmış MS Access baza redaktorunun nümunəsində baxaq.

MS Access proqramı ilə işə başlamaq üçün bu əmrlər ardıcılığı icra olunur:

Start /All Proqrams /Microsoft Office /Microsoft Office Access

Açılan pəncərədə ***Greate a new file(Yeni fayl yaratmaq)*** düyməsi basılır. Ekranda görünən ***New file (Yeni fayl)*** panelindən ***Blank database (Verilənlər bazası vərəqi)*** bəndi seçilməklə yaradılacaq verilənlər bazasına ad verilir *(məsələn, **"aəsma")***. Baza ilə iş cədvəllərin yaradılması ilə başlayır. Cədvəl yaratmaq üçün:

Database /Tables /Greate in Design view /Open

əmrləri yerinə yetirilir və yeni ***Table 1*** vərəqi açılır:

Field Name	Data Type	Description
ID	AutoNumber	

Vərəqdə görünən cədvəlin *Field Name (Ad sahəsi)* sütununa sahənin adlarını, yəni tələbələrin göstəricilərini *(soyad, ad, atasının adı, doğulduğu yer, təvəllüd, yaşayış yeri, imtahan balı, əlaqə telefonu və s.), Data Type(Verilənlər tipi)* sütununa göstəricilərin tiplərini *(text, number, data/time və s.), Description (Təsvir)* sütununa isə bu göstəricilərin simvollarının maksimal sayını ədədlə daxil edib, *Datasheet View(Cədvəl rejimi)* əmri seçilir. Bu zaman yaradılacaq cədvəlin strukturu ekranda əks olunur. Burada cədvəlin sütun başlıqları üzrə tələb olunan məlumatlar daxil edilir və cədvəl doldurulur.


Table1

ID soyad	ad	atasının adı	doğulduğu ye	təvəllüd	yaşayış yeri	imtahan balı	əlaqə telefonu
Adullayeva	Nərgiz	Rasim	Quba	25.09.1999	Bakı	247	6154879
Babayeva	Nərmin	İsmayıl	Şəki	10.01.1999	Bakı	452	4225648
Əliyev	Vasif	Hüseyn	Bakı	25.12.1999	Bakı	255	5551236
Əlizadə	Günel	Kənan	Bakı	08.03.2000	Bakı	258	9812456
Heydərova	Səbinə	Əhliman	bakı	14.06.1999	Bakı	211	6712453
Hüseynov	Ruslan	Vaqif	Lənkəran	29.07.1999	Bakı	305	3335789
Məmmədmov	Əhməd	Rəşadət	Bakı	12.05.1998	Bakı	213	4441258
Nəsirli	Səid	Rəcəb	Sabirababd	11.05.1998	Bakı	269	6786325
Orucov	Ayhan	İbrahim	Göyçay	17.02.1998	Bakı	246	6654789
Rəcəbov	Bəhram	Əsgər	Zaqatala	04.12.1996	Bakı	356	3812459

Baza cədvəllərinə müxtəlif rejimlərdə baxmaq üçün *formalardan* istifadə olunur.



Baza cədvəlindən müəyyən informasiyanı *axtarıb tapmaq* mümkündür. Bunun üçün əvvəlcə cədvəlin hər hansı bir sütunu*(məsələn, "doğulduğu yer" sütunu)*qeyd olunur, *sonra* Access proqramının **Home (Əsas)** /***Find (Axtarış)*** əmri aktiv edilir, açılan ***Find and Replace (Axtarış və Əvəzetmə)*** pəncərəsinin *Find What (Nümunə)* sətrinə istənilən yeri *(məsələn, Şəki)* daxil edib, *Find Next (Növbətisini tapmaq)* düyməsi basılır.



Şəkildən göründüyü kimi, aşağıdakı paneldə "2 of 10" yazısı görünür. Bu, o deməkdir ki, verilmiş 10 nəfərlik siyahıda doğulduğu yer "Şəki" olan tələbə 2-ci sıradadır.

Baza cədvəlində *çeşidləmə* əməliyyatının aparılması vacib əməliyyatlardan biridir. Yəni, verilmiş siyahıda hər hansı sütunda dəyişiklik etmək lazım olarsa, onda ***Sort and Filter (Çeşid və Filtr)*** bölməsindən müvafiq variant seçilir. Məsələn, tələbələrin siyahısını imtahan ballarına görə çoxdan aza düzmək istəyiriksə, onda əvvəlcə "imtahan balı" sütunu qeyd edilir, sonra **Descending (Azalma)** variantı seçilir və cədvəl aşağıdakı kimi dəyişmiş olur:

Table2 | Table1 | **Table1** | Form1

ID soyad	ad	atasının adı	doğilduğu ye	təvəllüd	yaşayış yeri	imtahan balı	əlaqə telefonu
Babayeva	Nərmin	İsmayıl	Şəki	10.01.1999	Bakı	452	4225648
Rəcəbov	Bəhram	Əsgər	Zaqatala	04.12.1996	Bakı	356	3812459
Hüseynov	Ruslan	Vaqif	Lənkəran	29.07.1999	Bakı	305	3335789
Nəsirli	Səid	Rəcəb	Sabirababd	11.05.1998	Bakı	269	6786325
Əlizadə	Günel	Kənan	Bakı	08.03.2000	Bakı	258	9812456
Əliyev	Vasif	Hüseyn	Bakı	25.12.1999	Bakı	255	5551236
Adullayeva	Nərgiz	Rasim	Quba	25.09.1999	Bakı	247	6154879
Orucov	Ayhan	İbrahim	Göyçay	17.02.1998	Bakı	246	6654789
Məmmədmov	Əhməd	Rəşadət	Bakı	12.05.1998	Bakı	213	4441258
Heydərova	Səbinə	Əhliman	bakı	14.06.1999	Bakı	211	6712453
*							

Baza cədvəlində müəyyən şərtləri ödəyən siyahını ayırmaq da mümkündür. Bu, *filtrləmə* əməliyyatı ilə icra olunur. Məsələn, imtahan balları "300"-dən yuxarı olan tələbələrin siyahısı tələb olunarsa, onda

Sort and Filter /Filter /Number Filters /Greater Than...

əmrlər ardıcıllığı ilə açılan paneldə boş sətrə "300" daxil edilir və **OK** düyməsi sıxılır, cədvəl aşağıdakı kimi görünür:

Table2 | Table1 | **Table1** | Form1

ID soyad	ad	atasının adı	doğilduğu ye	təvəllüd	yaşayış yeri	imtahan balı	əlaqə telefonu
Babayeva	Nərmin	İsmayıl	Şəki	10.01.1999	Bakı	452	4225648
Rəcəbov	Bəhram	Əsgər	Zaqatala	04.12.1996	Bakı	356	3812459
Hüseynov	Ruslan	Vaqif	Lənkəran	29.07.1999	Bakı	305	3335789

Ümimiyyətlə, MS Access baza proqramı obyektlərin vizual layihələndirilməsi üçün əlverişli vasitələrlə informasiya sistemi yaratmaq və onunla işləmək imkanı verir.

Çox imkanlı əməliyyat sistemləri, kompüter texnikasının müasir inkişaf səviyyəsi, VB-lərlə işləmək üçün zəngin və geniş imkanlı proqram təminatının olması informasiya sisteminin tətbiqi üçün zəmin yaradır. Belə informasiya sistemləri, o cümlədən verilənlər bazasının idarəetmə sistemləri istifadəçinin informasiya tələblərini tam təmin etməklə informasiya modelini müəyyənləşdirir.

Açar sözlər: İnformasiya Texnologiyaları, informasiya sistemləri, verilənlər bazası, verilənlər bazasının idarə olunması sistemləri, şəbəkə və relyasiya modelləri, MS Access proqramı

İstifadə edilmiş ədəbiyyat

1. Cəfərov N.D., Rəhimova N.Ə. İnformatika üzrə praktikum. Dərs vəsaiti. Bakı: 2009
2. Hümbətəliyev R., Tağıyev H., Quliyeva F. İqtisadi informatikanın əsasları. Dərslik. Bakı: Kooperasiya nəşriyyatı, 2014, 336 s.
3. Xəlilov M.S. İnformatika. Dərslik. Bakı: 2011, 331 s.
4. Kərimov S.Q. İnformasiya sistemləri. Bakı: Elm, 2008, 676 s.
5. Mehdiyev M.M. Ümumi informatikadan praktikum. Dərs vəsaiti. Bakı: 2009, 396 s.
6. Məmmədova Ə., Səfərova S. İqtisadiyyatda informasiya sistemləri. Bakı: 2011
7. Salmanova M.Ə., Əlizadə M.N. İnformatikanın əsasları. Bakı: Biznes Universiteti nəşriyyatı, 2013, 380 s.
8. Umarova N.Ə. İnformatika. Dərslik. Bakı: 2015, 247 s.

Тарана Велиева

БАЗА ДАННЫХ КАК СОСТАВНАЯ ЧАСТЬ ИНФОРМАЦИОННОЙ СИСТЕМЫ

Резюме

В статье анализируются принципы управления информирования систем база данных, информационные системы для обработки информации. Здесь отмечается, что существует 3 принципа информационной технологии, такие как формирование отношений с помощью компьютера в интерактивном режиме, интеграция программных обеспечений, активное выполнение процесса и данных. В то же время дается информация о базе данных, рассматриваются модели формирования УСБД, дается практический пример для формирования БД.

Ключевые слова: Информационные технологии, информационные системы, база данных, система управления, сетевой и реляционные модели, MS Access программы.

Tarana Valiyeva

DATABASE AS THE MAIN PART OF INFORMATION SYSTEMS

Summary

The article analyzes the principles of database management systems (DBMS) and information systems for information processing. 3 main principles of information technology are noted as formation of relations with computer in an interactive regime, integration of software security, active implementation of the process and data. At the same time, the article gives information about the database, interprets formation models of DBMS and practical example for the formation of DB.

Keywords: Information technology, information systems, database, management systems, network and relational models, MS Access program

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 1 (07), 2017

Redaktorlar:

Gülnarə Hacıyeva, Qızılgül Əlimirzəyeva

Kompüter tərtibatı:

Pərvanə Məcidova

Dizayn:

Mail Xəlilov

Yığılmağa verilib: 17.07.2017
Çapa imzalanıb: 07.08.2017
Format: 70x100 16/1
8 ş.ç.v
Tiraj: 100

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının mətbəəsi